Azərbaycan Respublikası Təhsil Nazirliyi

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Təhsil İnstitutu
Azərbaycan Respublikasının Təhsil İnstitutu

İxtisasın adı: İbtidai sinif müəllimliyi



# TƏLİM VƏ TƏRBİYƏ PROSESİNİN HƏYATA KEÇİRİLMƏSİ

Bakı 2020

Bu modul dərs vəsaiti Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyini dəstəkləmək üçün "Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək" (EuropeAid/138339/DH/SER/AZ) layihəsi tərəfindən hazırlanmışdır. Modulda ifadə olunan fikirlər və məlumatlara görə Avropa İttifaqı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutu məsuliyyət daşımır.

Modul dərs vəsaiti müvafiq təhsil proqramları (kurikulumlar) üzrə bilik və bacarıqların verilməsi məqsədilə hazırlanmışdır və ali təhsil səviyyəsində müvafiq modulların tədrisi üçün tövsiyə edilir. Modul dərs vəsaitinin istifadəsi ödənişsizdir və kommersiya məqsədi ilə satışı qadağandır.

**Müəlliflər:** Həqiqət Hacıyeva, Aytən Bayramova

**Modul üzrə məsləhətçi:** Mehparə Əhmədova

© Bakı – 2020
Modulda ifadə olunan fikirlər müəllifə aiddir, istifadə olunmuş fotolar açıq mənbələrdən götürülmüşdür. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması modul müəlliflərinin məsuliyyətidir.

# MÜNDƏRİCAT


**ƏSAS ANLAYIŞLAR** ..... **8**

**GİRİŞ** ..... **20**

**MODULUN SPESİFİKASİYASI** ..... **21**

**TƏLİM NƏTİCƏSİ 1: TƏLİM PROSESİNİ HƏYATA KEÇİRMƏK** ..... **23**

1.1. Dərsin məqsədinə çatma yollarını təsvir edir ..... 24

1.1.1. Dərsin düzgün panlaşdırılması məqsədə çatmağın əsası kimi ..... 24

1.1.2. Dərsin məqsədinə çatmağın yolları ..... 28

Tələbələr üçün fəaliyyətlər ..... 30

Qiymətləndirmə ..... 31

1.2. Cari plana uyğun dərsi təşkil edir ..... 33

1.2.1. Təlimin cari planı üzrə işin təşkili ..... 33

Tələbələr üçün fəaliyyətlər ..... 38

Qiymətləndirmə ..... 39

1.3. Təlim prosesində müxtəlif forma, üsul və vasitələrdən istifadə edir ..... 40

1.3.1. Təlim metodları ..... 40

1.3.2. Təlimin təşkili forması ..... 42

1.3.3. Təlim vasitələri ..... 43

Tələbələr üçün fəaliyyətlər ..... 46

Qiymətləndirmə ..... 47

1.4. Təlim zamanı interaktivliyi və inteqrativliyin xüsusiyyətlərini izah edir ..... 48

1.4.1. İnteraktiv təlimin xüsusiyyətləri ..... 48

1.4.2. Təlimdə inteqrativliyin xüsusiyyətləri ..... 51

Tələbələr üçün fəaliyyətlər ..... 54

Qiymətləndirmə ..... 55

1.5. Qeyri-standart təlim formalarını mövzuya uyğun tətbiq edir ..... 56

1.5.1. Qeyri-standart təlim formalarının tətbiqi ..... 56

Tələbələr üçün fəaliyyətlər ..... 63

Qiymətləndirmə ..... 64

1.6. Təlim prosesində oyun texnikalarını tətbiq edir ..... 65

1.6.1. Təlimlə bağlı oyun texnikaları və onların tətbiqi ... 65
1.6.2. İbtidai siniflərdə daha çox tətbiq olunan oyun texnikaları ... 67
Tələbələr üçün fəaliyyətlər ... 72
Qiymətləndirmə ... 73
1.7. Tədrisdə diferensial yanaşmanın tətbiqi yollarının əhəmiyyətini izah edir ... 75
1.7.1. Tədris prosesində diferensial yanaşmanın tətbiqi yolları ... 75
Tələbələr üçün fəaliyyətlər ... 82
Qiymətləndirmə ... 85
**TƏLİM NƏTİCƏSİ 2: TƏRBİYƏ PROSESİNİ HƏYATA KEÇİRMƏK ... 87**
2.1. Tədrisdənkənar tədbirlərin təşkili metodlarını izah edir ... 88
2.1.1. Məktəbdənkənar tədbirlərin təşkili ... 88
Tələbələr üçün fəaliyyətlər ... 95
Qiymətləndirmə ... 96
2.2. Nizam-intizam qaydalarının mahiyyətini izah edir ... 98
2.2.1. Nizam-intizam qaydaları ... 98
Tələbələr üçün fəaliyyətlər ... 105
Qiymətləndirmə ... 106
2.3. Tərbiyə prosesinin səmərəli təşkilində metodları tətbiq edir ... 107
2.3.1. Tərbiyə prosesində metodların tətbiqi ... 107
Tələbələr üçün fəaliyyətlər ... 114
Qiymətləndirmə ... 115
2.4. Tərbiyə prinsiplərinin nəzərə alınmasının vacibliyini əsaslandırır ... 117
2.4.1. Tərbiyə prinsiplərinin vacibliyi ... 117
2.4.2. Tərbiyənin prinsipləri və onların nəzərə alınması ... 117
Tələbələr üçün fəaliyyətlər ... 122
Qiymətləndirmə ... 123
2.5. İctimai yerlərdə davranış qaydalarını izah edir ... 124
2.5.1. İctimai yerlərdə davranış qaydaları ... 124
1.5.2. Məktəblilərdə düzgün davranışın formalaşdırılması ... 130
Tələbələr üçün fəaliyyətlər ... 133
Qiymətləndirmə ... 134
**TƏLİM NƏTİCƏSİ 3: QİYMƏTLƏNDİRMƏ PROSESİNİ HƏYATA KEÇİRMƏK ... 135**

3.1. Müasir məktəbdaxili qiymətləndirmənin forma və vasitələrini izah edir ..... 136
3.1.1. Məktəbdaxili qiymətləndirmənin formaları ..... 136
Tələbələr üçün fəaliyyətlər ..... 143
Qiymətləndirmə ..... 144
3.2. Şagirdlərin bilik və bacarıq səviyyəsinin diaqnostik qiymətləndirilməsini aparır ..... 145
3.2.1. Diaqnostik qiymətləndirmə ..... 145
Tələbələr üçün fəaliyyətlər ..... 151
Qiymətləndirmə ..... 152
3.3. Formativ qiymətləndirməni qaydalara müvafiq tətbiq edir ..... 154
3.3.1. Formativ qiymətləndirmənin tədrisdə tətbiqi ..... 154
Tələbələr üçün fəaliyyətlər ..... 159
Qiymətləndirmə ..... 160
3.4. Summativ qiymətləndirməni forma, üsul və vasitələrinə uyğun tətbiq edir ..... 162
3.4.1. Summativ qiymətləndirmə formaları ..... 162
3.4.2. Summativ qiymətləndirmənin üsul və vasitələri ..... 165
Tələbələr üçün fəaliyyətlər ..... 168
Qiymətləndirmə ..... 169
3.5. Qiymətləndirmə nəticələrini müxtəlif metodlarla təhlil edir ..... 171
3.5.1. Tədrisdə qiymətləndirmə nəticələrinin səviyyələr üzrə təhlili ..... 171
Tələbələr üçün fəaliyyətlər ..... 176
Qiymətləndirmə ..... 177
**CAVABLAR ..... 178**
**ƏDƏBİYYAT SİYAHISI ..... 179**

## ƏSAS ANLAYIŞLAR

**Alternativ qiymətləndirmə –** yazılı və şifahi imtahanlarda ənənəvi qiymətləndirmə ilə yanaşı tətbiq edilir. Şagird (tələbə) qarşısında qeyri-müəyyən sualları cavablandırmaq, qeyri-müəyyən probelmləri həll etmək, müxtəlif üsullarla təcrübi bacarıq və qabiliyyətlərin nümayiş etdirmək tələbinin qoyulmasıdır.

**Analitik qiymətləndirmə –** şagird (tələbə) fəaliyyətinin bir-birindən asılı olmayan müxtəlif göstəricilər üzrə qiymətləndirilməsi. Ümumi təəssürata əsaslanan qiymətləndirmədən fərqli olaraq, analitik qiymətləndirmə üsulunda ballar hər bir göstərici üzrə ayrıca hesablanır. Məsələn, ədəbiyyat dərsində yazılan inşanın balları aşağıdakı göstəricilərə əsasən hesablana bilər: əvvəllər qazanılmış biliklərdən istifadə səviyyəsi, inşa yazısının ümumi prinsipinə riayət edilməsi, öz fikrini əsaslandırmaq məqsədilə ilkin mənbələrdən olan materiallardan istifadə və struktur-tərtibat kompozisiya.

**Anlama –** mənimsəmə prosesinin tərkib elementi olub, müvafiq anlayış və təsəvvürlərin yaradılmasına xidmət göstərir.

**Bilik –** düşüncə ilə bağlı idrak fəaliyyəti; psixikanın dərketmə bacarığına xas olan çeviklik, dəqiqlik, düzgünlük, dərinlik, yaradıcılıq və s. kimi ümumiləşmiş xüsusiyytələri əhatə edir.

**Bacarıq –** fəaliyyətdə olan bilikdir, öyrənilənlərin təcrübəyə tətbiqi üsul və priyomlarına yiyələnməyi nəzərdə tutur və qazanılmış bilikləri tətbiq edə bilmək səriştəsidir.

**Blum taksonomiyası –** bilik, anlama, tətbiq etmə, təhlil, sintez və dəyrələndirmə kimi dərktemə proseslərinin iyerarxasiyasını təsvir etmək üçün Benjamin Blum tərəfindən təklif edilmiş ardıcıl nizamlanmış sxemdir.

**Cinsi tərbiyə –** oğlan və qızların mənəvi mədəniyyətə yiyələnmələri prosesi olub cinslərin qarşılıqlı münasibətləri ilə bağlı onlarda əxlaq normalarını rəhbər tutmaq tələbatının formalaşdırılmışdır.

**Fiziki tərbiyə –** tərbiyəçinin (*valideynin, müəllimin)* rəhbərliyi altında uşağın (*şagirdin*) sağlamlığını möhkəmləndirmək, çevikliyini və gümrahlığını təmin etmək, onun fiziki qüvvələrini və keyfiyyətlərini məqsədyönlü və sistemli olaraq formalaşdırmaq, gənc nəsli fiziki və əqli əməyə, Vətənin müdafiəsinə hazırlamaq üzrə məqsədyönlü tərbiyə.

**Fərdi yanaşma –** hər şagirdin xarakterinə uyğun davranma.

**Fəaliyyətə əsaslanan qiymətləndirmə –** birbaşa, sistemli müşahidənin nəticələri. Nəzəri biliklərə əsaslanan qiymətləndirmədən fərqli olaraq, şagirdin (tələbənin) fəaliyyətinin qiymətləndirmək üçün müəyyən vaxt müddətində aparılan müşahidə onun əməli vərdiş və bacarıqlarına yönəldilir.

**Davranış mədəniyyəti –** şagirdin öz hərəkət və əməllərində, rəftar tərzində, ətrafdakı insanlarla qarşılıqlı münasibətlərində, nitq və ünsiyyətində ölçü, nəzakət və mərifət.

**Deduksiya** (lat: ***nəticə)* –** ümumi faktlardan xüsusiyə doğru aparan əqli nəticə.

**Demonstrasiya –** əşya, predmet və hadisələrin dinamikada **(*hərəkətdə*)** göstərilməsi.

**Dərs –** müəllimin rəhbərliyi altında sabit şagird kollektivi ilə, cədvələ əsasən, müəyyən vaxt ərzində, fənn proqramına uyğun, təlimin müxtəlif prinsip və metodlarını tətbiq etməklə sinif şəraitində keçirilən kollektiv məşğələ növüdür. Təlim, öyrətmə və öyrənmə prosesi, tədris işi. Müəllim konkret zaman daxilində siniflə konkret fənn üzrə məşğul olur. İstifadə olunan vasitələrdən asılı olaraq, dərsin mühazirə, açıq, izahlı, virtual dərs və s. kimi müxtəlif növləri tətbiq edilir.

**Dərsin planı –** dərs zamanı vaxtını düzgün bölüşdürə bilmək üçün müəllimlə şagird arasında qarşılıqlı münasibətin planlaşdırılması. Müəllimin tədris materialını şagirdlərə çatdıra bilməsi üçün məqsədlər, tapşırıqlar, prinsiplər, metodlardan istifadə etmək və sair kimi amillər dərsin planlaşdırılmasının əsasını təşkil edir.

**Dərslik –** təhsilin müxtəlif pillələr və sahələrində istifadə edilən təlim-tədris vəsaiti.

**Diaqnostik test –** güclü, yaxud zəif cəhətlərin müəyyənləşdirilməsi və təhlili üçün tətbiq olunan test. Təhsildə problemləri olan şagirdlərin (tələbələrin) müəyyənləşdirilməsi məqsədi güdən diaqnostik testin nəticələrinə əsaslanaraq problemin aradan qaldırılması istiqamətində təbdirlər görülür.

**Dünyagörüş –** dünya və onun qanunauyğunluqlarına, təbiət və cəmiyyət hadisələrinə, təfəkkürə aid bilik və baxışlar, təsəvvürlər sistemidir.

**Effektivlik –** öyrənən tərəfin təlimə olan ehtiyacını müsbət təsirlərlə təmin edən məktəb, müəllim, tədris vəsaitləri və s. aid ümumi əlamət.

**Ehtiyacların qiymətləndirilməsi –** xüsusi vəziyyətdə məqsəd və vəzifələrin əlaqəli şəkildə dəyərləndirilməsi; məqsədlərin çatışmayan cəhət və mümkün dəyişikliklərin əlaqəli təhlili.

**Eksperiment** (lat: ***eksperimentum* –** sınaq, təcrübə, sübut) - elmi **(*pedaqoji*)** ideyanın, iş metodunun, yaxud priyomunun səmərəliliyini aydınlaşdırmaq üçün xüsusi təşkil olunmuş yoxlamadır. Tədqiqatçı eksperimentin gedişi zamanı sadəcə hadisələrin passiv müşahidəçisi olmayıb, onların təbii gedişinə məqsədəuyğun, planlı və şüurlu surətdə müdaxilə edərək, buna öyrənilən pedaqoji prosesə ya bilavasitə təsir etməklə, yaxud proseslərin baş verdiyi real şəraiti dəyişməklə nail olur.

**Ekskursiya –** şagidrlərin (tələbələrin) fənn üzrə təcrübi bacarıqlarının inkişafı məqsədilə keçirilən məktəbdənkənar təcrübi fəaliyyət.

**Evristik müsahibə –** pedaqoji metod olub, verilmiş suallara cavab olaraq məktəblilərin bir vaxt mənimsədikləri bilikləri yada salmaqla müstəqil nəticələrə gəlməyə, bu və ya digər qayda, qanun və qanunauyğunluqları sərbəst şəkildə müəyyənləşdirməyə kömək göstərir.

**Ekoloji tərbiyə –** təbiət və cəmiyyətin qarşılıqlı münasibətlərinin tənzimlənməsi istiqamətlərindən biri olub, ekoloji şüurun, ekoloji təfəkkürün və ekoloji mədəniyyətin formalaşdırılması, məktəblilərdə təbiətə qayğıkeş münasibət göstərmək tələbatının yaradılması üzrə müəllimin (tərbiyəçinin) məqsədəuyğun, sistemli, planlı və fasiləsiz işidir. Ekoloji təribyə təbiətə münasibət mədənyiyətinin göstəricisidir.

**Esse (kiçik inşa testi) –** imtahan iştirakçılarından suallara yazılı formada cavab verməyi tələb edən test. Cavablar qısa, yaxud geniş formada ola bilər. Yazılı test tapşırıqları fikri ifadə etmək, həmçinin fənn üzrə bilikləri tətbiq etmək bacarığını, məlumatı təşkil və təqdim etmək, öz fikir və nöqteyi-nəzərini ifadə etmək, orijinal yazı yazmaq kimi bacarıqları yoxlamaq məqsədi güdür.

**Estetik tərbiyə –** şəxsiyyətin estetik inkişafına nail olmağa, estetik şüurunu və mədəniyyətinin formalaşdırmağa, insanda, həyatda, incəsənətdə gözəlliyi və ülviliyi görmək, duymaq, qavramaq, düzgün başa düşmək, sevmək, qiymətləndirmək və yaratmaq bacarığının əldə olunmasına və təkmilləşdiriləmsinə yönəldilmiş tədbirlər sistemidir.

**Etika** (yunanca: *ethos* sözündən olub, adət, xarakter deməkdir) **–** əxlaq haqqında təlim.

**Etibarlılıq (qiymətləndirmə) –** qiymətləndirmə nəticələrinin asılı olduğu bilik və bacarıq səviyyəsinin dəqiq müəyyən edilməsi. Etibarsız sayılan qiymətləndirmə həqiqi hesab edilə bilməz.

**Ədalət prinsipi –** təhsildə hamı üçün ədalətli, azad təhsil siyasəti və təcrübəsi, dil, din, etnik mənsubiyyət, cins, yaş və s. kimi amillərdən asılı olmayaraq bərabər imkanların yaradılması və təminatı.

**Əxlaq –** insanların əməyə, bir-birinə, ailəyə, cəmiyyətə, dövlətə olan münasibətlərini müəyyən edən və tarixən təşəkkül tapmış davranış normaları.

**Əqli *(zehni)* tərbiyə –** gənc nəslin təfəkkürünü və ağlını inkişaf etdirmək, onda zehni mədəniyyəti formalaşdırmaq üçün müəllim *(tərbiyəçi)* tərəfindən sistemli, məqsədyönlü, planlı, ardıcıl və fasiləsiz şəkildə həyata keçirilən pedaqoji təsirlər sistemi.

**Fəal (interaktiv) təlim –** tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur. Şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlim.

**Fəaliyyət –** dedikdə, şagirdin dərk edərək nizamlanan daxili **(*psixi*)** və xarici **(*fiziki*)** fəallığı başa düşülməlidir.

**Formativ qiymətləndirmə –** müəllimin şagirdin (tələbənin) güclü və zəif cəhətlərini müəyyən etməklə onun şəxsiyyət və xasiyyətinin inkişafı üçün apardığı ən əhəmiyyətli və yaradıcı qiymətləndirmə forması.

**Hesablama meyarları –** şagirdin tapşırığa verdiyi cavabı xarakterizə etmək üçün ona verilən qiymətin hesablanma qaydaları. Hesablama meyarları qiymətləndirmə şkalalarını, nəzarət-yoxlama cədvəllərini, suallara düzgün cavbaları və s. bu kimi qiymətləndirmə vasitələrini özündə birləşdirə bilər.

**Həqiqi qiymət –** tam uyğun olan çoxlu sayda testlərin keçirilməsi zamanı verilən orta qiymət.

**Holistik qiymətləndirmə –** təlim prosesində məqsədlərə görə müəyyən olunmuş bacarıqların ayrı-ayrılıqda qiymətləndirilməsi yolu ilə şagirdin inkişaf səviyyəsinin qısa

müddətdə ümumi şəkildə dəyərləndirilməsi.

**İbtidai təhsil müəssisəsi –** 5-7 yaşından 8-10 yaşına qədər olan şagirdlər üçün nəzərdə tutulmuş təhsil müəssisəsi. Təhsil sistemləri arasındakı müxtəlif cəhətlərdən asılı olaraq ayrı-ayrı ölkələrdə ibtidai məktəblər fərqli ola bilər. İbtidai məktəb, əsasən, 6-8 sinifdən ibarət olur. Aşağı ibtidai siniflərdə tədris sinif müəllimləri, yuxarı ibtidai siniflərdə isə fənn müəllimləri tərəfindən həyata keçirilir.

**İlkin qiymət –** düzgün cavablandırılan test tapşırıqlarının, yaxud toplanılan balların sayına görə imtahan edilən şəxsə verilən ilkin qiymət.

**İllüstrasiya –** dərs prosesində (sinifdə) şəkil, sxem, model və ya əşyanın nümayiş etdirilməsidir. İllüstrasiya əşya və predmetik statik (donuq, yəni dəyişmədən) göstərilməsidir.

**İnklüziv təhsil –** sağlamlığından, bacarığından, ailə vəziyyətindən, irqindən, dinindən asılı olmayaraq bütün uşaqların təhsil prosesində və həyatda bərabərhüquqlu iştirakını təmin edən təhsil növü. Bu təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqların nəinki sağlam həmyaşıdları ilə birlikdə təhsil almasına, həm də onların ümumi inkiaşfına, öz fiziki imkanlarına, inamına, psixoloji maneələrin öhdəsindən gəlmələrinə yardım göstərir.

**İqtisadi tərbiyə –** şagirdlərin iqtisadi biliklərə sistemli şəkildə yiyələnmələri, onlarda iqtisadi şüur və təfəkkürün, iqtisadi mədəniyyətin yaradılması, mənəvi prinsip və normalara uyğun olaraq təsərrüfatçılıq bacarıq və vərdişlərinin, tələbatlarının formalaşdırılması üzrə məqsədyönlü fəaliyyətdir.

**İnnovasiya –** müxtəlif təşəbbüs və elmi tədqiqatlar əsasında formalaşan mütərəqqi xarakterli səmərəli yenilik və ixtiralar.

**İnteraktiv bacarıqlar –** qarşılıqlı ünsiyyətə əsaslanan interaktiv bacarıqlar təlim-tədris prosesində söhbət və dialoq rejimində fəaliyyəti təmin edir.

**İnduksiya** (lat: ***təhrik***) **–** idrak metodu olan induksiya müşahidə və eksperimentə əsaslanaraq hadisələrin səbəbiyyət əlaqələrinin müəyyənləşdirilməsinə xidmət göstərən, xüsusidən ümumiyə aparan əqli nəticə.

**İnteqrativ kurikulum –** tematik vahiddə birləşmiş iki və daha çox sahənin müzakirə predmeti.

**İnteqrativ dərs –** mövzu ilə əlaqəli bir neçə fənnin materialına müraciət olunması.

**İntizam –** təlim-tədris prosesində həm öyrədən, həm də öyrənənlər üçün ümumi davranış qaydalarını müəyyən edən normaların məcmusu.

**İstedadlı uşaqlar –** qabiliyyətlərinə görə yüksək nailiyyət göstərən uşaqlar. Bu uşaqların inkişaf perspektivləri xüsusi onların intellektual, akademik, bədii yaradıcılıq sahələrindəki potensial imkanları və uğurlarının səviyyəsi ilə müəyyən olunur. Onlarda yaradıcı təfəkkür və təxəyyülün inkişaf səviyyəsi bu uğurların başlıca rəhni kimi qiymətləndirilir.

**Karusel metodu –** bir neçə şagird və ya tələbədən ibarət işçi qrupların müəyyən bir məsələnin həlli üzərində növbə ilə işləyərək öz rəylərini ifadə etməsi ilə izah edilir. Məqsəd – müzakirələrdə bütün şagirdlərin fəal iştirakını təmin etməklə daha çox nəticələr əldə etmək.

**Kurikulum –** kurikulum təlim-tədris prosesilə bağlı bütün fəaliyyətlərin təşkilini əks etdirən konseptual sənəd.

Q**abiliyyətlər –** şəxsiyyətin bu və ya digər fəaliyyət növünü müvəffəqiyyətlə icra etmək üçün şərt sayılan fərdi psixi xassəsi.

**Qiymət –** qiymətləndirmənin nəticələrini əks etdirmək üçün istifadə olunan kateqoriya. Qiymət hərflərlə (A, B, C, D və s.), rəqəmlərlə (1, 2, 3 və s.), yaxud da sözlərlə (Əla, Çox yaxşı, Yaxşı, Kafi, Pis və s.) ifadə olunur.

**Qiymət, bal –** tapşırığın yerinə yetirilməsinin müəyyən edilmiş şkala, yaxud təsnifat üzrə qiymətləndirilməsi.

**Qiymətləndirmə –** şagirdin (tələbənin) bilik, bacarıq və vərdişlərinin tədrisin məqsəd və vəzifələrinə uyğunluğunu, yaxud uyuğunsuzluğunu təsdiq edən üsul və nəticə. Fərdin davranışı yaxud xasiyyətinin müəyyən olunması üçün aparılmış uzunmüddətli müşahidəsi əsasında əldə edilən nəticə. Belə bir qiymətləndirmə öyrənmə, təsvir etmə, qeyd etmə (yazma), hesbalama və s. ən müxtəlif qabiliyyətlər üzrə informasiyalara əsaslanır.

**Qiymətləndirmədə əsas tələblər –** obyektivlik, dərk olunma; **əsas göstəricilər** isə - biliyin tamlığı, dərk olunması, tətbiqi və ifadə olunmasıdır.

**Qiymətləndirmə sxemi –** şagirdlərin cavbalarına əsasən qiymətlərin müəyyənləşdirilmə-sinə dair hesablama forması.

**Qiymətvermə –** şagirdin təlim fəaliyyətinin təlimin məqsədlərinə müvafiqliyinin kəmiyyət və keyfiyyət göstəricisinin formalaşdırılması prosesi.

**Qovluq (Portofolio) –** dərs ili ərzində öyrənən və öyrədənin fəaliyyətinə, təhsildə və şəxsi yaradıcılıqda əldə etdiyi nailiyyətlər, eyni zamanda uğursuzluqlara dair materialları, müəyyən tapşırıqları, fərdi işləri əks etdirən sənədlər toplusu. Qiymətləndirmə alternativ üsul kimi həmin məsələlər və sənədlər üzrə də aparıla bilər.

**Qrup metodu –** şagidrləri (tələbələri) öz ideyalarını başqaları ilə bölüşməyə və müzakirə etməyə həvəsləndirmək üçün onların kiçik qruplarda müzakirələrə cəlb edilməsi metodu. Həmin interaktiv metod vasitəsilə başqalarının məlumatını necə qəbul etmələrini və aydınlaşdırmalarını görmək olar.

**Qrup tapşırığı –** müəllimin qrup halında yerinə yetirmək üçün öyrənənlərə verdiyi tapşırıq.

**Qrup təlimi –** eyni fənn və ya mövzunun iki və daha artıq müəllim tərəfindən tədris edilməsi metodu. Müəllimlər tam qrupa təlim keçməyi növbələşmə və ya qrupu müəllim arasında növbə ilə bölmə və siniflərə ayıra bilərlər.

**Layihə tapşırığı –** müəyyən mövzu üzrə təlim-tədris prosesinə yönəlmiş iş, həmin işin müəyyən vaxt çərçivəsində icra olunması və həyata keçirilməsi nəzərdə tutulan tapşırıq.

**Liderlik –** insanların könüllü dəstəyini istənilən məsələdə səfərbər edə bilən, şəxsi keyfiyyətlərə əsaslanan bacarıq. Məktəb liderliyi dedikdə, təhsil müəssisəsindəki mövcud insan resursları və maddi-texniki imkanların müəssisənin səmərəli fəaliyyətinin təmin olunmasına, şagird nailiyyətinin yüksəldiməsinə doğru istiqamətləndiriləmsi, pedaqoji heyətin qərarvermə prosesində iştirakının təmin olunması, gələcək fəaliyyətlə bağlı strateji vəzifələrin müəyyən edilməsi və bu vəzifələrin həyata keçirilməsinə rəhbərlik və s. başa düşülür.

**Lisey –** ümumi və tam orta təhsil səviyyələrində istedadlı şagirdlər üçün müvafiq təmayüllər üzrə təhsil xidmətləri göstərən ümumtəhsil müəssisəsi.

**Metod –** praktiki və nəzəri biliklərin dərkedilməsi və müəyyən tapşırığın həllinə istiqamətlənmiş vəzifələr. Pedaqogikada təlim və tədris metodları problemin həlli yolları və təsnifatının əsas xüsusiyyəti kimi çıxış edir.

**Meyarlar –** işin şagird tərəfindən yerinə yetirilməsi keyfiyyətinin müəyyən edilməsi məqsədilə istifadə olunan tövsiyə, qayda, xüsusiyyət yaxud parametrlər. Meyarlar şagirdin cavabı və ya işinin nəticəsində məhz nələrə qiymət verildiyini göstərir. Meyarlar tamlıq (bütövlülük), analitik, ümumi və konkret ola bilər. Qiymətləndirmə bölgüləri meyarlara əsaslanır, həmin meyarların mənası və istifadə olunma qaydalarını müəyyənləşdirir.

**Məktəb səviyyəli qiymətləndirmə –** şagird nəticələrinin məktəb tərəfindən qiymətləndirilməsi. Məktəb səviyyəsində qiymətləndirmə imtahan paketinin tərkib hissəsi kimi nəzərə alınaraq, əldə edilən qiymətlər imtahanın nəticələrinə daxil edilə bilər.

**Məktəbdənkənar fəaliyyət –** uşaq, yeniyetmə və gənclərin maraq, meyl və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, fiziki cəhətdən sağlam böyümələri üçün əlverişli şərait yaradır, onların istirahətinin, asudə vaxtlarının mənalı təşkilini təmin edir. Məktəbdənkənar fəaliyyət şagirdlərin maraqlarını nəzərə almaqla onların könüllü iştirakı, aktivliyi və müstəqilliyi üzərində həyata keçirilir və onlarda liderlik, komandada işləmək bacarığı, yaradıcılıq və s. vərdişləri inkişaf etdirir.

**Məzmun –** imtahanların keçirilməsində məzmunun yüksək etibarlılıq dərəcəsinə nail olması üçün bütün tapşırıqlar tədris planına daxil olan biliklərin, təsəvvürlərin və bacarıqların yoxlanılmasına yönəlməli, müxtəlif bacarıq və mövzuların yoxlanılması üçün müəyyən edilmiş tapşırıqların test xüsusiyyətlərinə uyğun olması.

**Məzun –** tədris kursunu müvəffəqiyyətlə bitirən şəxs.

**Mənəvi tərbiyə –** şagirdlərin mənəvi şüuruna, hiss və duyğularına, davranışına sistemli, məqsədyönlü, mütəşəkkil təsir göstərməklə onlarda zəruri keyfiyyətlərin, vətəndaşlıq yetkinliyinin, fəal həyat mövqeyinin formalaşdırılması üzrə müəllimin fəaliyyəti.

**Milli qiymətləndirmə –** dövlət təhsil standartlarıınn müəyyən olunması üçün reprezentativ (təmsil olunan) şagird seçimi ilə həyata keçirilən qiymətləndirmə.

**Modul –** xüsusi məqsədli, son qiymətləndirmə formalı müəyyən müddət üzrə təyin olunmuş iş bölməsi. Moduldan ibarət kurslar xüsusilə peşə-ixtisas təhsilində tətbiq edilir.

**Monitorinq –** nəticələrə əsaslanan göstəricilərdən geniş şəkildə istifadə etməklə sistemin fəaliyyətinin nəzarətlə saxlanması: 1) Müəyyənləşdirilmiş məqsədə çatmaq üçün məlumatların mütəmadi toplanması və təhlili; 2) Təlim-tərbiyə prosesinin və onun bütün komponentlərinin işi barədə məlumatlar əldə etmək, fəaliyyətin icra prosesini və səmərəlilik səviyyəsini müəyyənləşdirən mexanizm.

**Müsahibə –** əsasən, iki tərəf (müsahibə alan və müsahibə verən) arasında gedən söhbət. Təlimdə öyrənənin suallarının müsahibə şəklində cavablandırması üsulu. Müsahibənin məqsədi yeni biliklərin əldə edilməsi və keçilən materialın təkrarlanması.

**Müşahidə metodu –** pedaqoji proseslərin gedişinə qarışmadan onları məqsədyönlü, planlı, sistemli və ardıcıl şəkildə izləmək, qeydlər aparmaq, konkret faktik material toplamaqdır.

**Müvəffəqiyyət –** təhsilalanların tədris proqramlarının tələblərinə əsasən peşəkar elmi bilik və bacarıqların əldə edilməsinin xüsusiyyətləri. Təhsilalanların müvəffəqiyyətinin göstəriciləri, əsasən, cari, cari mövzuya görə, yarımilliklərə əsasən, yekun - yəni, bütün il boyu fənn üzrə beşballıq sistem əsasında olan qiymətlər hesab edilir.

**Nailiyyət –** müəyyən əlamət üzrə səviyyəni təsvir edən miqyas (ölçü). Ölçünün dəqiq sıfır nöqtəsi və müəyyən yuxarı səviyyəsi yoxdur. Nailiyyət dərəcəsi (norması) fərdlərin rəsmi şəkildə cəlb olunduğu təhsilin ən yüksək səviyyədəki ölçüsüdür. Nailiyyət hədəfi tələbələrin hər bir fənn üzrə gözlənilən bilik və bacarıqlarının formal təsviridir.

**Nəticə –** tədris məqsədinə nail olmaq üçün şagirdlərdən tələb olunan bilik və bacarıqların yekun nəticəsi.

**Obyektiv –** subyektin şüur, iradə və arzusundan asılı olmayaraq əldə edilən nəticənin səciyyəvi xüsusiyyəti.

**Obyektivlik –** cavablar qiymətləndirilərkən qiymətləndirən subyektlərin şüur, iradə və arzusundan asılı olmayaraq, hər hansı kənar səbəblərin təsiri ilə deyil, yalnız müvafiq meyarlar çərçivəsində həmin subyektlər arasında əldə edilən razılaşmanın səviyyəsi.

**Öyrənmə çətinliyi –** xüsusi təhsil ehtiyacları olan şagird qrupunun məktəbdə yeni bacarıqlar əldə etdiyi zaman qarşısına çıxan çoxcəhətli problemlər və maneələr.

**Öyrənmə çətinliyi olan şagird –** tədris prosesində öyrənmə çətinliyi olan şagirdlər. Bu şagirdlər tədris olunan fənləri, yeni vərdiş və bacarıqları mənimsəməkdə çətinlik çəkirlər və xüsusi təhsil ehtiyacları olan şagirdlər qrupuna aid edilirlər.

**Öyrənmə prosesində dəstək –** öyrənənlərə müxtəlif forma və vasitələrlə göstərilən əlavə köməyin təmin edilməsi.

**Öyrənənə istiqamətlənmiş yanaşma –** öyrətmə prosesinin fərd üzərində cəmləşməsi. Öyrənənlərin maraq, ehtiyac və imkanları əsasında qurulan təlim.

**Öyrətmək –** bilik, bacarıq və vərdişlərin şagird və ya tələbəyə aşılanması.

**Öyrətmə strategiyası –** dərs prosesində müəllimin istifadə etdiyi yanaşma və ya üsul. Məsələn, sualın cavablandırılması üçün müəllimin şagirdə müəyyən vaxt verməsi öyrətmə strategiyasına nümunə sayıla bilər.

**Prezentasiya – latın mənşəli söz olub, "təqdim etmə" mənasını verir.**

**Pedaqoji diaqnostika –** pedaqoji prosesdə inkişaf və ya korreksiya yollarını müəyyən etməyə imkan verən fəaliyyət növü.

**Prinsip –** (lat: prinsipium - əsas, ilkin, rəhbər ideya) pedaqoji prosesdə müəllimin rəhbər tutduğu, şagirdlərin təlim fəaliyyətinə və davranışına verdiyi əsas qayda, ideya və tələblər.

**Problem yanaşması –** təhsil siyasəti və planlaşdırmasının nəzərdən keçirilməsinin asanlaşdırılması, təhsil prosesini tənzimləyən qanun və prinsiplərin eyniləşdirilməsi və s. məqsədlərlə tətbiq edilən metodologiya.

**Predmet –** elmin predmeti dedikdə, onun öz obyektindən ayırd etdiyi, seçdiyi cəhətlərə hansı baxımdan, hansı nəzəri və ya praktik aspektdən yanaşılması nəzərdə tutulur.

**Problemin həlli –** problemlərin həlli zamanı öz təfəkkür və inkişaflarının şagirdlər (tələbələr) tərəfindən qiymətləndirilməsinin öyrənilməsi metodu.

**Proqramlaşdırılmış öyrənmə –** təlimin sadədən mürəkkəbə prinsipilə müəyyən edilmiş əsaslar üzərində və təlim proqramları çərçivəsində təşkili.

**Refleksiya –** artıq başa çatmış prosesin şüurda inikasıdır. Təlim prosesinin refleksiyası biliklərin mənimsənilməsinin bütün mərhələlərini təhlil etməyə və dərindən başa düşməyə imkan verən başlıca mexanizmlərdən biridir.

**Sağlamlığa dair təhsil –** insan sağlamlığı üzrə təhsil; məktəbdə şagirdlərin sağlamlığının təmin olunması ilə bağlı aparılan tədris fəaliyyəti.

**Səmərəlilik –** konkret bir sahədə müəyyən məqsədə nail olmaq üçün bacarıq, qabiliyyət və səriştə kimi müvafiq vasitələrin tətbiqi ilə əldə edilən keyfiyyətli nəticə.

**Sinfin idarə olunması –** sinifdə proseslərin, hadisələrin və tədbirlərin planlaşdırılması, təşkil edilməsi, onlara rəhbərliyin və nəzarətin həyata keçirilməsi. Səmərəli və təsirli təlimatlara, şagirdlərin müsbət davranışlarını təmin etməyə kömək edən təşkilatçılıq, nizam-intizam fəaliyyəti metodları.

**Sinif mühiti –** şagirdlərin (tələbələrin), müəllimlərin və sinfin maddi-texniki atributlarının, sanitar-ekoloji vəziyyətinin qarşılıqlı əlaqəsi.

**Sinifdənkənar iş –** təlimdənkənar vaxtlarda pedaqoji kollektiv üzvlərinin ***(sinif rəhbəri, fənn müəllimləri, kitabxanaçı, şagird təşkilatları, valideyn komitəsi və s.)*** və məktəb rəhbərlərinin, bir sıra hallarda ailə və ictimaiyyət nümayəndələrinin yaxından köməyilə müxtəlif təşkilati formalarda apardıqları təlim-tərbiyə xarakterli tədbirlər.

**Sorğu vərəqi (anket) –** təhsil üzrə peşəkar fəaliyyətin müxtəlif cəhətləri haqqında məlumat və rəylərin toplanması üçün istifadə edilən məqsədəuyğun sualların əks olunduğu vərəqlər.

**Sosial ayrı-seçkilik –** irqi, cinsi, etnik, dini və sosial-iqtisadi mənsubiyyətinə görə bir tərəfinə digər tərəflə müqayisədə üstün, yaxud aşağı səviyyədə nəzərə alınması, ona qarşı qeyri-obyektiv münasibət göstərilməsi və sosial ədalətsizlik.

**Sosiallaşma –** fərdin ictimai norma, tələb və dəyərləri mənimsəyərək, cəmiyyətə inteqarsiya olunması.

**Standartlar –** şagird nəticələrinin keyfiyyətini, təlim-tədris mteodları və proqramını dəyrələndirmək üçün istifadə olunan razılaşdırılmış meyarlar və normalar.

**Standarta uyğun qiymətləndirmə –** şagirdin cavabının digər böyük qrupla müqayisə olunması üzrə aparılan qiymətləndirmə.

**Summativ qiymətləndirmə –** tədris prosesinin müəyyən mərhələlərində (tədris vahidinin, yarım ilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nəticələrinin yoxlanılması məqsədilə keçirilən qiymətləndirmə növüdür. Summativ qiymətləndirmə şagirdlər tərəfindən məzmun standartlarının mənimsəmə səviyyəsinin etibarlı göstəricisidir. Summativ qiymətləndirmə şagirdin təlim nailiyyətlərinin konkret standart və ya standart qrupunda nəzərdə tutulan məqsədlərə nail olma dərəcəsini müəyyənləşdirib rəqəmli qiymət qoymaq imkanını verir.

**Şagirdyönümlü məktəb –** təlimin şagirdlərin fərdi maraq, ehtiyac və imkanları üzərində qurulduğu, öyrənmə prosesində əsasən təcrübəyə üstünlük verilən məktəb.

**Şəffaflıq –** təlim-tədris proseslərinə dair məlumatların ictimaiyyətə, xüsusən məktəblərə, müəllimlərə və şagirdlərə müvafiq şərtlər və qaydalara uyğun düzgün çatdırılması və həmin şərtlərə, qaydalara obyektiv şəkildə riayət olunması.

**Test –** Şagirdin bilik və bacarıq səviyyəsini yoxlamaq üçün izah edilə bilən işin (icranın) kəmiyyətini müəyyən edən cavabların əldə olunması məqsədilə hazırlanan sistemli məsələ və ya suallar silsiləsi.

**Test növləri –** istifadə məqsədinə görə adlandırılan testlər. Test növləri aşağıdakı kimi təsnif edilir:

- ***Nailiyyətlər testi*** **–** sinifdə öyrədilən materialın öyrənənlər tərəfindən necə mənimsənilməsini müəyyən etmək üçün istifadə edilən test növü. Bu növ testlər çox vaxt ya rübün, semestrin ya da dərs ilinin sonunda keçirilir.
- ***Diaqnostik test*** **–** dil öyrənənlərin problemlərini müəyyən etmək üçün istifadə edilən test növü. Bu testin köməyi ilə müəllim öyrənənlərin biliklərinin güclü və zəif cəhətlərini diaqnoz edərək öyrənir. Bu da müəllimə gələcəkdə nəyi öyrətməyi planlaşdırmaqda yardımçı olur.
- ***Məqsədli test*** **–** imtahan verənin fikrini nəzərə almadan onun cavablarının qiymətləndirilməsi. Belə testlərdə öyrənən düzgün hesab etdiyi cavablardan birini

işarələyir.

- ***Yerləşdirmə testi*** **–** dərs ilinin əvvəlində şagird və ya tələbələrin bilik və bacarıq səviyyələrini müəyyənləşdirməklə onları öz səviyyələrinə uyğun qrup, yaxud siniflərə təyin etmək üçün istifadə edilən test növü;
- ***Summativ test*** **–** təlimin sonunda istifadə edilən ümumiləşdirici test növü;
- ***İnkişaf testi*** **–** mənimsəmənin hansı səviyyədə olmasını müəyyən etmək məqsədi ilə təlim müddətində istifadə edilən test növü.

**Tədqiqat metodu –** nəzərdə tutulan fənn, yaxud problem ilə əlaqəli müvafiq yeni fakt və prinsipləri aşkar etmək, fərqləndirmək və bir daha nəzərdən keçirmək üçün həmin fənn və ya problemə sistemli sorğunun tətbiqinin bir neçə ümumi növlərindən hər hansı biri.

**Tədris proqramı –** Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilən sənəd olub, bu və ya digər sinifdə hər bir fənn üzrə təhsilin məzmununu və quruluşunu müəyyənləşdirir, elmi biliklərin, dünyagörüş və mənəvi-etik ideyaların, həmçinin şagirdlər tərəfindən mənimsənilməsi vacib bilinən praktik bacarıq və vərdişlərin sistemini özündə birləşdirir.

**Tədris ləvazimatı –** 1) müxtəlif müəllif mövqeyindən müəyyən bir fənnin elmi əsaslarını izah edən kitablar; 2) metodiki materiallar, izahatlar, müxtəlif fənlər barədə tövsiyələrdən bəhs edən müəllim və ya şagirdlər üçün kitablar; 3) təlim-tədris prosesində mənbə kimi istifadə edilən xüsusi hazırlanmış fənn materialları.

**Təhsilin məqsədi –** müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq. Tədris proqramı çərçivəsində nəzərdə tutulan, eyni zamanda tam və ya qismən yerinə yetirilən uzunmüddətli məqsəd. Qismən yerinə yetirilən tədris məqsədinə tam əldə edilməsi məktəb mühitindən kənarda mümkün olan məqsədlər aiddir. Məsələn, şagirdlərin özlərinə inanmalarına, yaradıcı, məhsuldar və sadiq vətəndaş kimi yetişmələrinə yardım etməkdən ibarət olan tədris məqsədi buna nümunə sayıla bilər.

**Təhsil proqramı, kurikulum –** təhsilin hər bir pilləsi üzrə təlim nəticələri və məzmun standartlarını, tədris fənlərini, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqin aparılması sistemini özündə əks etdirən dövlət sənədi.

**Təlim məqsədləri –** konkret fənn, kurs, proqram və ya dərsin təhsilalanlara verəcəyi yeni bilik, bacarıq və vərdişlərlə bağlı plana uyğun əldə edilən nəticələr.

**Təlim nəticələri –** məktəb təcrübəsi nəticəsində öyrənənlərin əldə etdikləri bilik, bacarıq, fikir və dəyərlər.

**Təlim strategiyası –** maksimum dərəcədə təlim məqsədlərinə çatmaq üçün həyata keçirilməsi nəzərdə tutulan zəruri uzunmüddətli vəzifələrin (fəaliyyətlərin) ümumiləşdirici modelləri.

**Təlimin prinsipləri –** gənc nəslin təhsili və tərbiyəsinin məqsədinə uyğun olaraq təlimin xarakterini müəyyənləşdirən əsas rəhbər müddəalardır.

**Təlim üsulları –** öyrənmənin əsas mərhələləri və növləri də daxil olmaqla təlim-tədris prosesinin ən müxtəlif yollarını ifadə edən termin.

**Təlim metodları –** təlim prosesində müəllim tərəfindən həyata keçirilən müvafiq fəaliyyət, təqdim olunan materialın şagirdlər tərəfindən dərk edilməsi üzrə onların müxtəlif idraki və praktik fəaliyyətini özündə birləşdirən iş sistemi. ***Və yaxud,*** təlim metodları müəllim və şagirdlərin təlim vəzifələrinin həllinə yönəlmiş birgə fəaliyyətinin üsulları.

**Təlimin vəzifələri –** müəllimin tələbə qarşısında qoyduğu qısamüddətli məqsəd və ya təlimat nəticəsində onun davranışında əmələ gələn dəyişiklikləri müşahidə etmək arzusunun aydın və dürüst təsviri.

**Təlim-tərbiyənin təşkili formaları –** dedikdə, məktəblilərin qruplaşdırılması, müəllimlə şagirdlər arasındakı münasibətlərin xarakteri və məşğələnin keçirilmə mexanizmi ***(rejimi, vaxtı və şəkli).***

**Təfəkkür –** yeni, mühüm əlamət, xassə və qanunauyğunluqların axtarılmasına və kəşf edilməsinə yönəldilmiş, sosial cəhətdən şərtlənmiş, nitq ilə ayrılmaz surətdə bağlı olan psixi prosesdir, gerçəkliyin təhlil və tərkibi gedişində onun vasitəli və ümumiləşmiş inikası prosesidir.

**Tənqidi təfəkkür –** ideyaları bir-biri ilə əlaqələndirmək şərti ilə onlara müxtəlif nöqteyi-nəzərdən münasibət prosesi; tənqidi oxu və yazı bacarığını artırmaq üçün zəmin yaradır.

**Tərbiyə** *(geniş mənada)* **–** ailədə və tədris-tərbiyə müəssisələrində müvafiq keyfiyyətləri formalaşdırmaq, bilik, bacarıq və vərdişlər aşılamaq məqsədilə həyata keçirilən xüsusi təşkil olunan proses, sistemli, ardıcıl, fasiləsiz və mütəşəkkil şəkildə göstərilən *(idarə olunan)* təsir.

**Tərbiyənin prinsipləri –** tərbiyənin məzmunu, metod və təşkilati formalarını müəyyən edən əsas tələblər; tərbiyənin prinsipləri tərbiyəçinin (müəllimin) öz fəaliyyətində rəhbər tutduğu əsas müddəa və tələblər.

**Ümumi qiymətləndirmə –** şagirdin (tələbənin) yerinə yetirdiyi tapşırığın hər bir aspektinin ayrı-ayrılıqda təhlil edilərək qiymətləndirilməsi ilə deyil, onun göstərdiyi yekun nəticələrin ümumi qiymətləndirilməsi yolu ilə həmin şagirdin (tələbənin) yiyələndiyi biliklər haqqında müəllim tərəfindən fikir yürüdülməsi.

**Ümumiləşdirmə bacarığı –** test nəzəriyyəsində "bütün müşahidələrin ümumiləşdirilməsi ilə davranış seçiminin qiymətinə" əsasən yekun rəyin qəbul edilməsi. Ümumiləşdirmə bacarığı ölçmə xətasında həqiqi qiymət anlayışının nəzəri alternatividir. Ümumiləşdirmə bacarığı nəzəriyyəsi səhvlərin bir neçə formasının olduğunu və alternativ ümumiləşdirmə formalarını qəbul edir.

**Vərdişlər –** praktik bacarıqlardır ki, insan fəaliyyət prosesində onları qismən avtomatlaşan hərəkətləri ilə, iş üsullarını çətinlik çəkmədən, xüsusi iradi səyi və şüurun xüsusi nəzarəti olmadan və tərəddüdsüz yerinə yetirir.

**Ziqzaq –** birgə öyrənmə strategiyası. İlk mərhələdə öyrənənlər təcrübəli qrupda iştirak edərək fənnin ayrı-ayrı aspektləri haqqında öyrənir, öz komandalarına qayıdaraq əldə etdikləri məlumatı qrupun hər bir üzvü ilə paylaşır və onu ümumi məqsəd üçün tətbiq edirlər.

# GİRİŞ

**Hörmətli oxucu!**

Ümumtəhsil məktəblərin ibtidai təhsil səviyyəsində təhsilalanlar üçün zəruri kompetensiyaların, fənlərin, məzmun və qiymətləndirmə standartlarının reallaşdırılmasında, tədrisin inkişafetdirici məqsədlərini həyata keçirən, metodik təminatını, dəyərləndirmə modelini, səriştə əsaslı təhsili həyata keçirən ibtidai sinif müəlliminin yetişdirilməsi ilə təhsilin inkişaf etdirilməsi əsas problemlərdəndir. Məqsəd fənlərin tədrisində şagirdlərə əlverişli təlim şəraitinin yaradılması, tələbyönümlülük, nəticəyönümlülük, şəxsiyyətyönümlülük, inteqrativlik prinsipləri əsasında hərtərəfli bilik və bacarıqlara, tərbiyə və davranış mədəniyyətinə malik şəxsiyyətin formalaşdırılmasıdır. Eyni zamanda ibtidai təhsil səviyyəsində təhsilverənlərə şagirdlərin potensial imkanlarını üzə çıxarmaq, onun daha da inkişafına nail olmaq üçün əlverişli təlim, tərbiyə mühitini yaratmağa kömək edən kompetensiyalar aşılamaqdır. Dərslərinin müasir tələblər səviyyəsində təşkili ilə təhsilalanların bilik, bacarıq və vərdişlərinin obyektiv qiymətləndirilməsinin forma, üsul və vasitələrinə dərindən yiyələnmiş təhsilverənin yetişdirilməsidir.

Bu modul ibtidai təhsili həyata keçirəcək təhsil işçilərinin, o cümlədən təhsilverənlərin peşəkar səriştələrinin inkişafını təmin etmək məqsədi ilə hazırlanmışdır. Modulda ibtidai təhsildə təlim və tərbiyə prosesinin dövlət standartları əsasında həyata keçirilməsində təhsilalanların bilik və bacarıqlarını obyektiv qiymətləndirmək və inkişaf etdirmək üçün tələbə fəaliyyəti və müvafiq qiymətləndirmənin forma, üsul və metodları verilmişdir. Modulu müvəffəqiyyətlə mənimsəyən təhsilalan bir çox peşəkar müəllim bacarıqlarını nümayiş etdirəcək.

Modul 3 təlim nəticəsinə bölünmüşdür. Hər bir təlim nəticəsi üzrə qiymətləndirmə meyarlarının məzmunu aydınlaşdırılmış, onun yaddaşda möhkəmləndirilməsinə xidmət edən “Tələbələr üçün fəaliyyətlər” və təhsilalanın məzmunu hansı səviyyədə öyrəndiyini müəyyən etmək üçün “Qiymətləndirmə” bölməsi verilmişdir.

Birinci təlim nəticəsində təlim prosesinin həyata keçirilməsi baxımından dərsin planlaşdırılması, təlimdə müasir forma, üsul və vasitələrin səmərəli tətbiqi, şagirdlərə diferensial yanaşmanın əhəmiyyəti aydınlaşdırılır.

İkinci təlim nəticəsi tərbiyə prosesinin həyata keçirilməsinə həsr olunub. Tədrisdənkənar tədbirlərin təşkili formalarını, tərbiyənin prinsip və metodlarının tətbiqini, şəxsiyyətin davranış qaydalarını əks etdirir.

Üçüncü təlim nəticəsində müasir məktəbdaxili qiymətləndirmənin (diaqnostik, formativ və summativ) forma, üsul və vasitələrinin tətbiqi yolları və nəticələrin təhlili verilir.

Əziz təhsilalanlar! Unutmayın ki, gələcək işinizin yüksək səviyyədə qurulmasının açarı sizə verilən materialların həm nəzəri, həm də praktiki mənimsənilməsindən çox asılıdır.

## MODULUN SPESİFİKASİYASI

| **Modulun adı:** | Təlim və tərbiyə prosesinin həyata keçirilməsi |
|---|---|
| **Modulun kodu:** | SS-2020-54 |
| **Modulun ümumi məqsədi:** | *Bu modulu tamamladıqdan sonra təhsilalan dərsin məqsədinə, dərs planına və müxtəlif forma, üsul və vasitələrə uyğun olaraq təlim prosesini həyata keçirməyi, nizam-intizam qaydalarını və tərbiyə prinsiplərini nəzərə alaraq səmərəli üsullardan istifadə etməklə tərbiyə prosesini həyata keçirməyi, müvafiq qiymətləndirmənin forma və vasitələrindən istifadə etməklə formativ və summativ qiymətləndirməni həyata keçirməyi bacaracaqdır.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Təlim prosesini həyata keçirmək | 1. Dərsin məqsədinə çatmaq yollarını təsvir edir;<br>2. Cari plana uyğun dərsi təşkil edir;<br>3. Təlim prosesində müxtəlif forma, üsul və vasitələrdən istifadə edir;<br>4. Təlim zamanı interaktivliyi və inteqrativliyin xüsusiyyətlərini izah edir;<br>5. Qeyri-standart təlim formalarını mövzuya uyğun tətbiq edir;<br>6. Təlim prosesində oyun texnikalarını tətbiq edir;<br>7. Tədrisdə diferensial yanaşmanın tətbiqi yollarının əhəmiyyətini izah edir. |
| 2. Tərbiyə prosesini həyata keçirmək | 1. Sinifdən və məktəbdənkənar tədbirlərin təşkili metodlarını izah edir;<br>2. Nizam-intizam qaydalarının mahiyyətini izah edir;<br>3. Tərbiyə prosesinin səmərəli təşkilində metodları tətbiq edir;<br>4. Tərbiyə prinsiplərinin nəzərə alınmasının vacibliyini əsaslandırır;<br>5. İctimai yerlərdə davranış qaydalarını izah edir. |

| | |
|---|---|
| 3. Qiymətləndirmə prosesini həyata keçirmək | 1. Müasir məktəbdaxili qiymətləndirmənin forma və vasitələrini izah edir;<br>2. Şagirdlərin bilik və bacarıq səviyyəsinin diaqnostik qiymətləndirməsini aparır;<br>3. Formativ qiymətləndirilməni qaydalara müvafiq tətbiq edir;<br>4. Summativ qiymətləndirməni forma, üsul və vasitələrinə uyğun tətbiq edir;<br>5. Qiymətləndirmə nəticələrini müxtəlif metodlarla təhlil edir. |

# TƏLİM NƏTİCƏSİ 1

## TƏLİM PROSESİNİ HƏYATA KEÇİRMƏK

## 1.1. Dərsin məqsədinə çatma yollarını təsvir edir

### 1.1.1. Dərsin düzgün panlaşdırılması məqsədə çatmağın əsası kimi

Dərs – müəllimin rəhbərliyi altında, məktəbdə eyni yaşlı şagird kollektivi ilə, dövlət proqramına uyğun, sabit cədvəl əsasında keçirilən kollektiv məşğələdir. Dərslər digər təşkil formalarından nə ilə fərqlənir? Təlimin əsas təşkil forması olan dərs bir sıra üstünlüklərə malik olub müxtəlif tiplərə bölünür:

1. Dərs eyni yaşlı uşaqlarla fəaliyyətə əsaslanır;
2. Dərsdə tədris planı və proqramına uyğun mövzu öyrədilir;
3. O təsdiq olunmuş cədvəl üzrə təşkil olunur;
4. Dərs zənglə başlayır və zənglə də qurtarır, 45 dəqiqə davam edir. Buradan belə bir nəticə çıxır ki, dərs müvafiq sinifdə cədvəl üzrə müəyyən vaxt ərzində tədris proqramına uyğun təşkil edilən məşğələ növüdür. Dərsləri məqsəd və vəzifəsinə, tətbiq olunan metodlara, şagirdlərin idrak fəaliyyətinə görə bir sıra tiplərə ayırırlar.

Dərsin müxtəlif tipləri mövcuddur:

- Yeni tədris materiallarının qavranılmasını təmin edən dərs;
- Bilik və bacarıqların formalaşmasını əsaslandıran dərs;
- Bacarıq və vərdişlərin tətbiqini həyata keçirən dərs;
- Bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsinə xidmət edən dərs;
- Bir neçə didaktik vəzifəni yerinə yetirən birləşmiş dərs;
- Bəhsin, yarımilin, ilin sonunda materialın ümumiləşdirilməsinə xidmət edən ümumiləşdirici dərs.

Təlimdə müvəffəqiyyətin qazanılması, məqsədə çatmağın bir şərti də fəal dərsin səmərəli planlaşdırılmasıdır. Fəal dərsin planını tərtib edərkən aşağıdakı ardıcıllıq nəzərə alınır:

- Dərsin məqsədi müəyyənləşdirilir;
- Dərsin motivasiyaları tərtib edilir (heç olmasa bir variantda);
- Tədqiqat sualı dəqiq ifadə olunur;
- Dərsin tədqiqat mərhələsi planlaşdırılır:
  - Tədqiqat üçün tapşırıqlar;
  - İş forması;
  - Məlumat mənbələri;
  - İş vərəqləri;
  - Qrup işi üçün iş planı;
- Fasilitasiya üçün yardımçı suallar yazılır;
- Nəticədə alınmalı ideyalar ifadə edilir;
- Qiymətləndirmə üsulu qeyd olunur.

Dərsdə məqsədə çatmaq üçün dərs pedaqoji tələblər əsasında planlaşdırılır. Onun

planlaşdırılması tipindən, məqsədindən, məzmunundan və metodlarından asılıdır. Dərsin quruluşu dedikdə onu tamamlayan hissələr və bu hissələrin qarşılıqlı əlaqəsi başa düşülür. Dərsdə keçiləcək mövzunun məqsədi, vəzifəsi, metodları, resursları müəyyənləşdirilir, mərhələlər üzrə mövzu şagirdlərə öyrədilir.

Dərsin məqsədinə çatmaq üçün müəllim onu mərhələlərə uyğun həyata keçirir. Fəal dərsin mərhələləri aşağıdakı ardıcıllıqla təşkil olunur:

**1-ci mərhələ. Motivasiya - problemin qoyuluşu.** Motivasiyanı həyata keçirən müəllim onu hazırlamaq və təqdim etmək üçün müəyyən bacarıqlara malik olmalıdır.

Motivasiya 3 əsas amillə yaradılır:

Rəmzi (simvolik) materialın şərhi ilə: yəni rəsm, foto-şəkil, simvol, təranə (melodiya), ədəbi əsərlərdən parça, əşya, rəvayət, tapmaca, qrafik, sxem və s. ilə həyata keçirilir. Müəllim materialı təqdim edərkən, şagirdlərə suallara cavab verməyi təklif edir: «Bu nəyi bildirir? Bunun bizim öyrəndiyimiz mövzuya nə kimi aidiyyəti var?». Şagirdləri sual verməyə həvəsləndirən, təfəkkür prosesini aktuallaşdıran suallara daha çox yer verilir.

Öyrənilən mövzu üzrə naməlum olan məsələləri müəyyənləşdirən sualların verilməsi də məqsədəuyğundur: Müşahidə etdiyimiz obyekt haqqında nəyi bilirik? Onlar haqqında daha nələri bilmək istərdik?». Sual vermə zamanı müəllim fasilitasiyanın köməyi ilə şagirdlərin təfəkkürünü lazımi məcaraya yönəldir.

Motivasiyada açıq suallardan, yəni iki və daha çox cavab variantı olan suallardan istifadə olunması məsləhətdir.

Öyrənilən mövzulara aid suallar açar sözlərin köməyi ilə verilir. «Açar» sözlər: xassələr, xüsusiyyətlər, funksiya, növlər, tiplər, rol, əhəmiyyət, səbəb, nəticə, qarşılıqlı əlaqə, qüsur və üstünlük, struktur, qayda və s. köməyi ilə müəyyən edilir.

Problem müxtəlif yollarla: təsnif etmək, hadisənin səbəb variantlarını tapmaq və s. ilə həll edilir.

**Dərsin 2-ci mərhələsi tədqiqatın aparılmasıdır.** Problemin həlli üzrə irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edən, habelə qoyulan tədqiqat sualına cavab verməyə kömək edə biləcək faktları tapmaq zərurəti ortaya çıxır. Buna şagirdləri irəli sürülmüş problemin həllinə məqsədyönlü şəkildə aparan, özündə yeni informasiyanı və yeni sualları daşıyan müxtəlif çalışmalar kömək edir. Şagirdlərə faktların öyrənilməsi və suallara cavabların tapılması gedişində düşünmək və yeni bilikləri kəşf etmək üçün münasib şərait yaradılır.

Tədqiqat müxtəlif formalarda: bütün siniflə birgə, kiçik qruplarda, cütlük şəklində və fərdi şəkildə aparılır.

**Dərsin 3-cü mərhələsi informasiya mübadiləsidir.** Tədqiqat üçün ayrılmış vaxt bitdikdən sonra müəllim tapşırığın icrasının başa çatdığını bildirir. Bundan sonra şagirdlər informasiyanın təqdimatına başlayırlar. Bu mərhələnin əsas məqsədi bütün şagirdləri yeni faktlar və tapıntılarla tanış etməkdir. İnformasiya mübadiləsi yalnız o zaman səmərəli olur ki, sinif fəal dinləməyə və əks-əlaqə yaratmağa malik olsun. Bunun üçün müəllim: nizam-intizam yaradır, şagirdlərin diqqətini mövzuya cəlb edir, təqdimata münasibət bildirir, ardıcıllığı gözləyir, informasiyanın təsdiqlənməsinə şərait yaradır.

**Dərsdə 4-cü informasiyanın müzakirəsi** və təşkili mərhələsinin məqsədi yeni faktlar əsasında bilikləri sistemləşdirmək və tədqiqat sualına cavab tapmaq üçün başlıca əlaqəni üzə çıxarmaqdır. Müəllimin işləməli olduğu material pərakəndə faktlar yığınından ibarətdir. O, əsas birləşdirici ideyanı və ya qanunauyğunluğu aşkar etmək üçün dağınıq faktlar arasında əlaqə yaratmağa çalışır. Bu zaman müqayisə, təhlil və sintezdən istifadə olunur.

**Dərsin 5-ci mərhələsi nəticələrin çıxarılması, ümumiləşdirmədir.** Müəllim şagirdlərdən əvvəlki mərhələdə qeyd edilmiş bütün fikirləri bir ümumi ideya halında birləşdirməyi və ümumiləşdirməyi təklif edir.

**6-cı mərhələ yaradıcı tətbiqetmədir**. Müxtəlif tapşırıqların, testlərin həll edilməsi ilə biliklər tətbiq edilir.

**7-ci mərhələ qiymətləndirmə** olub tətbiq edilmənin səviyyəsinə uyğun şagirdlərin bilik və bacarıqları qiymətləndirilir.

Fəal təlimdə qiymətləndirmə mərhələsinin səmərəli təşkilində müəllimin onunla bağlı qaydaları bilməsi və onlara əməl etməsi zəruridir.

Təlim prosesində qiymətləndirmənin müşahidə, müsahibə, yarış və oyun metodlarından istifadə olunur. Qiymətləndirmə vasitələri olaraq yoxlama işi, testlər, şifahi sorğu, ranq üzrə dərəcələnmə, rubriklər, praktik işlər, laboratoriya işləri, portfoliolar, yaradıcı tapşırıqlar (inşa və layihələr) və başqalarından istifadə olunur.

Qiymətləndirmənin qiymətləndirmə standartlarına, şagird fəaliyyətinə, gözlənilən təlim nəticələrinə uyğun meyar və normativlər müəyyənləşdirilir.

Fəal dərsin hər bir mərhələsində baş verən əsas hadisələr, alınan nəticələr cədvəl 1.1-də ümumiləşdirilmişdir:

| № | Fəal dərsin mərhələləri | Nəticə |
|---|---|---|
| 1. | Motivasiya (problemin qoyuluşu, fərziyyələrin irəli sürülməsi, tədqiqat sualının verilməsi) | Fərziyyələr və tədqiqat sualı |
| 2. | Tədqiqatın aparılması (fərziyyələri yoxlamaq və tədqiqat sualına cavab tapmaq üçün faktların axtarılması) | Tədqiqat işi, yeni faktlar |
| 3. | İnformasiya mübadiləsi (alınmış informasiyanın və öz tədqiqatlarının təqdimatı) | Müzakirə üçün yeni informasiya |
| 4. | İnformasiyanın müzakirəsi və təşkili (informasiyanın müzakirəsi, müxtəlif faktlar arasında əlaqənin tapılması, onların təsnifatı) | Sistemləşdirilmiş informasiya |

| | | |
|---|---|---|
| 5. | Nəticələr və ümumiləşdirmə (ümumiləşdirmə və onun fərziyyələrlə müqayisəsi, onların təsdiq və ya təkzib edilməsi haqqında nəticə, tədqiqat sualına cavab) | Yeni bilgilər (ümumiləşdirmə) |
| 6. | Yaradıcı tətbiqetmə (yeni şəraitdə tətbiqetmə, praktik məsələlərin həlli) | Təcrübə və biliklərin tətbiq yollarının dərk edilməsi |
| 7. | Qiymətləndirmə və refleksiya (şəxsi fəaliyyətin inikası və qiymətləndirilməsi istənilən mərhələdə keçirilə bilər) | Qiymətləndirmə vərdişləri, təlim fəaliyyəti qaydalarının mənimsənilməsi, müstəqil təlim vərdişləri |

**Cədvəl 1.1. Fəal dərsin mərhələləri**

Dərsdə məqsədə asanlıqla çatmaq üçün müəllimin dərsə verilən pedaqoji, metodiki tələbləri bilməsi və onlara əməl etməsi vacib məsələlərdəndir. Eyni zamanda müəllim dərsin vəzifələrinə ciddi yanaşmalıdır. Onun öyrədici, tərbiyəedici və inkiaşfetdirici vəzifələri arasında əlaqə yaratmaqla həyata keçirilməlidir.

**Dərsin məqsədinin müəyyən edilməsi.** Dərsin məqsədinə çatmaqda onun məqsədinin düzgün müəyyən edilməsinin əhəmiyyəti böyükdür. Dərsin məqsədi reallaşdırılacaq məzmun standartlarından çıxarıldığından sinif müəllimi tədris etdiyi fənlərin məzmun standartlarına istinad etməlidir. Ona görə də müəllim fənlər üzrə kurikulumlarla tanış olur, hər bir fənnin məzmun xətlərini, məzmun xətləri üzrə əsas və alt-standartları öyrənir. Dərsin məqsədinin müəyyən edilməsində hər bir fənnin məzmun standartlarına istinad edilir. Belə ki, fənlər üzrə mövzular, mətnlər məzmun standartlarının reallaşdırılması baxımından işlənilmişdir. Müəllim dərsin məqsədini müəyyən edərkən mövzunun mətni ilə tanış olur. Onun hansı məzmun xəttinə aid olduğunu müəyyən edir. Həmin məzmun xəttinin mövzunun mətninə uyğun gələn əsas və alt-standartını axtarır. Uyğun gələn alt-standartı və ya standartları qeyd edir. Müəyyən etdiyi alt-standartdan dərsin məqsədini çıxarır. Məqsəd reallaşdırılacaq alt-standartına və mətnin tədrisinə əsaslanır. Məsələn, “Həyat bilgisi”ndən II sinifdə “Hüquqlarımız qorunur” mövzusunun tədrisi üçün müəllim dərsdə məqsədin müəyyən edilməsində fənnin məzmun xətlərinə əsaslanır. “Həyat bilgisi”nin məzmun xətləri aşağıdakı kimi müəyyən edilmişdir:

- Təbiət və biz;
- Fərd və cəmiyyət;
- Mənəviyyat;
- Sağlamlıq və təhlükəsizlik.

“Hüquqlarımız qorunur” mövzusu “Fərd və cəmiyyət” məzmun xəttinə uyğun gəlir. İkinci sinif üçün məzmun xəttinin 2.4-cü əsas standartı “Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir” kimi müəyyən edilmişdir. Onun alt-standartları aşağıdakılardır:

2.4.1. Məktəbin daxili nizam-intizam qaydalarının mahiyyətini sadə formada izah edir;

2.4.2. Məktəbdəki və evdəki vəzifələrin icrasını şəxsi inkişafı ilə əlaqələndirir;

2.4.3. Özünün və yoldaşlarının hüquqlarının pozulması hallarına münasibət bildirir.

Bu standartlardan mövzuya uyğun olanı 2.4.3.-dür. Standart yazılır və ondan məqsəd çıxarılır. Ondan məqsəd belə çıxarılır:

Dərsin məqsədi: "Hüquqlarımız qorunur" mövzusunda özünün və yoldaşlarının hüquqlarının pozulması hallarına münasibət bildirir.

Dərsin məqsədinin düzgün müəyyən edilməsi məqsədə çatmağın əsas yollarından biri hesab olunur.

Təlimə müasir yanaşma ilə təlimin keyfiyyətini yüksəltmək və cəmiyyətin tələblərinə uyğun şəxsiyyət yetişdirmək mümkündür. Buna görə də hər bir müəllim fəal təlim metodlarını dərindən öyrənir və işində ondan səmərəli istifadə edir. Müəllimlər fəal təlim prosesində, ilk növbədə, öz vəzifələrini müəyyən edir və onu həyata keçirir.

### 1.1.2. Dərsin məqsədinə çatmağın yolları

Dərsdə məqsədə çatmaqda dərslik komplektləri və resurslardan istifadə edilməsi də mühüm əhəmiyyətə malikdir. Müasir təhsildə dərslik anlayışı "dərslik komplekti" kimi adlandırılır. Dərslik komplektinin 3 əsas tərkib hissəsi vardır:

***Müəllim üçün metodik vəsait**:* Müəllim üçün metodik vəsait tövsiyələr əsasında, müəllimin planlaşdırmadan qiymətləndirməyə qədər bütün fəaliyyətini istiqamətləndirir.

Dərslik hər hansı bir fənnin əhatə etdiyi bilik, bacarıq və dəyərlərin öyrədilməsi üçün onun kurikulumu əsasında hazırlanan, səlahiyyətli orqan tərəfindən bəlli meyarları qiymətləndirilib tədrisində icazə (qrif) verilən əsas vəsaitdir. Dərslik təhsil prosesində müəllim şagird fəaliyyətinin tam təsəvvür olunmasını və üzvi şəkildə əlaqələndirilməsini təmin edir.

Əlavə təlim resursları və onların dərsdə səmərəli tətbiqi də məqsədə çatmağın əsas yollarındandır.

Fəal dərslərdə kiçik qruplarla işin təşkilinə daha çox yer verilir. Qrup işinin uğurla həyata keçirilməsi üçün müəllim bir sıra qaydalara riayət edir. Qrupla işin təşkil olunmasında iş vərəqlərinin müasir tələblər səviyyəsində hazırlanması əsas amillərdəndir.

Dərsin məqsədinə çatmaqda əsas yollardan biri səviyyəli, maraqlı iş vərəqlərinin hazırlanmasıdır. İş vərəqi kiçik qruplarla fəal təlim zamanı şagirdlərin tədqiqat işini təşkil edən mühüm vasitələrdən biridir. İş vərəqlərindən istifadə etdikdə dərsdə müsbət nəticələr alınır. İş vərəqlərinin rəngarəng hazırlanması şagirdlərin fəallaşmasına gətirib çıxarır, onların estetik zövqünü inkişaf etdirir, bununla da təlimin əlavə motivasiyası yaranır. Tədqiqat prosesində kiçik qrupların fəaliyyətinin səmərəli təşkilini təmin edir. Müəllimin giriş sözü və təlimat üçün ayırmalı olacağı vaxta qənaət edilir, şagirdlər işlərin nəticələrini müxtəlif formalarla təqdim etməyi öyrənirlər.

İş vərəqlərinin hazırlanmasına verilən tələblər aşağıdakı kimi ümumiləşdirilir:

1. Kiçik qruplar qarşısında qoyulan problem və onun həllinin nəticələri tapşırıqlarda

əks etdirilməli;

2. Tapşırıqların məzmunu dərsin məqsədlərinə və uşaqların inkişaf səviyyəsinə uyğunlaşdırılmalı;
3. Qarşıya qoyulmuş problem, sual konkret və aydın ifadə olunmalı;
4. Məzmun və tərtibat cəlbedici işlənməlidir.

Dərsdə qrupla iş formasından əlavə cütlərlə iş, kollektiv iş və fərdi iş formalarından da istifadə olunur.

Fəal dərsin aparılması üçün ən mühüm amillərdən biri müəllimin bələdçi rolunu həyata keçirməsi bacarığıdır. Dərsdə fikrin təhrik edilməsi, psixoloji dəstəkləmə və məlumatı təmin etmə qaydalarına əməl olunması keyfiyyətə müsbət təsir göstərir.

Fikrin təhrik edilməsinə dair qaydalara əməl olunmalıdır:

1. Motivasiya mərhələsində şagirdlərin diqqəti dərsin mövzusunun müəyyənləşdirilməsinə cəlb edilir;
2. Dərsdə şagirdlərin məntiqi, tənqidi, yaradıcı təfəkkürü və elmi-tədqiqat vərdişlərini inkişaf etdirən tapşırıqlara yer verilir;
3. Qapalı suallara nisbətən açıq suallardan çox istifadə edilməsi daha faydalıdır. Açıq suallara misal olaraq bir yox, bir neçə mümkün cavabı olan suallar nəzərdə tutulur. Açıq sualların «Nə üçün?», «Nəyə görə?», «Hansı yolla?», «Necə?» və s. sözlərlə başlaması daha səmərəlidir. Açıq suallar: «Canlılar haqqında nə bilirsiniz?», «Nə üçün bu haqda daha çox bilmək istəyirsiniz?», «Bu necə baş verir?» kimi suallar əsasında qurulur;
4. Şagirdlərin sərbəst fikir söyləməsinə imkan verilir;
5. Hər bir şagirdə digər şagirdlərin işinə dair fikir və münasibətlərini ifadə etmək imkanı yaradılır.

## Tələbələr üçün fəaliyyətlər

1. Dərs üçün məqsədin müəyyən edilməsində fənn kurikulumun rolunu izah edin.
2. Dərsin məqsədinin çıxarılmasının əhəmiyyətini izah edin.
3. Dərsin modelini hazırlayın.
4. Verilənlərə əsasən dərsin məqsədini müəyyən edin.

   Əsas standart:

   1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.

   1.1.1. Varlıq və hadisələr arasındakı əlaqələri sadə formada şərh edir.

   1.1.2. Maddələrin və hadisələrin təbiətini öyrənmək üçün kiçik təcrübələr aparır və nəticələri izah edir.

   1.1.3. “Zaman”, “məkan” və “hərəkət” anlayışlarını sadə şəkildə izah edir.

   1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.

   1.4.1. Ətraf mühitin sağlamlaşdırılmasında bitki örtüyünün rolunu şərh edir.

   1.4.2. Təbiətimizin qorunmasında Azərbaycan dövlətinin rolunu izah edir.

5. Dərsin mərhələlərini sxemləşdirin.
6. Dərsdə məqsədə çatmaqda iş vərəqlərinin rolunu izah edin.
7. Dərsin məqsədinin çıxarılması yollarını sxemləşdirin.
8. Dərsdə məqsədə çatmaqda dərslik komplektləri və resurslarla işin rolunu izah edin.
9. Dərsdə məqsədə çatmağın yollarını ləçək modelində işləyin.
10. İş vərəqlərinin hazırlanmasına hansı tələblər verilir?

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Dərsin məqsədinə çatmaq yollarını təsvir edir”.**

1. Dərs üçün məqsədin müəyyən edilməsində istifadə olunanları ardıcıl yazın:

   Məzmun xətti, təlim nəticəsi, alt standart, əsas standart, mövzu, resurs, motivasiya, inteqrasiya, metod, forma, tədqiqat, meyar.

2. Dərsin gedişinə məqsədin düzgün müəyyən edilməsinin əhəmiyyəti nədir?
3. Fəal dərsin mərhələlərini ardıcıl yazın.
4. Azərbaycan dili müəlliminin biri dərs üçün məqsədi mövzudan, digəri alt standartdan, riyaziyyat müəlliminin biri metod və formalardan, digəri tədqiqat sualından, həyat bilgisi müəllimi təlim nəticələrindən çıxarmışdır. Onlardan hansı məqsədin müəyyən edilməsində düzgün yolu seçmişdir?
5. Dərsin məqsədini müəyyən edərkən yaranan problemləri təsvir edin, onların aradan qaldırılması yollarını göstərin.
6. Məqsədin düzgün seçilməsinin təhsilverənlər üçün əhəmiyyətini cədvəldə ayrılmış xanalara yazın:

| Dərsin məqsədinin düzgün seçilməsinin əhəmiyyəti | |
|---|---|
| Təhsilverənlər üçün | Təhsilalanlar üçün |
| –<br>–<br>–<br>– | –<br>–<br>–<br>– |

7. Dərsin məqsədi necə müəyyən edilir?
8. Dərsin məqsədinə çatmağın hansı yolları mövcuddur?
9. Dərsin məqsədi ilə məzmun standartları arasındakı uyğunluğu müəyyən edin:

| | |
|---|---|
| Məzmun xətti | Məqsəd |
| Əsas standart | Meyar |
| Alt standart | Resurs |
| Təlim nəticəsi | Mövzu |
| Təlim fəaliyyəti | İnteqrasiya |

10. Dərsdə məqsədə çatmaq yollarını mərhələlərə ayırın.

11. Dərsdə məqsədə çatmağın düzgün variantını göstərin:

A) Təlim prinsipləri əsasında məqsəd çıxarılır;
B) Təlim metodları əsasında məqsəd çıxarılır;
C) Təlimin formalarına əsasən məqsəd çıxarılır;
D) Dərsin tipinə görə məqsəd çıxarılır;
E) Məzmun standartı əsasında məqsəd çıxarılır.

12. Dərsin planının tərtib edilməsi qaydalarını ardıcıl qeyd edin.

13. Fəal dərsin mərhələlərini modelləşdirin.

14. Üçüncü sinif üçün Azərbaycan dilindən bir dərsin planını işləyin.

15. Dərsdə məqsədə çatmaqda aşağıda verilənlərin əhəmiyyətini faizlə göstərin:

- Dərsin planı;
- Dərsliklər;
- İş vərəqləri;
- Resurslar;
- Müəllim bacarıqları;
- İnteqrasiya.

## 1.2. Cari plana uyğun dərsi təşkil edir

### 1.2.1. Təlimin cari planı üzrə işin təşkili

Dərsi müasir səviyyədə təşkil etmək üçün onun strukturunu, mərhələlərini, hər mərhələnin spesifik xüsusiyyətlərini bilmək vacibdir. Dərsin strukturu aşağıdakı cədvəldə ümumiləşdirilmişdir. Fəal dərs aşağıdakı sistem üzrə planlaşdırılır (Cədvəl 1.2):

| | | |
|---|---|---|
| 1 | Sinif: | 1, 2, 3, 4-cü |
| 2 | Mövzu: | Müxtəlif fənlər üzrə |
| 3 | Standart: | Reallaşdırılacaq alt-standart |
| 4 | Məqsəd: | Standarta əsasən çıxarılır |
| 5 | Inteqrasiya: | Müxtəlif fənlərlə və fəndaxili |
| 6 | Üsul və metodlar: | Mövzuya uyğun təlim metod və üsulları |
| 7 | Təşkil forması: | Mövzunun mənimsənilməsi baxımından dərs, ekskursiya, laboratoriya məşğələsi, təcrübə və s. |
| 8 | Resurslar: | Videomateriallar, slaydlar, iş vərəqləri, tablolar və s. |
| | Fəal dərsin mərhələləri | Nəticələri |
| I | **Motivasiya** (Problemin qoyuluşu, fərziyyələrin irəli sürülməsi, tədqiqat sualının verilməsi) | Fərziyyələr ə tədqiqat sualı müəyyən edilir |
| II | **Tədqiqatın aparılması** (fərziyyələri yoxlamaq və tədqiqat sualına cavab tapmaq üçün faktların axtarılması) | Tədqiqat aparılır, yeni faktlar toplanılır |
| III | **İnformasiya mübadiləsi** (alınmış informasiyanın və öz tədqiqatlarının təqdimatı) | Tədqiqatlar təqdim olunur, müzakirə üçün yeni informasiya əldə edilir |
| IV | **İnformasiyanın müzakirəsi və təşkili** (informasiyanın müzakirəsi, müxtəlif faktlar arasında əlaqənin tapılması, onların təsnifatı) | İnformasiyalar müzakirə edilir, faktlar arasındakı əlaqələr müəyyənləşdirilir |
| V | **Ümumiləşdirmə və nəticələr** (ümumiləşdirmə və onun fərziyyələrlə müqayisəsi, onların təsdiq və ya təkzib edilməsi haqqında nəticə, tədqiqat sualının cavablandırılması) | Tədqiqat sualı cavablandırılır. Yeni biliklər ümumiləşdirilir |
| VI | **Yaradıcı tətbiqetmə** (yeni şəraitdə tətbiqetmə, praktik məsələlərin həlli) | Təcrübə və biliklərin tətbiqi yolları dərk edilir |
| VII | **Qiymətləndirmə və refleksiya** (şəxsi fəaliyyətin inikası və qiymətləndirilməsi; istənilən mərhələdə keçiri ə bilər) | Bilik və bacarıqlar meyarlar üzrə qiymətləndirilir. Təlim fəaliyyəti qaydaları əsasında ümumiləşdirilir |

**Cədvəl 1.2. İbtidai siniflərdə dərsin strukturu**

Cədvəldə fəal dərsin hər bir mərhələsində əldə olunacaq nəticələr də verilmişdir. Müəllim fəal dərsdə həmin nəticələrin əldə olunmasına səy göstərir.

Dərsdə məqsədə çatmağın əsas amillərindən biri onun cari planının qurulmasıdır. Təlimin cari planında əvvəl onun təşkili üçün lazım olan vasitələr qeyd olunur. Onlar ardıcıl olaraq yazılır. Belə ki, əvvəl sinif və mövzu göstərilir. Mövzunun tədrisində reallaşdırılacaq məzmun standartı, yəni fənn kurikulumunda müvafiq məzmun xəttinin sinif üzrə alt standartı müəyyən edilir. Seçilmiş alt standarta əsasən veriləcək bilik və aşılanacaq bacarıqlar aydınlaşdırılır. Alt standart üzrə mövzuya uyğun dərsin məqsədi müəyyən olunur.

Müəyyən edilmiş məqsədə çatmaq üçün təlim metodları, üsulları, formaları seçilir. Eyni zamanda inteqrasiyanın növləri fəndaxili, fənlərarası, həyatla əlaqənin həyata keçiriləcəyi məsələlər aydınlaşdırılır.

Dərsdə məqsədə çatmaq üçün əsas amillərdən biri lazımi resursların seçilməsi və hazırlanmasıdır. Dərsin məqsədinə, təşkilinə, üsul, metod və formasına uyğun gələn resurslar (tablo, şəkil, laboratoriya avadanlığı, cihazlar, İKT vasitələri, iş vərəqləri, slaydlar, təbii və süni əyaniliklər, əlavə oxu, yazı materialları, lüğətlər və s.) əldə edilir. Onlardan dərsdə istifadə müddəti, qaydaları öyrənilir və müəyyənləşdirilir.

Müəllim bütün bu fəaliyyətləri həyata keçirdikdən sonra onlar əsasında dərsin mərhələlərini müəyyənləşdirir və onlar üzrə dərsi təşkil edir. O, birinci mərhələ olan motivasiyada elə material və vasitələrdən istifadə edir ki, onlar şagirdləri maraqlandırır, heyrətə gətirir və onların diqqətini mövzuya cəlbedir. Şagirdlər motivasiyadan dərsdə öyrənəcəkləri məsələləri təxminən hiss edirlər. Ona görə də motivasiya elə yaradılır ki, şagirdlərdə probelmləri araşdırmağa, tədqiqat aparmağa, verilən tapşırıqları həll etməyə həvəs yaransın və onların fəallığı artsın.

Müəllim motivasiyadan sonra tədqiqat sualını qarşısına qoymalıdır. O, dərsə hazırlaşarkən tədqiqat sualını müəyyənləşdirir. Tədqiqat sualı məqsəddən çıxarılır sanki dərsin gedişi istiqamətini göstərir. O, qarşısına dərsdə şagirdlərə aşılayacağı bilik və bacarıqların üsul, metod, forma və yollarından istifadə edilməsinə dair sualını qoyur. Şagirdlərə nəyi necə və hansı vasitələrlə öyrədəcəyi tədqiqat sualı ilə ifadə olunur. Dərsdə şagirdlərin bilik və bacarıqları müstəqil əldə etməsində hansı tədqiqatların təşkil edilməsi, onların ümumiləşdirilməsi, nəticə çıxarılması, yaradıcı tətbiq edilməsini özündə əks etdirdiyindən onu "tədqiqat sualı" adlandırmışlar.

Tədqiqat sualının cavabını müəllim dərs prosesində şagirdlərin və özünün fəaliyyəti ilə araşdırır. Belə ki, tədqiqatın aparılması mərhələsində şagirdlər qarşısına müəyyən problemlər qoyur ki, onlar keçmiş bilik və bacarıqları əsasında tədqiqat aparmaqla problemin həllini axtarıb tapmağa cəhd edirlər. Yeri gəldikcə bu fəaliyyətdə müəllim onlara kömək göstərir.

Tədqiqatın aparılmasında müəllim şagirdlərin fərdi və ya birgə fəaliyyətini təşkil edir. Əsasən, fərdi, cütlərlə, kollektiv və qrupla iş formalarını tətbiq edir. Mövzunun həcminə, çətinlik dərəcəsinə, mənimsənilmə səviyyəsinə uyğun gələn iş formasını seçir. Əgər mövzu konkret qaydalardan, nəzəri məsələlərdən ibarət olarsa, fərdi iş forması tətbiq olunur.

Məsələn, şeiri, hekayəni, nağılı, misal və məsələni, davranış qaydalarını öyrətmək tələb olunursa, burada fərdi iş formasından istifadə etmək daha səmərəlidir. Fərdi iş formasında müəllim şagirdlərə diferensial yanaşmaq imkanı əldə edir. O, şagirdləri onların fərdi xüsusiyyətlərinə uyğun tapşırıqların həllinə cəlb edir. Dərsdə diferensial yanaşma təlimin keyfiyyətinə və şagirdlərin mənimsəmə səviyyəsinə əsaslı təsir göstərir.

Mövzunun həcminə, şagirdlərin birgə fəaliyyətinə əsaslanan cütlərlə iş formasından istifadə edilməsi də çox səmərəlidir. Belə iş forması tədqiqatın ikilikdə aparılması ilə şagirdlərin əməkdaşlığına, dostluğuna, bu işdə bir-birinə dəstək olmasına kömək edir.

Fənlərin məzmununda elə mövzular vardır ki, onların geniş müzakirəsi, müxtəlif fikirlərin, fərziyyələrin söylənilməsi, ümumiləşdirmə aparılması və nəticə çıxarılması tələb olunur. Belə mövzuların tədrisində kollektiv iş formasının tətbiqi çox uğurlu alınır. Müasir təlimdə qrupla iş formasına daha çox yer verilir. Qrupla iş forması şagirdlərin birgə fəaliyyətini, əməkdaşlığını, yoldaşlarına yardım etmək və ya yoldaşdan çəkinmədən kömək istəmək kimi bacarıqlarının aşılanmasını təmin edir. Qruplara şagirdlər təzyiqsiz, təsirsiz, obyektiv formada bölünməlidir. Kiçik qruplarda 3-4, böyük qrupda 5-6 şagirdin olması daha sərfəlidir. Qruplara bölmə zamanı tam obyektiv bölünmə üsullarından istifadə olunmalıdır. Bunlara saylar, hərflər, rənglər, şəkillər, kartlar, püşk atmalar, fiqurlar və başqa üsullar aiddir. Qruplara bölündükdən sonra bir dəqiqə ərzində hər qrupun üzvləri öz qruplarını adlandırır. Sonra müəllim şagirdləri araşdırılacaq problemlərlə tanış edir, onun həllinə müəyyən vaxt ayırır. Qrup üzvləri qarşıya qoyulmuş probelmi həll edərək nəticələrin sinif qarşısında təqdimatını aparır. Bütün sinif şagirdləri qrupların əldə etdiyi nəticələri müzakirə edir, ümumiləşdirir və nəticə çıxarırlar.

Qrup işi ilə təlimin təşkilinin müsbət tərəfləri çoxdur. Qrup işində:

- Bütün iştirakçıların işə cəlb olunması, şagirdlərin fəallıq və təşəbbüskarlığının artırılması imkanı yaranır;
- Təlimdə diferensiasiya prinsipini həyata keçirmək mümkün olur;
- Şagirdlərdə ünsiyyət qabiliyyətlər və sosial keyfiyyətlər: kollektivdə işləmək bacarığı, bir-birinin fikrinə və mövqeyinə hörmət, bir-birini fəal dinləmə, dialoji nitqə yiyələnmə bacarıqları formalaşdırılır;
- Şagirdlər bir-biri və müəllimlə bilavasitə təmasda olduğundan, birgə fəaliyyət göstərdiyindən onlarda əməkdaşlıq vərdişləri inkişaf edir;
- Qruplar arasında yaxşı mənada rəqabət motivasiyası yaranır;
- Qarşılıqlı nəzarət, yardım və məlumat mübadiləsi prosesləri ilə fikir mübadiləsi aparılması imkanı artır;
- Qrup işinin müvəffəqiyyətinin hər kəsdən asılılığı şagirdlərin məsuliyyət hissini artırır;
- Şagirdlərdə öyrənmə fəaliyyətinə həvəs və maraq yüksəlir, idrak motivasiyası ünsiyyət motivasiyası ilə birləşir və onlarda öyrənmə motivasiyasını gücləndirir;
- Mövzu müxtəlif qavrama üsulları ilə tədris edilir, şagird üçün idrak fəaliyyətinin inkişafına stimul yaradır;

- Şagirdlər üçün biliyi müstəqil əldə etmək və fəaliyyətin sərbəstliyi reallaşır;
- Hər şagirdə, hətta zəif oxuyan, utancaq təbiətli uşaqlara öz fikrini sərbəst bildirmək imkanı verilir;
- Şagirdlərin şəxsi keyfiyyətləri aşkar olunur;
- Şagirdlər bilik və bacarıqlarına görə bir-birini dəyərləndirir, qarşılıqlı öyrənmə, anlama imkanına malik olurlar;
- Qoyulan problemin hərtərəfli açılması, müxtəlif mövqelərdən çıxış etmək bacarığının formalaşması şəraiti yaradılır;
- Qısa müddətdə geniş həcmdə məlumat əldə edilir, vaxtdan səmərəli istifadə olunur;
- Yeni şəraitə və başqa insanlara uyğunlaşma bacarıqlarının formalaşması ilə şagird öz mövqeyini dərk edir;
- Əks əlaqə və qiymətləndirmə prosesləri daha geniş və dəqiq meyarlar vasitəsi ilə həyata keçirilir, özünün və başqalarının işinin obyektiv qiymətləndirilməsi bacarığı formalaşır.

Fəal dərslərdə kiçik qruplarla işin təşkilinə daha çox yer verilir. Qrup işinin uğurla həyata keçirilməsi üçün müəllim bir sıra qaydalara riayət edir. Qaydalar iki aspekt: təşkilati və davranış üzrə ümumiləşdirilir. Təşkilati aspektlərə daxildir:

İşin təşkilini dəqiq ölçüb-biçmək: məqsədləri, planı və fəaliyyət müddətini müəyyən etmək;

- Qrup işi üçün zəruri materialları (qrup işi üçün tapşırıqları iş vərəqlərini və s.) hazırlamaq;
- Qruplara bölmə üsulunu dərsin məqsədlərinə uyğun olaraq öncədən hazırlamaq;
- İştirakçıları qruplara bölmək, yerləşdirmək və vəzifələrini aydınlaşdırmaq;
- Qrup işinin qaydalarını yada salmaq;
- İşin yerinə yetirilməsi qaydalarını dəqiq izah etmək;
- İşin yerinə yetirilməsi vaxtını müəyyən etmək;
- Qruplar üzrə tədqiqatın təqdimatı üçün şərait yaratmaq;
- Qiymətləndirmə meyarlarını iştirakçıların diqqətinə çatdırmaq;
- Davranış aspektlərinə də əməl olunması əsas şərtlərdəndir;
- Qrupların işini müəyyən etmək və ona nəzarət etmək;
- Zərurət yarandıqda şagirdlərin işinə müdaxilə etmək, qrup işi prosesində yaranan çətinlikləri vaxtında aradan qaldırmaq, şagirdlərin diqqətini problemin həllinə yönəltmək;
- Şagirdlərə yönəldici suallar vermək, onları axtarışa istiqamətləndirmək;
- Qrup işinin gedişinin müsbət və mənfi cəhətlərini qeyd etmək, qiymətləndirmə zamanı onları nəzərə almaq.

Qrupla iş formasının təşkilində əsas vasitə iş vərəqləridir. İş vərəqlərinin hazırlanma

səviyyəsi şagirdlərin tədqiqata həvəslə qoşulmasına, fəallığına müsbət təsir göstərir. Bunun üçün iş vərəqlərində tapşırıqlar, sual, məsələ və misallar dəqiq verilməli, lazımi şəkil, sxem və cədvəllər öz əksini tapmalıdır. İş vərəqləri səliqəli, cəlbedici, elmi-tədqiqat xarakterli şəkilli, şagirdlər üçün aydın olmalıdır. İş vərəqlərində problem, tədqiqat, sual və cavablar aydın, səhvsiz, şagirdlərin başa düşəcəyi dildə ardıcıl əks olunmalıdır. Bununla da təlimdə motivasiya yaranır, tədqiqat prosesində kiçik qrupların fəaliyyətinin səmərəli təşkili təmin edilir. Müəllimin giriş sözü və mövzunun izahına ayırdığı vaxta qənaət edilir, şagirdlər işlərin nəticələrini müxtəlif formalarla təqdim etməyi öyrənirlər.

İş vərəqlərinin təxminən aşağıdakı kimi tərtib olunması məsləhətdir (Cədvəl 1.3):

| |
|---|
| **İş vərəqi 1.**<br>Problem 1. Verilmiş şəkillər üzrə obyekt və ya hadisələri müqayisə edin.<br>Problem 2. Verilmiş göstəricilər üzrə misal və ya məsələ hazırlayın. |
| |
| **İş vərəqi 2.**<br>Problem 1. Verilmiş avadanlıqlardan istifadə edərək təcrübəni aparın, nəticələrinizi təqdim edin.<br>Problem 2. Verilmiş anlayışlar əsasında esse, hekayə, krossvord, səhnəcik hazırlayın, təqdim edin. |

**Cədvəl 1.3. İş vərəqlərinin tərtibatı nümunələri**

İş vərəqlərini hazırlayarkən mövzunun mətni, reallaşdırılacaq alt standart, məqsəd, tədqiqat sualının nəzərə alınması vacib məsələdir. Yaradıcı tətbiqetmə mərhələsində şagirdlərin yaradıcı təfəkkürünün inkişafı istiqaməti nəzərə alınır. Şagirdlərə tapşırılan iş onların bilik və bacarıqlarını inkişaf etdirir, müstəqil fəaliyyətini təşkil edir. Onlar tapşırığın yerinə yetirilməsində yaradıcı fantaziyalarını, qabiliyyətlərini nümayiş etdirirlər.

## Tələbələr üçün fəaliyyətlər

1. Motivasiya, informasiya, tədqiqat, müzakirə, standart, resurslar, tətbiqetmə kimi açar sözlərdən istifadə etməklə dərsin strukturunu hazırlayın.

2. Dərsin cari planına uyğun alt standartın seçilməsi qaydalarını izah edin, nümunə göstərin.

3. Dərsin məqsədinin çıxarılmasını təsvir edin.

4. Dərsin motivasiya mərhələsi ilə tədqiqatın aparılması mərhələsini Venn diaqramında fərqləndirin.




5. Qrupla iş formasının tətbiqinin üstünlüklərini ardıcıl yazın.

6. Təlimin təşkil formalarını və onların tətbiqi yollarını cədvəldə ümumiləşdirin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Cari plana uyğun dərsi təşkil edir".**

1. İbtidai siniflərdə dərsin strukturunu işləyin.
2. Aşağıdakı anlayışlardan dərsin əsas məsələləri və ya mərhələlərinə aid olanları müəyyən edin, cədvəldə qruplaşdırın: sinif, tədqiqatın aparılması, təşkil formaları, məzmun standartı, motivasiya, yaradıcı tətbiqetmə, resurslar, iş vərəqləri, slaydlar, tədqiqat sualı, ümumiləşdirmə və nəticə, inteqrasiya, məqsəd, meyar, qiymətləndirmə, üsullar, metodlar, informasiya müzakirəsi, mövzu, məzmun, informasiya mübadiləsi, refleksiya.

| **Dərsin xüsusiyyətləri** | |
|---|---|
| Əsas məsələləri | Mərhələləri |
| | |

3. Cari plan əsasında 4-cü sinif riyaziyyat fənnindən bir dərs planını tərtib edin.
4. Plana uyğun dərsin təşkilində lazım olan müəllim bacarıqlarını ləçək modelində sxemləşdirin.
5. Vətənlə bağlı mövzunun tədrisi üçün motivasiya hazırlayın.
6. Qrupla işin digər iş formalarından fərqini müəyyən edin.
7. Qrupla işin təşkilinin şagirdlər və müəllimlər üçün əhəmiyyətini cədvəldə qeyd edin:

| **Qrupla işin təşkilinin əhəmiyyəti** | |
|---|---|
| Müəllim üçün | Şagirdlər üçün |
| –<br>–<br>–<br>– | –<br>–<br>–<br>– |

8. Təlimin səmərəli təşkilində iş vərəqlərinin rolunu izah edin.
9. Dərsin mərhələlərinin vaxt üzrə bölgüsünü aparın.
10. İstənilən ibtidai sinif və mövzu üzrə iş vərəqi nümunəsini hazırlayın.

## 1.3. Təlim prosesində müxtəlif forma, üsul və vasitələrdən istifadə edir

Ümumtəhsil məktəblərində təlimin səmərəli təşkilində müxtəlif forma, üsul və vasitələrdən istifadə edilir. İbtidai sinif müəllimi təlimin forma, üsul və vasitələrindən səmərəli istifadə etmək üçün qarşısındakı şagirdlərin potensial imkanlarını nəzərə almalı, onların fiziki, psixoloji inkişafı ilə tanış olmalıdır.

Müəllim şagirdlərin idrak səviyyəsini diaqnostik qiymətləndirmənin üsul və vasitələrindən istifadə etməklə öyrənir.

Şagirdlər potensial imkanlarına görə fərqlənirlər. Onlar bilikləri öyrənmə tərzlərinə görə əyani, eşidərək və kinestetik öyrənənlər qruplarına bölünürlər.

İnsanlar müxtəlif öyrənmə tərzlərindən birinə və ya bir neçəsinə malik olurlar. İnsanlarda üstünlük təşkil edən öyrənmə tərzi təlimdə əsas götürülür. Təlimin metod, forma və vasitələrini seçərkən, dərsdə tətbiq edərkən uşaqların öyrənmə tərzləri nəzərə alınmalıdır:

- Əyani (vizual) öyrənənlər bu xüsusiyyətlərə malikdir: sürətlə danışır, səbirsiz olurlar, başqalarının sözünü kəsirlər, əyani mənzərələr yaradan sözlərdən və ifadələrdən istifadə edirlər, bilikləri görməklə və əyaniləşdirməklə öyrənirlər. Əyani öyrənənlərə kitablardan istifadə etməklə dərs keçilməsi, rəngli qələmlərdən istifadə edilməsi, sakitliyin qorunması lazım gəlir. Onlara məlumatı təsvir etməyin öyrədilməsi, siyahılar və diaqramlardan istifadə edilməsi zəruri sayılır. Əyani öyrənənlər üçün yaddaş kartlarının hazırlanması, rəngli qələmlərdən və müxtəlif yazı tərzlərindən istifadə edilməsi, fotoşəkillər və ya diaqramların tətbiqi müsbət nəticə verir;
- Eşidərək öyrənənlər üçün fəaliyyətlərə mühazirələr, şifahi təqdimat, eşitmə materialları, oxumaq, yadda saxlamaq, səs yazısı dərsi, çalışmaların tətbiqi müsbət nəticə verir;
- Kinestetik öyrənənlərə müəyyən fəaliyyəti göstərməklə dərs keçilməsi, dərslərin qısa edilməsi, bölmələrin arasında kiçik tənəffüslər verilməsi, oyunların təşkili, yaddaş kartlarının hazırlanması və tətbiqi yaxşı nəticə verir. Kinestetik öyrənənlər üçün ədəbiyyat, maket düzəltmək, lüğət yazısı, topu tutaraq dərsi təkrarlamaq kimi fəaliyyətlərə ehtiyac böyükdür.

### 1.3.1. Təlim metodları

Müəllim dərs üçün metodları seçərkən təhsilalanların bir sıra xüsusiyyətlərini, xüsusilə, onların potensial imkanlarını nəzərə almalı olur. Belə ki, təlimin şəxsiyyətyönümlük, şagirdyönümlük, nəticəyönümlülük prinsiplərini ödəyən fəal təlimin metod və üsulları şagirdlərin potensial imkanlarının nəzərə alınması baxımından çox əlverişlidir. Ona görə də ibtidai siniflərdə aşağıdakı metodların tətbiqinə üstünlük verilməsi təlimin keyfiyyətinə müsbət təsir göstərir:

- Təsəvvürləri formalaşdıran (qavrama) metodlar, hissi qavramanı təmin edir, ətraf aləm haqqında dolğun təsəvvürlər yaradır. Onlara müşahidə, illüstrasiya,

demonstrasiya və təsvir metodları daxildir.

- Nəzəri biliyin (anlayış və qanunların) mənimsədilməsi metodları şagirdlərin şüurunda düzgün elmi anlayışları yaradır və qanunların dərk edilməsinə şərait yaradır. Bunlara müəllimin şərhi, müsahibə, diskussiya, məntiqi metodlar, kitab üzərində iş metodları, problem-axtarış metodları daxildir.
- Təlimin məntiqi metodları nəzəri biliyin anlayış və qanunların dərk edilməsi, ümumiləşdirmə aparılması məqsədi güdən təfəkkür metodlarıdır. Bu metodlara analitik-sintetik və induktiv-deduktiv metodlar daxildir.
- Analitik metodlar müəyyən obyekti fikrən tərkib hissələrinə və ya əlamətlərinə ayırmaq məqsədi güdür. Bu metodlara müqayisə (oxşarlıq və fərqi müəyyənləşdirmək), təsnifetmə (əşya və faktları əsas əlamətlərinə görə ayırmaq), analogiya (bir obyektlə bağlı biliyi digər obyektə keçirmək) və b. daxildir.
- Sintetik metodlar obyektin ayrı-ayrı hissə və əlamətlərini fikrən bir tam halında birləşdirmək məqsədi güdür. Bu yolla öyrənilən obyekt (cisim və hadisə) haqqında tam təsəvvür yaranır. Sintetik metodlara sistemləşdirmə (obyektlərin müəyyən prinsip (əlamət) əsasında sistemə salınması), ümumiləşdirmə (ümumi xassəyə malik olan cisim və hadisələrin fikrən birləşdirilməsi), konkretləşdirmə (ümumi müddəanın xüsusi hallara tətbiq edilməsi), sübutetmə (fikirlərin əsaslandırılması) və b. metodlar daxildir.
- İnduktiv metod xüsusidən ümumiyə, deduktiv metod isə ümumidən xüsusiyə keçməklə əqli nəticə çıxarmaq metodudur.
- Kitab üzərində iş metodları əsas bilik mənbəyi kimi kitabdan müxtəlif məqsədlərlə istifadə etməyi nəzərdə tutur. Kitab yeni bilik əldə etmək, keçilənləri möhkəmləndirmək, dərinləşdirmək, tətbiq etmək, habelə müstəqil iş bacarıqlarını formalaşdırmaq vasitəsidir. Müəllim təlimdə, dərslərdə kitabla işin göstərilən metodlarına geniş istinad etməklə yanaşı, həmin metodları şagirdlərə öyrətmək sahəsində sistemli iş aparmalıdır, necə deyərlər, şagirdlərə "öyrənməyi öyrətməlidir". Kitab üzərində işin müvəffəqiyyəti onu başqa metodlarla (şərh, müsahibə və s.) əlaqələndirməklə sıx bağlıdır. Mütaliəyə tələbat yaratmaq hər bir müəllimin əsas vəzifəsidir.
- Problemli-axtarış metodları təlimdə şagirdlərin zehni fəallığını, müstəqilliyini təmin edən metodlardır. Bu halda şagirdlərin qarşısında müəyyən problemlər qoyulur və onlar bu problemlərin həllinə cəlb edilir.
- Bacarıq və vərdişləri formalaşdıran metodlar nəzəri biliyi tətbiq etdirməklə bacarıq və vərdiş yaratmaq məqsədi güdür. Bunlara çalışmalar, praktik və laborator işlər, didaktik oyunlar və s. daxildir. Çalışmalar metodu bir çox fənlərdə geniş yayılmış metoddur. Çalışmalar müxtəlif növdə olur: yazılı, şifahi, qrafik, musiqi, bədən tərbiyəsi çalışmaları. Şagirdlərin müstəqillik səviyyəsinə uyğun olaraq çalışmaların üç tipindən nümunə üzrə, variativ və yaradıcı çalışmalardan istifadə olunur. Çalışmalar məqsədli, icra qaydası aydın, rəngarəng və mümkün qədər yaradıcı

xarakterdə olması təhsilalanlar üçün daha maraqla qarşılanır.

- Praktik işlər nəzəri bilikləri hər hansı əməli işlərə tətbiq etmək metodudur. Buraya ölçmə, hesablama işləri, tədris-təcrübə sahəsində iş, bitki becərilməsi, təcrübəçilik və konstruktorluq işləri və s. aiddir. Praktik işlər müəllimin təlimatı ilə başlayır. Şagirdlərin əməli işi müstəqil yerinə yetirmələri ilə davam edir. Müəllim fəaliyyətə nəzarət edir, istiqamət verir, görülmüş işlərə yekun vurulur və fəaliyyətin qiymətləndirilməsi ilə başa çatır.
- Təlimdə nəzarət metodları təlim prosesinin əsas ünsürlərindən biri olub qarşıya qoyulmuş məqsədin yerinə yetirilməsi vəziyyətini, şagirdlərin bilik və bacarıqlarının səviyyəsini, nöqsan və çətinlikləri aşkara çıxarmağa, səhvləri tapıb düzəltməyə, təlim fəaliyyətini tənzimləməyə xidmət edir.

Təlim metodlarının seçilməsində bəzi meyarlar əsas götürülür. Müəllim dərsin məqsəd və vəzifələrindən, keçilən fənn və mövzudan, şagirdlərin dərketmə imkanı və hazırlıq səviyyəsindən çıxış edərək konkret sinif və dərs üçün optimal (münasib) təlim metodlarını seçib tətbiq etməlidir. Metod seçiminin meyarlarından ən əsası şagirdlərin potensial imkanlarının nəzərə alınmasıdır. Müəllimin pedaqoji ustalığının mühüm göstəricilərindən biri də budur.

### 1.3.2. Təlimin təşkili forması

Təlimin təşkil forması müəllim və şagirdlər üçün müəyyən qaydada və rejimdə cərəyan edən birgə fəaliyyətinin ifadəsidir. Təlim prosesinin mühüm komponentlərindən biri olan formanın düzgün seçilməsi böyük əhəmiyyət kəsb edir.

Təlimin uğurlu olması onun hansı formada təşkil edilməsindən asılıdır. Təlimin məzmuna, məqsəd və vəzifəsinə uyğun təşkil forması həyata keçirilir. Fəal təlim metodunun mahiyyəti problemin tədqiq edilməsidir ki, bu zaman müxtəlif iş formalarından istifadə edilir: kollektiv iş, qrupla iş, cütlərlə iş, fərdi iş.

**Fərdi iş:** şagirdin fəaliyyətini izləmək, potensial imkanlarını müəyyənləşdirmək və inkişaf etdirmək məqsədi daşıyır. Bu təlim forması şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaradır.

**Cütlərlə iş:** şagirdlər təlim tapşırıqlarını birgə yerinə yetirirlər. Bu dərs forması şagirdlərə daha yaxından əməkdaşlıq etməyə və ünsiyyət qurmağa, məsuliyyəti bölüşməyə optimal imkan yaradır.

**Kiçik qrupla iş:** fəal təlimin əsas iş forması qrup təlimi iş formasıdır. Qrup 3-6 nəfər şagirdin iştirakı ilə formalaşdırılır. Şagirdlər müəyyən problemi həll etmək üçün qrupda birləşirlər. Bu prosesdə onların müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək və birgə fəaliyyət göstərmək bacarıqları inkişaf edir**.** Kiçik qruplarla iş təlim əməkdaşlığı kimi mühüm bir prinsipə əsaslanır.

Fəal dərsdə şagirdlər fəal iştirak edir, birlikdə çalışırlar, qrupun üzvü kimi onlarda bir-birinin müddəa və rəylərini müzakirə etməyə motiv yaranır. Qruplarda iş şagirdləri

tolerantlığa (dözümlülüyə) və nəzakətliliyə alışdırır. Qruplarda işin şagirdlər üçün faydası aşağıdakılardır:

- İstedadlı şagirdlər bütün sinfin diqqətini cəlb etmədən öz qabiliyyətlərini göstərirlər (yeniyetmələr çox vaxt öz qabiliyyətlərini nümayiş etdirməyə çəkinirlər, yaşıdlarının onları "müəllimin gülməşəkəri" adlandıracaqlarından ehtiyatlanırlar);
- Passiv şagirdlər öz bacarıqlarını açıqlamağa məcbur olurlar (qrupla iş onlarda məsuliyyət hissi doğurur);
- Şagirdlər az vaxt ərzində müəyyən ideyalar söyləməyi, bu və ya başqa mücərrəd ideyaya öz şəxsi təcrübəsi baxımından yanaşmağı öyrənirlər.

Şagirdləri qruplara bölərkən hər birində 4-6 nəfərdən çox olmamaqla 4-6 qrup yaradılması müsbət nəticə verir. Qrupların çoxluğu işin nəticələrinin təqdimatı üçün zəruri olan vaxtı uzadır, qrupda şagirdlərin sayının çoxluğu isə onlardan hər birinin qrupun işində fəal idrakını məhdudlaşdırır. Qrupun tərkibi çox vaxt müəllim tərəfindən müəyyənləşdirilir. Şagirdlərin bölgüsünü əvvəlcədən planlaşdırmaq lazım gəlir. Qrup işində qrupun tərkibi hər cəhətdən müxtəlif olur. Dostları ayırmaq yaxşı olar. "Yaxşı" və "pis" qrupların yaranmasına yol verilmir. Qrupların tərkibinin tez-tez dəyişdirilməsi faydalıdır. Şagirdlərin daim eyni tərkibdə işləməsi arzuolunmazdır. Qruplarda bölgü üsulları maraqlı və cəlbedici olmalıdır.

Kiçik qruplarda iş üsulu üzrə dərsi planlaşdırarkən, dərsə hazırlaşarkən şagirdlərin potensial imkanları nəzərə alınır. Şagirdlərin yiyələnməli olduğu bilik, bacarıq və dəyərlər əvvəlcədən müəyyən edilir. Dərs üçün paylama materialları, iş vərəqləri hazırlanır, sinif otağında əvvəlcədən öyrədici mühit təşkil olunur. Tapşırıqlar dəqiqləşdirilir, şagirdlərin diqqəti mövzuya yönəldilir. Şagirdlərin yaş xüsusiyyətləri, potensial imkanları əsasında uyğun forma, üsul, vəsaitlər seçilir, öyrədici mühit yaradılır.

Qrupun gördüyü işə dair hesabat forması olan təqdimat iştirakçılardan biri tərəfindən həyata keçirilir. Lideri müəllim və ya qrup üzvləri seçə bilərlər.

**Böyük qrupla və kollektivlə iş:** böyük qrup 7 və daha çox şagirdin iştirak etməsi şərt olmaqla sinifdə mövcud şagirdlərin 2 və daha artıq qrupa bölünməsindən alınır. Əsas etibarilə bölünməmiş sinif də böyük qrupa daxildir. Ancaq daha rahat ifadəni təmin etmək üçün bölünməmiş sinif kollektivlə iş də adlandırılır. Böyük qrupla işləmək kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsini qoyur, şagirdlərdə ünsiyyət yaratma bacarığının inkişafını təmin edir. Eynilə kiçik qruplarla işdəki kimi tapşırıqlar dəqiqləşdirilir, şagirdlərin diqqəti mövzuya yönəldilir. Şagirdlərin yaş xüsusiyyətlərinə potensial imkanlarına, maraq və meyillərinə uyğun forma, üsul, vəsaitlər seçilir. Qrupun gördüyü işə dair hesabat forması olan təqdimat iştirakçılardan biri tərəfindən həyata keçirilir. Lideri müəllim və ya qrup üzvləri seçə bilərlər.

### 1.3.3. Təlim vasitələri

Təlim vasitələri anlayışı didaktikada müəllim və şagird fəaliyyətinin komponentlərindən biri kimi işlədilir. Təlim vasitələri şagirdlərin əqli inkişafına deyil, bilavasitə idrak fəaliyyəti prosesinə də əsaslı təsir göstərir. Təlim vasitələri biliklərin

mənimsənilməsini asanlaşdırır, ictimai praktika, elmi və texniki məlumatları möhkəmləndirir və maddiləşdirir.

Təlimin səmərəli təşkilində təlim vasitələrinin, xüsusən, texniki vasitələrin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Təlim vasitələrini üç qrupa bölmək olar:

1. Tədris-əyani vasitələr;
2. Tədris avadanlıqları;
3. Təlimin texniki vasitələri.

Tədris-əyani vasitələr təlimdə əyaniliyin ifadəsi kimi geniş tətbiq olunur. Belə vəsaitlərə şəkil, cədvəl, sxem, diaqram və xəritələr, didaktik materiallar - paylama materialları, fərdi tapşırıq vərəqləri (kartlar), dərsliklər, dərs vəsaitləri (müntəxəbatlar, çalışma kitabları, lüğət və məlumat kitabları, atlaslar və s.) daxildir.

Tədris avadanlıqlarına müxtəlif cihaz və qurğular, alət və dəzgahlar aid edilir.

Təlimin texniki vasitələrinə İnformatika Kommunikasiya Texnologiyaları, slaydlar, audiovizual vasitələr, maşın, cihaz və qurğular aiddir.

Əyani vəsaitləri üç qrupda təsnif edirlər:

1. Həcmli vəsaitlər (model, kolleksiya, cihazlar, aparatlar və s.);
2. Çap vəsaitləri (şəkillər, plakatlar, portretlər, qrafiklər, cədvəllər və s.);
3. Proyeksiya materialları (kinofilmlər, videofilmlər, slaydlar və s.)

Təlimdə kolleksiya və modellər mühüm rol oynayır. Məktəb kolleksiyası deyərkən tədris əşyalarının müəyyən əlamətlərə görə toplanması nəzərdə tutulur. Belə materiallar müxtəlif fənlər üzrə olub, yeni materialların öyrənilməsinə və ya mənimsənilmiş biliklərin təkrarına xidmət edir. Canlı və cansız təbiətə, texnologiyaya, riyaziyyata, musiqi və s. dair kolleksiyalar geniş yayılmışdır. Tədris məqsədi ilə bir çox kolleksiyaları şagirdlər müəllimləri ilə birlikdə hazırlayırlar.

Təlim vasitələri əyaniliyi qüvvətləndirir, şagirdlərin diqqət və fəallığını artırır, təlimin emosional təsirini və fənnə marağı gücləndirir. Müəllim təlim vasitələrindən yerində düzgün istifadə etməklə təlimin səmərə və keyfiyyətini yüksəldir.

Təlim vasitələri hər bir şagirdin fərdi imkanlarını aşkara çıxarır, müəllimə onların şəxsi nailiyyətlərini izləmək şəraitini yaradır, mövzunun mənimsənilməsində boşluqları üzə çıxarır, təlimdə diferensiallaşmanı təmin edir, şagirdlərdə özünüqiymətləndirmə bacarığını formalaşdırır, müstəqil fəaliyyətin təşkilinə əlverişli şərait yaradır, şagirdləri fəallaşdırır, əks əlaqəni labüdləşdirir, təlim prosesində inkişaf dinamikasını tənzimləmək imkanı verir.

Resurslar fənn, mövzu, məqsəd, müəllimin bacarıqları, avadanlıq və təhsilalanların xüsusiyyətərinə görə dəyişir. Təlim resurslarının tətbiqi duyğu orqanları ilə sıx əlaqəlidir.

Sinif otağında daha çox istifadə olunan resurslara silinən lövhələr, flip-çart, interaktiv lövhələr, Power Point, Prezi proqramlarında təqdimatlar, paylama materialları, oyunlar, modellər, DVD, kameralar, multimedia vasitələri, bloqlar, forumlar, vikipediya, podkastlar və s. aiddir.

Qruplar üçün nəzərdə tutulan iş vərəqləri təhsilalanların sosiallaşmasını təmin edir, kommunikativ kompetensiyaların formalaşmasına zəmin yaradır.

İş vərəqində praktik tapşırıqlarla yanaşı, öyrədici alqoritm, həmçinin nəzəri məlumatlar verilir. O, hər bir şagirdin müstəqil bacarıqlarının formalaşması prosesinə nəzarəti asanlaşdırır. Resurslardan belə istifadə edilməsi şagirdlərin fənnə marağını və motivasiyasını artırır, materialın mənimsənilməsini daha səmərəli edir və nəzəri biliklərin dərhal praktik formaya çevrilməsinə zəmin yaradır.

Şagirdlərin potensial imkanları, təlimin metod və üsulları, iş formaları, tədris vasitələri aşağıdakı cədvəl 1.4-də ümumiləşdirilmişdir:

| Şagirdlərin potensial imkanları | Metodlar | İş formalar | Təlim vasitələri |
|---|---|---|---|
| İdrak səviyyəsi: uyğun olanlar, fərqli olanlar.<br>Öyrənmə tərzləri: əyani, eşidərək, kinestetik.<br>Şagirdlərin: fiziki-fizioloji vəziyyəti, sosial vəziyyəti, psixoloji xüsusiyyətləri | • Təsəvvürləri formalaşdıran;<br>• Nəzəri biliyin mənimsədilməsi:<br>  • məntiqi;<br>  • analitik;<br>  • induktiv;<br>  • deduktiv;<br>• Problemli axtarış;<br>• Bacarıq və vərdiş-ləri formalaşdıran;<br>• Praktik işlər;<br>• Nəzarət;<br>• Kitab üzərində iş. | • Fərdi iş;<br>• Cütlərlə iş;<br>• Kiçik qruplarla iş;<br>• Böyük qruplarla iş;<br>• Kollektiv iş. | • Tədris əyani;<br>• Tədris texniki;<br>• Həcmli;<br>• Çap;<br>• Proyeksiya. |

**Cədvəl 1.4. Təlimdə nəzərə alınacaq əsas amillər**

Təlim zamanı şagirdlərin potensial imkanları, metodlar, iş formaları, təlim vasitələri arasında əlaqələr müəyyən edilməli və qarşılıqlı əlaqədə tətbiq edilməlidir. Bu işi müəllim dərsdə peşəkarcasına həyata keçirməli olur. Onların qarşılıqlı əlaqədə tətbiqi yüksək keyfiyyətli təlimin əsasını təşkil edir. Ona görə də müəllim hər bir dərsdə tətbiq edəcəyi metod, üsul, iş forması və vəsaitləri şagirdlərin potensial imkanları ilə əlaqələndirməli, tədris prosesini tamamlamalıdır.

## Tələbələr üçün fəaliyyətlər

1. Şagirdlərin potensial imkanlarını ümumiləşdirin.
2. Təlim üsullarının tətbiqi ilə şagirdlərin potensial imkanlarını əlaqələndirin.
3. Yaradıcılığı inkiaşf etdirən metodları sxemləşdirin.
4. Təlimin əsas iş formalarının təşkili qaydalarını izah edin.
5. Təlimin iş formaları şagirdlərin xüsusiyytələrini nəzərə almadan tətbiq edilməsinin hansı çətinliklər yaradacağını şərh edin.
6. Qruplarla işin şagirdlərə faydasını sadalayın.
7. Müxtəlif forma, üsul və vasitələrdən istifadə edərək dərs nümunəsini hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Təlim prosesində müxtəlif forma, üsul və vasitələrdən istifadə edir".**

1. Şagirdlərin öyrənmə tərzlərinə uyğun təlim metodlarını müəyyən edin.

| Öyrənmə tərzləri | Metodlar |
|---|---|
| Əyani | |
| Eşidərək | |
| Kinestetik | |

2. Təlim metodlarını klasterin şaxələrində yerləşdirin.




3. Təlimin təşkil formalarını modelləşdirin.
4. Verilmiş anlayışları cədvəlin müvafiq sütunlarında yerləşdirin: kiçik qrupla iş, praktik iş, çalışma, tədqiqat, təcrübə, fərdi iş, klaster, kitab üzərində iş, cütlərlə iş, tablo, slayd, iş vərəqləri, kollektik iş, böyük qrupla iş, cədvəl, sxem, alətlər, müşahidə, İKT müsahibə.

| Təlim prosesinin | | |
|---|---|---|
| Metodları | Formaları | Vasitələri |
| | | |

5. Ən çox xoşladığınız bir metodun dərs prosesində tətbiqi mexanizmini izah edin.
6. Nə üçün bütün dərslərdə eyni metod, forma və vasitələrdən istifadə edilmir?
7. Dərs üçün forma, üsul və vasitələr hansı prinsiplər əsasında seçilir?
8. Təlim prosesində onun forma, üsul və vaistələrindən səmərəli istifadə bacarıqlarını ümumiləşdirin.

## 1.4. Təlim zamanı interaktivliyi və inteqrativliyin xüsusiyyətlərini izah edir

Təhsilin inkişafının hazırkı mərhələsində ümumtəhsil məktəblərində interaktiv təlim üsulları geniş tətbiqini tapmışdır. Bu təlim forması dövrün məktəblilərinin psixoloji xüsusiyyətlərinə tam uyğundur. Belə təlim prosesi şagirdlərin fəallığını artırır, müstəqil fikir söyləməsini təmin edir, bilikləri müstəqil olaraq tədqiqat aparmaqla əldə edilməsi şəraitini yaradır.

### 1.4.1. İnteraktiv təlimin xüsusiyyətləri

"İnteraktiv" "qarşılıqlı əlaqə", "anlaşma", "əməkdaşlıq", "dialoq" deməkdir. Bu prosesdə hər iki tərəfin fəallığı mühüm yer tutur. Bu fəallaşma adi və normal fəallaşma kimi deyil, çevik və dinamik fəallaşma kimi başa düşülür. Deməli, "interaktiv" sözü pedaqoji prosesin son dərəcə dinamik fəallaşdırılması kimi başa düşülməlidir. Bu prosesdə hər bir şagirdin öz müstəqil fikri, düşüncəsi, ideyası olur və zəif şagirdlər də fəallaşır. Bütün bunlar da, şübhəsiz, təlim keyfiyyətinin yüksəlməsinə, təkmilləşməsinə bilavasitə təsir göstərir, şagirdlərin mənimsəmə keyfiyyətini artırır. İnteraktiv təlimə tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusu kimi baxmaq olar.

İnteraktiv təlim üçün aşağıdakı cəhətlər səciyyəvidir:

- Müəllim tərəfindən şüurlu surətdə (iradi olaraq) idraki problem situasiyasının yaradılması;
- Problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması;
- Şagirdlər üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlir. Bu zaman şagirdlər müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər.

İnteraktiv təlim prosesində şagirdin mövqeyi – "kəşf edən", "tədqiqatçı", "araşdırıcı" mövqeyidir. O, gücü çatdığı məsələlər və problemlərlə üzləşərkən, bunları müstəqil tədqiqat prosesində həll edir. Şagirdlər təlim prosesində passiv dinləyici deyil, fəal düşünən, danışan, fikir söyləyən, münasibət bildirən subyekt, təlim prosesinin tam hüquqlu iştirakçısı, tədqiqatçısı kimi çıxış edir, bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər.

Müəllimin mövqeyi – fasilitator ("bələdçi", "aparıcı") daha çox istiqamətverici mövqeyindədir. O, problemli vəziyyətləri planlı və istiqamətlənmiş surətdə təşkil edir, şagirdlər qarşısında tədqiqat məsələlərinin meydana çıxmasına şərait yaradır və onların həllinə metodik kömək göstərir.

İnteraktiv təlimin əsas üstünlüyü - real idrak motivasiyasının (biliklərə yiyələnmək həvəsinin) yaranmasıdır. Bu da idrak fəaliyyətinin gedişində şagirdlərin təfəkküründə gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslanır. Real ziddiyyətlərdən yaranan emosiyalar əqli ehtiyatların səfərbərliyini təmin edir, idrak fəaliyyətini şövqləndirir, diqqəti uzun müddət əsas məsələ üzərində cəmləməyə imkan yaradır. Bilgilər hazır şəkildə deyil, onların müstəqil surətdə kəşfi prosesində mənimsənilir.

Əgər şagird öz istək və fəaliyyətinə əsasən yeni bilikləri kəşf edirsə, onda o, dərsə yaradıcı və maraqla yanaşır, əldə etdiyi bilikləri uzun müddət və möhkəm mənimsəyir. İnteraktiv təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılmasına və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Təlimin səmərəliliyi xeyli artır, qısa müddətdə daha çox informasiyanı mənimsəmək imkanı yaranır.

İnteraktiv təlimin xüsusiyyətlərini ümumiləşdirərək demək olur ki, interaktiv metodlar təlimin keyfiyyətini xeyli dərəcədə yüksəldir, şagirdlərdə yeni idraki və əxlaqi keyfiyyətlər formalaşdırır. Bu bacarıq və keyfiyyətlərə müsahibini, hər hansı danışanı (danışığını), maqnitofon, radio, televiziya verilişlərini dinləməyi, söylənilən fikirlərə hörmət etməyi, yeri gəldikdə münasibət bildirməyi, müstəqil, tənqidi və yaradıcı düşünməyi, sərbəst fikir söyləməyi, irəli sürdüyü fikri müdafiə etməyi, sübuta yetirməyi, məntiqi təfəkkürünü inkişaf etdirməyi, təcrübəsini və ümumi hazırlığını təhlil etməyi, özünü obyektiv qiymətləndirməyi, kollektivdə öz yerini görməyi, əqli və fiziki əmək prosesində kollektivin üzvləri ilə əməkdaşlıq etməyi, birgə işləməyi, ümumi əməyin payına düşən hissəni ləyaqətlə yerinə yetirməyi, kollektivin fikrinin formalaşmasında fəallıq, işgüzarlıq göstərməyi, qrupun üzvləri, sinif kollektivi ilə birgə qərar verməyi, qarşıdurma yarandıqda müdafiə olunmağı, münaqişəni səbrlə, sülh yolu ilə həll etməyi, tolerant olmağı, riskə getməyi, emosional situasiyada özünü ələ almağı, özünü idarə etməyi, şəxsi sağlamlığına görə məsuliyyət daşımağı, insana, onun hüquqlarına hörmətlə, ədalətlə yanaşmağı nümayiş etdirmək aiddir.

İnteraktiv metodlarla keçirilən dərslərdə şagirdlərdə hər şeyi bilmək həvəsi, təşəbbüskarlıq yüksəlir, onların öyrənmə fəallığı, təlimin keyfiyyəti və səmərəliliyi artır. Nəticədə mexaniki yaddaş deyil, yaradıcı təfəkkür inkişaf edir. İnteraktiv təlim bilik, bacarıq, təcrübə və vərdişlərə yiyələnməyə, cəmiyyətin vətəndaşları üçün zəruri sosial və intellektual təfəkkürün, müstəqil çalışma, müstəqil düşünmə bacarıqlarının inkişafına kömək edən demokratik üsullarla aparılan təlim prosesidir.

İnteraktiv təlim üsullarının tətbiqi zamanı istiqamətverici ideyalar kimi qəbul edilərək praktikada tətbiq edilməli prinsiplər aşağıdakılardır:

1. Şagirdə yönəlmiş təlim prinsipi: şagird təlim prosesinin mərkəzi obyekti kimi çıxış edir; təlim uşağın imkan və qabiliyyətlərinə, onun biliyinə, maraq və tələbatlarına yönəldilir;
2. Fəal təlim prinsipi: tədris prosesi elə təşkil olunmalıdır ki, idrak fəallığını, təbii öyrənmə fəaliyyəti doğursun, şagirdə "ilk kəşf" sevinci keçirməyə imkan versin, onda yeni biliklərə yiyələnmək həvəsi yaratsın;

3. İnkişafetdirici təlim prinsipi təlim inkişafını qabaqlayaraq, uşağın "qarşıdakı (yaxın) inkişaf zonasına" yönəlir. Təlim uşağın özünün müstəqil fəaliyyəti və ya böyüklərin köməyi sayəsində aşkarlanan bilik və bacarıqları əldə etmək imkanları yaradır;
4. "Qabaqlayıcı təlim" prinsipi: təlim cəmiyyətin inkişaf təmayüllərini əks etdirir və yeni nəsilləri yaxın gələcəkdə təşəkkül tapacaq dünyada fəaliyyətə hazırlayır;
5. Təlim-tərbiyə sisteminin çevikliyi prinsipi ictimai mühitin və şagirdlərin dəyişən tələbləri nəzərə alınmaqla, təlim proqramlarının məzmununun, tədris planlarının qurulmasının, təlim-tərbiyə prosesinin təşkilinin, pedaqoji texnologiyaların seçilməsinin sistematik təzələnməsi baş verir;
6. Əməkdaşlıq prinsipi "müəllim-şagird-valideyn" qarşılıqlı münasibətləri sistemində onların hər biri təlim prosesi gedişində tərəf müqabili kimi iştirak edir;
7. Dialoji təlim prinsipi: məsələlərin birgə həlli gedişində özünün və qrup üzvlərinin fikirlərini, imkanlarını və təcrübələrini müəyyən edə bilməsi və faydalanması məqsədi ilə hər bir şagirdin müzakirələrdə və qrupun işində iştirakı təmin edilir.

İnteraktiv təlim metodları yaddaşa yox, təfəkkürə əsaslanır. Yeni təlim texnologiyaları ilə müstəqil şəkildə bilik əldə edən şagirdlərin, nəinki təfəkkürü inkişaf edir, formalaşır, həm də yaradıcılıq qabiliyyəti yüksəlir. Şagirdlərin göstərilən istiqamətdə formalaşmalarına nail olmaq üçün təlim prosesində bir çox tələblərə əməl etmək lazımdır.

Təlimdə şagird münasibətləri, ünsiyyət və dialoqlar hökm sürür. İnteraktiv təlimdə müəllimin başlıca vəzifəsi şagirdlərə yardımçı olmaqdan, təlim prosesində şagirdlərin fəaliyyətini əlaqələndirib onlara yaradıcı axtarışa həvəs yaratmaqdan, axtarıb araşdırmağı, nəyi harada öyrənməyi öyrətməkdən ibarətdir. İnteraktiv təlim metodları özü də fəal təlim prosesinə daxil olan metodlardandır. Burada biliyin qrup və cütlərlə iş formalarından müntəzəm şəkildə istifadə etməklə problemin axtarılıb həllinin tapılması ön plana çəkilir. Bu cür təlim texnologiyası ilə təşkil olunan dərslərdə əvvəlcə problemə istiqamət verəcək motivasiya yaradılır.

Təlim prosesində fasilitasiya qaydalarına əməl olunmalıdır. O qaydaları aşağıdakı kimi ümumiləşdirmək olar:

- Fikri təhriketmə qaydaları;
- Fasilitasiya zamanı psixoloji dəstəkləmə qaydaları;
- Təşkilati dəstəkləmə qaydaları.

İnteraktiv təlim üsulları o zaman müsbət nəticə verir ki, şagirdlər üçün müasir tələblərə cavab verən öyrədici mühit yaradılsın. Öyrədici mühit üç komponentdən ibarətdir:

1. Sosial-psixoloji;
2. İnformasiya mühiti;
3. Əşyavi mühit.

Sosial-psixoloji mühit: şagirdin digər insanlarla və öz daxili aləmi ilə qarşılıqlı münasibətidir. Əməkdaşlıq, açıqlıq, bir-birini başa düşmə və köməklik mühiti təlimin effektivliyini artırır, təlim prosesinə emosionallıq verir, şagirdləri sözün əsl mənasında

məktəbə doğru çevirir.

İnformasiya mühiti. Məlumat mənbələrinin bütün kompleksini öz tərkibində cəmləşdirir. Məlumat mənbələrindən geniş istifadə edilməsi imkanı yaranır.

Əşyavi mühit. Əşyavi mühitin tərkibinə maddi-texniki resursların tam kompleksi daxildir. Bunlar aşağıdakılardır:

- Məktəb əşyavi mühiti: dərsliklər, didaktik vəsaitlər, texniki avadanlıqlar, stendlər və s.;
- Təbii mühit: canlı və cansız təbiət;
- Yaşayış mühiti: ev, məişət, maddi mədəniyyət və s.

İnteraktiv təlim metodları ilə keçirilən dərslərdə şagirdlərin inkişafını və ya inkişaf səviyyələrini B.Blumun taksonomiyası ilə müəyyən etmək mümkündür:

1. Biliklərin mənimsənilməsi bacarığı. Bura öyrəniləcək materialın konkret faktlardan bütöv nəzəriyyələrə qədər yadda saxlanması və ifadə edə bilməsi daxildir;
2. Dərketmə bacarığı. Öyrəndiyi materialı şərh etməsi, hadisələrin gələcək inkişafı ilə bağlı məntiqli fikirlər söyləməsi;
3. Tətbiqetmə bacarığı. Öyrəndiyi materialın məzmununu konkret vəziyyətdə tətbiq edə bilməsi;
4. Təhliletmə bacarığı. Öyrəndiyi materialı tərkib hissələrinə ayırmaqla strukturunu müəyyən etməsi;
5. Sintezetmə bacarığı. Elementləri kombinə etməklə tamı yaratması;
6. Qiymətləndirmə bacarığı. Öyrəndiyi materialın əhəmiyyətini müəyyən edə bilməsi.

### 1.4.2. Təlimdə inteqrativliyin xüsusiyyətləri

Təhsilin inteqrasiyası fənlərin öyrənilməsi zamanı fənlərarası əlaqələrin aşkar edilməsi əsasında qlobal təfəkkürün formalaşdırılmasının vacibliyini nəzərdə tutur. İnteqrasiya – müəyyən təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmaq və onları sistemləşdirməkdir.

Müasir dünya təcrübəsində, əsasən, inteqrasiyanın 3 səviyyəsini fərqləndirirlər:

Fəndaxili inteqrasiya hər bir fənn üzrə anlayış, bilik və bacarıqların əlaqələndirilməsini, fənn daxilindəki faktların sistemləşdirilməsini nəzərdə tutur. Bu növ inteqrasiya tədris materialını ayrı-ayrı tədris vahidlərində cəmləşdirməklə, fənnin məzmun strukturunu müəyyən edir. Bununla da məzmunun informasiya cəhətdən tutumlu olması, şagirdlərdə daha əhatəli bacarıqların formalaşdırılması təmin olunur.

İbtidai təhsil pilləsindəki fənlərin tədrisində geniş şəkildə istifadə olunan fəndaxili inteqrasiya üçün konsentrik prinsipə əsaslanan spiralvari quruluş daha xarakterikdir. Bu cür inteqrasiya prosesində dəyərlərin dərk olunması xüsusidən ümumiyə, yaxud ümumidən xüsusiyə doğru olur. Beləliklə, məzmun get-gedə yeni məlumatlarla, bağlılıqlarla və

asılılıqlarla zənginləşərək daha maraqlı hala gəlir. Bu formanın üstün xüsusiyyəti ondan ibarətdir ki, şagirdlər başlanğıc problemini diqqətdən qaçırmadan onunla bağlı olan bilgilərini daha da genişləndirir və dərinləşdirirlər.

Fəndaxili inteqrasiya həm üfüqi, həm də şaquli olur.

Fənlərarası inteqrasiya - iki və ya daha artıq fənnin əhatə etdiyi anlayış, bilik, bacarıq və prinsipin sintezidir. Bu inteqrasiya bir fənnə aid olan qanun, nəzəriyyə və metodların başqa bir fənnin öyrədilməsində istifadəsini nəzərdə tutur.

Məzmunun bu modelə uyğun sistemləşdirilməsi şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazının yaradılması ilə yanaşı, həm də ümumelmi anlayışlar, kateqoriyalar və yanaşmalarla xarakterizə olunan yeni tip biliklərin formalaşdırılmasına təkan verir. Müxtəlif fənlərə aid oxşar və bir-birini tamamlayan mövzular elə planlaşdırılır və tədris olunur ki, onlar üçün müəyyən bir çərçivə yaranır, yəni eyni vaxtda tədris olunur.

Fənlərüstü (transfənn) inteqrasiya inteqrasiyanın ən yüksək səviyyəsi olmaqla özündə təlimin əhatə etdiyi əsas və əlavə məzmun komponentlərinin sintezini ehtiva edir. Yəni bu inteqrasiya ilə şagirdlərin məktəbdə öyrəndikləri məzmunla məktəbdən kənarda aldıqları məzmun sintez edilir.

Fənlərin tədrisi yalnız fəndaxili, fənlərarası və fənlərüstü inteqrasiyanı yox, həm də təlim metod və texnologiyalarının inteqrasiyasını nəzərdə tutur.

Şagirdlərdə elmi dünyagörüşü yaratmaq, onların fəaliyyətini və müstəqilliyini inkişaf etdirmək, sistemli və yaradıcı təfəkkürü formalaşdırmaq üçün inteqrasiya mühüm əhəmiyyət kəsb edir.

İnteqrasiya ilə 3 vəzifə həyata keçirilir: təhsil, tərbiyə və inkişafetdirici vəzifələr. Lakin ona müxtəlif aspektdən yanaşdıqda daha çox vəzifəni: fəlsəfi, psixoloji, didaktik, metodik və s. yerinə yetirdiyi məlum olur.

Təlimdə inteqrasiya bir sıra üstünlüklərə malikdir:

1. Tədrisin elmi səviyyəsini yüksəltməyə xidmət göstərir və fənlər arasındakı səbəb-nəticə əlaqələrinin mahiyyətini açaraq vahid elmi sistemi dərk etdirir;
2. Şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirir, elmi dünyagörüşünü formalaşdırır, təbiət, cəmiyyət, habelə insan təfəkkürü və dünya haqqında biliklər sistemini zənginləşdirir;
3. Tədris materiallarının şüurlu mənimsənilməsini, möhkəm yadda qalmasını təmin edir;
4. Şagirdlərdə ümumiləşdirmə qabiliyyətini inkişaf etdirir, mövzular arasında məntiqi əlaqə, ardıcıllıq və sistemlilik prinsiplərini həyata keçirir;
5. Təlim prosesinin səmərəliliyini, mənimsənilmiş biliklərin keyfiyyətini yüksəldir, mühüm hadisələr, proseslər və qanunauyğunluqlar arasındakı səbəb-nəticə əlaqələrini aşkara çıxarır, şagirdlərin biliklərini zənginləşdirir;
6. Şagirdlərin mənimsədikləri biliklər, hadisə və proseslər arasındakı tarixi və məntiqi əlaqələri gücləndirir, onlarda axtarıcılıq, zehni fəallıq və müstəqillik keyfiyyətlərini təmin edir;

7. Müəllimləri səfərbərliyə sövq edir, biliklərini artırmağa, zənginləşdirməyə şərait yaradır;
8. Şagirdlərin idrak fəaliyyətini fəallaşdırır, onları müstəqil düşünməyə, mövqeyini söyləməyə təhrik edir.

İnteqrasiya öz əsasını tədris fənlərinin məzmununda tapır. Elmlərarası əlaqəni əks etdirən biliklər bir-birilə əlaqələnir. Bunun mahiyyət və məzmununu humanitar-estetik, ictimai-tarixi, əbiyyat-riyaziyyat elmləri açır. Adları çəkilən elmlərin tədrisi prosesində insan–cəmiyyət–təbiətin qarşılıqlı əlaqəsi açılır, şagirdlərdə elmi dünyagörüşü formalaşır, mənəvi keyfiyyətlər təşəkkül tapır. Beləliklə, elmlərarası əlaqə «insan–cəmiyyət–təbiət» vəhdətinin qarşılıqlı əlaqədə olduğunu sübuta yetirir. İnteqrasiyadan tədrisdə necə gəldi istifadə etmək mənasızdır. Bu işdə müəyyən sistemlilik və ardıcıllıq gözlənilməlidir. Təlim prosesində biliklərin bir tərəfdən diferensiasiya, digər tərəfdən inteqrasiya olunmuş şəkildə mənimsənilməsi zamanı məntiqi ardıcıllığa, sistemliliyə diqqət edilməli və vahid elmin qolları arasındakı əlaqələr diqqət mərkəzində saxlanılmalıdır.

İbtidai sinif fənlərinin tədrisində fənlərarası əlaqənin həyata keçirilməsində effektli yollar aşağıdakılar hesab olunur:

- Mövzuların digər fənn materialları ilə zənginləşdirilməsi;
- Digər fənlərdən keçilrilənlərin şagirdlərə xatırladılması;
- Müxtəlif fənlərin elementlərini özündə birləşdirən müstəqil çalışma və tapşırıqların həll edilməsi;
- Kompleks ekskursiyaların təşkil edilməsi;
- Mövzu ilə bağlı şeir və mahnıların, folklor nümunələrinin yada salınması;
- Mövzuya dair obyekt və əşyaların rəsminin çəkilməsi;
- Obyekt və hadisələrə dair müxtəlif fənlər üzrə materialların, digər fənn mövzularına dair anlayış və biliklərini özündə cəmləşdirən əyani vəsaitlərin dərsə gətirilməsi;
- Fənlərin əlaqələndirilməsi ilə təlim xarakterli oyunlardan istifadə edilməsi;
- Məktəblərdə canlı guşənin yaradılması və orada şagirdlərin müstəqil fəaliyyətinin təşkil edilməsi;
- Texniki vəsaitlərdən istifadə etməklə obyekt və hadisələrin xüsusiyyətlərinə dair kinofilm, fraqment, internet materiallarının müzakirə edilməsi, qeyri-standart dərslərin təşkili imkanlarının yaranması və s.

İnteqrasiyanın tətbiqi yollarından və əyani vəsaitlərdən düzgün, yerində istifadə edərək müəllim hadisə və ya obyektin şagirdlərə hərtərəfli öyrədilməsinə nail olmalıdır. Şagirdlərə mövzunu hərtərəfli başa salmalı, materialın onların yadında uzun müddət qalmasına, intellekt səviyyələrinin yüksəlməsinə səy göstərməlidir.

## Tələbələr üçün fəaliyyətlər

1. İnteraktiv təlimin mahiyyətini izah edin.
2. İnteraktiv təlimin səciyyəvi cəhətlərini qeyd edin.
3. İnteraktiv təlimdə müəllim və şagirdin mövqeyini cədvəldə müqayisə edin:

| İnteraktiv təlimdə mövqelər | |
|---|---|
| Müəllim | Şagird |
| –<br>–<br>– | –<br>–<br>– |

4. İnteraktiv təlimin prinsiplərini müxtəlif modellərlə sxemləşdirin.
5. B.Blum taksonomiyası əsasında şagirdlərin əldə edəcəyi bacarıqları sistemləşdirin.
6. Təlimdə inteqrativliyin xüsusiyyətlərini ümumiləşdirin.
7. İnteqrasiyanın təlimin keyfiyyətinə necə təsir göstərdiyini izah edin.
8. İnteqrativ təlimin təhsilalanlar üçün əhəmiyyətini sadalayın.
9. Fəndaxili və fənlərarası inteqrasiyanı müqayisə edin.
10. İbtidai sinif fənləri üzrə inteqrasiya torunu işləyin.
11. İstənilən ibtidai sinif fənn mövzusunu seçin və həmin mövzunun fəndaxili, fənlərarası və fənnüstü inteqrasiyasını göstərin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Təlim zamanı interaktivliyin və inteqrativliyin xüsusiyyətlərini izah edir”.**

1. Qarşılıqlı əlaqə, interaktiv, əməkdaşlıq, dialoq, anlaşma, fəallıq, tədqiqatçı, bələdçi anlayışlarından istifadə etməklə interaktiv təlimə dair esse yazın.
2. İnteraktiv təlimin səciyyəvi cəhətlərini qarşılaşdırın.



3. İnteraktiv təlimin əsas prinsiplərini yeddi kitaba yazın.



4. İnteraktiv təlimdə müəllim və şagirdin mövqelərini faizlə ifadə edin.
5. İnteraktiv təlim şagirdlərə nə vəd edir?
6. İnteraktiv təlimdə şagirdlərin yiyələndiyi bacarıqları sxemləşdirin.
7. İnteqrasiya terminini izah edin.
8. Təlimdə inteqrativlik hansı üstünlüklərə malikdir?
9. Təlimdə inteqrasiyanın vəzifələrini modelləşdirin.
10. İbtidai sinif fənləri arasındakı inteqrasiyanı sxemləşdirin.

## 1.5. Qeyri-standart təlim formalarını mövzuya uyğun tətbiq edir

### 1.5.1. Qeyri-standart təlim formalarının tətbiqi

Dərs təlimin əsas təşkili formasıdır. O, təlimdə müvafiq mərhələlər üzrə tətbiq olunur. Lakin dərsin məqsədindən, reallaşdırılacaq məzmun standartından asılı olaraq müxtəlif tipli dərslərdən istifadə edilir. Belə dərslərdə müəyyən edilmiş mərhələlərin ya ardıcıllığı pozulur, ya da mərhələlərin bəziləri ixtisar edilir. Belə dərslər çox zaman qeyri-standart dərs hesab edilir. Təlimin digər təşkil formalarına ekskursiyalar, təcrübələr, laboratoriyalar, yarışlar, əyləncəli, rollu oyunlar və s. aiddir.

**Qeyri-standart təlim formaları**

Dərslər strukturuna görə standart və qeyri-standart olurlar. Standart dərslərin strukturu əsasən 7 mərhələli olur. Həmin struktur haqqında çox yazılmış, təhlil edilmişdir.

Müəllimlərin əksəriyyəti standart dərslər təşkil edirlər. Lakin az hallarda təşkil edilən, xüsusilə yenilikçi müəllimlərin təşkil etdikləri qeyri-standart strukturlu dərslər də mövcuddur. Onlar aşağıdakılardır (Sxem 1.1):

1. İnkişafetdirici dərs
   - Burada təlim prosesində müxtəlif dərs elementlərinin və onun məqsədyönlülüyünün qarşılıqlı təsirini təmin edən müxtəlif variantların cəmi nəzərdə tutulur.
2. Yeni materialın öyrənilməsi üzrə dərs:
   - Şagirdlərin təfəkkür fəallığının yüksək həddində şüurlu öyrənmənin nəzərə alınması ilə materialın verilməsidir;
   - Şagirdlərin nəyə diqqət etmələri və yadda saxlamaları göstərilir;
   - Yaddasaxlamanın motivasiyası yaradılır;
   - Məlumat, yaxud texniki yaddasaxlama aktuallaşdırılır;
   - Yaddasaxlamanın nəticəsi və onu qiymətləndirilməsi həyata keçirilir.
3. Bilikləri, bacarıqları, vərdişləri inkişaf etdirən dərs:
   - Şagirdlərə qarşıda duran işin məqsədi ilə bağlı məlumat verilir;
   - Şagirdlər tərəfindən müxtəlif tapşırıq, suallar və təmrinlər yerinə yetirilir;
   - Yerinə yetirilmiş işləri yoxlanılır;
   - Buraxılmış səhvlərin müzakirəsi və onların korreksiyası həyata keçirilir.
4. Bilik və bacarıqları formalaşdıran dərs:
   - Dərsin məqsədi müəyyən edilir;
   - Formalaşdırılmış bacarıq və vərdişlər təkrarlanır;
   - Yoxlama tapşırıqları həll etdirilir;
   - Yaradıcı xarakterli tapşırıqlar həll olunur;

- Dərs nəticə ilə yekunlaşır.

5. Təkrarlama dərsi:
   - Təhsilləndirici, tərbiyəedici, inkişafedici vəzifələr qarşıya qoyulur;
   - Əsas anlayışların, biliklərin, mühüm bacarıqların, fəaliyyət üsullarının təkrarına istiqamətlənmiş ev tapşırıqları yoxlanılır;
   - Keçirilmiş dərsdəki mövzular təkrarlanmaqla yeni müvafiq ev tapşırıqları seçilir;
   - Təkrarın nəticələri ümumiləşdirilir, dərsdə tədris işinin nəticələri yoxlanılır.
6. Biliklərin yoxlanılması üzrə dərs:
   - Burada sakit və işgüzar bir şərait yaradılır;
   - Dərsin nəticələri ümumiləşdirilir;
   - Şagirdlərin yaxşı işləri seçilir, onlar tərəfindən buraxılmış səhvlər təhlil edilir, iş lövhə üzərində aparılır.
7. Bilik, bacarıq və vərdişlərin təsdiqi üzrə dərs:
   - Dərsin başlanğıcı təşkil (şagirdlərin psixoloji əhval-ruhiyyəsi) olunur;
   - Bacarıqların formalaşdırılması üçün zəruri olan yeni biliklər öyrənilir;
   - Dəyişkən şəraitdə tətbiq edilən bilik və bacarıqlar üzrə tapşırıqlar verilir;
   - Bilik və bacarıqlar yaradıcı şəkildə tətbiq olunur;
   - Vərdişlər üzrə tapşırıqlar verilir;
   - Dərsin nəticəsi kimi şagirdlər tərəfindən aparılmış işlər qiymətləndirilir.
8. Təkrarlama-ümumiləşdirici dərs:
   - Şagirdlər tərəfindən fərdi və kollektiv şəkildə müxtəlif tipli ümumiləşdirici və sistemləşdirici xarakterli şifahi və yazılı tapşırıqlar yerinə yetirilir;
   - Yerinə yetirilmiş işlər yoxlanılır və korrektə edilir;
   - Öyrənilmiş materialla bağlı nəticələr formalaşdırılır;
   - Dərsin nəticələri qiymətləndirilir.
9. Qarışıq dərs:
   - Ev tapşırığın yoxlanılır;
   - Biliklər, praktik və zehni bacarıqlar aktuallaşdırılır;
   - Bilik və bacarıqlar ümumiləşdirilir və sistemləşdirilir;
   - Dərsin nəticələri müəyyənləşdirilir.




**Sxem 1.1. Qeyri-standart dərslərin tipləri**

Qeyri-standart təlim formalarına müxtəlif tipli dərslərlə yanaşı fantaziyalaşdırılmış, yarış, açıq fikirlər, turnir, disput, evrika, məqbul, yaradıcılıq, tamaşa, müsabiqə, konfrans, inteqrasiya, oyun, səhnələşmiş nağıl, qarşılıqlı təlim, gəzinti və b. aid edilir. Onların təşkili təhsilin demokratik əsasda qurulmasının nəticəsi hesab olunur.

İbtidai siniflərdə fənlərin tədrisində qeyri-standart təlim formalarına - ekskursiyalara, oyunlara, səhnələşdirilmiş nağıllara, yarışlara daha geniş yer verilir. Belə təlim formaları şagirdlərin müstəqil işlərinə əsaslanaraq onların yaradıcı təfəkkürünü formalaşdırır. Belə təlim formalarının fənn kabinetlərində, laboratoriya və emalatxanalarda, tədris-təcrübə sahələrində, təbiət qoynunda, park və bağlarda keçilməsi təlimin keyfiyyətinə əsaslı təsir göstərir. Belə dərslərdə şagirdlər müəllimin verdiyi təlimat əsasında fərdi və ya kiçik qrupla tapşırığı yerinə yetirirlər. İbtidai siniflərin istənilən fənninin tədrisində qeyri-standart təlim formalarının tətbiqi mümkündür.

Qeyri-standart təlim formasının strukturunu müəyyənləşdirməkdə müəllim sərbəstdir. O, bu fəaliyyətdə şagirdlərin inkişaf səviyyəsini, onların meyil və marağını əsas götürür.

İnformasiyaların çoxaldığı, uşaqların məlumatının artdığı hazırkı şəraitdə dərsləri daha mütəhərrik və dinamik şəkildə qurmaq, onu maraqlı fəaliyyət obyektinə çevirmək tələb olunur. Bu baxımdan qeyri-standart dərslərin imkanları böyükdür.

Qeyri-standart təlim formalarının tətbiqinin üstünlükləri aşağıdakılardır:

- Uşaqlar məqsədyönlü, düşüncəli, zəhmətsevər fəaliyyətə cəlb olunur. Onlar inadkarlıqla dayanaraq, fikirlərini sərbəst, qorxmadan söyləyir, rəqib tərəfin fikrinə hörmətlə yanaşır;
- Məktəblilərdə özünə, öz bacarıqlarına inam artır, şagirdlərarası münasibətlər yaxşılaşır;
- Şagirdlərin qabiliyyətləri üzə çıxır, onlar dərslərə şüurla, həvəslə yanaşır, müəllimə, bir-birinə, valideynlərinə hörmət göstərir, öz mövqelərini biliklə və bacarıqla, dəlil-sübutla müdafiə edir;
- Modelləşdirilən nağıl situasiyaları uşaqları real həyata yaxınlaşdırır, onların yaradıcı və dərketmə təfəkkürünü inkişaf etdirir.

**Təlim ekskursiyaları** sinfin bütün şagird heyəti ilə təbii şəraitdə keçirilən qeyri-standart dərslərdir. Belə ekskursiyalar tədris proqramlarında qeyd olunur, mövzuları proqram əsasında müəyyənləşdirilir. Aparıldığı obyektlərdən asılı olaraq dərs-ekskursiyaların dörd növü ayırd edilir: təbiət, tarix (tarixi yerlərə), incəsənət (muzey və sərgilərə), istehsalat ekskursiyaları.

Daşıdıqları məqsədə görə ekskursiyalar üç tipdə olur:

1. **İlk tanışlıq və ya giriş ekskursiyaları**. Mövzudan qabaq keçirilir və ona maraq oyatmaq məqsədi daşıyır;
2. **Cari və ya müşayiətedici ekskursiyalar.** Mövzu öyrənilən prosesdə keçirilir və nəzəri bilikləri möhkəmlətmək, tətbiq etmək məqsədi güdür;
3. **Yekun ekskursiyalar.** Mövzu öyrənildikdən sonra keçirilir və mövzuya yekun vurmaq, öyrənilənləri sistemə salmaq, tətbiq etmək, yoxlamaq məqsədi ilə təşkil edilir.

Ekskursiyalar bir neçə mərhələdə təşkil olunur:

- Hazırlıq - şagirdlər nəzəri biliyi təkrar edir, müəllim obyektlə tanış olub, ekskursiyanın plan və marşrutunu müəyyən edir;
- Ekskursiyanın keçirilməsi - plan əsasında obyekt haqqında məlumat verilir, şagirdlər müşahidə edir, qeydlər aparırlar;
- Yekun mərhələsi - müxtəlif formalarda, əyani vəsait hazırlamaq, inşa yazmaq, müsahibə aparmaq, kolleksiya və herbari düzəltmək və s. təşkil edilir.

Oyun xarakterli təlim formaları elə bir təlim növüdür ki, burada şagird fəal və yaradıcı şəkildə cəmiyyətin davranış qaydalarını və normalarını, insanların əməyə, ictimai əmlaka

münasibətini, insanlar arasında qarşılıqlı münasibətləri öyrənir. Ona görə də ibtidai siniflərdə fənlərin tədrisində təlimin oyun formalarından geniş istifadə olunur. Dərslərdə qaydalı və qaydasız oyunlardan daha çox istifadə edilir. Yaradıcı oyunlar uşaqlar tərəfindən yaradılan qaydasız oyunlardır.

Qaydalı oyunlar uşaqların davranışlarını idarə etmək qabiliyyətini artırır, onların impulsivliyini azaldır, bununla da xarakterin formalaşmasına yardım edir. Qaydalı oyunlara didaktik, mütəhərrik və rollu oyunlar aid edilir. Doyunca qaydalı oyunlar oynamış uşaqların məktəb intizamına uyğunlaşması daha asan olur. Buna görə də həmin oyunlar dərslərə gətirilir və dərs oyun formasında aparılır.

Didaktik (öyrədici) oyunlar şərti olaraq 3 növə ayrılır: oyuncaqla (müxtəlif əşya) ilə oynanan oyunlar, şifahi və ya sözlü (tapmaca) oyunlar, loto (cüt şəkilli kart) oyunlar. Dərs zamanı didaktik oyunlardan istifadə uşaqlarda yaddaş, diqqət və təfəkkürün inkişafına kömək edir.

Rollu oyun oynayarkən şagird hər hansı bir obrazı canlandırır, öz təəssüratlarını üzə çıxarır. Oyun vəziyyətinin xəyal olduğunu anlayan uşaqlar buna baxmayaraq, olduqca real hisslər, təcrübələr yaşayır, bununla da daxili dünyalarını zənginləşdirirlər. Psixoloqlar hesab edirlər ki, rollu oyun uşaq oyunlarının inkişafının ən yüksək formasıdır. Rollu oyun uşaqların idraki inkişafında böyük əhəmiyyət kəsb edir, onlarda diqqəti və yaddaşı inkişaf etdirir. Tərəfdaşlar ilə birgə oyun zamanı uşaqlar ünsiyyət qurmağı, başqalarının istək və fəaliyyətlərini nəzərə almağı, fikirlərini müdafiə etməyi, təkid etmə qabiliyyətini, həmçinin birgə planlar hazırlamağı və həyata keçirməyi öyrənirlər. Müxtəlif rolları yerinə yetirərkən, uşaq müxtəlif fəaliyyətlərin bütün aspektlərini əhatə etməyə başlayır ki, bu da öz növbəsində insanın düşüncə qabiliyyətini inkişaf etdirməyə, başqasının fikrini qəbul etməyə kömək edir. Oyunların bu müxtəlifliyi fərqli məqsəd daşıyan fənlərin tədrisini şagirdlər üçün daha maraqlı və cəlbedici etməyə imkan yaradır. İbtidai siniflərdə aşağıdakı dərs-oyunlardan istifadə edilməsi imkanları mövcuddur. Təhsilin istənilən pilləsində oyunlardan məqsədli istifadə şagird nailiyyətinə müsbət təsir edir.

Təlim xarakterli oyunlar və onların dərslərdə tətbiqi dərsləri standartdan çıxarır, onun daha maraqlı və keyfiyyətli olmasını təmin edir. Təlim xarakterli oyunlar uşaqlara ətraf aləmi dərk etmək, ona qayğı göstərməklə yanaşı, onun mühafizəsinin həyata keçirilməsində iştirakını təmin edir. Oyun şagirdləri təbiətlə və onları əhatə edən insanlarla harmoniyada yaşamağı öyrədir. Oyunlar şagirdlərdə təbiət hadisələrinin qarşılıqlı əlaqələri haqqında təsəvvür yaradıb, müşahidə, müqayisə, sistemləşdirmə, analiz etmə, ümumiləşdirmə kimi bacarıqları formalaşdırır. O, uşaqlarda yaddaş, diqqət, düşüncə, təəssürat kimi psixi prosesləri inkişaf etdirir.

Oyunlar uşaqların ətraf aləm haqqında biliklərini zənginləşdirir, əxlaqi anlayışların formalaşmasına kömək edir, ətraf mühitə humanist münasibətin yaranmasına səbəb olur. Oyunlar forma və məzmununa görə fərqlənirlər: didaktik, rollu, işgüzar, imitasiya, viktorina, çalışmalar, hərəkətli, kompüter, səyahət, turnir və s. Oyunlar aşağıdakı növlərdə olur: hərəkətli oyunlar; dramatik; istehsalat (ovçuluq, bağçılıq, əkinçilik və s.); məişət (ictimai və ailəvi); idman oyunları (sadə yarışlar, əşyalarla yarış), kompüter oyunları və s.

Didaktik oyunlar biliklərin möhkəmləndirilməsi, tətbiqi məqsədi ilə həyata keçirilir. Onlar təlimə emosionallıq gətirir, fənnə marağı artırır. Didaktik oyunlara idrak oyunları, səhnələşdirmə, stolüstü və işgüzar rollu oyunlar, oyun situasiyaları, epizodik əyləncələr daxildir. Son vaxtlar işgüzar rollu oyunlardan geniş istifadə olunur.

Ana dilinin tədrisində didaktik oyunlara daha çox yer verilir. Burada "Söz oyunu", "Sözləri tap", "Sözün axırıncı hərfi", "Buraxılmış hərf", "Heca və ya cümlədə sözün tapılması", "Şəklin sözlə ifadəsi" kimi oyunlara üstünlük verilir. Belə oyunlarla biliklər möhkəmləndirilir və onların tətbiqi hafizəni gücləndirir. Belə oyunlar ibtidai sinif şagirdlərini daha çox cəlb edir, dərsdə mənimsəməni yüksəldir.

Riyaziyyat dərslərində, xüsusilə, hesablamaların aparılmasında, həndəsi biliklərin verilməsində didaktik oyun metodlarından istifadə imkanları genişdir.

Həyat bilgisinin, təsviri incəsənət, musiqi, informatika fənlərinin tədrisində də didaktik oyunların müxtəlif növlərindən istifadə edilir. Bu fənlərin mövzuları əyləncəli və rollu oyunlardan istifadəyə daha çox uyğundur. Dərslərdə belə oyunların təşkili şagirdlərin əhval-ruhiyyəsini yüksəldir, sağlamlığına müsbət təsir göstərir. Belə dərslərdə şagirdlər yüksək fəallıq göstərir, təlim bacarıqlarını inkişaf etdirirlər. Bütün bunlar təlimin keyfiyyətini yüksəldir, vaxtdan səmərəli istifadəni təmin edir.

Didaktik oyunların təşkilində müəllim diqqətli olmalıdır. Eyni oyunu dəfələrlə təkrarlamaq şagirdləri yorur, onların marağını azaldır. Ona görə də müəllim daha maraqlı və rəngarəng oyun formaları seçməlidir. Müəllim müxtəlif rollu oyunlar hazırlamalı, bu işdə valideyn və şagirdlərin bacarıqlarından istifadə etməlidir.

Didaktik oyunların tətbiqi şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafına stimul verir, onlarda həyat bacarıqlarını inkişaf etdirir, fəallığı yüksəldir, fənnə marağı artırır. Bütün bunlar təlimin keyfiyyətinə müsbət təsir göstərir.

Oyun fəaliyyətli dərslərin çox faydalı və maraqlı olmasına baxmayaraq, bütün mövzuların tədrisində onlardan istifadə etmək mümkün olmur. Belə ki, oyunlar mövzulara, bəhslərə, dərsin tiplərinə uyğun olaraq seçilməli və həyata keçirilməlidir.

Oyun fəaliyyətli dərslərin təşkilində müəllim bir sıra prinsipləri gözləməlidir:

- Oyunlar biliyin təkrarlanıb möhkəmləndirilməsinə, bilik və bacarıqların vərdiş halına keçməsinə xidmət etməlidir;
- Yeni bir-birindən fərqli oyunlar tərtib edilməli və şagirdlərlə həyata keçirilməlidir;
- Əyləncəli oyunlar, oyun fəaliyyətli dərslər illik iş planında öz əksini tapmalıdır;
- Təlim xarakterli oyunlar cazibədar, maraqlı, məzmunlu olmalı, şagirdlərin yaş xüsusiyyətlərinə uyğun gəlməlidir;
- Oyunlar şagirdləri yormamalı, səhhətinə mənfi təsir göstərməlidir.

Oyun fəaliyyətli dərslərdə müəllim nizam-intizama, oyun qaydalarının pozulmamasına nəzarət etməli, lazım gəldikdə şagirdlərə kömək göstərməli, onların bütün fəaliyyətini izləməklə fəaliyyətlərini obyektiv qiymətləndirməlidir.

**Səhnələşdirilmiş nağıllar** da qeyri-standart dərslərin bir növü hesab olunur. Nağıllar vasitəsi ilə şagirdlər insan həyatının dəyərlərini yenidən qiymətləndirmək imkanlarını əldə

edirlər. Ona görə də belə təlim formalarını təşkil edərkən qocalıq və aclıq, sədaqət və borc; hər insanın valideyni olması, valideynlər öz uşaqlarını itirməməsi, güclü və ağıllı, dosta düzgün qiymətin verilməməsi, dostun küsməsi, öz yerinin sahibi olması peşəkarlığın, xeyirxahlığın yaxşı olması deməkdir, axmaqlıq, özündən razılıq, yaltaqlıq, paxıllıq, insanın zəifliyinin və gücsüzlüyünün səbəbi olması kimi mövzulara dair nağılların seçilməsi məsləhətdir. Belə nağılların səhnələşdirilməsi şagirdlər tərəfindən böyük həvəslə qarşılanır, onların əsasında dəyərlər sistemi formalaşır. Məhz bu biliklərdə və bacarıqlarda (onlar yalnız həyatdan götürülüb və yalnız həyat üçündür) uşağın gücü və müvəffəqiyyəti durur, onun həqiqi bir insan kimi formalaşmasının təməli qoyulur. “Özün dəyişə bilmirsənsə, başqalarını dəyişə bilməzsən” və yaxud “yaxınlarının qədrini bilməsən, yadlar tərəfindən yeyiləcəksən”- bu, bütün nağılların ana xəttidir. Bu fikir, meyar ətrafında uşaqlar debatın əsas mövzusunun müzakirəsində təsdiq və təkzib mövqeyindən iştirak edirlər.

Səhnələşdirilmiş nağıl formasının birinci mərhələsi nağılın oxunması ilə başlayır. İkinci mərhələdə əsas anlayışlar müəyyən edilir və onlar açıqlanır, bunlar müxtəlif yanaşmalarla söhbət, müzakirə, şəkillər üzrə iş, muzeyə, zooparka səyahət və s. həyata keçirilir. Dərsin üçüncü mərhələsində, nağılda heyvanların insan obrazlarında ifadəsi nəzərdə tutulur. Dördüncü mərhələdə nağıl bir neçə hissəyə bölünür və adlandırılır.

Dərs-yarışlar da şagirdlərdə fəallığı, məsuliyyət hissini artıran, onları daha çox maraqlandıran təlim formasıdır. Burada mövzuların öyrənilməsi yarış şəklində təşkil edilir. Belə dərslər ziddiyyət xarakterli mövzuların tədrisində təşkil olunur. Ziddiyyətlə problemə münasibət baxımından şagirdlər 2 komandaya bölünür. Komandalar arasında bilik yarışı, viktorina və s. keçirilir. Komandalar sual və tapşırıqlar hazırlayır, əks komanda üzvlərinə verir. Hansı qrup daha çox sual və ya tapşırığı həll edərsə, qalib hesab olunur.

## Tələbələr üçün fəaliyyətlər

1. Qeyri-standart təlim formalarını sxemlə ümumiləşdirin.
2. Qeyri-standart təlim formalarının şagird üçün əhəmiyyətini izah edin.
3. Səhnələşdirilmiş nağılın mərhələlərini sxemləşdirin.
4. Qeyri-standart təlim formasının nümunəsini hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Qeyri-standart təlim formalarını mövzuya uyğun tətbiq edir”**

1. Qeyri-standart dərslərin xüsusiyyətlərini cədvəllə ümumiləşdirin:

| **Qeyri-standart dərslər** | |
|---|---|
| Formaları | Əsas xüsusiyyətləri |
| 1.<br>2.<br>3.<br>4.<br>5.<br>6.<br>7.<br>8.<br>9. | |

2. İkinci sinif üzrə qeyri-standart dərs layihəsini işləyin.
3. Standart və qeyri-standart təlim formalarının tətbiqi yollarını göstərin.
4. Venn diaqramında ekskursiya ilə oyun təlim formasını müqayisə edin.
5. Nə üçün qeyri-standart təlim formalarına şagirdlər daha çox maraq göstərirlər?
6. Birinci sinif şagirdləri üçün təlim xarakterli oyunun mexanizmini qeyd edin.
7. Qeyri-standart təlim formalarının üstünlükləri əhəmiyyət şkalası üzrə düzün.
8. “Qeyri-standart təlim formaları” adlı krossvord hazırlayın.

## 1.6. Təlim prosesində oyun texnikalarını tətbiq edir

### 1.6.1. Təlimlə bağlı oyun texnikaları və onların tətbiqi

Oyun təlim metodu kimi yaşlı nəslin kiçiklərə insanların qədimdən tutmuş müasir dövrə qədər istifadə etdikləri təcrübəni verməkdən, ötürməkdən ibarətdir. Uşaqlar üçün çoxlu texnikalar mövcuddur ki, müəllim onları dərslərində tətbiq etməyi bacarmalıdır. Oyun texnikaları təlimdə gərginliyi götürmək, şagirdlərin fəaliyyətini canlandırmaq məqsədi güdür.

Məktəblilərin inkişafında didaktik əyləncəli oyunların əhəmiyyəti böyükdür. Mütəhərrik oyunlar gənc nəslin fiziki tərbiyəsinə xidmət edirsə, zehni oyunlar şagirdlərin təfəkkürünün inkişafına xidmət edir. Bunların hər ikisindən tədrisdə istifadə edilməsi şagirdlərin həm zehni inkişafına, həm də onların gümrah böyüməsinə, orqanizminin sağlamlığına səbəb olur və biliyin hərtərəfli mənimsənilməsinə zəmin yaradır. Didaktik oyunların məzmunu estetik tərbiyənin tələblərinə cavab verdiyindən şagirdi maraqlandırır, əyləndirir və onu yormur. Nəticədə çətin mövzuları şagird asanlıqla başa düşür və bilikləri mənimsəməkdə çətinlik çəkmir. Məzmun şagirdin hafizəsində təkrarlanır, dərin iz qoyur.Buna görə də mövzu heç vaxt yaddan çıxmır. Oyunların köməyi ilə şagirdlərdə çeviklik, cəldlik, bacarıq, qüvvələrini səfərbər etmək, hazırcavablıq kimi keyfiyyətlər, o cümlədən idrak fəallığı yüksəlir. Çünki burada uşağı maraqlandıran, onun zehni fəaliyyətinə təsir edən şəkillər, sxemlər, cədvəl və qrafiklər, müəyyən məqsəd daşıyan tapmaca və atalar sözləri, əyləndirici suallar və s. formalar əksini tapır.

Dərslərdə tətbiq etmək üçün oyun texnikalarının seçilməsində bir sıra prinsiplər nəzərə alınmalıdır. Oyun texnikaları:

- Mövzuya, şagirdlərin yaş və bilik səviyyəsinə uyğun olmalıdır. O, tədris edilən mövzunun asan mənimsənilməsinə xidmət etməlidir;
- Yalnız dərs prosesində deyil, dərsdənkənar tədbirlərdə də tətbiq edilməlidir;
- Qeyri-sabit olmaqla, şagirdlərin maraq və meyillərinə uyğun təşkil edilməli, onları əyləndirməli, güldürməli, bilik və bacarıqlarını möhkəmləndirməlidir;
- Lazımi illüstrasiyalar, şəkil və tablolarla zənginləşdirilməli, şagirdlərin idrak fəallığının artırılmasına xidmət göstərməlidir;
- Şagirdlərin qruplara, komandalara bölünməsinə və onlar arasında yarış xarakteri daşımasına imkan yaratmalıdır;
- Tətbiq edilərkən şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirməlidir;
- Müxtəlif mövzularla digər fənlərlə, həyatla əlaqə, inteqrasiya yaradılmasına imkan verməlidir.

Dərsdə oyun texnikalarını tətbiq edərkən müəllim təlim problemlərinin həllinə istinad etməli olur. Şagirdlər qarşısında təlim problemləri oyun texnikaları əsasında qoyulur.

Oyun texnikaları pedaqoji problemlərin həllinə xidmət edir. Burada iki və daha çox adam iştirak edir. Oyunda iştirakçılar birgə fəaliyyətdə və qarşılıqlı ünsiyyətdə olurlar. Bu

zaman "subyekt-subyekt" münasibətlərinin metodoloji sxemi reallaşır, şagirdlərin yaradıcı təfəkkürü inkişaf edir.

Oyun texnikalarında hər bir iştirakçı problem-situasiya və iştirakçılarla qarşılıqlı ünsiyyət şəraitinə salınır. İşgüzar oyun texnikasının problem-xarakter daşıması, tərəf-müqabilə suallar verilməsi şagirdləri qarşılıqlı ünsiyyətə və beləliklə də cavabın birgə axtarışına təhrik edir.

Şagirddə bilik və bacarıqların formalaşdırılması kimi ciddi və mürəkkəb vəzifə o qədər də ciddi görünməyən oyun prosesində reallaşdırılır. Bu isə şagirdə bütün idrak və emosional potensiallarını nümayiş etdirməyə imkan yaradır. Müəyyən fəaliyyətə başlayan adam həmin fəaliyyət növü üçün səciyyəvi olan bilik, bacarıq və vərdişlər sisteminə, habelə cəmiyyətdə, istehsal prosesində başqa adamlarla ünsiyyətə girmək bacarığına malik olurlar.

Oyun texnikalarında əməkdaşların biri-birinə suallar vermək, yeni informasiyalara münasibətlərini bildirmək, öz nöqteyi-nəzərini nümayiş etdirmək imkanı yaranır. Dialoq, müzakirə, mübahisə maraq doğurur və mövqelərin yaxınlaşmasını, qoyulmuş problemin birlikdə həll edilməsi şəraitini yaradır.

İştirakçıların sərbəstləşməsinə və müsbət iş iqliminin yaranmasına imkan yaradan oyun texnikaları çoxdur. Təlimdə daha çox psixoloji fəallaşdırma oyun texnikalardan istifadə olunur. Bu fəaliyyətin məqsədi:

- Təhsilalanlara sərbəstlik vermək;
- Təhsilalanlarda yaranan gərginliyi aradan qaldırmaq;
- Şagirdlərə bir-birilə dialoq qurmaq imkanı vermək;
- Öyrədici mühiti yaratmaqdır.

Təlimdə tanışlıq, özünü təqdimetmə oyun texnikaları daha maraqla qarşılanır. Məsələn, "Dairəvi təqdim olunma" oyun texnikasında şagirdlərə dairə üzrə düzülmək təklif edilir. Sonra hər iştirakçı adını deyərək və onu müəyyən hərəkət ilə müşayiət edərək özünü təqdim etməli olur. Hər növbəti iştirakçı əvvəlki iştirakçıların adını və hərəkətlərini təkrarlayır, sonra isə özünü təqdim edir, jestlə və ya hərəkətlə öz adını müşayiət edir. Beləliklə, axırıncı iştirakçı bütün iştirakçıların adlarını və hərəkətlərini təkrar etməli, sonra isə özünü təqdim etməlidir. Gülməli hərəkətlərdən istifadə olunması təqdimatı daha da şən edir.

Sadalanan oyun texnikaları təlim prosesinin məzmununa, mahiyyətinə, məntiqi inkişafına, daxili əlaqələrinə, tərkib strukturlarına tam uyğundur. Onlar vəhdətdə tətbiq edildikdə təlim-tərbiyə funksiyalarının reallaşdırılmasını asanlaşdırır.

Təlim prosesində tətbiq olunan oyunların qarşısında aşağıdakı təlim-tərbiyə məqsədi durur:

- Şagirdlərin müxtəlif fəaliyyətlərində əldə etdikləri bilikləri dərinləşdirmək, sistemləşdirmək, genişləndirmək, möhkəmləndirmək;
- Şagirdlərə hərtərəfli şəxsiyyətə xas olan professional keyfiyyətlər aşılamaq;
- Şagirdlərin tədris materialını hansı səviyyədə mənimsəmələrinə nəzarət etmək və korreksiya işi aparmaq.

Təlimdə oyun texnikaları tətbiq edildikdə bir sıra fəaliyyətlər həyata keçirilir:

- Oyun texnikası tədris edilən mövzunun məqsədlərinə yönəlir və iştirakçıların sosial kontekstdə fəaliyyətini təmin edir.
- Oyun texnikası pedaqoji model olaraq didaktik (öyrədici) və tərbiyəedici məqsədləri reallaşdırır. Şagirdlərin müvafiq bacarıq və vərdişlər sistemini genişləndirir.
- Oyun texnikasının qaydaları sadə variantda modelləşdirilmiş real proses və hadisələrin xüsusiyyətlərini əks etdirir. Oyunun qaydalarına (reqlamentin gözlənilməsi; diskussiya xarakterli suallar, informasiyaların aktiv formalarda təqdim edilməsi və s.) şagirdlərin tabe olmasını əsaslandırır.
- Oyun texnikası qəbul edilmiş qərarlara nəzarəti, özünənəzarəti, oyun iştirakçılarının fəaliyyətini və fərdi keyfiyyətlərini qiymətləndirməyi, iştirakçı qrupların işinin rasional gedişini təmin edir. Oyun texnikası faktik nəticələri şərtləndirən səbəblərin təhlili və ümumiləşdirilməsi ilə başa çatır.

Oyun texnikası tətbiq edildikdə onun metodik təchizatına, təlim vasitələrinin əldə edilməsinə ciddi yanaşılmalıdır. Oyun texnikası üçün təlimin texniki vasitələrindən, xüsusilə kompüterdən istifadə edilməsi vacibdir.

### 1.6.2. İbtidai siniflərdə daha çox tətbiq olunan oyun texnikaları

**Tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirən oyun texnikaları.** Bu texnikalardan istifadə edilməsi şagirdlərin tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirir. Bunlardan ən geniş yayılanı «Danışan əşyalar» rollu oyunudur. Bu texnika bir neçə variantda həyata keçirilir. Cansız obyektlərin adından hekayə və ya səhnəcik, lətifə yazmaq texnikası mətbəxdə, sinif otağında, şkafda, penalda və başqa yerlərdə olan əşyaların adından yazmaqla həyata keçirilir. Qənd qabındakı, yağlı bulkanın üstündəki, masaya səpələnmiş şəkər tozu və sair, belə parçalar işləmək mümkündür. Ətrafınızdakı obyekt və hadisələrin adından qısa monoloq deyilməsi də bu texnikanın bir variantıdır. Şagirdlər ətrafdakı hər hansı bir əşyanı seçir, onun adından qısa monoloq hazırlayır. Bütün iştirakçılar hazır olduqdan sonra ardıcıllıqla monoloqlar dinlənilir. Belə texnikalardan biri səhnələşdirmə və vəziyyətin müxtəlif nöqteyi-nəzərdən qiymətləndirilməsidir. Müxtəlif obyektlər, hadisənin iştirakçıları, əşyalar, canlılar üzrə səhnəcik hazırlanır, şagirdlər tərəfindən rollar ifadə edilir.

**Yaradıcılığa yönəldilmiş** texnikalar şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirir, onların istedadını üzə çıxarır. Şagirdlər yaradıcı əsərlər yaradılmasına cəlb edilir. Yaradıcı əsərlərə şeirlər, hekayələr, şəkillər, maketlər və başqaları aiddir.

Alqoritm üzrə inşa texnikası bütün siniflə aparılır. Qrupun şagirdləri dairəvi şəkildə əlində kağız və qələm otururlar. Müəllim onları təlimatlandırır. Qeyd edir ki, sizə verəcəyim tapşırığı yazılı şəkildə yerinə yetirmək lazımdır. Vərəqin yuxarı hissəsində 4 hərfi qeyd edin: B, G, H, Y. Mənim işarəmlə işə başlayacaq və mümkün qədər çoxlu cümlə yazacaqsınız. Bir məsələni nəzərinizdə saxlayın ki, yazdığınız bütün cümlələrin birinci sözü B, ikinci sözü G, üçüncü sözü H, IV sözü isə Y hərfləri ilə başlamalıdır. Məsələn, «Bu gün hava yaxşıdır».

Tapşırığın yerinə yetirilməsi müddəti göstərilir.

Əşyaların qeyri-adi istifadəsi texnikasında əşyaların qeyri-adi istifadəsi hər hansı əşyanın yeni funksiyada işlənilməsinin göstərilməsidir. Qeyri-adi istifadə bütün siniflə aparılır. Şagirdlər dairəvi şəkildə əyləşirlər. Müəllimin əlində top olur. O, təlimatda qeyd edir ki, indi topu atıb kiməsə əşya adı çəkməklə növbəti işimizə başlayacağam. Top çatan şəxs həmin əşyadan istifadənin 3 qeyri-adi üsulunu söyləməlidir. Məsələn, topu ataraq mən deyəcəyəm «çəkic». Əsas vəzifəsindən başqa çəkicdən masanın üstündəki kağızların dağılmasının qarşısını almaq məqsədilə (basma) kimi, ona ip bağlayaraq inşaat işlərində şaqul kimi də istifadə edilə bilər kimi xüsusiyyətlər deyilməlidir.

**«Nə olar əgər…»** kimi proqnozlaşdırma cütlərlə aparılır. “Günəş itsə nə olar?”, “Uşaqlar məktəbdə oxumasalar nə olardı?”, “Havada oksigen qazı olmasa nə baş verərdi?” suallarına cavablar düşünülür. Bu mövzuda inşa yazmaq və ona şəkillər çəkmək də mümkündür.

**Əşyaların canlandırılması** texnikasında şagirdlərə təklif edilir ki, canlandırılmış əşyalarla (çaydan, çətir, sabun və s.) bağlı əhvalat fikirləşsinlər və söyləsinlər.

**Atalar sözləri ilə iş** texnikası 2 variantda tətbiq edilir. Birinci variantda öyrənilən obyekt və ya hadisə üzrə atalar sözü, hikmətli söz və ya məsəl seçilir. İkinci variantda isə atalar sözü, hikmətli söz və ya məsəl qurulur.

**Fantaziyanın binomu** texnikasında fantastik ideyanın alınması nəzərdə tutulur. Məsələn: «it» və «şkaf». İdeyalar: it şkafda, şkaf itin üstündə, şkaf itin içində, itin şkafı, itdən şkaf. Bu kombinasiya binomu təklif edilir.

**Fantaziyanın polinomları** texnikasında məqsəd: yaradıcı təfəkkürün inkişaf etdirilməsidir. Proses bütün siniflə 2 variantda aparılır. Birinci variantda uşaqların masalarının üstünə rəngarəng əşya və hadisələr əks edilmiş şəkillər üzüaşağı qoyulur. Müəllim ardıcıllıqla hər bir şəkil üzrə suallar verir (Kim idi? Harada idi? Nə edirdi? Nə dedi? İnsanlar nə dedi? Nə ilə bitdi (sona çatdı?). Uşaqlar isə müəyyən ardıcıllıqla şəkilləri çevirir və hər növbəti suala həmin şəkillərin təsvirinə əsaslanaraq cavab verməyə çalışırlar. Çətinlik çəkənlərə yoldaşları kömək edirlər. Oyun texnikasının sonunda uşaqların cavablarından istifadə edərək hamı üçün bir hekayə fikirləşmək mümkündür.

**İkinci variantda** uşaqlar 3 hərfdən ibarət bir söz tapırlar. Yenə əşya şəkilləri əks edilmiş kartoçkalardan istifadə edirlər. Məsələn, uşaqlar deyir «büdcə». Onu səslərə bölür və yalnız həmin səsə uyğun sözlər yazırlar və ya şifahi deyirlər.

«B» – Bakı, bazar, büdcə, baba....

«Ü» – ütü, üz, üzərlik…

“D” – dovşan, dəvə, dərə, dərs....

“C” – coğrafiya, Cəfər, corab, cücə…

“Ə” - ərik, əmi, əzgil, əsli....

**Təşkilati texnikaların tətbiqi** şagirdlərə təşkilatçılıq bacarıqları aşılayır. Dərslərdə

onun bir neçə növündən istifadə edilir.

**Ziqzaq və ya mozaika** texnikası müəllimin sinfi bir neçə qrupa bölərək şagirdlərin işini koordinasiya edəcəyinə əsaslanır.

**Karusel** texnikasının tətbiqində məqsəd qısa vaxt ərzində interaktiv şəkildə mövzunu əhatəli keçmək, bütün şagirdlərin məsələlərin həllində iştirak etməsini təmin edərək onların məntiqi, tənqidi və yaradıcı düşünməsini təmin etməkdir. Texnikanın tətbiqi ilə fərdin və qrupun məsuliyyəti artırılır, ünsiyyət və qrupdaxili qarşılıqlı əlaqə prosesləri inkişaf etdirilir. Bunun üçün müəllim öyrəniləcək mövzuya dair 4 və ya 5 açıq sual, yaxudtapşırıq seçir. Sinfi 4 və ya 5 qrupa bölür, hər qrupa 1 suala aid cavab yazmağı tapşırır. Müəyyən edilmiş vaxt qurtardıqdan sonra hər qrup öz yazdıqları iş vərəqlərini yanındakı (saat əqrəbi istiqamətində) qrupa ötürür. Hər qrup bu iş vərəqlərində olan yazıları nəzərdən keçirir və öz əlavələrini edirlər. Bu proses o vaxta qədər təkrarlanır ki, qruplar bütün iş vərəqlərini nəzərdən keçirib əlavələr etmişlər. Sonda iş vərəqi ilkin qrupa qaytarılmışdır. Sonra təqdimatlar və onların müzakirəsi başlayır. Şagirdlər ümumiləşdirmələr aparır və mövzu yekunlaşdırılır.

Texnikanın tətbiqi prosesində seçilən suallar və ya tapşırıqlar mövzunu əhatə etməli, aktual məsələlərə həsr olunmalıdır. Müəllim vaxta qənaət etməli və ötürmə prosesinin həyata keçirilməsini diqqətdə saxlamalıdır. İş vərəqləri böyük ölçüdə hazırlanmalı, qruplara işləmək üçün şərait yaradılmalıdır.

Müəllim bir çox obyektlərin öyrədilməsi ilə bağlı mövzuların tədrisində belə bir oyun texnikasını tətbiq edir. Sinif şagirdləri iki qrupa bölünür. Mövzuya uyğun olaraq bir obyektin adını söyləyir. Birinci qrup şagirdləri obyektin axırıncı hərfi ilə gələn digər obyektin adını söyləyir, digər qrup isə onların adını çəkdiyi obyektin axırıncı hərfi ilə başlayan digər obyektin adını deməlidir. Hansı qrup təkrara yol verərsə, yaxud obyekt adı tapa bilməzsə, uduzmuş olur. Uduzan komanda hər hansı bir təcrübə göstərməli, mövzu ilə bağlı tapmaca, şeir, atalar sözü, bayatı və s. söyləməlidir. Bu texnikanı tətbiq etmək üçün şagirdlərin mövzuları daha yaxşı bilməsi, şüurlu mənimsəməsi lazım gəlir ki, onun yaddaşında daha çox obyekt adı qalsın və tez cavab tapa bilsin.

«Kim tez və çox?» oyununda müəllim sinif şagirdlərini üç qrupa ayırır. Qruplara müxtəlif obyektlər üzrə daha çox ad tapmağı və sadalamağı tapşırır. Kim çox və tez tapşırığı yerinə yetirərsə, həmin qrup qalib sayılır. Sonra müəllim hər bir qrupa cədvəl çəkərək adlarını çəkdikləri obyektləri öz yerində yazmağı tapşırır.

Texnikanı başqa variantda da təşkil etmək mümkündür. Müəllim şagirdləri 2, 3, 4, 5 nəfərlik və s. qruplara ayırır. Birinciyə A, digərinə B, o birisinə C və s. hərflərlə gələn əşya adlarını söyləməyi və yazmağı tapşırır. Hansı komanda daha tez və çox əşya adı söyləmişsə, onlar qalib hesab edilir. Oyun cansız və canlı təbiət komponentləri, su, hava, torpaq, bitki, heyvanlar, insan, sağlamlıq, iqtisadi və sosial məsələlərə həsr olunur.

«Nömrə de» oyununu həyata keçirmək üçün müəllim əvvəlcədən bir lövhə götürür. 20 xanaya bölür və nömrələyir. Hər xananın arxasını önə çevirmək mümkün olur. Xanaların arxasında isə müəyyən bir söz və ya şəkil verilir. Oyunda bütün sinif şagirdləri iştirak edir. Müəllim bir şagirdə nömrə deməyi təklif edir. Şagird hər hansı bir nömrəni söyləyir. Nömrə

yazılmış xana çevrilir. O biri üzündəki şəklə uyğun olaraq şagird məlumat verir. Əgər şagird tam və düzgün cavab verərsə, digər nömrənin çevirməsi təklif olunur, xallarını artırır. Üç dəfə nömrə söyləmək mümkündür. Əgər söz və ya şəkil haqqında heç nə deyə bilmirsə, onda digər şagird cavab verir, onu əvəz edir, nömrənin açılması da həmin şagirdə həvalə olunur.

Dərslərdə tapmacaların qurulması üçün təsvir, inkar (elədir, lakin o deyil), metafora, sadə müqayisə, həmişə nə iləsə (əlaqələndirici ilə) fərqləndirmək kimi 4 üsuldan istifadə edilir. Tapmacanın tərkib hissələrinə əşyanın təsviri, sirli və ya proza ilə ifadə edilməsi, cavabların düşünülməsi aiddir.

İbtidai sinif fənlərinin tədrisində tapmacalardan istifadə edilməsi şagirdləri hazırcavablığa hazırlayır, onların intellekt səviyyəsini yüksəldir, məntiqi təfəkkürünü inkişaf etdirir. Ona görə də müəllim dərsin müxtəlif mərhələlərində mövzuya uyğun tapmacalardan istifadə edir. Bəzən də mövzunun imkanlarını nəzərə alaraq dərs-yarış və ya dərs-tapmaca formalarını tətbiq edir.

İbtidai siniflərdə fənlərin tədrisində yarış oyunlar texnikasından da istifadə edilməsi dərslərin keyfiyyətini yüksəldir. Bunun üçün aşağıdakı nümunələrdən istifadə edilməsi məsləhətdir.

«Kim daha çox?» texnikasında məqsədlərdən biri obyektlərin xüsusiyyətləri haqqında olan bilikləri aktuallaşdırmaqdır. Buraya obyektin mümkün qədər çoxlu sayda əlamətlərini xüsusiyyətlərini qeyd etmək daxildir. Tapşırıq şifahi və ya yazılı yerinə yetirilə bilər. Burada hamıya eyni tapşırıq verilir. Daha çox əlaməti qeyd edən şagird qalib sayılır.

“Kim daha cəld?” texnikası təfəkkürün çevikliyini formalaşdırır. Bunun tətbiqi üçün bir neçə növdə tapşırıqlar verilir.

**1-ci tapşırıq.** Qrup şagirdləri dairəvi otururlar. Müəllimin əlində top olur. O, şagirdləri təlimatlandırır. Təsəvvür edin ki, bu (müəllim topu göstərir)portağaldır. İndi biz onu bir-birimizə ataraq onun əlamətlərini deməliyik. Çalışın, əşyanın söylənilən xüsusiyyətləri təkrarlanmasın və hamı oyunda iştirak etsin. Müəllim təsəvvür olunan portağalın hər hansı bir xüsusiyyətini söyləyərək, misal üçün «şirin» – deyib, fəaliyyətə başlayır. Tapşırığı yerinə yetirən zaman müəllim şagirdləri daha cəld işləməyə təhrik edir, onları fəallaşdırır.

**2-ci tapşırıq.** Qrup şagirdləri dairəvi otururlar. Müəllim qeyd edir ki, əlindəki topu bir-birimizə ataraq hər hansı bir rəngi, topu tutduqda isə bu rəngdə olan obyekti deməliyik. Söylənilən rəng və obyektlər təkrarlanmamalıdır. Oyunda bütün şagidlərə iştirak etmək imkanı verilir.

**3-cü tapşırıq.** Qrup şagirdləri dairəvi otururlar. Müəllim qeyd edir ki, əlindəki topu bir-birimizə atmalıyıq. Topu atan üç sözdən birini deyir: «Hava», «yer» və ya «su». Əgər «hava» sözü deyilirsə, topu tutan şəxs quş adı, ikinci halda («yer») məməli heyvan, «su» dedikdə isə balıq adı deyir. Cavabı mümkün qədər tez vermək lazımdır.

Oyun texnikalarının səmərəli tətbiqi üçün bir sıra tövsiyələr verilir:

1. Oyun texnikalarının ona böyük ehtiyac olan yerdə keçirilməsi məqsədəuyğundur;
2. Oyunun hazırlanmasına sistemli yanaşmaq çox faydalıdır;

3. Oyun texnikalarının iştirakçılarının fənn və sosial kompetensiyallığı nəzərə alınır;
4. Oyun texnikalarının struktur komponentlərində maraqlı situasiyaların təşkili vacibdir;
5. Oyunun özünü nizamlama prinsiplərinə əsaslanması məqsədəuyğundur;
6. Şagirdlərin iş rejimi oyun prosesində standart təlim forması çərçivəsinə sığmır. Ona görə onların modelləşdirilən istehsalat prosesinin məntiqinə tabe edilməsi müsbət nəticələnir.

## Tələbələr üçün fəaliyyətlər

1. Oyun texnikalarının dərslərdə tətbiqi əhəmiyyətini izah edin.
2. Oyun texnikalarının təlim-tərbiyə məqsədlərini modelləşdirin.
3. Oyun texnikalarını sxemlə ümumiləşdirin.
4. Oyun texnikalarının tətbiqi imkanlarını qeyd edin.
5. Oyun texnikaların dərslərdə tətbiqi yollarını ümumiləşdirin.
6. Bir oyun texnikasından istifadə edərək dərs nümunəsini hazırlayın və nümayiş etdirin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Təlim prosesində oyun texnikalarını tətbiq edir"**

1. Aşağıdakı texnikalardan hansı təlimdə gərginliyi götürür, şagirdləri fəallaşdırır:

A) Oyunlar;
B) Metodlar;
C) Prinsiplər;
D) Tapşırıqlar.

2. Oyun texnikalarının tətbiqi prinsiplərinə uyğun olanları seçin:
   1. Şagirdlərin yaş səviyyəsinə uyğunluq;
   2. Qiymətə təsiri;
   3. Qruplara bölmə;
   4. Şagirdləri əyləndirməsi;
   5. Şagirdlərin idrak fəallığının artırması;
   6. Şagirdləri yorması;
   7. İnteqrasiyaya imkan verməməsi;
   8. Şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirməsi;
   9. Tədqiqat aparması;
   10. Digər fənlərlə inteqrasiya yaratması.

A) 1, 2, 3, 8, 9;
B) 1, 4, 5, 8, 10;
C) 4, 6, 7, 9, 10;
D) 3, 4, 6, 7, 9.

3. Aşağıdakılardan hansı təlim oyunlarının növləridir?

A) Didaktik oyunlar; işgüzar oyunlar, rollu oyunlar, əyləncəli oyunlar;
B) İdman oyunları, bilik yarışları, rollu oyunlar, kitab üzrə iş;
C) Yarış-oyunlar, əyləncəli oyunlar; müşahidə, tədqiqat;
D) İnteqrasiya, didaktik oyunlar, krossvord həlli, təqdimat.

4. Aşağıdakı fikirləri verilmiş anlayışlarla tamamlayın:
   1. Dərsdə oyunlar tətbiq edilərkən________________________ istinad edilir.
   2. Oyunda iştirakçılar ________________________və qarşılıqlı ünsiyyətdə olurlar.
   3. Şagirddə bilik və bacarıqların formalaşdırılması kimi ciddi və mürəkkəb bir vəzifə o qədər də "ciddi" görünməyən________________________reallaşdırılır.

A) Dərsdə, əməkdaşlıqda, təlim problemlərində;
B) Təlim problemlərində, oyun zamanı, təlim prosesində;
C) Təlim problemlərinə, birgə fəaliyyətdə, oyun prosesində;
D) Oyun prosesində, təlim prosesində, birgə fəaliyyətdə.

5. Təlim prosesində tətbiq olunan oyunların təlim-tərbiyə məqsədi hansıdır?

A) Şagirdlərə hərtərəfli şəxsiyyətə xas olan keyfiyyətləri aşılamaq;
B) Metodları asan tətbiq etmək;
C) Şagirdləri güldürmək, əyləndirmək;
D) Şagirdlərlə tapşırıqları həll etmək.

6. İbtidai sinif şagirdləri üçün viktorina sualları hazırlayın.

7. 10 dəqiqə müddətində bildiyiniz tapmaca, və atalar sözlərini qeyd edin.

8. Dərslərdə tətbiq olunan oyunlardan istifadə edərək "Əyləncəli oyun" krossvordunu hazırlayın.

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ə | y | l | ə | n | c | ə | l | i | | o | y | u | n |

9. Dərslərdə oyun texnikalarından istifadənin məqsədlərini müəyyən edin.

10. Oyun texnikalarının dərslərdə tətbiqi əhəmiyyətini ümumiləşdirin.

## 1.7. Tədrisdə diferensial yanaşmanın tətbiqi yollarının əhəmiyyətini izah edir

Təlimdə müvəffəqiyyət qazanmağın əsas amillərindən biri şagirdlərə diferensial yanaşmanın həyata keçirilməsidir. Diferensial yanaşma təlimin əsas prinsipidir. Diferensial yanaşmanı tətbiq edən müəllim bir sıra məsələləri, o cümlədən şagirdlərin fərdi xüsusiyyətlərini öyrənməli, onları təlim prosesində nəzərə almağı bacarmalıdır.

### 1.7.1. Tədris prosesində diferensial yanaşmanın tətbiqi yolları

Təhsildə tətbiq edilən ümumtəhsil kurikulumunun əsas prinsipləri pedaqoji prosesin tamlığı, təlimdə bərabər imkanların yaradılması, şagirdyönümlülük, fəaliyyətin stimullaşdırılması, dəstəkləyici mühitin yaradılması kimi müəyyən olunmuşdur. Bu prinsiplər bütün şagirdlərin pedaqoji prosesdə potensial imkanlarının nəzərə alınmasını, şagirdlərin maraq və tələbatlarının ödənilməsini, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafının təmin olunmasını, onlar üçün sağlam mənəvi-psixoloji mühitin, əlverişli və təhlükəsiz şəraitin yaradılmasını nəzərdə tutur.

Fərdi yanaşma pedaqogikanın mühüm prinsipi olub, insanın idarə olunmasında onun şəxsi keyfiyyətlərini və həyat şəraitini dərindən öyrənməyə əsaslanır. Fərdi yanaşma pedaqogikası məqsədlərin, təlim və tərbiyənin əsas məzmununun ayrıca bir məktəbliyə uyğunlaşdırılmasını nəzərdə tutur, pedaqoji təsir, metod və formalarının uyğunlaşdırılması isə elə getməlidir ki, burada şəxsiyyətin inkişafının əvvəlcədən layihələndirilmiş səciyyəsi təmin olunsun. Fərdi yanaşma idraki qüvvənin, fəallığın bu və ya digər meyillərin, hər bir şagirdin istedadının müsbət, münbit şəkildə inkişafı üçün imkanlar yaradır. Çətin tərbiyə olunan, az bacarıqlı məktəblilər, eləcə də inkişafı ləng gedən, sağlamlığı məhdud olan uşaqlar fərdi yanaşmaya daha çox ehtiyac duyurlar.

Diferensial təlim müxtəlif səviyyəli təlim – təhsil-tərbiyə prosesinin elə təşkilini nəzərdə tutur ki, təhsilalan tədris materialını qabiliyyətlərinə və imkanlarına uyğun şəkildə mənimsəsin. Bu halda baza bilikləri müxtəlif səviyyələrdə mənimsənilmiş olur. Təhsilalanın təlim-idrak fəaliyyəti qiymətləndirilərkən, onun səyi və yaradıcılığı nəzərə alınır.

Təlim prosesinə müasir yanaşmalardan biri olan diferensial təlim nəzəriyyəsi və təcrübəsi daha vacib məsələlərdəndir. Bu yanaşma şagirdlərin imkanlarının və fərdi xüsusiyyətlərinin nəzərə alınmasına əsaslanır.

Təlimin fərdiləşməsinin əsas məqsədi uşağın bilik, bacarıq və vərdişlərini təkmilləşdirmək, hər bir şagirdin ayrı-ayrılıqda bilik, bacarıq və vərdişlər səviyyəsinin yüksəldilməsi yolu ilə tədris proqramlarının reallaşmasına imkan yaratmaq, fərdiləşmə vasitəsilə şagirdlərin maraq və xüsusi qabiliyyətlərini əsas tutaraq, onların biliklərini dərinləşdirib genişləndirməkdən ibarətdir. Fərdiləşmənin inkişafetdirici məqsədi məntiqi təfəkkürün, kreativliyin və oxumaq bacarığının şagirdin gələcək inkişafını nəzərə alaraq reallaşdırılmasıdır.

Təlimin fərdiləşməsinin əsas məqsədlərindən biri də geniş mənada, şəxsiyyətin tərbiyəsini əhatə edir. Bu baxımdan təlimin diferensiallaşdırılması istedadlı uşağın əsas, aparıcı xüsusiyyətlərinə uyğun qurulmalıdır. Belə ki, təfəkkür məhsuldarlığının daha yüksək inkişaf səviyyəsi, sərbəstlik, müstəqillik, öndərliyə həvəs onların əsas

xüsusiyyətlərindəndir.

Təlimin diferensiallaşdırılmasının əsas istiqamətlərinə aiddir:

1. Tədrisin müvəffəqiyyətinin səviyyəsinə görə diferensiallaşdırma;
2. Ümumi qabiliyyətlər üzrə diferensiallaşdırma;
3. Profilli (təmayüllü) diferensiallaşdırma.

Təlimdə diferensial yanaşma formaları aşağıkadı kimi ümumiləşdirilir:

- Zəif oxuyan şagirdlərlə iş;
- İstedadlı şagirdlərlə iş;
- İnklüziv işlər;
- Multikultural işlər.

Şagirdlərin bütün potensial imkanlarından istifadə etmək, onların fərdi xüsusiyyətlərinə arxalanmaq və yalnız təlimdə deyil, hərtərəfli inkişafda da irəliləməsini təmin etmək bir neçə yolla: yüksək idrak qabiliyyəti olan şagirdlərin bilik dairələrini genişləndirib dərinləşdirən fakültətivlər yaradılması, xüsusi məktəblərin (riyaziyyat məktəbləri, humanitar məktəblər) yaradılması yolu ilə mümkündür, müəyyən sahədə istedadı olan uşaqlar burada öz fərdi istedadlarını tam ölçüdə inkişaf etdirə bilərlər. Diferensiallaşmış təlimin ən kütləvi forması sinifdə müxtəlif tapşırıq variantlarından istifadə etilməklə şagirdlərin müstəqil işinin təşkilidir. Bu cür müxtəlif qruplar üçün tapşırıqların müəllimlər və ya şagirdlər tərəfindən seçilməsi müsbət nəticə verir.

Təlimi fərdiləşdirmək dərsin bütün mərhələlərində eyni formada təmin edilmir. Motivasiya mərhələsində şagirdlərin mənimsəmə qabiliyyəti, təfəkkürünün inkişaf səviyyəsi nəzərə alınmalıdır. Şagirdlərin tədqiqata cəlb olunmasında çalışmaları da fərdiləşdirmək lazım gəlmir. Tapşırıqlar orta, yüksək dərəcəli verilir. Nisbətən asan həll olunan tapşırıqlardan da istifadə edilir. Çox yaxşı oxuyan şagirdlər üçün asan çalışmanın faydası olmadığı kimi, zəif oxuyan şagirdlərə də çətin çalışma verməyin mənası yoxdur. Lakin müxtəlif səviyyəli çalışmalar proqram tələblərinə uyğun hazırlanmalıdır. Yaxşı oxuyan şagirdlərin zəif oxuyanlara yardım göstərməsi, onların sıx əməkdaşlığı yaradılmalıdır. Çalışmaların isə «maksimum» və «minimum» həcmdə hazırlanması şagirdlərin hamısı üçün «minimum» çalışmaları yerinə yetirmək məcburi olduğu halda, «maksimum» çalışmalar daha çox qüvvəli oxuyan şagirdlərə məsləhət görülür.

Yeni materialın şərhi zamanı da fərdiləşdirmə həyata keçirilir. Bu məqsədlə zəif oxuyan şagirdlər üzərində nəzarəti artırmaq, yeni bilikləri mənimsədiyinə nəzarət etmək üçün tez-tez onlara müraciətlə sual vermək, lazım gələrsə, bilikləri təkrarlamaq, çətin materialı hissələrə ayırmaq, əlavə misallar çəkmək və s. lazımdır.

Təlim materialını möhkəmləndirən zaman da şagirdlərə fərqli çalışmalar vermək məsləhətdir. Tədqiqat işlərinin yerinə yetirilməsində, evə tapşırıq verilərkən hər şagird üçün məcburi olan tapşırıqdan başqa yaxşıoxuyan şagirdlərə, həmçinin bu və ya başqa qaydanı zəif mənimsəmiş şagirdlərə əlavə tapşırıq vermək müsbət nəticə verir. Beləliklə, təlimi diferensiallaşdırmağın və fərdiləşdirməyin məqsədi ondan ibarətdir ki, bilikləri mənimsəməkdə çətinlik çəkən şagirdlərə görə irəlidə gedənlərin inkişafı ləngidilməməli,

onlara görə geridə qalanlar diqqətdən kənarda qalmamalıdır. Təlimin bu növünü tətbiq edənlər daha yüksək nailiyyətlər əldə edirlər.

Diferensiallaşdırılmış təlim sinifdə olan şagirdlərin hamısının eyni səviyyədə bilik almasını təmin etməsə də, zəif oxuyan şagirdlərin də proqramı, əsasən, mənimsəmələrinə, şagirdlərin bilik səviyyələri arasında olan fərqi xeyli azaltmağa imkan verir. Bu təlim tipi ilə məşğələ təşkil etdikdə iş elə qurulur ki, hər şagird öz qüvvəsinə görə işləyir, didaktik vəzifə bütün şagirdlər tərəfindən yerinə yetirilir.

Geridə qalan şagirdlərə ən böyük kömək diferensial tapşırıqlardan istifadə edilməsidir. Tapşırıqların diferensial, yəni şagird qrupunun gücünə, bilik səviyyəsinə müvafiq müəyyənləşdirilməsi problemin həlli yollarındandır. Diferensial tapşırıqların dərsdə, tədqiqatın aparılması mərhələsində, ev tapşırıqlarının verilməsində və geridə qalan şagirdlərlə dərsdənkənar iş prosesində, məsləhət saatlarında verilməsi daha münasibdir. Geridə qalan şagirdlərə diferensial tapşırıqların verilməsi ilə müəllimin işi bitmir. Belə tapşırıqları həll etdikdən sonra müəllim şagirdləri nisbətən çətin olan tapşırıqların həllinə cəlb edir. Onları yenidən izah edir, şagirdlərə köməkçi suallar verir, keçmiş biliklərini yada salır. Tapşırıqların şagirdlər tərəfindən həll olunmasına nail olurlar. Üçüncü mərhələdə şagirdlərə digər şagirdlərlə eyni səviyyəli tapşırıqların yerinə yetirilməsi təklif olunur. Müəllim tapşırıqların həllinə dair izahat verir, köməkçi əməliyyatları yada salır. Şagirdlər əvvəlki tapşırıqları həll etməklə yeni tapşırıqların bəzi elementlərini işləmiş olurlar. Ona görə də şagirdlər müəllimin və yoldaşlarının köməyi ilə ümumi tapşırıqların da öhdəsindən gəlirlər. Müəllimin geridə qalan şagirdlərlə belə təlimin müvafiqlik və asandan çətinə prinsipinə əsaslanaraq işləməsi şagirdlər tərəfindən maraqla qarşılanır və onlarda tapşırıqları müstəqil həll etməyə həvəs yaranır, özünə inam hissi formalaşır.

Təlim prosesində belə yanaşmada hər bir şagirdin məcburi surətdə ümumi proqramı keçməsi nəzərdə tutulur. Diferensial tapşırıqlarda isə zəif, orta və qüvvətli şagirdlər daim diqqət mərkəzində olur. Onlar üçün dərs müvəffəqiyyətində çatışmazlıqların qarşısını almaq və onları aradan qaldırmaq, şagirdlərin biliyini tarazlaşdırmaq və hamını irəlilədib biliklərə yiyələndirməkdə yüksək nəticəyə çatdırmaq, şagirdlərin biliyini dərinləşdirib genişləndirmək, onların fərdi qabiliyyətini, təlim üslubunu formalaşdırmaq, müxtəlif cəhətli tələbatını ödəmək vəzifələri həyata keçirilir. Diferensiallaşmış təlim şagirdlərin öz fərdi inkişafında sürətlə irəliləməsini təmin edir.

Dərsdə şagirdlərin qarşısına müəyyən idrak vəzifəsi qoyduqda müəllim onun bütün şagirdlər tərəfindən dərk edilməsinə diqqət edir. Lakin sinfin şagirdlərinin hamısı vəzifəni eyni səviyyədə yerinə yetirmək qabiliyyətinə malik olmur. Zəif oxuyan şagirdlər daha çox çalışırlar ki, yoldaşlarından geri qalmasınlar. Yaxşı oxuyan şagirdlər isə sürətlə irəliləməyə qabil olsalar da geri qalanları gözləmək məcburiyyətində olurlar. Müəllimin təlim fəaliyyətini hazırlığı orta səviyyədə olan uşaqların üzərində mərkəzləşdirməsi həmişə yaxşı nəticə vermir. Buradan da «diferensial təlim» və ya «təlimi fərdiləşdirmək» ideyası doğur, ona zərurət yaranır. Bəzi pedaqoqlar «şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaq» prinsipinə istinad edərək təlimi fərdiləşdirməni qəbul etmirlər. Lakin təlimi fərdiləşdirmək şagirdlərə fərdi yanaşmağı inkar etmir, onu genişləndirir və hər şagirdin inkişafı üçün

müvafiq şərait yaratmağı nəzərdə tutur.

Təlimi fərdiləşdirmək və ya diferensiallaşdırmaq heç də sinifdə hər şagirdlə xüsusi proqram vasitəsilə məşğul olmağı tələb etmir, əksinə, elə üsulların tətbiqini tələb edir ki, orada hər şagird öz xüsusiyyət və qabiliyyətlərinə əsasən dərketmə fəaliyyətində ləngiməsin, imkan daxilində irəliyə gedə bilsin, sinifdə həm geriyə qalanlarla iş aparılsın, həm də irəlidə gedənlər nəzərdən qaçmasın, həm də siniflə birlikdə işləmək tələbi pozulmasın. Belə bir təlimi təşkil etmək o qədər də asan deyildir. Bunun üçün təlim fəaliyyətini, şagirdlərin fəallığını azaltmadan nizamlamaq lazım gəlir. Tapşırıqları fərdiləşdirməklə, şagirdlərin öyrənmə tərzlərini, qabiliyyətlərini hesaba almaqla, onların bilik və bacarıqlarına istinad edilməlidir. Daha fəal şagirdlərə biliklərini dərinləşdirməyə, bilik keyfiyyətini artırmağa xidmət edən tapşırıqlar verilməlidir. Onların digər şagirdlərlə birgə fəaliyyətini, əməkdaşlığı təmin edilməlidir. Materialı çətin mənimsəyən şagirdlərə nisbətən asan həll olunan misal, məsələlər verilməlidir.

**İnklüziv təlim**

İnklüziv təlimdə fərdi və qrup tələbatları nəzərə alınır. Buraya şagirdin şəxsi, mədəni, idraki, fiziki və hissi tələbatları aid edilir. Bunun üçün müəllim şagirdlərin fərdi xüsusiyyətlərini müəyyən etməli, onları başa düşməli, tələbatları təlim proqramına uyğunlaşdırmalı, ehtiyacları ödəməlidir.

Sinifdə səmərəli inklüzivliyi təmin etmək məqsədilə müəllim:

- Nailiyyət və müvəffəqiyyətin əldə olunmasına şərait yaratmalı;
- Şagirdləri həvəsləndirməli, onların hər bir uğurunu qeyd etməli;
- Müəllim-şagird, şagird-şagird münasibətlərini pozitiv şəkildə qurmalı;
- Təlimi qısa addımlara bölməli, həvəsləndirici hədəflər müəyyən etməli;
- Şagirdlərdə maraq yaratmalı və onun bütün təlim prosesi boyunca saxlanılmasını təmin etməli;
- Mütəmadi əks-əlaqə yaratmalı;
- Pozitiv yanaşmanı həyata keçirməli;
- İnteqrativliyi təmin etməli;
- Fərdi təlim planı hazırlamalı;
- İnkişafın mütəmadi izlənilməsi və müvafiq qeydiyyatın aparılmasını təşkil etməli;
- Şagirdlərin fərdi tələbatlarının təmin olunması məqsədi ilə müxtəlif təlim resursları hazırlamalıdır.

İnklüzivlik bütün şagirdlər üçün maraqlı, fərqli, həvəsləndirici imkanların yaradılması, bütün şagirdlərin təlimə cəlb olunması, onların eyni münasibət, metod, ünsiyyət və resursla təmin olunması deməkdir. Bu amillər təlimdə diferensiallaşdırma və fərdi tələbatların ödənilməsini mümkün edərək inklüziv təhsilin əsas sütunlarını təşkil edir.

Müəllim təlimdə şagirdlərin xasiyyətlərini, tez-tez dəyişə bilən əhval-ruhiyyəsini, əsəbi olmasını, hisslərini nəzərə almalıdır. O, dərsini şagirdlərin aşağıdakı xüsusiyyətlərinə uyğun təşkil etməlidir:

- Görmə (vizual), eşitmə (auditor) və hərəki (kinestetik) vasitə ilə öyrənənlər;
- Narazı, təlim mühitindən məmnun olmayanlar;
- Sərbəst təlim mühitinə cəlb olunmayanlar;
- Davranışla bağlı problemləri olanlar;
- Oxu və yazıda çətinlik çəkənlər;
- Rəqəm və hesablamada çətinlik çəkənlər;
- Xüsusi bilik və bacarıqlara malik qabiliyyətli və istedadlılar;
- Diqqət zəifliyi olan hiperaktivlər:
- Yaş, cins, din, dil, irq fərqi olanlar.

Xüsusi təlim ehtiyacları olan belə şagirdləri müəllim daim diqqət mərkəzində saxlamalı, onları dəstəkləməli və təlim motivasiyalarının artırılması istiqamətində müvafiq tədbirlər görməlidir. O, şagirdləri həvəsləndirən strategiyaları müəyyən etməli və tətbiqinə nail olmalıdır, aşağıdakı fəaliyyətləri həyata keçirməlidir:

- Tədqiqat və araşdırma aparmaq imkanının yaradılması;
- Yüksək səviyyəli bacarıqların formalaşması üçün müvafiq məqsədlərin müəyyənləşdirilməsi;
- Açıq tipli, "Əgər... olsaydı nə baş verərdi?" kimi sualların verilməsi;
- Müzakirə və debatlar üçün şəraitin yaradılması;
- Şagirdlərin müstəqilliyinin təmin olunması.

**Multikultural təlim**

Multikultural təhsil dünya xalqlarını maraqlandıran rasizm (irqi problemlər), tolerantlıq, diskriminasiya, hüquqların bərabərliyi və s. məsələləri əhatə edir.

Qloballaşma prosesi müasir cəmiyyətlərin inkişaf tendensiyası kimi regionların, ölkələrin, millətlərin inteqrasiyası, millətlərarası münaqişələrin artması, miqrasiya problemləri ilə müşayiət olunur.

Multikultural təhsil bir sıra vəzifələri həyata keçirir:

- Təhsilalanların müxtəlif mədəniyyətlərə mənsub olduqlarının anladılması və qəbul edilməsi;
- Milli-mədəni müxtəlifliklərin tolerantlıq səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə sinifdə milli-mədəni mühitin araşdırılması və öyrənilməsi;
- Sinifdə tolerantlıq mühitinin yaradılması;
- Təhsilalanlar arasında münasibətlərin, ünsiyyətin hörmət, qarşılıqlı anlaşma əsasında qurulması;
- Münaqişələrin yaradıcı, sülh yolu ilə həll edilməsi və bunun təhsil alanlara aşılanması.

Multikultural təhsilin əsasında daim inkişafa meyilli multikultural şəxsiyyətin yetişdirilməsi durur. Multikultural şəxsiyyətin əsas keyfiyyətlərinə pedaqoji nöqteyi-nəzərdən xüsusi məzmun və texnologiyalara, multikultural dəyər, bilik, bacarıq və

vərdişlərə yiyələnmək, fəaliyyətdə onları yaradıcı tətbiqinə nail olmaq aiddir.

Kiçikyaşlı məktəblilərin şəxsiyyətinin inkişafına yönəldilmiş tolerantlıq mədəniyyətinin öyrədilməsində aşağıdakı məsələlər nəzərə alınmalıdır:

- Cəmiyyətin yüksək tolerantlıq niyyətinə malik şəxsiyyətlər yetişdirilməsinə olan tələbatı;
- Kiçik məktəb yaşı dövründən başlayaraq tolerantlığın tərbiyə olunmasının vacibliyi və uşaqlara tolerant mədəniyyətinin aşılanması;
- Fəaliyyət prosesində başqaları ilə qarşılıqlı əlaqə zamanı lazım olan tolerant mədəniyyətini dəyər kimi qəbul etməyə imkan verən motivasiyanın yaradılması;
- Müxtəlif həyat situasiyalarında davranış və ünsiyyət qaydaları haqqında biliklərin əldə olunmasına kömək edən koqnitiv bacarıqların formalaşdırılması;
- Mübahisə, konflikt şəraitində dözüm, özünü idarə edə bilmək qabiliyyətinin inkişafını müəyyənləşdirən emosional iradənin, müxtəlif milli və dini mənsubiyyətə malik insanlara münasibətdə xeyirxahlıq, şəfqət, dözümlülüyü təmin edən davranışın formalaşdırılması;
- Digər insanlarla qarşılıqlı ünsiyyət və fəaliyyət zamanı vacib olan tolerant mədəniyyətinin dəyər kimi qəbul edilməsi;
- Mübahisə, konflikt yaratmaqdan və aqressivlikdən uzaq olmaq və belə xoşagəlməz şərait yarandıqda, dözüm və özünüidarəetmə bacarıqlarının formalaşdırılması;
- Ətrafdakılara, yaxud müxtəlif millətə və digər mədəniyyətə malik insanlara qarşı münasibətdə sədaqət, xeyirxahlıq və dözüm tərbiyə edilməsi.

Tədrisdə diferensiallaşma və fərdiləşmə bir neçə istiqamətdə tətbiq edilir. Bu istiqamətlərdən biri istedadlı şagirdlərin xüsusiyyətlərinə uyğun seçilməsi, onlarla səmərəli işləmələridir.

Orta təhsil sistemində diferensiallaşdırılmış təlim, istedadlı uşaqların təlimində optimal şərtlərdən sayılır: təlim üsuluna əsaslanan diferensiallaşdırma, maraqlandırmağa əsaslanan diferensiallaşdırma, şagirdlərin hazırlığına əsaslanan diferensiallaşdırma.

### İstedadlı şagirdlər

Yüksək qabiliyyəti olan uşaqlar üçün tədris proqramlarının səmərəsini qiymətləndirərək, aşağıdakı təlim strategiyalarına diqqəti artırmaq məqsədəmüvafiq sayılır:

- İstedadlı şagirdlərin bilik və inkişafının daha yüksək səviyyəsinə müvafiq olaraq əsas tədris proqramının dəyişdirilməsi vasitəsilə baza vərdişlərinin sürətli formalaşması (sürətlənmə);
- Problemlərin araşdırılması və həlli üzrə elmi yaradıcılığa, tədqiqat işinə şagirdlərin qoşulması (zənginləşmə);
- Əsas məsələlər, fikirlər və mövzular üzərində diqqəti cəmləşdirmək vasitəsilə təklif olunan bilik sistemi daxilində əlaqələri yaratmaq imkanı ilə şagirdləri təmin etmək (fənlərarası təlim).

Hazırda məktəbin qarşısında duran ümdə məsələlərdən biri də hər bir şagirdin inkişaf etməsi üçün optimal şəraitin təmin edilməsidir. Bu məsələnin tezliklə həll edilməsini həm valideynlər, həm də bütünlükdə cəmiyyət təhsildən, məktəbdən və müəllimlərdən gözləyir. Həm müəllimin, həm də psixoloqun fəaliyyətində vacib olan amillərdən biri də odur ki, şagirdlərə bilgilər verməklə, onlarla ünsiyyətdə olub mənəvi aləmlərini tərbiyə etsinlər, istedadlarını daha da təkmilləşdirsinlər. Onlara yüksək səviyyədə fiziki və zehni əmək vərdişləri aşılasınlar.

İstedadlı şagirdlər zehni işgüzarlıq və dərketmə qabiliyyətinə görə üç qrupu təşkil edir:

1. Birinci qrupa təlim işgüzarlığı və dərketmə qabiliyyəti yüksək olan şagirdlər daxildir. Onlar bütün fənlərdən «əla» qiymət alırlar. Belə istedadlı şagirdlərə məktəb, fənn müəllimləri və ailə tərəfindən xüsusi qayğı tələb olunur. Onlar müəllimdən daha çox bilik, bacarıq və pedaqoji mərifət gözləyirlər;
2. İkinci qrupa işgüzarlığı «əla», dərketmə qabiliyyəti «yaxşı» olan şagirdlər daxildir. Onlar meyil etdikləri ixtisas fənlərindən «əla» qiymət alırlar. Təlim prosesində yüksək yaradıcılıq qabiliyyəti göstərir, çətinə düşəndə fikirləşir, çoxlu əlavə ədəbiyyat mütaliə edir, sinifdənkənar işlərdə xüsusi fəallıq göstərirlər;
3. Üçüncü qrupa işgüzarlığı «yaxşı», dərketmə qabiliyyəti «əla» olan şagirdlər daxildir. Belə istedadlı şagirdlər əksər hallarda elmin bir sahəsində daha çox qabiliyyətə malik olur və bir fəndən «əla», qalan fənlərdən «yaxşı» qiymət alırlar. Belə istedadlı şagirdlər təlim prosesində fəal olur, çətinliyə düşəndə düşünür, əlavə ədəbiyyata müraciət edir, sinifdənkənar tədbirlərdə müntəzəm iştirak edir, lakin öyrəndiklərini möhkəm yadda saxlamadıqları üçün bəzən «yaxşı» qiymət alırlar. Onlarla müntəzəm iş aparıldıqda, tam əla qiymətlə oxumaq qabiliyyətinə yiyələnirlər.

Ümumtəhsil məktəblərində bu qəbildən olan istedadlıların inkişafını təmin etmək, onlarda təhsil əməyini formalaşdırmaq üçün fənn müəllimlərinin üzərinə aşağıdakı vəzifələr düşür:

- Elmin hər hansı sahəsində xüsusi qabiliyyətə malik şagirdin inkişafını təmin etmək üçün səmərəli təlim motivləri yaratmalı;
- Onlarda təhsil əməyini formalaşdırmaq, bilik və bacarığını dərinləşdirmək üçün müvafiq metodik tədbirlər həyata keçirməli;
- Onlarda dərslik, kitab və digər informasiya mənbələri üzərində işləmək bacarığı formalaşdırıb inkişaf etdirməli.

Tədrisdə diferensial yanaşmanı tətbiq etmək üçün onun səmərəli yollarını əsaslandırmaq əsas məsələlərdəndir.

## Tələbələr üçün fəaliyyətlər

1. Təlimdə diferensial yanaşmanın əhəmiyyətini şərh edin.
2. Təlimdə diferensial yanaşmanın formalarını sxemlə ümumiləşdirin.
3. Diferensial təlimdə inklüziv yanaşmanın zəruriliyini izah edin.
4. Diferensial yanaşma ilə təlim keyfiyyəti arasındakı asılılığı qrafikdə göstərin.
5. İstedadlı uşaqların inkişafında müəllimin vəzifələrini ümumiləşdirin.
6. İstənilən istiqamət üzrə diferensial yanaşmanı tətbiq edən dərs nümunəsini hazırlayın və nümayiş etdirin.
7. İstənilən diferensial yanaşma formasını tətbiq edən dərs nümunəsini hazırlayın və nümayiş etdirin (6-7-yə diqqət et).
8. Müəllimin istedadlı uşaqlarla işləmək bacarığına dair anketi cavablandırın və cavabları təhlil edin:

| **Müəllimlər üçün anket**<br>**Təlimat**. Hər bir suala üç cavabdan[1] birini seçin: | | |
|---|---|---|
| **Hə (+)** | **Yox (-)** | **Bilmirəm (0)** |
| | | |
| 1. | Uşağa həddindən artıq tez oxumağı öyrətmək olmaz, hətta o özü buna can atsa belə. | |
| 2. | Qabiliyyətlərin inkişaf etdirilməsi üçün yaddaş ən önəmlidir. | |
| 3. | Hələ ki uşaq balacadır, ona heç bir ciddi tələb irəli sürmək olmaz. | |
| 4. | İstedadlı uşağı eyni ilə adi uşaq kimi təlim etdirmək olmaz. | |
| 5. | İstedadlı uşaqlar bəzən istedadlarına uyğun olmayan bilik və bacarıqları çətinliklə mənimsəyirlər. | |
| 6. | Uşağa erkən yaşlarından harada mümkündürsə, seçim imkanı verilməlidir: yeməkdə, geyimdə, gəzintidə, hətta dostların seçimində belə. | |
| 7. | Məsuliyyət hissini həddindən artıq tez tərbiyələndirmək olmaz. Balaca uşağa ciddi tələblər irəli sürmək olmaz, bundan onun şəxsiyyəti ziyan çəkər. | |
| 8. | Qabiliyyətlərin müxtəlifliyindən asılı olmayaraq 12-13 yaşa qədər uşaqların hamısı riyaziyyatı kifayət qədər tam həcmdə öyrənməlidirlər. | |
| 9. | İstedadlı uşaqlar tez-tez ünsiyyət məsələlərində çətinliklə | |

[1] Cavablar 166-cı səhifədə verilib

| | | |
|---|---|---|
| | qarşılaşırlar. | |
| 10. | Lazımdır ki, uşaq məktəbdə təlimin ilk günlərindən yalnız əla qiymətlərə istiqamətləndirilmiş olsun. | |
| 11. | Uşağa daim məhəbbət ifadə etmək olmaz, o balaca olsa belə, bununla o ərköyünləşər. | |
| 12. | 11-12 yaşa qədər uşaqları profilli siniflərdə təlimə cəlb etmək olmaz: riyaziyyat, humanitar və s. | |
| 13. | Sınmış oyuncağa görə uşağı cəzalandırmaq olmaz, o günahkar deyil. | |
| 14. | Uşağı oxumağa məcbur etmək olmaz,xüsusilə bədii ədəbiyyatı. | |
| 15. | Uşağı kiçik yaşlarından ev üzrə öhdəliklərə cəlb etmək, öyrətmək zəruridir: | |
| 16. | Hər bir uşaqda öz gücünə inam olmalıdır. | |
| 17. | Sərt cəzalar uşağın inkişafı üçün ziyanlıdır. | |
| 18. | İntellektual fəaliyyətin pis yerinə yetirilməsi səbəbindən uşağı cəzalandırmaq olmaz: pis oxudun, düzgün saymadın və s. | |
| 19. | Əgər uşaq adi qabiliyyətlidirsə, onun özünü istedadlı sayması düzgün deyil, bu ona həyatında mane olacaq. | |
| 20. | İstedad ya Allahdan, ya da təbiətdəndir. | |
| 21. | Balaca uşağı daim qucağa almaq olmaz, bu onu ərköyünləşdirər. | |
| 22. | İstedadlı uşağı dərhal ayırd etmək mümkündür, o öz mühakimələri və biliyi ilə hamını heyran edir. | |
| 23. | Yaxşı müəllim o kəsdir ki, onun dərsi uşaqlar üçün həmişə maraqlı olur və onlar vaxtın necə keçdiyini hiss etmirlər. | |
| 24. | Lazımdır ki, lap kiçik yaşlarından uşağa mümkün qədər az qadağalar qoyulsun, onda o əsil şəxsiyyət kimi böyüyər. | |
| 25. | Balaca uşağı cəzalandırmaq olmaz, bu onun şəxsiyyətinin boğulmasına, məhdudlaşmasına səbəb olur. | |
| 26. | İmkan dairəsində məktəbdə qiymətlərdən azad olmaq lazımdır. | |
| 27. | Böyüklər uşaqlar üçün oxuduqda, onların olduqca sakit oturaraq hər sözə diqqətlə qulaq asmaları lazımdır. | |
| 28. | İstedadlı uşaqlara heç bir halda onların istedadlı olduqlarını demək olmaz. Bu onlarda lovğalığa səbəb olar. | |
| 29. | Uşağın qabiliyyətli böyüməsi üçün hələ məktəbə qədər onunla oxu ilə, saymaqla, xarici dillə məşğul olmaq lazımdır. | |
| 30. | Qabiliyyətlərin inkişaf etdirilməsi üçün tələb etmək lazımdır ki, məktəbli hər gün iki-üç səhifə oxusun. | |

**Nəticələrin təhlili və ümumiləşdirilməsi**:

1. Əgər cavablarınızın yarıdan çoxu səhvdirsə, onda sizin özünütəlimlə məşğul olmağa ehtiyacınız var (ya da özünüzün təlim, pedaqogika nəzəriyyənizi formalaşdırmalısınız). İstedadlı uşaqlarla işləmək hələ sizin üçün tezdir.
2. Əgər düzgün olmayan cavablarınızın sayı 5-7-dirsə, bu heç də pis nəticə deyil, deməli, siz həqiqəti duyursunuz, qalır onu praktikada həyata keçirmək.
3. Əgər səhv cavabların sayı cəmi 1-2-dirsə, bu çox əla nəticədir. Siz əsl istedadsınız və sizdə pedaqoji intuisiya var. Çalışın tezliklə özünüzə bu pedaqoji qabiliyyətinizə uyğun fəaliyyət sahəsi tapasınız.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Tədrisdə diferensial yanaşmanın tətbiqi yollarının əhəmiyyətini izah edir”.**

1. Təlimdə diferensial yanaşma formalarını kəpənəyin qanadlarında göstərin:



2. Təlimdə diferensial yanaşmanın nə əhəmiyyəti var?
3. Tədrisdə diferensial yanaşma ilə bağlı müəllim bacarıqlarına dair təqdimat hazırlayın.
4. Müəllim zəif oxuyan şagirdə təcrübənin aparılmasını, istedadlı şagirdlə məsləhət saatı, qüsurlu şagirdə fiziki hərəkətin icrasını, azsaylı xalqın nümayəndəsinə öz xalqının adət-ənənəsinə dair tapşırıq verir, digər şagirdlərin isə onlara kömək etməsinə mane olur. Siz həmin müəllimin yerində olsanız, necə hərəkət edərdiniz?
5. Dərsdə inklüzivliyi necə təmin edərdiniz?
6. İnklüziv təlimdə şagirdlərin nəzərə alınmalı xüsusiyyətlərini günəbaxan çiçəyi modelində işləyin.



7. Sinifdə multikultural mühitin yaradılması mənzərəsini verin.
8. İstedadlı şagirdlərə dəstək qaydalarına nələr daxildir?
9. Sinifdəki fiziki qüsurlu uşaqlara verəcəyiniz taşırıqları yazın.
10. Sinifdəki azsaylı xalqların uşaqları ilə necə davranacağınızı qeyd edin.
11. İstedadlılarla işləmək bacarıqlarınızı anket sorğu vərəqində yoxlayın.

# TƏLİM NƏTİCƏSİ 2

## TƏRBİYƏ PROSESİNİ HƏYATA KEÇİRMƏK

## 2.1. Tədrisdənkənar tədbirlərin təşkili metodlarını izah edir

### 2.1.1. Məktəbdənkənar tədbirlərin təşkili

Təlimin əsas funksiyalarından biri onun tərbiyəediciliyidir. Ümumtəhsil məktəblərində fənlər üzrə hər bir mövzunun tədrisində tərbiyəedici funksiyanın həyata keçirilməsi imkanları mövcuddur. Bundan əlavə şagirdlərin tərbiyəsində, sinifdən və məktəbdənkənar tədbirlərin imkanlarından istifadə edilir.

**Sinifdənkənar tədbirlər**

Şagirdlərin asudə vaxtlarının səmərəli təşkil edilməsində sinifdənkənar işlərdən istifadə olunması onların hərtərəfli inkişaflarına müsbət təsir göstərir. Təlimin sinifdənkənar iş formaları dərslərdə öyrənilən bilikləri genişləndirmək, təlimə maraq oyatmaq, fərdi meyil və qabiliyyətləri inkişaf etdirmək məqsədinə xidmət edir.

Məktəbin apardığı təlim-tərbiyə işi sistemində sinifdənkənar işlər mühüm yer tutur. Sinifdənkənar iş dedikdə, məktəb tərəfindən dərsdən sonra şagirdlərlə aparılan tərbiyə işləri başa düşülür. Bu işlər tərbiyə prosesinin fasiləsizliyini və ardıcıllığını təmin etməyə kömək göstərir. Sinifdənkənar işlərin əsas məqsədi şagirdlərin müxtəlif bilik sahələrinə və fəaliyyət növlərinə olan marağını, qabiliyyət və istedadlarını inkişaf etdirməkdən, asudə vaxtlarını səmərəli təşkil etməkdən və peşə seçimi işinə kömək göstərməkdən ibarətdir.

Sinifdənkənar işlərin təşkili bir sıra pedaqoji prinsiplərə uyğun olmalıdır. Sinifdənkənar işlər:

- Məktəbin ümumi məqsəd və vəzifələrinə xidmət etməli;
- Uşaqların maraq və qabiliyyətlərinə uyğun könüllü şəkildə seçilməli;
- Forma və metodlarına görə şagirdlərin yaş və fərdi xüsusiyyətlərinə tam uyğun gəlməli;
- Uşaqların təşəbbüs və özfəaliyyətinə geniş yer verilməli;
- Yaradıcı və ictimai-faydalı xarakter daşımalıdır.

Sinifdənkənar işlər daha çox şagirdi əhatə edir. Belə iş formalarına tarixi günlərin və bayramların keçirilməsi, fənn gecələri, səhnəciklər, müxtəlif növ yarışlar, oyun və müsabiqələr, müxtəlif mövzularda söhbətlər, məruzələr, mühazirələr, disputlar, bədii əsərlərin (filmlərin) müzakirəsi, konfranslar, olimpiadalar, ekskursiya və yürüşlər, turist gəzintiləri, teatr və kino tamaşalarına, muzey və sərgilərə kollektiv baxışlar, elm, mədəniyyət, incəsənət və əmək adamları ilə görüşlər, iclaslar, toplanışlar, şifahi qəzet və jurnallar, şagird elmi cəmiyyətləri və s. tədbirlər daxildir.

Bu tədbirlər əhatə dairəsinə görə müxtəlif qruplara bölünür:

- Sinif miqyasında təşkil edilən formalar: sinif iclası, əxlaqi söhbətlər, siyasi məlumatlar, ekskursiyalar və s.;
- Bir neçə siniflə keçirilən tədbirlər: fənn axşamları, səhnəciklər, görüşlər, məruzə və mühazirələr, disputlar, bədii əsərlərin və filmlərin müzakirəsi və s.;
- Məktəb miqyasında keçirilən tədbirlər: tarixi bayramlar, festivallar, olimpiadalar,

idman yarışları, baxışlar və s.;

- Məktəblərarası rayon, şəhər, respublika miqyaslı tədbirlər: müxtəlif idman yarışları, müsabiqələr, olimpiadalar və s..

Kütləvi iş formaları içərisində yarış və müsabiqələr mühüm yer tutur. Belə yarışlar müxtəlif tədris fənləri üzrə (fənn olimpiadaları, şən hazırcavabların yarışı, zehni oyunlar və s.), bədii özfəaliyyət sahəsində (bədii oxu, rəsm, rəqs müsabiqələri), idman sahəsində (futbol, voleybol, basketbol, şahmat və s. yarışları), əmək üzrə (ən yaxşı əl işləri sərgisi, gənc texniklərin müsabiqəsi, foto müsabiqələri və s.) təşkil olunur. Yarış, müsabiqə və baxışlar əvvəlcə siniflər üzrə keçirilir, burada qalib gələnlər ümumməktəb miqyasında yarışlarda iştirak edirlər.

Sinifdənkənar iş formalarının bir qismi (söhbətlər, məruzə və mühazirələr, disput və müzakirələr və s.) şüuru formalaşdırmağa, digər qismi isə (müsabiqələr, olimpiadalar, sərgilər, muzeylər, ekskursiyalar və s.) fəaliyyətin təşkilinə xidmət edir.

Qrupla iş formaları müəyyən maraqlar ətrafında birləşmiş şagird qrupu ilə aparılan tədbirlərdir. Belə iş formalarına fənn dərnəkləri, idman bölmələri, marağa görə dəstələr, incəsənət studiyaları, lektoriyalar, cəmiyyətlər, ədəbi klublar, muzeylər və s. daxildir. Məktəblərdə fənn dərnəkləri daha geniş yayılmışdır. Fənlər üzrə dərnəklərə dram, rəqs, texniki yaradıcılıq, foto, radio və kino həvəskarları və başqaları, rəhbərlik etməyə isə mütəxəssislər və peşəkar valideynlər cəlb edilir.

Sinifdənkənar fərdi iş formaları hər bir şagirdin maraqlarını nəzərə almaqla keçirilən tədbirlərdir. Onların başlıca məqsədi şagirdlərin yaradıcı qabiliyyətlərini üzə çıxarıb inkişaf etdirməkdən, asudə vaxtı səmərəli təşkil etməkdən ibarətdir. Belə iş formalarına mütaliə, fərdi məşğələlər, fərdi tapşırıqların icrası: məruzə və referat, əyani vəsait hazırlamaq, divar qəzetinə məqalə yazmaq və s. müxtəlif yaradıcılıq növləri ilə; elmi, texniki, ədəbi, bədii fəaliyyətlə məşğul olmaq, idman yarışlarında iştirak etmək və s. daxildir. Fərdi işlərin nəticələrini sinif və məktəb miqyasında (müsabiqə, sərgi, baxış, yaradıcılıq gecəsi və s.) nümayiş etdirmək faydalıdır. Bu fəaliyyət şagirdləri öz üzərində daha çox işləməyə, özünütərbiyəyə sövq edir. Sinifdənkənar işlərin səmərəsi üçün müxtəlif formaları əlaqələndirmək və onları şagirdlərin özünüifadə, özünütəsdiq və peşəyönümü vasitəsinə çevirmək çox faydalıdır.

Sinifdənkənar tədbirlərin geniş yayılmış növlərindən biri təhsil müəssisələrində muzeylərin təşkil edilməsi və onların eksponatlarla daim zənginləşdirilməsidir. Şagirdlərin idrak və ictimai fəallığını artırmaqda məktəb muzeyləri böyük əhəmiyyət kəsb edir. Məktəblərdə tarix, ölkəşünaslıq, müharibə, əmək şöhrəti, ədəbiyyat, folklor və digər muzeylərin təşkili mümkündür. Onların işinə şagirdlərdən ibarət muzey şuraları rəhbərlik edir. Bu muzeylər məktəbin ictimai həyatının mərkəzi kimi çıxış edir, orada müxtəlif tədbirlər planlaşdırılıb həyata keçirilir.

Məktəblərdə muzeylərin təşkili şagirdləri Vətənə məhəbbət, doğma yurdun maddi və mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə etmək, onlara tarixi, elmi və mədəni abidələrin, təbii sərvətlərin qorunmasına qayğılı münasibət göstərmək kimi keyfiyyətlər aşılayır. Məktəblərdə aşağıdakı muzeylərin təşkil edilməsi və şagirdlərin ixtiyarına verilməsi çox

əhəmiyyətlidir:

- Tarix-diyarşünaslıq;
- Müharibə və sülh;
- Şəhidlər;
- Məktəbin tarixi;
- Azərbaycanın görkəmli ictimai və elm xadimləri;
- Azərbaycanın ekologiyası və s.

İbtidai siniflərdə təşkil edilən “Debat-oyun”, “Debat-nağıl” məşğələləri də maraqlı sinifdənkənar məşğələlərdir. “Debat” proqramını, bir metodologiya kimi də qiymətləndirmək olar, çünki o, kompleks və sistemli təlim metodları toplusuna və onlardan istifadə yollarına malikdir. “Debat” həm də forma və məzmun baxımından maraqlı formatı, qaydaları, prinsipləri, reqlamenti olan intellektual bir oyundur.

Uşaqların kiçik məktəb yaşı dövrü bir neçə xüsusiyyətə malikdir, onlardan ən əsası oynamaq arzusu və «rollu oyun» vasitəsilə öyrənmək istəyidir. Uşaqların bu arzusunu məktəbdə debat-oyun keçirməklə reallaşdırmaq mümkündür. Bu məşğələdə təlim uşaqların hərəkət etmək, oynamaq («modelləşdirmək» deməkdir) kimi arzularının əsasında qurulur. Beləliklə, onlar müxtəlif həyati situasiyaları modelləşdirərək maksimal şəkildə reallığa «yaxınlaşırlar». Məqsəd uşaqlar üçün elə mehriban və işgüzar atmosfer (iqlim, ab-hava) yaratmaqdır ki, hər biri özünü psixoloji cəhətdən rahat hiss etsin və digərlərinin dəyərini, özünəməxsusluğunu, təkrarsız olduqlarını dərk etsin. Təbii ki, uşaqların bu yolda ilk addımları «qəribə» və «nöqsanlı» da ola bilər. Tədricən onlar dünyanı daha geniş anlamağa başlayacaqlar və tək öz oxuduqları siniflərin problemləri ilə kifayətlənməyəcəklər. Dərslərdə müşayiət olunan son dərəcə açıq (şəffaf) və mehriban ab-hava uşaqlara ailədə, həyətdə, sinifdə, məktəbdə olan, gələcək yetkin həyatlarında rast gələ biləcək arzuolunmaz davranış stereotiplərindən azad olmağa kömək edir. Debat-nağıl məşğələsi təlimin sosial-əxlaqi (mənəvi) yönümü sosial əhəmiyyətli və vətəndaşlıq (“icma”, “cəmiyyət”) baxımından dəyərli anlayışların öyrənilməsini nəzərdə tutur. Belə müasir sinifdənkənar tədbirlərə asudə vaxtlarda geniş yer verilməsi məsləhətdir.

Sinifdənkənar tədbirlərin biri olan dərs-ekskursiyalar təlimin elə təşkil formasıdır ki, o, şagirdləri müxtəlif obyektlərlə tanış edir, onlarda müşahidəçilik qabiliyyətinin inkişafına, təkmilləşməsinə xidmət göstərir. Sinfə və ya məktəbə gətirilməsi mümkün olmayan obyektlərlə şagirdləri ətraflı və dərindən tanış etmək məqsədilə təşkil edilən təlim formasına ekskursiya deyilir. Ekskursiya dərslərində bir neçə zəruri didaktik vəzifələr yerinə yetirilir:

- Təlimin əyanilik prinsipi reallaşdırılır;
- Elmi həqiqətə inam artır və onun həyatla, təcrübə ilə əlaqəsi möhkəmlənir;
- Şagirdlərin texnoloji görüş dairəsini genişləndirir, onları real istehsalatla tanış edir, biliklərinin sənaye və kənd təsərrüfatı istehsalatına tətbiq olunmasına şərait yaradır;
- Məktəbdə peşə seçmədə mühüm rol oynayır.

Didaktik vəzifələrinə görə ekskursiyalar müxtəlif olur:

1. Yeni materialın öyrənilməsini həyata keçirən;
2. Biliklərin öyrənilməsi zamanı təşkil edilən;
3. Öyrənilən materialı möhkəmlədən və s.

Mövzusuna görə ekskursiyalar təbiət, istehsalat, tarix və incəsənət ekskursiyalarına bölünür. Təbiət ekskursiyaları müxtəlif təbiət guşələrinə təşkil olunur. İstehsalat ekskursiyaları istehsal sahələrinə təşkil edilir, şagirdlər istehsal prosesinin ən zəruri məsələləri ilə tanış olurlar. Tarix ekskursiyaları tarixi yerlərə, abidələrə, muzeylərə, şəhidlər xiyabanlarına təşkil edilir. İncəsənət ekskursiyaları ədəbiyyat, incəsənət muzeylərinə, şairlərin ev muzeylərinə, abidələrinə təşkil olunur. Özündə bir neçə fənni birləşdirilən ekskursiya kompleks ekskursiya adlanır. Belə ekskursiyalarda şagirdlər obyekti bütövlükdə öyrənmək imkanı qazanırlar.

Ekskursiyalar hazırlıq, əsas, yekun olmaqla üç mərhələdə təşkil edilir:

1. Hazırlıq mərhələsində ekskursiya təşkil ediləcək obyekt öyrənilir, müvafiq təşkilatlarla, müəssisə rəhbərləri ilə danışıq aparılıb ekskursiyanın vaxtı, günü müəyyən edilir. Bu mərhələdə valideynlərlə, şagirdlərlə təşkilati iş aparılır;
2. Ekskursiyanın əsas mərhələsində öyrənilən obyekt və hadisələri müəllim izah edir. Şagirdlər müvafiq qeydlər aparır, şəkil çəkirlər.
3. Ekskursiyanın yekun mərhələsində şagirdlər hara, hansı obyektə, nə məqsədlə getdiklərini, gördüklərini, öyrəndiklərini, təəssüratlarını şifahi və ya yazılı ifadə edirlər.

Ekskursiyalar zamanı əldə etdikləri biliklərdən şagirdlər dərsdə yaradıcılıqla istifadə edir, obyekt və hadisələr arasında qarşılıqlı əlaqələrin olduğunu öyrənirlər. Onlar videoya baxır, müəllimlərlə birlikdə ekskursiyanın gedişini təhlil edirlər.

Ekskursiyanın tərbiyəvi əhəmiyyəti də böyükdür. Ekskursiya zamanı şagirdlər bir-birini yaxından tanıyır, bir-birinə qayğı göstərirlər. Onlarda təbiətə, incəsənət əsərlərinə, insanlara məhəbbət artır, bu sahədə dünyagörüşləri zənginləşir.

**Dərsdənkənar tədbirlər**

Dərsdənkənar tədbirlərə əlavə məşğələlər, məsləhətlər, ev tapşırıqları, müşahidə və müstəqil işlər, təcrübələr, muzeylərdə aparılan işlər və s. aiddir.

Təlimin dərsdənkənar təşkil formalarından biri əlavə məşğələlərdir. Əlavə məşğələlər geridə qalan, eləcə də yaxşı oxuyan şagirdlərlə dərsdənkənar aparılan iş formalarıdır. Bu məşğələlərdə zəif oxuyan şagirdlərin çətinlik çəkdiyi məsələlər üzrə fərdi tapşırıqlar yerinə yetirilir. Çalışqan şagirdlər isə maraq və qabiliyyətlərini ödəyən yaradıcı tapşırıqlar üzərində işləyirlər. Əlavə məşğələlər ehtiyaca görə 15-20 dəqiqə vaxt ərzində keçirilir. Belə məşğələlərdə rəhbərlik işinə əlaçı şagirdlər də cəlb edilir.

Dərsdənkənar təlim formalarından biri məsləhət saatlarıdır. Məsləhətlər şagirdlərin çətinlik çəkdikləri mövzular üzrə aparılan təlim formalarıdır. Onlar fərdi və qrup şəklində həyata keçirilir. Bəzi məktəblərdə məsləhətlər il boyu xüsusi cədvəl üzrə müəyyən günlərdə

və saatlarda aparılır. Məsləhətlər fərdi, qrupla təşkil edilir. Məsləhət saatlarında təlimdə tam yerinə yetirməyən şagirdlər diqqət mərkəzində olur. Onların proqram materiallarını tam mənimsəməsinə kömək göstərilir.

İbtidai siniflərdə geniş yayılmış dərsdənkənar təlim formalarından biri ev tapşırıqlarıdır. Ev tapşırıqları müxtəlif vəzifələri yerinə yetirir: dərsdə keçilən materialları yaddaşda möhkəmlədir, dərinləşdirir, nəzəri biliyin tətbiq edilməsinə kömək edir, növbəti mövzunu mənimsəməyə hazırlaşdırır və s. Bundan əlavə, ev tapşırıqları şagirdləri özünütəhsilə, fasiləsiz təhsilə hazırlayır. Onlar işlərini necə planlaşdırmağı, hissələrə bölməyi, zəruri materialları toplayıb təhlil etməyi, özünənəzarət metodlarını öyrənir, kitab üzərində işləmək, müstəqil olaraq çıxışa, məruzəyə hazırlaşmaq kimi bacarıq və vərdişlərə yiyələnirlər. Ev tapşırıqları şagirdlərdə təşəbbüskarlıq, intizamlılıq, məsuliyyət hissini formalaşdırır, onlarda iradi keyfiyyətlərin inkişafına səbəb olur. Şagirdlər ev tapşırıqlarını icra edərkən onu axıra çatdırana qədər oturmağı, səbirli, dözümlü olmağı, verilmiş tapşırığı layiqincə icra etməyi öyrənirlər.

Fəndən və mövzudan asılı olaraq ev tapşırıqları şifahi, yazılı, əməli xarakterdə olur. Ev tapşırıqlarına aid bir sıra tələblər:

- Tapşırığın məqsədi və icra qaydasının şagirdlərə aydınlaşdırılması;
- Tapşırıqların məzmunca rəngarəng, əyləncəli olmalısı və şagirdləri yormaması;
- Tapşırığın həcminin müəyyən olunmuş vaxt normasına uyğun gəlməsi;
- Tapşırıqların mümkün qədər yaradıcı xarakterdə hazırlanması;
- Tapşırıqların icrasının müntəzəm olaraq yoxlanması və qiymətləndirilməsi aiddir.

Dərslərdə alınan bilik və bacarıqlar dərsdənkənar işlərdə daha da möhkəmləndirilir və həyatla əlaqələndirilir. Belə işlərdən geniş yayılanı şagirdlərin müstəqil işləridir. Dərslərdə və dərsdənkənar zamanlarda müxtəlif müstəqil iş üsullarından istifadə olunur. Bu üsullara aşağıdakılar aiddir:

- Dərslik və kitab üzərində iş;
- Laborator məşğələlər (müstəqil təcrübələrin aparılması, müşahidələrin təşkili,canlılarla təmas və onlara qulluq edilməsi və s.);
- Təkrar və çalışmaların həll edilməsi;
- Mütaliə və s..

Adları çəkilən müstəqil işlərin sinifdə, canlı təbiət guşəsində, təbiətdə (məktəbin həyətində, tədris-təcrübə sahəsində, evdə, coğrafiya meydançasında, stadionda və s. məkanlarda) aparılması mümkündür. Fənlər üzrə şagirdlərin müstəqil işi müəllimin rəhbərliyi ilə həyata keçirilir. Müstəqil işlərin yerinə yetirilməsində aşağıdakı qaydalar gözlənilməlidir.

- Müstəqil işin mövzusu, planı, məzmunu, aparılma texnikası ilə şagirdlər tanış edilməli;
- Müstəqil işlər diferensial xarakterdə olmalı: yüksək səviyyəli – istedadlı uşaqlar üçün; orta səviyyəli – mövzuları asan mənimsəyənlər üçün; aşağı səviyyəli –

mövzuları çətin mənimsəyənlər üçün;
- Müəllim müstəqil işlərin icrasında şagirdlərə lazımi köməklik göstərməli;
- Müstəqil işlər şagirdlər tərəfindən axıra qədər, müsbət nəticə alınana qədər davam etdirilməli;
- Müstəqil işi müvəffəqiyyətlə başa çatdıran şagirdlərin əməyi, bilik və bacarıqları qiymətləndirilməlidir.

Dərsdənkənar iş üsullarından olan dərslik və kitab üzərində iş şagirdlərin dərslikdəki mövzuları, onlarla bağlı yaş səviyyələrinə uyğun elmi-kütləvi kitabları, qəzet, jurnal məqalələrini oxuması başa düşülür. Şagirdlərin bu işinə müəllim nəzarət etməlidir. Şagirdlər dərsliklərdəki materialları sərbəst olaraq oxuduqda müəllimin izahatında tam anlamadığı məsələləri dərk edir, biliklərini möhkəmlədir, eyni zamanda şagirdlər mütaliə etməklə oxu texnikasına yiyələnir, onlar yuxarı siniflərdə daha geniş materiallı dərsliklərlə iş, elmi və bədii ədəbiyyatın mütaliəsinə hazırlanmış olurlar.

Dərsdənkənar iş üsulu olan müstəqil müşahidələrin aparılması şagirdlərə həyatda baş verən hadisələri, ətraf aləmdəki obyektləri öyrənməkdə mühüm rol oynayır. Dərs müddətində aparılan müşahidələr qısa müddətli, kiçik həcmli olur. Ona görə də şagirdlər dərsdənkənar işlərin forması olan müstəqil müşahidələrə cəlb edilir. Belə müşahidələr müəllimin rəhbərliyi ilə canlı guşədə, muzeydə, sərgidə, bağda, dirrikdə, evdə və s. sahələrdə təşkil edilir. Şagirdlər müxtəlif fənlərdən keçdikləri obyektləri müşahidə edir, onun xüsusiyyətlərini yaxından görür, dərk edir, onlarla təmas bacarıqlarına yiyələnirlər. Təbiət hadisələrini, cansız və canlı təbiətdə baş verən bioloji prosesləri müşahidə etdikdə həm dərs materialını, həm də həyatı asan dərk edirlər. Həyatda şahidi olduqları proseslərin mahiyyətini, səbəblərini, nəticələrini onlar arasındakı əlaqələri dərk edir, həyat təcrübələrini zənginləşdirirlər.

Müəllim şagirdlərin müstəqil müşahidəsini təşkil edir, lazımi tapşırıqlarını verir və işin gedişini nəzarətdə saxlayır. Müşahidələrin aparılmasına dair məsələlər müəllim tərəfindən qabaqcadan müəyyənləşdirilir, onun təşkili qaydaları şagirdlərə kollektiv, qrup və ya fərdi şəkildə, yazılı, yaxud şifahi verilir. Onların işlənmə metodunu, formasını müəllim müəyyənləşdirir.

Şagirdlərin müxtəlif fənlərdən "Müşahidə gündəlikləri" təşkil etməsi və onun üzərində şagirdlərin işləməsi, müşahidənin gedişini yazması, ona dair şəkil, sxem, qrafik, slayd formasında ümumiləşdirmələrin aparılması, nəticələrin çıxarılması əhəmiyyətlidir.

**Məktəbdənkənar tərbiyə**

Məktəblilər məktəbdənkənar tərbiyə işlərinə cəlb olunurlar. Bu məktəbdənkənar müəssisələr tərəfindən aparılan tərbiyə işləridir. Belə müəssisələrə kitabxanalar, idman məktəbləri və bazaları, idman meydançaları, musiqi məktəbləri, təsviri sənət studiyaları, uşaq-gənclər teatrları və muzeyləri, yay istirahət düşərgələri, turizm, gənc texniklər və təbiətçilər stansiyaları, uşaq-gənclər evi və sarayları, mədəniyyət evləri nəzdində uşaq dərnəkləri, bölmələri və digər tərbiyə müəssisələri daxildir. Məktəbdənkənar müəssisələr xarakterinə görə iki tipdə olur:

1. Klub tipli müəssisələr - uşaq və gənclərlə bir çox sahədə iş aparır. Belə müəssisələrə uşaq-gənclər yaradıcılıq evləri və sarayları, parklar, mədəniyyət evləri nəzdində uşaq dərnək bölmələri, Mənzil Kommunal İstismarı sahələri nəzdində uşaq otaqları,oyun meydançaları və s. daxildir;
2. İxtisaslaşdırılmış müəssisələr - hər hansı xüsusi bir sahədə: elmi-texniki, bədii, fiziki və s. iş aparır. Buraya kitabxanalar, idman məktəbləri, musiqi məktəbləri, gənc tex-niklər və təbiətçi stansiyaları və s. daxildir.

Sinifdənkənar işlərdə olduğu kimi, məktəbdənkənar tərbiyə işləri də üç formada təşkil olunur: kütləvi, qrup və fərdi işlər.

Kütləvi iş formalarına məktəbdənkənar müəssisələrin bir çoxunda keçirilən uşaq yaradıcılıq sərgiləri, müsabiqələr, olimpiadalar, elm, texnika, incəsənət və əmək adamları ilə görüşlər, məruzələr, bayram tədbirləri və b. daxildir. Qrup halında iş formalarına dərnək, bölmə, klub, incəsənət studiyaları və b. aiddir.

Məktəbdənkənar fərdi iş formaları da müxtəlifdir: fərdi yaradıcı tapşırıqların icrası, şagirdlərin marağa görə bədii, idman, əmək və texniki fəaliyyətlə məşğul olması, kompüterlə iş və s. misal göstərmək olar.

## Tələbələr üçün fəaliyyətlər

1. Dərsdən, sinifdən və məktəbdənkənar tədbirləri fərqləndirin.
2. Müəllim dərsdən, sinifdən və məktəbdənkənar tədbirləri təşkil etməsi üçün malik olacağı bacarıqları müəyyən edin.
3. Müəllim proqram materialını çətin mənimsəyən şagirdlə hansı tədbirdən istifadə etməlidir?
4. İstedadlı uşaqlarla əlavə məşğələlərin, məsləhət saatlarının keçirilməsi nə dərəcədə doğrudur?
5. Əla oxuyan şagirdə veriləcək müstəqil işi müəyyənləşdirin.
6. Məktəbdə texniki yaradıcılıq dərnəyini planlaşdırın.
7. İbtidai siniflərdə sinifdənkənar tədbirlərə dair təqdimat hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Sinifdən və məktəbdənkənar tədbirlərin təşkili metodlarını izah edir”.**

1. Aşağıda verilmiş üsullardan sinifdənkənar işlərə aid olanları seçin: ümumiləşdirici dərs, tədqiqat, mütaliə, müstəqil işlər, dərnəklər, muzeylərin təşkili, muzeylərə ekskursiyalar, müstəqil təcrübələr, referat, layihə, təkrarlar, çalışmalar.

2. Verilmiş anlayışlardan dərsdənkənar, sinifdənkənar və məktəbdənkənar formalarını seçin, cədvəldə müvafiq sütunda qeyd edin:

3. Təlim ekskursiyaları, tarixi günün qeyd edilməsi, fənn gecələri, məktəb muzeyi, kitabxana, əmək adamları ilə görüşlər, istirahət mərkəzləri, gənc texniklər stansiyası, fənn dərnəyi, teatr, mütaliə, şairlə görüş, məsləhət saatı, ev tapşırıqları, müstəqil iş, əxlaqi söhbətlər, konfrans, idmanla məşğul olmaq, musiqi təlimi, müsabiqə, xarici dil təlimi.

| Dərsdənkənar tədbirlər | Sinifdənkənar tədbirlər | Məktəbdənkənar tədbirlər |
|---|---|---|
| • | • | • |
| • | • | • |
| • | • | • |
| • | • | • |
| • | • | • |

4. Ekskursiya dərsinin xüsusiyyətlərini sxemdə göstərin.



5. Müstəqil işin yerinə yetirilməsi qaydalarına nələr daxildir?

6. Sinifdənkənar tədbirlərin təşkil formalarını cədvəldə ümumiləşdirin.

| Kütləvi | Qrupla | Fərdi |
|---|---|---|
| •<br>•<br>•<br>•<br>• | •<br>•<br>•<br>•<br>• | •<br>•<br>•<br>•<br>• |

7. Dərsdən, sinifdən və məktəbdənkənar işlərin təlim və tərbiyədə rolunu izah edin.

8. Məktəbdənkənar təlim-tərbiyə müəssisələrini sadalayın.

9. Ən çox xoşunuza gələn sinifdənkənar tədbiri layihələşdirin.

## 2.2. Nizam-intizam qaydalarının mahiyyətini izah edir

### 2.2.1. Nizam-intizam qaydaları

İnsanların əməyə, təbiətə, ictimai mülkiyyətə, başqa adamlara, şəxsi və ictimai borca münasibətlərini tənzim edən, yerinə yetirilməsi zəruri sayılan qaydalar toplusu intizam sayılır.

İntizam anlayışına böyüklərə hörmət, ehtiram xalqımızın mühafizə edib saxladığı ən gözəl keyfiyyətlər daxildir. Böyüyə hörmətdə qəribə bir təkrarlıq görünür. Böyükdən qayğı və hörmət görən uşaq böyüklərə hörmət edə-edə özü də böyüyür, onun özünə kiçiklər hörmət edir. Beləliklə, nəsillər arasında sıx əlaqə-böyüyə hörmət, kiçiklərə qayğı göstərmək əlaqəsi toxunulmaz əxlaqi-etik qanun kimi fəaliyyət göstərir. Deməli, böyüklərə hörmətin meyarı qayğıdır, ehtiramdır. Buna görə də ailədə tərbiyə alan övladın ən böyük dövləti ata və anasının, müəlliminin və ustadının ehtiramını saxlamaq, qocalara, böyüklərə, qadınlara hörmət etməkdən ibarətdir. İntizamlı insan böyüyə, ata, anaya hörmət və məhəbbət hissi ilə yanaşır. Ata və anaya hörmət, məhəbbət təkcə fərdi, ailəvi səciyyə daşımır. Bu hörmət və məhəbbət inkişaf edərək Vətənə, xalqa məhəbbətə, hörmətə çevrilir.

İntizam, tərbiyə, insanın bəzəyidir. İnsan şüurlu məxluq olduğu üçün onun bütün fəaliyyəti, davranışı şüurla tənzim olunur. Buna görə də ilk növbədə şüura təsir göstərmək, onda əxlaqi təsəvvürlər, inam, əqidə formalaşdırmaq lazım gəlir.

Tərbiyə şüurla davranışın vəhdətinə əsaslanır. İnsana əxlaqi normaları izah etməklə yanaşı, onun bu normalara uyğun davranması, müsbət adətlərə yiyələnməsi də vacibdir. Tərbiyə keyfiyyətlərinin böyük qismi adətlərlə bağlıdır. Məsələn, intizam, mədəni davranış, səhiyyə-gigiyenik vərdişlər, həyati tələbat və bacarıqlar adət nəticəsində formalaşır. Böyük yaşlarda şüura təsir göstərmək imkanı məhdud olan dövrdə tərbiyə işində adətlər böyük rol oynayır. Deməli, tərbiyə işində insanın iradəsini möhkəmlətmək, onda müsbət adətlər yaratmaq və bu yolla düzgün davranış təcrübəsi formalaşdırmaq zəruridir. Tərbiyə metodlarının müəyyən qrupu məhz bu məqsədə xidmət edir.

Müəllim tərəfindən “Davranış qaydaları” şagirdlərə öyrədilərkən onların psixologiyası nəzərə alınmaqla müşahidə və fəallığın dialektik vəhdət təşkil etməsinə nail olmalıdır. Çünki, şagirdin gələcəkdə cəmiyyətin fəal üzvü olması və qanunlara əməl etməsi elə məktəb dövründə sadəlikdən mürəkkəbə, fərdidən ümumiyə doğru inkişaf etdirilməlidir.

Elm-təhsil ocağı olan məktəb kiçik bir cəmiyyətdir. Sinif isə müqayisədə ondan bir qədər də kiçikdir. Siniflər məktəbi əmələ gətirir. Bir anlığa təsəvvür edək ki, təxminən 600 şagirdin təhsil aldığı məktəbdə heç bir davranış qaydası yoxdur. O zaman hansı mənzərə ilə rastlaşarıq? Əlbəttə ki, özbaşınalıq yaranar. Buna görə də sinif və məktəb üçün davranış qaydaları tərtib olunmuşdur. Həmin Qaydalar əsasən I-IV siniflər, V-VIII siniflər və IX-XI siniflər üçün ayrılıqda tərtib olunur.

Məlumdur ki, I-IV sinif şagirdləri hələ çox kiçikdirlər. Onlardan çox şey tələb etmək mümkün deyil. I sinfə yenicə qəbul olunmuş uşaq məktəblə, onun xüsusiyyətləri və yoldaşları ilə tanış olur. Onlar çox vaxt darıxır, evə getməyə tələsirlər. Getdikcə məktəbə alışan uşaqlar daxili nizam-intizam qaydalarını öyrənir və ona əməl edirlər.

V-VIII sinif şagirdləri nisbətən böyük olduqlarından "Davranış qaydaları"nda onların qarşısına qoyulan tələblər də dəyişir. IX-XI sinif şagirdləri isə artıq müstəqil həyata hazırlaşdıqlarından, dünyagörüşləri genişləndiyindən bir qədər də mürəkkəbləşir.

Unutmaq olmaz ki, "Davranış qaydaları"nda şagirdlərin vəzifələri xatırladılır. Bu qaydaların müddəalarında müəyyən qadağanedici normalar vardır. "Bunu etmək olmaz" fikrini həmişə yadda saxlamaq lazımdır. Çünki elə hərəkətlər var ki, yaşından asılı olmayaraq onu etmək heç bir insana başucalığı gətirmir.

Şüurlu intizama yiyələnmiş uşağın davranışında dəqiqlik, icraçılıq, səliqəlilik, nəzakətlilik, başqalarına qarşı diqqətli olmaq, onlara qayğı göstərmək və s. kimi əlamətlər təzahür edir. İntizamlı uşaq müəyyən edilmiş qaydalara yalnız məktəbdə deyil, evdə, ictimai yerlərdə də eyni səy və təmkinlə əməl edir. Uşağın intizamlı olması təlim tapşırıqlarının, ictimai vəzifələrin, şəxsi və ictimai davranış qaydalarının yerinə yetirilməsində özünü göstərir. İntizam tərbiyəsinin səviyyəsi tədricən artmağa başlayır, intizam qaydalarının şüurlu icrasına qədər yüksəlir. Belə bir intizam ailədə asanlıqla əldə edilmir. Bir çox valideynlər hələ də intizam tərbiyəsi ilə ciddi məşğul olmur, hər hansı bir intizamsız hərəkət baş verdikdə uşaqlarla intizam barədə söhbət etməklə işlərini bitmiş hesab edirlər. Uşaqların şüurlu intizamını tələb olunan səviyyədə təşkil etmək üçün intizamın mahiyyəti və əhəmiyyətini bilmək azdır. Bunun üçün şüurlu intizam tərbiyəsinin optimal sistemini təmin edən şərtləri bilmək və həmin şərtlərə əsaslanaraq intizam tərbiyəsini həyata keçirmək lazımdır.

Daxili intizam qaydaları şagirdlərin həyat və sağlamlığının qorunmasına, tədris prosesinin təhlükəsizliyinin təminatına, məktəbdə hər bir şagirdin uğurlu təliminə köməklik edən, normal iş şəraitinin yaradılmasına, şəxsiyyətə və onun hüquqlarına hörmətin tərbiyə edilməsinə, davranış mədəniyyətinin və ünsiyyət bacarıqlarının inkişafına istiqamətlənmişdir.

Daxili intizam qaydaları məktəbə buraxılış qaydalarını və məktəb ərazisində davranış qaydalarını müəyyən edir. Daxili intizam qaydaları Azərbaycan Respublikasının Təhsil Qanunu, təhsil məsələləri üzrə digər normativ aktların, Ümumtəhsil məktəbinin Nizamnaməsi əsasında qəbul olunmuşdur. Hazırkı qaydaların təsiri bütün şagirdlərə, onların valideynlərinə (qanuni nümayəndələrə, onları əvəz edən şəxslərə), həm dərs zamanı, həm dərsdənkənar vaxtlarda məktəbin ərazisində olan digər vətəndaşlara aiddir. Daxili intizam qaydaları hamının tanış ola bildiyi yerdə asılır,həmçinin müəssisənin saytında yerləşdirilir. Onun ümumi müddəalarına aiddir:

- Şagirdlər və məktəb işçiləri məktəbin Nizamnaməsinin tələblərini, Daxili Intizam Qaydalarını, məktəb rəhbərliyinin əmr və göstərişlərini (vəzifə səlahiyyətləri çərçivəsində) məktəbin digər lokal aktlarını yerinə yetirməlidir;
- Şagirdlər, onların valideynləri və məktəbin işçiləri bir-birlərinə hörmət etməlidir, şəxsiyyətin şərəf və ləyaqətini alçaldan hərəkət və ifadələrə yol verməməlidirlər;
- Məktəbdə təhsil prosesinin təşkili tədris proqramları və dərs cədvəlinə uyğun həyata keçirilir. Dərs cədvəlində şagirdlərin qidalanması üçün kifayət qədər davam edən tənəffüs nəzərdə tutulur;

- Məktəbdə dərslər məktəbin direktorunun təsdiq etdiyi cədvələ uyğun aparılır, cədvəl hamının tanış olması üçün əlçatan yerdə asılır;
- Dərslərin və tənəffüslərin müddəti, zəng cədvəli məktəb direktorunun əmri ilə müəyyən olunur;
- İdman seksiyaları, dərnəklər, təlim emalatxanaları məktəb direktorunun təsdiq etdiyi cədvəl üzrə işləyirlər;
- Sinifdənkənar tədbirlərin keçirilməsi məktəb direktorunun təsdiq etdiyi plan üzrə həyata keçirilir;
- Təhsil prosesi zamanı şagirdlərin məktəbin binasını tərk etməsi qadağandır;
- Şagirdlərin məktəbli forması məktəbin Nizamnaməsi ilə müəyyən olunur, şagirdin xarici görünüşü məktəbdə müəyyən olunan tələblərə uyğun olmayan halda, həmçinin dərslərə gecikəndə, şagirdləri dərsə buraxmamaq qadağandır;
- Şagirdlərin dərsdən qovulması qadağandır;
- Dərs zamanı uşaqların məktəbdə azad, nəzarətsiz gəzməsinə yol verilmir;
- Tənəffüs vaxtından dərs üçün istifadə edilməsi yolverilməzdir;
- Şagirdlər, məktəbin işçiləri və valideynlər məktəbin əmlakına ehtiyatla yanaşmalıdırlar, məktəbin binasında və onun ərazisində təmizliyə riayət etməlidirlər;
- Şagirdin və ya məktəb işçisinin şəxsiyyətinə və ya əmlakına dəymiş zərərə, həmçinin məktəbin əmlakına dəymiş zərərə görə məsuliyyətin miqdarı və belə zərərin ödənilmə qaydası Azərbaycan Respublikasının mülki qanunvericiliyinin müddəaları ilə müəyyən edilir;
- Məktəb ərazisinə istənilən məqsədlə silah gətirmək və istənilən üsulla ondan istifadə etmək qadağandır. Eyni zamanda oyuncaq plastmas güllələr, kəsən və sancan əşyalar, partlayıcı və yanğın təhlükəli maddələri, istənilən alkoqollu içkiləri, tütün məmulatlarını, tibbi preparatları, narkotik, toksik, digər bihuşedici maddələri və zəhərləri məktəbə gətirmək, istifadə etmək və yaymaq qadağandır;
- Bu qaydalar haqqında məlumatlar şagirdin valideynlərinə (qanuni nümayəndələrinə) məlumat verilməlidir;
- Məktəbin ərazisində yiyəsiz və ya şübhəli əşyaların aşkar edilməsi haqqında dərhal məktəbin mühafizəçisinə, müəllimlərdən hər hansı birinə və ya məktəb rəhbərliyinə xəbər verilir;
- Qarderoba (əgər məktəbdə qarderob varsa) təhvil verilən üst paltarın ciblərində pul, açar, yol biletini, digər qiymətli əşyaları qoyulması tövsiyə edilmir – məktəb onların itirilməsinə görə məsuliyyət daşımır;
- Məktəbin ayrı-ayrı otaqlarında (kompüter sinfi, kimya, fizika və s. kabinetlər) xüsusi davranış qaydaları müəyyən edilir.

Məktəbə buraxılış qaydalarına aşağıdakılar aiddir:

- Şagirdlər üçün məktəbə girişə dərslərin başlanmasına 30 dəqiqə qalmış, kabinetlərə giriş dərsin başlanmasına 30 dəqiqə qalmış icazə verilir;
- Təlimləri birinci dərsdən başlamayan şagirdlər üçün məktəbə giriş bundan əvvəlki dərsdən sonra başlayır;
- Dərsdən sonra şagirdlərin məktəbə girişinə, məktəb direktorunun təsdiq etdiyi cədvələ uyğun əlavə dərslər, tədbirlər, seksiya və dərnəklər üçün icazə verilir;
- Şagirdlərin məktəbdə olmaları saat 20.00-a qədər yolverilləndir;
- Tətil zamanı şagirdlər məktəbə, məktəb direktorunun təsdiq etdiyi tədbirlər planına uyğun buraxılır.

Məktəb üzrə növbətçilik qaydaları aşağıdakı kimi müəyyən edilmişdir:

- Növbətçi sinif və növbətçi müəllim dərslərin başlanmasından 40 dəqiqə əvvəl məktəbə gəlirlər;
- Müəllimin növbətçiliyi dərslərin başlamasından 30 dəqiqə əvvəl başlayır və məktəbdə sonuncu dərsin qurtarmasından 15 dəqiqədən sonra bitir;
- Növbətçi sinfin növbətçiliyi dərslərin başlamasından 30 dəqiqə əvvəl başlayır və növbətçi sinfin sonuncu dərsinin qurtarmasından 15 dəqiqə sonra bitir;
- Növbətçi sinfin vəzifəsinə dərslərdən əvvəl və sonra, tənəffüs zamanı, həmçinin soyunma otağında və yeməkxanada (bufetdə) şagirdlərin intizama riayət etmələri daxildir;
- Şagirdlər növbətçi sinfin şagirdlərinin və növbətçi müəllimin tələblərinə tabe olmalıdırlar.

Şagirdlərin təhsil öhdəlikləri aşağıdakı kimi müəyyən edilmişdir:

- Şagirdlər məktəbə gecikmədən, dərslərin başlanmasından əvvəl, vaxtında gəlməlidirlər;
- Şagirdlər məktəbə bütün lazım olan dərslikləri, dəftərləri, vəsaitləri, alətləri və yazı ləvazimatlarını gətirirlər;
- Şagirdlər, məktəbdə müəyyən olunmuş xarici görünüşə olan tələblərə riayət etməlidirlər;
- Dərs buraxan şagird onun səbəbinin üzrlü olmasını təsdiq edən sənəd təqdim edir;
- Şagirdlər məktəbin əmlakına ehtiyatla yanaşmalıdırlar, məktəbin binasında və onun ərazisində təmizliyə və intizama riayət etməlidirlər. Şagirdlərin məktəbin divarında və mebelinin üzərində istənilən yazıları yazması və ya şəkillər çəkməsi yolverilməzdir;
- Şagirdlərin məktəbin əmlakına vurduğu zərərə görə maddi məsuliyyət onun valideynlərinin (qanuni nümayəndələrinin) üzərinə qoyula bilər.

Məktəbə davamiyyət qaydalarına aiddir:

- Valideynlərə (qanuni nümayəndələrə, onları əvəz edən şəxslərə) səhər-səhər, birinci dərs başlayandan əvvəl, həmçinin dərs prosesini pozmamaq üçün dərs zamanı məktəbə gəlmək tövsiyə edilmir;
- Məktəbə gələnlərə yanlarında şəxsiyyəti təsdiq edən sənədin olması və onu mühafizəçiyə təqdim etməsi tövsiyə olunur;
- Məktəbdə bütün gələnlərin yazılı uçotu aparılır, onların adları, soyadları, atalarının adları, onların gəlmə və getmə vaxtı qeyd edilir;
- Məktəbin məsul vəzifəli şəxsləri, müəllimlər valideyn iclaslarının, valideynlərlə görüşün keçirilməsinin yeri və vaxtı haqqında mühafizəçiləri xəbərdar etməlidirlər;
- Məktəbə gələnlərə məktəbə iri qabaritli əşyalarla keçməyə icazə verilmir, onlarbelə əşyalarımühafizə otağında qoya bilərlər. Mühafizəçiyə onlara baxmağa icazə verilir;
- Məktəbə müəyyən edilməmiş (əvvəlcədən razılaşdırılmamış) vaxtda gələn zaman mühafizəçi gələnin şəxsiyyətini və gəlmə məqsədini araşdırır, onu məktəbə ancaq növbətçi müəllimin və ya direktorun icazəsi ilə buraxır;
- Məktəbəgələn adamların özlərinin adlarını və gəlmə məqsədlərini deməkdən imtina etdikləri halda, onların içəri keçməsi qadağandır;
- Dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının nümayəndələri, digər səlahiyyətli şəxslər vəsiqələrini təqdim edəndən sonra məktəbə keçirlər;
- Məktəbin binasına gələnlərin buraxılması (keçməsi) ilə bağlı mübahisəli vəziyyətlərin yaranması zamanı mühafizəçi növbətçi müəllimə və ya direktora bildirməklə, təlimata uyğun hərəkət edir.

Sinif davranış qaydalarını şagirdlərin sinif rəhbəri ilə birlikdə tərtib etməsi çox faydalıdır. Onu aşağıdakı kimi hazırlamaq olar:

Məşğələlərdə qaydalar:

1. Biri-birinə hörmət etmək;
2. Diqqətlə qulaq asmaq, danışanın sözünü kəsməmək;
3. Növbə ilə danışmaq;
4. Vaxta qənaət etmək;
5. Qısa və konkret olmaq;
6. Mövzudan kənara çıxmamaq;
7. Fəaliyyətə vaxtında başlayıb, vaxtında bitirmək;
8. Bir-birinə dəstək olmaq;
9. Fikrini aydın izah etmək;
10. Şəxsi təcrübəyə əsaslanmaq;
11. Tənqid və təhqir etməmək;
12. Digərlərinin fikirlərinə ciddi yanaşmaq;

13. Heç kimin hüququnu pozmamaq;

14. Fikirləri ümumiləşdirib nəticə çıxarmaq.

Dərs müddətində diqqətli olmaq, müəllim danışarkən, mövzunu izah edərkən onu səbrlə dinləmək şagirdlərin əsas vəzifəsidir. Dərs danışmaq, suallara cavab vermək istədikdə, sağ əli qaldırmaqla icazə istəmək əsas qaydalardandır. Yerində cavab verərkən, yazı lövhəsinin qarşısına çıxarkən özünü qaydaya salmaq vacibdir.

Sinifdə, dərsdə stulu stola çox yaxın çəkmək məsləhət deyil. Belə halda dərslikləri stolun üstünə qoyarkən yanaşı oturanlara mane olur, ümumi mənzərəni, ahəngdarlığı pozur.

Sinif otağı şagirdlərin sevimli məkanlarındandır. Şagird oturduğu partanı həmişə təmiz və səliqəli saxlamalı, onun üstünü yazmamalı və başqalarına da icazə verməməlidir.

Dərs başa çatdıqda zəng vurulan kimi yerindən qalxmaq, hay-küy salmaq yaxşı hal deyil. Yerindən qalxmaq, tənəffüsə çıxmaq üçün müəllimin icazəsi gözlənilməlidir. Tənəffüs zamanı dəhlizlərdə sürətlə qaçmaq, qışqırmaq, hərəkətli oyunlar oynamaq, divarlardakı stendlərə, məlumat göstəricilərinə toxunmaq, onları qoparmaq, başqalarını narahat etmək ətrafdakılara hörmətsizlik sayılır.

Məktəb kitabxanasından münasib vaxtlarda istifadə edilir. Oradan marağa, anlaq səviyyəsinə və müəllimlərin tapşırıqlarına uyğun kitab alınır. Kitablar təmiz saxlanmalı, səhifələri yazılmamalı, şəkilləri silinməməli, əzilib büzülməməlidir. Əgər kitablarda cırılan və qopan vərəqlər varsa, onları yapışdırmaq lazımdır.

Dərsdə ümumi davranış qaydalarına gəldikdə onlara aiddir:

- Dərs zamanı şagird, dərs cədvəlinə uyğun olaraq müvafiq kabinetdə öz yerində olmalıdır.
- Dərs zamanı şagirdlər diqqətlərini dərsə cəmləməli, digər uşaqların diqqətini dərsdən yayındırmamalıdırlar. Səs salmaq, kənar söhbətlər aparmaq, musiqiyə qulaq asmaq, dərsə aid olmayan işlərlə məşğul olmaq yolverilməzdir.
- Dərs zamanı müəllimlərə yemək (o cümlədən saqqız və konfet) yeməyə, içməli su və dərmanlar istisna olmaqla, həmçinin mobil telefonlardan istifadə etməyə icazə verilmir.
- Dərs zamanı şagirdlərə qida (o cümlədən saqqız və konfet) qəbuluna, içməli su və dərmanlar istisna olmaqla icazə verilmir, həmçinin mobil telefonlardan, elektron oyunlardan istifadə etməyə, musiqiyə qulaq asmağa və ya filmə baxmağa, dərslərdən yayındıran işlərlə məşğul olmağa icazə verilmir.

Məktəbin ayrı-ayrı otaqlarında (kompüter sinfi, idman zalı, kitabxana, fənn kabinetləri), müəllimlər və şagirdlər xüsusi müəyyən edilmiş davranış qaydalarına riayət etməlidirlər.

- Tənəffüs zamanı şagird öz iş yerini səliqəyə salmalı, növbəti dərsə lazım olan hər bir şeyi hazırlamalıdır, mərtəbə üzrə növbətçilərin tələblərinə tabe olmalı, digər şagirdlərin istirahətinə mane olmamalıdır.

- Tənəffüs zamanı şagirdlər məktəbdə sərbəst gəzirlər, onlara təhlükəli, qadağan edilmiş yerlərə daxil olmaq qadağan edilir.
- Tənəffüs zamanı bir-birlərini itələmək, dalaşmaq, digər uşağa və ya böyüyə xəsarət yetirə bilən əşyaları atmaq, kobud və ya həddindən artıq fiziki güc tətbiq etmək, sürahi üzərində sürüşmək qadağandır.
- Şagirdlərə yeməkxanadan yemək və içkiləri çıxartmaq qadağandır.

Şagirdlərin evə getmək qaydaları aşağıdakı kimi müəyyən edilmişdir:

- Sonuncu dərsi aparan 1-4-cü sinif müəllimi, uşaqları paltar soyunan otağa aparır, onlara geyinməyə kömək edir və sinfin bütün şagirdləri məktəbdən gedənə qədər orada qalır.
- Günü uzadılmış qruplara gedən uşaqların evə getmək qaydası və vaxtı, uşağı günü uzadılmış qrupa daxil edən vaxtı valideynlərin (qanuni nümayəndələrinin, onları əvəz edən şəxslərin ) ərizəsi üzrə müəyyən edilir.
- Şagirdlər məktəbi, siniflərini dərslərin qurtarmasından 15 dəqiqədən gec olmayaraq tərk (dərsdənkənar tədbirlər istisna olmaqla) etməlidir.

Uşağın məktəbdən müəyyən edilmiş vaxtdan tez getməsinə ancaq sinif rəhbərinin icazəsi ilə, valideynlərin (qanuni nümayəndələrin, onları əvəz edən şəxslərin) yazılı ərizəsi əsasında icazə verilir. Uşaq məktəbdən tək və ya valideynlərin müşayiəti ilə getməsindən asılı olmayaraq bu qayda bütün hallara aiddir.

## Tələbələr üçün fəaliyyətlər

1. "Məşğələlər üçün qaydalar"ı müxtəlif formalarda, şagirdlərin diqqətinin cəlb edilməsi baxımından işləyin
2. Məşğələlərdə qaydalara əlavələrinizi edin.
3. Şagirdlərin məktəbdən evə getmək qaydalarını kəpənəyin qanadlarında qeyd edin.



4. Məktəbin nizam-intizam qaydalarına əməl etməyin əhəmiyyətini izah edin.
5. İbtidai sinif müəllimi olaraq məktəbin nizam-intizam qaydalarını şagirdlərə izah edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Nizam-intizam qaydalarının mahiyyətini izah edir”.**

1. Məktəbdə nizam-intizam qaydaları və onlara əməl etməyin əhəmiyyəti nədir?

2. Sinifdə davranış qaydalarını pozan şagirdlərlə aparacağınız işləri cədvəldə qeyd edin:

| № | Sinifdə davranış qaydalarını pozanlar | İntizama dəvət edilməsi tədbirləri |
|---|---|---|
| 1. | Dərsə tez-tez gecikənlərlə | |
| 2. | Dərsə hazır gəlməyənlərlə | |
| 3. | Dərsdə səs-küy salanlarla | |
| 4. | Kitabın səhifələrini yazanlarla | |
| 5. | Dərsə, müəllimin izahına ciddi yanaşmayanlarla | |

3. “İntizamlı sinif” modelini səkkizguşəli ulduz formasında işləyin

4. Məktəb direktorunun şagirdlərin nizam-intizam qaydalarına dair iş rejimini planlaşdırın.

5. İbtidai sinif müəlliminin şagirdlərin nizam-intizamına nəzarətinə dair təqdimat hazırlayın.

6. Məktəbə buraxılış, məktəbdə növbətçilik, məktəbə davamiyyət qaydalarını cədvəldə ümumiləşdirin.

| Məktəbin nizam-intizam qaydaları | | |
|---|---|---|
| Məktəbə buraxılış | Məktəbdə növbətçilik | Məktəbə davamiyyət |
| • | • | • |
| • | • | • |
| • | • | • |
| • | • | • |
| • | • | • |

7. Dərsdə və tənəffüsdə davranış qaydalarını fərqləndirin.

8. “Nizam-intizamlı məktəb” layihəsini işləyin.

## 2.3. Tərbiyə prosesinin səmərəli təşkilində metodları tətbiq edir

### 2.3.1. Tərbiyə prosesində metodların tətbiqi

Tərbiyə şagirdin şüurunu formalaşdırmaqla insanın şüuruna təsir etmək, onda düzgün təsəvvürlər, inam və əqidə yaratmaq məqsədinə xidmət edir. Onların köməyi ilə uşaq və gənclər ictimai davranış normaları ilə tanış olur, özlərini harada və necə aparmaq lazım olduğunu, yaxşını və pisi başa düşür, əxlaqi tələblərin zəruriliyinə inanırlar. Bunun üçün əxlaqi söhbətlər, əxlaqi mövzuda məruzə və mühazirələr, disputlar, bədii əsərlərin (filmlərin) müzakirəsi, nümunəvi işlər həyata keçirilir. Əxlaqi söhbətlər müəyyən əxlaqi, siyasi, estetik keyfiyyətlərin mahiyyəti, məzmununu, şərtlərini izah etmək məqsədi daşıyır. Belə söhbətlər iki növdə olur: kollektiv və fərdi söhbətlər.

**Tərbiyənin tərkib hissələri**

Tərbiyə işində insanın hissi aləmi də mühüm rol oynayır. Rəğbət-nifrət, sevinc-kədər, xeyirxahlıq-bədxahlıq, humanizm-eqoizm, həzz-ikrah hissləri davranış və rəftarı stimullaşdırır. Uşaqlıqdan insan qəlbinə müsbət hisslər aşılanmazsa, orada boşluq yaranır və çox vaxt bu boşluğu mənfi hisslər tutur. Nəticədə insan qəlbində bədxahlıq, qəddarlıq, laqeydlik, habelə bir çox nəfs xəstəlikləri-paxıllıq, tamahkarlıq, kin, qeybət, acgözlük yuva salır və insanı xoşagəlməz yollara çəkir. Bu mənada tərbiyə işi həm insanın psixi-şüur fəaliyyətinin, həm davranış, rəftar və ünsiyyət fəaliyyətinin təşkilini, həm şüur və davranışı stimullaşdırmağı, həm də prosesə nəzarəti təmin etməlidir. Bu baxımdan tərbiyə işi şagirdlərin nizam-intizam qaydalarına əməl edilməsi ilə sıx əlaqədardır.

Tərbiyə:

1. Şagirdlərin şüurunu formalaşdırır;
2. Fəaliyyətin təşkili və davranış təcrübəsini formalaşdırır;
3. Fəaliyyət və davranışı stimullaşdırır;
4. Davranışda nəzarət və özünənəzarəti təmin edir.

Tərbiyə fəaliyyətin təşkili və ictimai təcrübəsini formalaşdıraraq insanda müsbət adətlər yaratmaq və iradəni möhkəmləndirməklə düzgün davranış təcrübəsini genişləndirir. İnsan qəbul etdiyi mənəvi ideyanı, öz əqidə və inamını gündəlik davranış və rəftarında tətbiq edir, müəyyən fəaliyyətə alışır. Bunun üçün aşağıdakılara diqqət edilir:

1. İnsanın müxtəlif fəaliyyət növlərinə cəlb edilməsi onda davranış təcrübəsinin formalaşmasında böyük rol oynayır;
2. Tərbiyələndirici situasiyaların yaradılmasına müxtəlif fəaliyyət növləri vasitəsilə uşağı xüsusi təşkil edilmiş tərbiyəedici situasiyaya salınması lazım gəlir;
3. İnsanı müsbət əməllərə sövq etmək və xoşagəlməz hərəkətlərdən çəkindirmək yolu ilə düzgün davranış təcrübəsini formalaşdırmaq üçün ona müxtəlif tələblər verilir;
4. Tələbin kollektiv forması ictimai rəy olub, müəyyən şəxs və hərəkətlə bağlı kollektivin ümumi rəyini, qiymətini ifadə edir;
5. Təmrin (məşq) hərəkətlərin təkrarı yolu ilə onları möhkəmləndirib müsbət

davranış adətləri yaratmaq mümkündür. Təmrin iki mənada başa düşülür. Geniş mənada o, uşaqların həyat və fəaliyyətini davranış normalarına uyğun təşkil etməyi nəzərdə tutur. Dar mənada isə hər hansı bir hərəkəti, fəaliyyəti təkrar etdirib vərdişə çevirmək kimi başa düşülür;

6. Rejim insanın həyat və davranışını tənzim edən qaydaların məcmusudur. Uşağın günü rejimlə tənzim edildikdə o, müəyyən qaydalara tez alışır, onda davranış adətləri daha tez və asanlıqla yaranır.

Tərbiyə fəaliyyət və davranışı stimullaşdırır, insanın hissi aləminə təsir göstərməklə onda yaxşı hərəkətləri möhkəmləndirir, pis hərəkəti aradan qaldırır. Belə ki, yaxşı hərəkətinə görə təriflənən uşaq bundan məmnunluq hissi keçirir və bir daha müsbət hərəkətlər etməyə çalışır. Eləcə də pis hərəkətinə görə cəza alan uşaq iztirab hissi keçirir və bir daha belə hərəkətlərə yol verməməyə çalışır.

Tərbiyə işi bir sıra prinsiplər əsasında həyata keçirilir. Onları aşağıdakı kimi izah etmək olar:

- Tərbiyənin həyatla, əməklə əlaqələndirilməsi;
- Hörmət və tələbkarlıq;
- Tərbiyəvi təsirlərdə vahidlik;
- Sistemlilik və ardıcıllıq;
- Tərbiyədə fərdi yanaşmaq;
- Mənəvi şüurla, mənəvi davranışın vəhdətinin təmin edilməsi.

Əqli tərbiyə müəllim və tərbiyəçinin rəhbərliyi altında şagirdlərin əqli qüvvələrinin və təfəkkürünün məqsədyönlü inkişaf etməsi, onlarda elmi dünyagörüşün formalaşması prosesidir. Əqli inkişaf əqli tərbiyədən fərqlənir. Əqli inkişaf yalnız müəllim və tərbiyəçinin məqsədyönlü rəhbərliyi altında deyil, insanı əhatə edən ətraf mühitin təsiri altında baş verir.

Təhsil və təlimdə həyata keçirilən əqli (intellektual) tərbiyənin məzmununa aiddir:

- İntellektual insanın şüur funksiyalarının inkişafı, psixi proseslərin – qavrama, yaddaş, təfəkkür, təsəvvür, nitqin inkişafı;
- Şagirdlərin elm, ünsiyyət və fəaliyyət sahəsində maarifləndirilməsi;
- Əqli fəaliyyət, özünütəşkil mexanizminin formalaşması;
- Şagirdlərin yaradıcı potensialının, şüurunun və özünüşüurunun inkişafı;
- Peşə təfəkkürünün formalaşması.

Əxlaq tərbiyəsinin birinci vəzifəsi şagirdlərdə mənəvi şüuru formalaşdırmaqdır. Mənəvi şüur davranışla, adətlə vəhdətdə formalaşır. Əxlaq tərbiyəsinin digər bir vəzifəsi şagirdlərdə təbiətə qayğılı münasibəti tərbiyə etməkdir. Təbiət insanı ruhlandırır, onun özünü dərk etməsinə kömək edir. Məktəbli sevincli və kədərli anlarında təbiətin xəlvət bir guşəsinə çəkilib özünün hərəkətlərini ölçüb-biçir, vicdanı ilə söhbət edir. Əxlaq tərbiyəsinin bu vəzifəsinin həyata keçirilməsində fənlərin məzmununda geniş imkanlar mövcuddur. Müəllim həmin imkanlardan hər bir mövzunun tədrisində istifadə etməlidir.

Müasir dövrdə mənəvi və maddi mədəniyyət sərvətlərinə şagirdlərin daha dolğun və dərindən yiyələnməsinə, onların bədii yaradıcılığa fəal cəlb olunmasına böyük əhəmiyyət verilir. Təbiət və cəmiyyət gözəlliklərini müxtəlif təzahür formalarında duymaq, qavramaq, düzgün başa düşmək, sevmək, qiymətləndirmək, həyatı gözəllik qanunları əsasında qurmaq prosesi estetik tərbiyəyə aiddir.

Fiziki tərbiyə cəmiyyətin ən qiymətli sərvəti olan insanın sağlamlığıdır. Məlumdur ki, insan orqanizminin təkmilləşdirilməsi, bütün həyatının hər bir cəhəti, təlim, peşəkar fəaliyyəti onun fiziki vəziyyətindən çox asılıdır. Fiziki tərbiyənin məzmununa orqanizmin sağlamlığına diqqət yetirmək, hərəkət və qan-damar sisteminin, sinir sisteminin, əzələlərin qorunması və möhkəmləndirilməsi daxildir. Fiziki tərbiyənin aşağıdakı vəzifələri vardır:

- Şagirdlərin fiziki tərbiyə məsələləri və şəxsi gigiyena ilə bağlı maarifləndirilməsi;
- Fiziki özünütərbiyə iradəsinə, cəsurluğa, inadkarlığa, özünüintizama stimullaşdırma;
- Konkret idman bacarığı və ustalığının inkişafı;
- İş qabiliyyətinin yüksəldilməsini, sinir sisteminin sabitliyin yaxşı əhval-ruhiyyənin yaranmasını təmin edən fiziki keyfiyyətlərin peşəkar inkişafı;
- Fiziki cəhətdən istedadlı uşaqların maraq və meyilləri nəzərə alınaraq onlarla fərdi işin aparılması.

Tibbi-gigiyenik tərbiyə şagirdlərin sağlamlığını təmin edir, onların düzgün fiziki inkişafına təsir göstərir, hərəki təmrinlərin, bacarıq və vərdişlərin formalaşmasına, təkmilləşməsinə kömək edir, fiziki keyfiyyətlərin inkişafına şərait yaradır, şagirdləri xüsusi bədən tərbiyəsi və idman məlumatları, gigiyenik bilik və bacarıqları ilə silahlandırır, onlarda cəsurluq, qətiyyətlilik, intizamlılıq, dostluq və yoldaşlıq, mədəni davranış vərdişlərini formalaşdırır. Sağlamlıq - hər bir adamın uzun ömürlüyünü, yaradıcı əməkdə iştirakını təmin edən, ailə qurmağa, uşaqların tərbiyəsi qayğısına qalmağa kömək edən fiziki və ruhi keyfiyyətlərin məcmusudur.

Tibbi- gigiyenik tərbiyənin məzmununa daxildir:

- Gigiyena və sağlamlığa dair məlumatlı olması;
- Təmizliyə riayət etməsi;
- Xəstəliklərin səbəblərini, əlamət və nəticələrini təssəvvür etməsi;
- Xəstəliklərdən qorunma qaydalarına əməl edilməsi;
- Sağlam həyat tərzinə malik olması;
- Xəstəliklərin profilaktikasına əməl etməsi;
- Xəstələndikdə müalicə olunması.

Məktəbdə əmək tərbiyəsi və təliminin məqsədi əməyə məhəbbət və əmək adamlarına hörmət aşılamaq, şagirdləri müasir sənaye və kənd təsərrüfatı istehsalının, tikintinin, nəqliyyatın, xidmət sahəsinin əsasları ilə tanış etmək, onlarda əmək vərdişləri və bacarıqlarını formalaşdırmaq, şüurlu surətdə peşə seçməyə sövq etmək və ibtidai peşə hazırlığı verməkdən ibarətdir.

Ekoloji tərbiyə hazırda bir ölkənin, bir xalqın deyil, bütün dünya ölkələri və xalqlarının zəruri problemidir. Müasir anlayışda təbiəti qoruma problemi bir sıra elmi, təbii, iqtisadi, hüquqi, sanitar-gigiyenik, əxlaqi, etik aspektlərə bölünür.

Ekoloji tərbiyənin vəzifələrinə aşağıdakılar aiddir:

- Təbiətin bitki və heyvanat aləminə qayğıkeş və humanist münasibətin aşılanması;
- Ən yüksək bəşəri sərvət kimi təbiətin taleyi üçün cavabdehlik hissinin tərbiyə edilməsi;
- Təbii ehtiyatlara qənaətcil münasibət prinsiplərinin insanın şüurunda və onun fəaliyyətində əks olunması;
- Ətraf aləmə ziyan vurmadan təsərrüfat-iqtisadi vəzifələri həll etmək bacarığının formalaşdırılması;
- Ekoloji mədəniyyətin tərbiyə olunması;
- Özündə təbiətə humanist münasibəti və ən yüksək milli, ümumbəşəri dəyər olan təbiətin taleyi üçün məsuliyyət hissinin aşılanması;
- Təbiətdən istifadə prinsiplərinin insanların şüurunda və fəaliyyətində təsdiq olunması;
- Gənc nəslin təbiətin mühafizəsi işinə cəlb edilməsi.

İqtisadi tərbiyənin birinci komponentini şagirdlərdə iqtisadiyyatın əsaslarına dair biliklər təşkil edir. İqtisadi tərbiyənin ikinci komponenti qənaətcillik şüurunun və iqtisadi təfəkkürün formalaşdırılmasıdır.

Hüquq tərbiyəsinin məzmununa hüquqi biliklər, hüquq qanunları və normaları daxildir. Bunlar hər bir dövlətin əsas qanunlarında öz əksini tapır. Hər bir ölkədə qanunçuluğun vəziyyəti məktəbdə aparılan hüquq tərbiyəsi və təhsilindən xeyli dərəcədə asılıdır.

Mənəvi tərbiyə dedikdə, şagirdlərin şüuruna, hiss və duyğularına, davranışına sistemli, məqsədyönlü, mütəşəkkil təsir göstərməklə onlarda əxlaqi keyfiyyətlərin, vətəndaşlıq yetkinliyinin, fəal həyat mövqeyinin formalaşdırılması başa düşülür.

Mənəvi tərbiyə tərbiyənin tərkib hissələri arasında son dərəcə önəmli yer tutur. İnsanın ağlını, təfəkkürünü inkişaf etdirmək (əqli tərbiyə) nə qədər vacibdirsə, şəxsiyyətin mənəvi aləminin, mənəviyyatının, müsbət əxlaqi keyfiyyətlərinin formalaşdırılması bir o qədər mühüm və zəruridir. Mənəvi tərbiyənin məzmunu aşağıdakılara əsaslanır:

- Əxlaq tərbiyəsi - mənəvi davranış, hiss və vərdişlərin, şüurun formalaşması;
- Əxlaq insanların davranış normalarının, qaydalarının, onların bir-birilərinə, özlərinə, cəmiyyətə qarşı müxtəlifliklərinin, xeyir və şər, yaxşı və pis, ləyaqətli və xoş olmayan cəhətlərə qarşı olan baxış və münasibətlərin ümumiliyini nəzərdə tutur;
- Etik tərbiyə - düzgün davranış qaydalarının və münasibətlər mədəniyyətinin formalaşması;
- Vətənpərvərlik tərbiyəsi - öz vətəninə sevgi, məhəbbət və məsuliyyət hissinin formalaşması, hər an vətəninin, xalqının müdafiəsinə qalxmağa hazır olma

keyfiyyətinin formalaşması;

- Milli və multikultural tərbiyə - milli ləyaqət, digər millət və xalqlara hörmət hissinin formalaşması;
- Siyasi tərbiyə - siyasi şüurun formalaşması.

Öz növbəsində bu istiqamətlərdən hər biri bir neçə cəhəti özündə birləşdirir:

- İnsanda mənəvi başlanğıcın formalaşması, özünü dərk etməyə can atması və öz yerini tanıması;
- Əxlaq, etika, siyasət məsələlərində mənəvi maarifləndirmə;
- Mənəvi özünütərbiyənin, davranışın, özününizamlama mexanizminin inkişafı;
- Öz davranış və fəaliyyətinə görə şəxsi məsuliyyət hissinin tərbiyəsı;
- İnsanın nəinkı baxış və münasibətlərinin, həm də inamının formalaşması. İnam - insanın ideyaları, baxışları, münasibətlərın, davranış və hərəkətlərinin realizə olunmasını dərindən dərk etmək deməkdir.

**Tərbiyə metodları**

Təlimin metodları olduğu kimi, tərbiyənin də özünəməxsus metodları mövcuddur. Mürəkkəb proses olan tərbiyənin metodlarına uyğun fəaliyyət göstərmək müəllimlərin mühüm vəzifəsidir. Tərbiyə metodları müəyyən tərbiyə vəzifələrini yerinə yetirmək üçün müəllimin, kollektivin qarşılıqlı fəaliyyəti prosesində istifadə etdiyi yollar toplusudur. Həmin yolların, vasitələrin köməyi ilə müəllim şagirdlərin şüuruna, davranışına, emosional-psixoloji aləminə təsir edərək onlarda mənəvi şüurun, davranışın formalaşmasına nail olur. Tərbiyə işi məktəblərdə bir sıra metodların tətbiqi ilə həyata keçirilir.

**1. İnandırma metodları.** Şəxsiyyətdə müsbət keyfiyyətləri formalaşdırmaq üçün onun şüuruna, hiss və iradəsinə məqsədyönlü tərbiyəvi təsir vasitələrinə inandırma deyilir. İnandırma vasitələrilə müəllimlər müəyyən əxlaqi-etik prinsipləri, anlayışları izah edir, onların mahiyyətini məktəblilərə başa salırlar. İnandırma yalnız sözlə deyil, habelə təcrübə, konkret fəaliyyət, nümunə vasitəsilə də həyata keçirilir. Bu məqsədlə kitablardan, televiziya və radio verilişlərindən, görkəmli şəxslərin həyat və fəaliyyətinə dair konkret misallardan istifadə edilir. İnandırma vasitələri ilə müəllim və tərbiyəçilər məktəblilərin əqlinə və qəlbinə təsir edir, onlarda öz hərəkətlərinə məsuliyyətlə yanaşmaq, həyata düzgün baxış və s. kimi keyfiyyətləri formalaşdırırlar.

İnam əsasında mənəvi əqidənin özülü qoyulur. Əqidənin ilk komponenti bilikdir (elmi, əxlaqi-etik, mənəvi-estetik və s.). Məktəblilər yaxşı, pis, xeyirxah, bədxah, ədalətlilik, ədalətsizlik kimi keyfiyyətləri inandırma prosesində fərqləndirirlər. Məktəblilərin davranış səviyyəsi onların əxlaqi-etik, mənəvi estetik bilik səviyyəsindən aşağı olur. Onlar əxlaq qaydaları, normaları haqqında, böyüyə hörmət haqqında biliklərə malik olurlar. Lakin həmin biliklərdən əməli fəaliyyətində istifadə etməkdə çətinlik çəkirlər. Çünki mənəvi şüurla mənəvi adətlər arasında tam vəhdət yaranmamış olur. Mənəvi şüurla mənəvi adətlər arasında tam vəhdət o zaman təmin edilir ki, əqidə yaranır. Əqidə insanın şüuru ilə mənəvi davranışını, adətlərini tam vəhdətdə birləşdirən, onları tənzimləyən, fəaliyyətə təhrik edən

mənəvi prinsiplər sistemidir.

İnandırmanın ən təsirli vasitəsi nümunədir. Tərbiyə prosesində nümunə təlim prosesindəki əyaniliyə tam uyğun gəlir. Nümunənin tərbiyə gücünün psixoloji əsasını uşaqların böyüklərə oxşamaq, onlar kimi olmaq meyli və qabiliyyəti təşkil edir. Vətənimizin görkəmli və qabaqcıl adamlarının, bədii əsər, kinofilm qəhrəmanlarının həyatından alınmış təsirli, emosional faktlar, nümunələr də böyük təsirə malikdir.

**2. Alışdırma metodları.** Şəxsiyyət hər şeydən əvvəl müxtəlif fəaliyyət prosesində formalaşır. Fəaliyyət insanın ətraf aləmə fəal münasibətinin ən mühüm formalarından biridir. İnsanın şüur və davranışına onun daxil olduğu fəaliyyət növü çox ciddi təsir göstərir. Əmək fəaliyyətinin insana tərbiyəvi və sağlamlıq baxımından əhəmiyyəti böyükdür.

Alışdırma metodunda çalışmalar, təmrin və tapşırıqlar da mühüm rol oynayır. Çalışmalar, təmrinlər və tapşırıqlar məqsədyönlü təşkil edilir və şəxsiyyətdə ən zəruri keyfiyyətlərin formalaşmasına xidmət göstərir. Bu işdə insanın həyat tərzini nizama salan və tənzimləyən rejim əsas vasitə kimi çıxış edir. Rejim sayəsində eyni növ hərəkət dönə-dönə təkrar edilir, biliklər bacarığa, müəyyən bacarıqlar isə avtomatlaşaraq vərdişlərə çevrilir.

**3. Rəğbətləndirmə və cəza metodları.** Məktəblərdə zərurət yarandıqda rəğbətləndirmə və cəza metodları tətbiq edilir. Şagirdin faydalı hərəkəti rəğbətləndirilir, zərərli davranışı məzəmmətlə qarşılanır. Şagirdi rəğbətləndirmək və cəzalandırmaq onun hisslərinə təsir etməkdir. Uşaqlarda həya, mərhəmət, sevgi, nifrət və s. kimi hisslərin tərbiyə edilməsinin əhəmiyyəti böyükdür.

Şagirdi rəğbətləndirmək onun adamlara, cəmiyyətə xoş gələn hərəkətlərini, fəzilətlərini təqdir etmək, həmin hərəkət və fəzilətləri onun davranış normasına çevirməklə nəticələnir. Cəzalandırmaq isə onun yerində olmayan hərəkətlərinə, qaydaları pozmasına mənfi münasibət bildirməklə düz yola istiqamətləndirməkdir. Faydalı hərəkətlərin, davranışın ətrafdakılar tərəfindən qiymətləndirilməsi sevinc, qürur, sabahkı günə stimul yaradır, onlarda yaşamaq həvəsini artırır. Cəmiyyətin qaydalarına uyğun gəlməyən hərəkətlər, qəbahətlərə irad tutulması peşmançılıq hissi yaratmaqla şagirdi belə hərəkətlərdən uzaqlaşdırır. Bir sözlə, rəğbətləndirmə şagirdin xarakter və davranışında, onun daxili aləmində müsbət keyfiyyətlərin, fəzilətlərin, xeyirxahlığın, rəhimliliyin təşəkkülünə, tənbeh isə onun işlərində, davranışında özünü büruzə verən əlamət və qəbahətlərin aradan qaldırılmasına xidmət edir. Rəğbətləndirmənin müxtəlif vasitələri mövcuddur. Onlara aiddir:

**Tərifləmə -** rəğbətləndirmənin ən yüngül vasitəsidir. Şagirdi həm təklikdə, həm də kollektiv qarşısında tərifləyirlər. İstər təklikdə, istərsə də kollektiv qarşısında təriflənən şagird öz qüvvəsinə inanır, tapşırılan işi həvəslə icra etməyə çalışır.

**Təşəkkür -** təriflənməyə nisbətən daha təsirli vasitədir. Təşəkkür həm şifahi, həm də yazılı şəkildə verilir, Təşəkkür adətən daha gərgin əmək prosesində əldə edilmiş nailiyyətə görə verilir. Təşəkkürün kollektiv qarşısında elan edilməsi onun tərbiyəvi təsirini xeyli artırır.

**Mükafat -** şagird hər hansı bir tapşırığı səmərəli, keyfiyyətlə icra etdikdə verilir.

Şagirdə kitab, avtoqələm, fotoaparat, musiqi aləti suvenirlər, şahmat taxtası və s. mükafat verilə bilər. Belə mükafatların verilməsində məqsəd həm şagirdləri, həm də kollektivi daha səylə, həvəslə işləməyə ruhlandırmaqdır.

Müvəffəqiyyət qazanan şagirdin tərifnamə ilə təltif edilməsi, hər hansı bir şagirdin daha çox həvəs göstərdiyi fənni öyrənməsinə, məşğələlərdə fəal iştirak etməsinə şərait yaradır.

Məktəblərdə cəzanın bir sıra vasitələrindən istifadə edilir. Məzəmmət etmək və ya danlamaq cəzanın ən yüngül formasıdır. Müəllim pis hərəkətinə görə şagirdi danlayır, həmin hərəkətdən narazı qaldığını bildirir. Bu kömək etmədikdə şagird dərsdən və ya hər hansı bir tədbirdən kənarlaşdırılır. Şagirdin hərəkəti kobud, intizamsız xarakter aldıqda ona əvvəlcə şifahi, bu davam edərsə, yazılı töhmət verilir. Dərsdən sonra şagird məktəbdə saxlanılır, icra olunmamış tapşırığın icrası tələb olunur.

Şagirdin valideyninin məktəb şurasına çağırılması kimi cəza vasitəsindən də istifadə olunur. Normalara uyğun gəlməyən hərəkətlərinə görə şagird valideyni ilə birlikdə məktəb şurasına çağırılır. Şagirdin digər sinfə və ya məktəbə köçürülməsində məqsəd şagirdi ona təsir edən amillərdən, mühitdən uzaqlaşdırmaqdır. Şagird müəllimlərə və məktəb rəhbərlərinə müntəzəm tabe olmadıqda və intizamı kobud surətdə pozduqda, onun haqqında ən ağır cəza vasitəsi olan məktəbdən xaric edilməsi tətbiq edilir.

Tərbiyə metodlarından istifadə edərkən şagirdlərin yaş və fərdi xüsusiyyətləri nəzərə alınmalı, uşaq kollektivinə və onun tərbiyəvi gücünə istinad edilməli, tərbiyə metodlarının tətbiqində isə müəyyən hədd, obyektivlik, ədalətlilik və təhsilalanların hüquqları gözlənilməlidir.

İnsan şüurlu məxluq olduğu üçün onun bütün fəaliyyəti, davranışı şüurla tənzim olunur. Buna görə də ilk növbədə şüura təsir göstərmək, onda əxlaqi təsəvvürlər, inam, əqidə formalaşdırmaq lazım gəlir.

Tərbiyə şüurla davranışın vəhdətinə əsaslanır. İnsana əxlaqi normaları izah etməklə yanaşı, onun bu normalara uyğun davranması, müsbət adətlərə yiyələnməsi də vacibdir. Tərbiyə keyfiyyətlərinin böyük qismi adətlərlə bağlıdır. Məsələn, intizam, mədəni davranış, səhiyyə-gigiyenik vərdişlər, həyati tələbat və bacarıqlar adət nəticəsində formalaşır. Xüsusən böyük yaşlarda şüura təsir göstərmək imkanı məhdud olan dövrdə tərbiyə işində adətlər böyük rol oynayır. Deməli, tərbiyə işində insanın iradəsini möhkəmlətmək, onda müsbət adətlər yaratmaq və bu yolla düzgün davranış təcrübəsi formalaşdırmaq zəruridir. Tərbiyə metodlarının müəyyən qrupu məhz bu məqsədə xidmət edir.

Tərbiyə işində insanın hissi aləmi də mühüm rol oynayır. Rəğbət-nifrət, sevinc-kədər, xeyirxahlıq-bədxahlıq, hümanizm-eqoizm, həzz-ikrah hissləri davranış və rəftarı stimullaşdırır. Uşaqlıqdan insan qəlbinə müsbət hisslər aşılanmazsa, orada boşluq yaranar və çox vaxt bu boşluğu mənfi hisslər tutur. Nəticədə insan qəlbində bədxahlıq, qəddarlıq, laqeydlik, habelə bir çox nəfs xəstəlikləri-paxıllıq, tamahkarlıq, kin, qeybət, acgözlük yuva salır və insanı xoşagəlməz yollara çəkir. Bu mənada tərbiyə metodları həm insanın psixi-şüur fəaliyyətinin, həm davranış, rəftar və ünsiyyət fəaliyyətinin təşkilini, həm şüur və davranışı stimullaşdırmağı, həm də prosesə nəzarəti təmin etməlidir.

## Tələbələr üçün fəaliyyətlər

1. Tərbiyənin tərkib hissələrini ləçək modelində işləyin.
2. Tərbiyə metodlarını sxemdə ümumiləşdirin.
3. Tərbiyənin inandırma metodlarının tətbiqi xüsusiyyətlərini izah edin.
4. Tərbiyənin alışdırma metodlarının mahiyyətini izah edin.
5. Tərbiyə metodlarının tətbiqinin şagirdin nizam-intizamına təsirini izah edin.
6. Təmizliyinə ciddi yanaşmayan şagirdə tibbi-gigiyenik tərbiyəni aşılamaq yollarını izah edin.
7. Təlim, nizam-intizam tərbiyə üçbucağının nəticələrini qeyd edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Tərbiyə prosesinin səmərəli təşkilində metodları tətbiq edir"**

1. Nə zaman tərbiyənin inandırma metodu tətbiq edilməlidir?

2. Tərbiyənin tərkib hissələrinin əsas vəzifələrini cədvəldə qeyd edin:

| Tərbiyənin tərkib hissələri və onların vəzifələri | |
|---|---|
| Tərbiyənin tərkib hissələri | Vəzifələri |
| 1. Əqli | |
| 2. Əxlaq | |
| 3. Fiziki | |
| 4. Tibbi-gigiyenik | |
| 5. Ekoloji | |
| 6. İqtisadi | |
| 7. Mənəvi | |
| 8. Hüquq | |
| 9. Etik | |
| 10. Estetik | |

3. Tərbiyə metodlarının səmərəli tətbiqi yollarını ümumiləşdirin.




4. Tərbiyə metodlarını bir-biri ilə əlaqələndirin.

5. Divarı, partanı, kitabları yazmağı, cızmağı tərgitmək üçün hansı metodları tətbiq edərsiniz?

6. Şagirdlərdə məsuliyyət hissini yaradan metodları qeyd edin.

7. Ekoloji tərbiyədə tətbiq edəcəyiniz metodları yarpaqlar üzərində yerləşdirin.



8. Dərsdə inandırma metodunun tətbiqinə dair nümunə verin.

9. Rəğbətləndirmə və cəza metodunu şagirdin hüquqlarını pozmadan, şəxsiyyətinə toxunmadan tətbiq edilməsinə dair esse yazın.

10. “Tərbiyə metodlarının səmərəli tətbiqi” mövzusunda təqdimat hazırlayın.

## 2.4. Tərbiyə prinsiplərinin nəzərə alınmasının vacibliyini əsaslandırır

### 2.4.1. Tərbiyə prinsiplərinin vacibliyi

Tərbiyə məqsədyönlü, planlı mütəşəkkil prosesdir. Gənc nəsil tərbiyənin köməyi ilə milli və ümumbəşəri sərvətləri mənimsəyir, bəşəriyyətin zəngin tarixi təcrübəsinə yiyələnir. Tərbiyə prosesində şagirdlərdə müxtəlif qabiliyyətlər, fiziki qüvvələr, hərəkətlər inkişaf edir, xarakter əlamətlər və s. keyfiyyətlər formalaşır.

### 2.4.2. Tərbiyənin prinsipləri və onların nəzərə alınması

Tərbiyənin prinsipləri tərbiyə işinin istiqamətinə, məzmununa, metodları və təşkilinə, habelə iştirakçıların bir-birinə münasibətlərinə verilən əsas tələblərdir.

Tərbiyə prosesinin qanunları və prinsipləri arasındakı əlaqəni nəzərdən keçirək (Cədvəl 2.1):

| Tərbiyənin qanunları (qanunauyğun əlaqələr) | Tərbiyənin prinsipləri |
|---|---|
| I. Tərbiyənin məqsəd, məzmun, vasitə, metod və formalarının vəhdəti qanunu | 1. Tərbiyədə məqsədyönlülük prinsipi |
| II. Şəxsiyyət tərbiyəsinin cəmiyyətin tələbatı ilə şərtlənməsi qanunu | 2. Tərbiyənin həyatla, cəmiyyət quruculuğu ilə əlaqəsi prinsipi |
| III. Pedaqoji təsirlərin şəxsiyyətin imkanları ilə şərtlənməsi qanunu | 3. Tərbiyədə yaşauyğunluq prinsipi<br>4. Tərbiyədə fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması prinsipi |
| IV. Şəxsiyyətin inkişafının onun ünsiyyətinin xarakterindən asılılığı qanunu | 5. Tərbiyədə nikbinlik prinsipi<br>6. Tərbiyədə hörmət və tələbkarlığın vəhdəti prinsipi |
| V. Şəxsiyyətin inkişafının onun rəngarəng fəaliyyətindən asılılığı qanunu | 7. Əməkdə və ictimai-faydalı işlərdə tərbiyə prinsipi<br>8. Şüurla davranışın vəhdəti prinsipi<br>9. Tərbiyəyə kompleks yanaşma prinsipi |
| VI. Tərbiyədə xarici təsirlərlə şəxsiyyətin daxili fəallığının vəhdəti qanunu | 10. Tərbiyədə pedaqoji rəhbərliklə insanın təşəbbüs və özfəaliyyətinin əlaqələndirilməsi (əməkdaşlıq) prinsipi |
| VII. Tərbiyəvi təsirlərin xarakteri və qüvvəsi ilə nəticəsi arasında asılılıq qanunu | 11. Pedaqoji təsirlərin (tələblərin) vahidliyi, sistemliliyi, ardıcıllığı və fasiləsizliyi prinsipi |
| VIII. Pedaqoji prosesdə kollektiv və fərdin qarşılıqlı təsiri qanını | 12. Şəxsiyyətin kollektivdə və kollektiv vasitəsilə tərbiyəsi prinsipi |

**Cədvəl 2.1. Tərbiyə prosesinin qanunları və prinsipləri arasındakı əlaqə**

Tərbiyə işi bir sıra prinsiplər əsasında həyata keçirilir. Onları aşağıdakı kimi izah etmək olar:

**Tərbiyədə məqsəd aydınlığı prinsipi** qarşıda duran məqsədə qəti və fəal surətdə can atmaqda ifadə olunur. Tərbiyə prosesində məqsəd aydınlığının gözlənilməsi ictimai faydalı işləri, sinifdənkənar tədbirləri düzgün və rəngarəng təşkil etmək imkanı yaradır. Bu prinsip bütün tərbiyə prosesini əsas məqsəd baxımından tənzim etməyi nəzərdə tutur. Tərbiyəçi öz işində əsas məqsədi həmişə rəhbər tutmalı, onu bir an belə unutmamalıdır.

**Tərbiyənin həyatla, cəmiyyət quruculuğu ilə əlaqəsi prinsipi** şagirdlərin cəmiyyətin həyatı ilə dərindən tanış olmasına və onun yenidən qurulmasında fəal iştirak etməsinə şərait yaradır. Uşaqların tərbiyəsi yalnız onu həyata hazırlamaq deyil, həm də onun həyatının hər anını təşkil etmək, onu faydalı əməyə cəlb etməkdir.

Tərbiyə həyatla, cəmiyyət quruculuğu ilə sıx əlaqəli şəkildə aparıldıqda insan həyatı dərk edir, ictimai təcrübə qazanır, ictimai münasibətləri öyrənir, psixoloji və əməli cəhətdən ictimai həyata hazırlaşır. Cəmiyyətin iqtisadi, ictimai, sosial, siyasi həyatında iştirak etməklə gənc nəsildə vətəndaşlıq keyfiyyətləri, özünüdərk meyili formalaşır.

Tərbiyənin həyatla əlaqəsində həyatın müsbət nümunələrinə əsaslanmaqla yanaşı, cəmiyyətdəki neqativ halları da təhlil etmək, onların səbəblərini açıqlamaq, bu hallara obyektiv qiymət vermək lazımdır. Belə olduqda gənclər gözüaçıq böyüyər, həyatdakı neqativ hallara (rüşvətxorluq, varlanmaq ehtirası, pul düşkünlüyü, laqeydlik, öz mənafeyini hər şeydən üstün tutmaq və s.) düzgün qiymət verməyi öyrənərlər.Maddi tələbatlarla yox, mənəvi tələbatlarla yaşamağa üstünlük verərlər, əyri yollarla təmtəraqlı yaşayış tərzi bəzi gənclərin idealına çevrilməz.

**Tərbiyədə yaşa uyğunluq prinsipi.** Bu prinsip tərbiyə işində insanın yaş xüsusiyyətlərinə istinad etməyi nəzərdə tutur. Müxtəlif yaş dövrlərinə mənsub olan uşaqlar bir-birindən əsaslı şəkildə fərqlənirlər. Kiçik məktəbli ilə yeniyetmənin adamlara, həyata münasibəti, tələbat və maraqları eyni deyildir. Bu hal müxtəlif yaş dövrlərində insanın müxtəlif tərzdə yanaşmağın vacibliyini göstərir.

Yaşa uyğunluq prinsipinin tətbiqi bəzi qaydalara əsaslanır:

- Tərbiyə işində hər yaşın xüsusiyyətləri, həyat təcrübəsi, tələbat və maraqları düzgün nəzərə alınmalıdır;
- Yaş artdıqca tərbiyə işinin məzmunu və metodları dəyişməlidir. Yeniyetmə və gənclərin müstəqilliyinə və təşəbbüskarlığına şərait yaradılmalıdır, onlarla ünsiyyətdə xahiş, məsləhət tonu üstünlük təşkil etməlidir.

**Hörmət və tələbkarlığın vəhdəti prinsipi** tərbiyə sistemində humanizm ideyalarına, şagird şəxsiyyətinə hörmət etmək deməkdir. İnsan şəxsiyyətinə hörmət və tələbkarlığı təmin etmək, insanda olan müsbət keyfiyyətlərə istinad edib, onun xarakterindəki nöqsanları aradan qaldırmaq, fərdi xüsusiyyətləri nəzərə almaq zəruridir. Şagirdlərin şəxsiyyətinə toxunmaq, onların ləyaqətinin alçaldılmasına yol vermək bağışlanmazdır. Müəllimin uşaq şəxsiyyətinə hörməti, qayğısı tərbiyəvi təsirlərin səmərəsini artırır. Müəllim şagirdlərin gücünə inandıqda onlar daha səylə işləməyə, onun etimadını doğrultmağa

çalışırlar.

**Pedaqoji təsirlərin (tələblərin) vahidliyi, sistemliliyi, ardıcıllığı və fasiləsizliyi prinsipi** bir neçə istiqamətdə həyata keçirilir məktəb və ailə şagirdə vahid tərbiyəvi təsir göstərir. Bu o deməkdir ki, məktəbin verdiyi tələbləri ailə, ailənin verdiyi tələbləri isə məktəb yerinə yetirir və tamamlayır. Məktəb müəllimləri tərbiyədə vahidliyi gözləyir, ümumi məqsədə xidmət edir. Məktəb rəhbərləri ilə pedaqoji kollektivin üzvləri arasında vahidlik prinsipi həyata keçirilir. Məktəblə məktəbdənkənar uşaq müəssisələrində tərbiyə məsələlərində vahidlik əsas götürülür. Şagird şəxsiyyətinin formalaşmasına təsir edən amillərin vahidliyinin təmin edilməsi tərbiyədə əsas məsələlərdən biridir. Məktəb təlim-tərbiyə prosesinə dəqiq nəzarət etdikdə, ailə ilə sıx əlaqə saxladıqda, valideynlərə pedaqoji məsləhətlər verdikdə tərbiyəvi təsirlərin vahidliyi yerinə yetirilir.

Tərbiyənin vəzifələrini yerinə yetirdikdə müəllim və tərbiyəçidən sistemli iş aparmaq tələb olunur. Şagirdlərə verilən tələblər, həyata keçirilən tərbiyəvi tədbirlərə tam uyğun olmalıdır.Tərbiyədə ardıcıllıq, sistemlilik tərbiyəçilərin, təhsilverənlərin sözü ilə əməli arasında möhkəm əlaqə olmasına əsaslanır.

**Tərbiyədə fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması prinsipi** şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınmasıdır. Təhsilverənlər şagirdlərini yaxından tanımalı, onların zəif və güclü tərəflərinə uyğun tərbiyə işlərini həyata keçirməyi bacarmalıdır. Şagirdlər sinifdən sinfə keçdikdə, bir yaş dövründən o biri yaş dövrünə daxil olduqda tərbiyə işlərinin məzmunu, forma və metodları dəyişdirilir, onların yaş və fiziki inkişafı nəzərə alınır.

Şagirdlərin yaş və fiziki inkişaf səviyyəsindən, cinsindən asılı olaraq onlara pedaqoji rəhbərliyin də xarakterinin dəyişilməsi lazım gəlir. İbtidai siniflərdə müəllim şagirdlərin bütün həyatının, fəaliyyətinin təşkilatçısı kimi çıxış edirsə, yeniyetməlik və gənclik dövründə şagirdlər müstəqil hərəkət edirlər, bu yaş dövrlərində müəllim, yaxın bir dosta, məsləhətçiyə çevrilir, şagirdləri müstəqil işləməyə, yaradıcılığa, özünü dərk etməyə yönəldir. Tərbiyədə fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması prinsipinin tətbiqinin bəzi qaydalara əsaslanmaq lazımdır:

- Tərbiyə işində, onun məzmun və metodlarının tətbiqində uşaqların fərdi və cinsi xüsusiyyətlərindən çıxış etmək, optimal təsir vasitələri seçib tətbiq etmək lazımdır. Bütün insanlar və belə hallar üçün yararlı universal metod yoxdur. Hər bir konkret vəziyyətdə konkret təsir vasitələri tapılmalıdır;
- Tərbiyə işlərini planlaşdırıb təşkil edərkən hər bir uşağın tərbiyə səviyyəsinə, şəxsi təcrübəsinə, fərdi maraq və qabiliyyətlərinə əsaslanmaqla onun fərdi inkişafını istiqamətləndirmək lazımdır;
- Hər bir uşağın davranışına qiymət verərkən onun motivlərini öyrənmək və ondan asılı olaraq təsir göstərmək vacibdir. Motivdən asılı olaraq, iki dalaşan uşağın birinə sərt baxışla, digərinə isə ciddi tənbehlə təsir etmək lazım gəlir.

**Tərbiyədə nikbinlik prinsipi.** Bu prinsip insana nikbin nəzərlə yanaşmağı, onun qüvvəsinə, gələcəyinə inam bəsləməyi nəzərdə tutur. Bu halda insanda təkmilləşməyə, özünütərbiyəyə həvəs oyanır. Nikbinlik prinsipi insanın keçmişinə yox, bu gününə və

sabahına baxmağı nəzərdə tutur. İnsanın keçmiş qüsurunu üzünə vurmaq onu daha da korlayır, öz səhvlərini aradan qaldırmağa mane olur. Nikbinlik prinsipi insanın müsbət cəhətlərinə istinad etməklə mənfi cəhətlərini aradan qaldırmağı nəzərdə tutur. Hər bir insanda müsbət cəhətlər vardır. Tərbiyəçinin vəzifəsi bu müsbət cəhətləri axtarıb tapmaq və onlara əsaslanmaqla insanın nöqsanlı cəhətlərini aradan qaldırmaqdan ibarətdir.

**Şüurla davranışın vəhdəti prinsipi.** Bu prinsip tərbiyə işində insanın həm şüuruna təsir etməsi, həm də onda düzgün davranış təcrübəsi yaratmağı nəzərdə tutur.

İnsan şüurlu məxluqdur; onun davranış və münasibətləri şüurlu tənzim olunur. Ona görə də tərbiyə işində şüura təsir göstərmək, insanda düzgün əxlaqi təsəvvürlər, inam və əqidə yaratmaq, ona sözlə təsir etmək vacib şərtdir. Şəxsiyyətin formalaşması o zaman səmərəli olur ki, şüurla davranış arasında vəhdət yaranmış olsun. İnsan bildiklərini davranış və rəftarına tətbiq etsin. Düzgün davranış təcrübəsi və müsbət adətlərə yiyələnsin. İnsanın işi, mənəvi aləmi onun hərəkətləri, əməli fəaliyyəti ilə ölçülür. İnsanın şüuru onun hərəkətlərini idarə edir, əxlaqi şüur hərəkətlərin təsiri altında formalaşır. Məktəblinin tərbiyəlilik səviyyəsi onun işi, əməli fəaliyyətidir. Əxlaqi şüurla əxlaqi davranışın vəhdətinin təmin edilməsi onun mənəvi aləminin bütövlüyü deməkdir. Məktəbli özünün kimliyi, ömrünü nəyə sərf etməsi, nəyi özünə ideal seçməsi, nəyin uğrunda mübarizə aparması haqqında düşünür, respublikanın həyatında fəal iştirak etməyi özünün müqəddəs borcu sayır.

**Şəxsiyyətin kollektivdə tərbiyəsi** təlim-tərbiyədə əsas problemlərdəndir. İnsan ictimai varlıqdır, o istəsə də, istəməsə də müəyyən fəaliyyət zamanı başqa adamlarla ünsiyyətə girir, müxtəlif sosial vəzifələri yerinə yetirir. Şəxsiyyətin kollektivdə tutduğu mövqedən asılı olaraq onun mənəvi keyfiyyətləri formalaşır. İctimai həyatda baş vermiş ciddi dəyişikliklər, elmi-texniki inqilab, yeni kəşflərin məişətə əsaslı şəkildə daxil olması uşaqların xarakter və mənəvi aləminin zənginləşməsinə səbəb olur.

Uşaq kollektivi üzvlərinin bacarıq və qabiliyyəti inkişaf edir və onlardan kollektivin xeyrinə istifadə olunur. Kollektiv fəaliyyət növlərində (təlim, əmək, oyun) iştirak edən uşaqlar keçirdikləri hissləri daha dərindən dərk edir, kimin necə yoldaş, dost olduğunu, əməyə, adamlara necə münasibət bəslədiklərini, ictimai həyat hadisələrini necə qiymətləndirdiklərini öyrənirlər. Kollektiv fəaliyyət prosesində uşaqlarda vətəndaşlıq şüuru, əqidə formalaşır. Uşaq kollektivi hər bir şagirdin yaradıcılıq, təşəbbüskarlıq qabiliyyətlərini aşkara çıxarır və onların inkişafına şərait yaradır.

**Tərbiyədə kompleks yanaşma prinsipi.** Bu prinsip tərbiyə işinin bütün sahələrini, müxtəlif fəaliyyət növlərini vəhdətdə həyata keçirməyi nəzərdə tutur. Kompleks yanaşma prinsipi bütöv pedaqoji prosesin öz mahiyyətindən irəli gəlir. Pedaqoji proses ideya-siyasi, əxlaq, əmək, estetik, fiziki tərbiyə vəzifələrini vəhdətdə həyata keçirməklə şəxsiyyətin ahəngdar inkişafını təmin etməyə istiqamətlənir. Vahid pedaqoji prosesin hər hansı bir sahəsi çatışmadıqda tərbiyənin ümumi məqsədinə nail olmaq mümkün deyildir.

Tərbiyəyə kompleks yanaşma, habelə bu prosesdə iştirak edən bütün qüvvələri (müəllim, valideyn, uşaq və onun yoldaşları, ictimai təşkilatlar, şagird kollektivləri və s.)

əlaqələndirməyi nəzərdə tutur.

**Tərbiyədə pedaqoji rəhbərliklə insanın təşəbbüs və özfəaliyyətinin əlaqələndirilməsi (əməkdaşlıq) prinsipi.** Bu prinsip pedaqoji nəzarətlə insanın sərbəstliyini əlaqələndirməyi, pedaqoji əməkdaşlığı nəzərdə tutur.

Tərbiyə prinsipləri humanist xarakter daşıyır, yəni onlar birlikdə insan şəxsiyyətinin inkişafına, nəcibləşməsinə xidmət göstərir. Müəllim insanın fərdi xüsusiyyətlərindən, real şərait və imkanlardan çıxış edərək tərbiyə prinsiplərini yaradıcılıqla tətbiq etməyə çalışmalıdır. Təlimin üç əsas funksiyasından biri tərbiyəedicilikdir. Funksiyanı yerinə yetirmək, təlimdə yüksək keyfiyyətə nail olmaq üçün fənn müəllimləri, tərbiyənin prinsip və metodlarını öyrənməli, onları təlim fəaliyyətində tətbiq etməlidir. Tərbiyə təlim prosesinin hüdudlarını aşaraq, daha geniş sahəni əhatə edir. Tərbiyə həm dərs prosesində, həm dərsdənkənar, sinifdənkənar, məktəbdənkənar tədbirlərdə, həm də ailədə həyata keçirilir. Məktəblilərin tərbiyəsinə, ictimai mühit, mətbuat, radio, televiziya, kino, idman, bədən tərbiyəsi və digər tədbirlər güclü təsir göstərir. Uşaq kiçik olduqda onun hisslərini və davranışlarını möhkəm adət və vərdişlər əsasında formalaşdırmaq imkanları geniş olur. O, yaşa dolduqca anlayış, baxış və əqidəsi formalaşır. Tərbiyə işində müvəffəqiyyət əldə etməyin başlıca şərti uşaqların tərbiyəlilik səviyyəsinin, şüurluluğunun, mənəvi keyfiyyətlərinin nəzərə alınmasıdır. Tərbiyə prosesi müəllimdən həssaslıq, ustalıq, uşaqların yaş, cins və fərdi xüsusiyyətlərini nəzərə almasını tələb edir. Tərbiyəçinin məqsədi cəmiyyət tərəfindən müəyyən edilən tərbiyənin mahiyyətini, məzmununu dərk etməkdir. Müəllim tərbiyə işinin nəticələrini təhlil etməyi bacarmalı, tərbiyənin prinsiplərini nəzərə almalıdır.

## Tələbələr üçün fəaliyyətlər

1. Tərbiyənin prinsiplərinin mahiyyətini izah edin
2. Aşağıdakı fikirlərin tərbiyəyə aid olanlarını göstərin:
3. Dərsə gecikməmək, təbiəti qorumaq, vətənpərvərlik, dərsdə icazə alıb sual vermək, əxlaq, əqli, icazəsiz dərsi tərk etməmək, şüurlu intizam, iqtisadı, vətənpərvərlik, gün rejiminə əməl etmək, ekoloji, kitabı cırmamaq, mənəvi və s..
4. Təlimlə tərbiyə prinsiplərinin əlaqələrini müəyyən edin.
5. Təlim prinsiplərini vacibliyi baxımından sistemləşdirin.
6. Tərbiyəvi təsirlərdə vahidlik prinsipinin əhəmiyyətini əsaslandırın.
7. “Tərbiyənin prinsipləri” sxemini yeni formada işləyin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Tərbiyə prinsiplərinin nəzərə alınmasının vacibliyini əsaslandırır".**

1. Tərbiyənin prinsiplərini sxemlə ümumiləşdirin:




2. Tərbiyənin hörmət və tələbkarlıq prinsipini izah edin.
3. Tərbiyədə fərdi yanaşma prinsipinə riayət olunmasına dair təkliflərinizi verin.
4. Tərbiyə prinsiplərinin qarşılıqlı əlaqələrini ümumiləşdirin.
5. Tərbiyə prinsiplərini əhatə edən krossvord hazırlayın.
6. "Prinsiplər əsasında tərbiyə" mövzusunda təqdimat hazırlayın.
7. Tərbiyədə fərdi yanaşma prinsipinin tətbiqində şagirdin hansı xüsusiyyətləri nəzərə alınmalıdır?
8. Sinifdə nizam-intizam qaydalarına tabe olmayan şagirdlə aparacağınız işin planını işləyin.

## 2.5. İctimai yerlərdə davranış qaydalarını izah edir

### 2.5.1. İctimai yerlərdə davranış qaydaları

Cəmiyyətdə, mənsub olduğu ölkədə yaşayan hər bir vətəndaş etiket qaydalarına riayət etməlidir. İnsan bu qaydalara uşaq yaşlarından əməl etməyə alışmalıdır. İnsanların riayət edəcək əxlaq, mədəni davranış qaydaları çox geniş və əhatəlidir.

İnsanın intellekt səviyyəsi onun ədəbi, hamı tərəfindən qəbul edilmiş mədəni davranış qaydalarına riayət etməsi, böyük hörmət, nüfuz qazanması ilə ölçülür. Əxlaqi şüur, mədəni davranış insanın yaraşığı, zinətidir. Məhz elə buna görə də, xalqımız əxlaq, davranış qaydaları haqqında bir-birindən dəyərli sözlər söyləmişlər. Həmin söz inciləri şagirdlərdə böyüklərə, qocalara, ata-analara, baba-nənələrə, qadınlara, qızlara, özündən kiçiklərə hörmət etməyə, bilik və bacarıqlara yiyələnməyə marağı artırır.

Mədəni davranış insanların ən dəyərli bacarıqlarıdır. Elə buna görə də xalqımız yüksək əxlaqi keyfiyyətləri, sadəliyi, təvazökarlığı, xeyirxahlığı, halallığı, qayğıkeşliyi, həssaslığı həmişə yüksək qiymətləndirmişdir. Mədəni davranış insanda məktəbəqədər dövrdən, məktəb illərindən formalaşmağa başlayır. Başqa sahələrdə olduğu kimi, mədəni adətlər və mədəni davranış bacarıqları öz-özünə yaranmır. Bunları öyrənmək və əməli fəaliyyətdə tətbiq etmək, davranış normalarına çevirmək zəruri şərtlərdəndir.

Mədəni insanlar digər insanlarla görüşəndə səmimi olmağı, salamlaşmağı, hal-əhval tutmağı özlərinə borc bilirlər. Salamlaşarkən birinci olaraq kiçiyin böyüyə, şagirdin müəllimə salam verməsi mədəni davranış hesab olunur. Yaşlı adamla, özündən böyüklə salamlaşarkən, yaxud ayrılarkən birinci olaraq əl uzatmamaq, yalnız baş əyməklə kifayətlənmək yaxşı haldır.

Tibbi-gigiyenik mülahizələrə, qaydalara görə əllə görüşmək, öpüşmək də məsləhət deyildir. Danışanı, müsahibini dinləmək bacarığı da mədəni davranışa aiddir. Müsahibinin, xüsusilə yaşlı adamın sözünü kəsmədən onu axıracan dinləmək vərdişinə yiyələnmək vacibdir. Böyüklərlə bir yerdə olarkən son dərəcə həssas, diqqətli və nəzakətli davranış nümayiş etdirmək mədəni səviyyəni göstərir.

Mədəni insan hamıya yaxşılıq etməyə çalışır. O, dediyi hər sözün, etdiyi zarafatın həddini bilir. Davranışında olduqca mülayimlik göstərir, heç kəsin qəlbinə dəymir, könlünü sındırmır. O, heç kimlə dalaşmır, aqressiv hərəkətlərə yol vermir. İctimai yerlərdə davranış qaydalarını pozanlarla, kobud hərəkət edənlərlə barışmır, güzəştə getmir, onlara mədəni davranmağı tövsiyə edir. Kiminləsə görüşmək istədikdə qabaqcadan onunla görüş vaxtını razılaşır. Evə, yaxud iş yerinə gedərkən qapını döyməklə içəri keçməyə icazə alır.

Böyüklərə hörmət ilk növbədə ailədən başlayır. Ailədə qarşılıqlı hörmət əsasdır. Hamı bir-birinə can deyib can eşitsə, həm sağlamlıq, həm də əhval-ruhiyyənin yaxşılaşmasına xidmət etmiş olur.

Həyat və fəaliyyətin bütün anlarında böyüklərə hörmət və ehtiram əsas şərtlərdəndir. Otağa yaşca böyük adam daxil olduqda ayağa durub, "xoş gəldiniz", deyərək yer göstərilməsi, onunla mədəni münasibət qurulması ədəb-ərkandır. Böyük oturmayınca və başqalarına da oturmağı təklif etməyincə əyləşməmək nəzakətlilik əlamətidir.

Böyüklərə ehtiram etməyin vasitə və yolları çoxdur. Palto və plaşlarını geyməkdə, əllərindəki ağır əşyaları götürməklə onlara kömək etmək əsil mədəni davranışdır. Böyüklərə qulluq edərkən xahiş gözlənilmir. Bu sahədə hər bir insan diqqətli və təşəbbüskar olmalıdır.

Məktəbin həyatində rastlaşdığımız müəllimlərə, xidməti işçilərə, məktəb yoldaşlarına salam verilməsi zəruridir. Sinfə daxil olarkən hər şagirdin öz yerində əyləşməsi, üst-başını qaydaya salması, müəllimin gəlməsini gözləməsi mədəni davranışdır. Təsadüfən dərsə gecikdikdə, müəllimdən icazə almaqla sinfə daxil olmaq lazımdır. Gecikməyin səbəbinin nəzakətlə ona bildirilməsi yaxşı haldır.

Qonaq getmək, qonaq qəbul etmək ünsiyyətin, insan həyatının yaddaqalan anlarıdır. Buna görə də qonaqlıqda davranış mədəniyyəti ilə bağlı bir sıra cəhətlər gözlənilməlidir. Qonaq gedərkən xoş ovqat yaradan vasitələrdən biri səliqəli geyinmək, səliqəli görkəmdə olmaqdır. Bəzək və zinət əşyalarına həddən artıq aludə olmağın faydası yoxdur. Məktəblinin gözəlliyi elə onun sadə görkəmidir. Qonaq gedərkən oradakı adamların hər biri ilə ayrılıqda görüşməyə ehtiyac yoxdur. İçəri daxil olarkən təbəssümlə, şən əhvalla hamını sözlə salamlamaq kifayət edir. Qonaqlığın, şənlik məclisinin nə məqsədlə təşkil olduğunu bilərək səbəbkarı səmimi qəlbdən təbrik etmək, ona ən xoş arzularını bildirməklə hədiyyə təqdim edilir. Yeməyə dəvət olunarkən bir sıra cəhətləri yadda saxlamaq vacibdir: qaşıqdan, çəngəldən və bıçaqdan düzgün istifadə edilir. Ət tikələrini xırda hissələrə bölmək üçün bıçaqdan istifadə edərkən o sağ əldə, çəngəl isə sol əldə tutulur. Ağızda yemək olarkən danışmaq məsləhət deyildir. İsti xörəyin soyumasını gözləmək, qaşıq və çəngəlin boşqabın dibinə dəyməsinə yol verməmək mədəni davranışa aiddir.

İnsanların ən çox olduqları ictimai məkanlara kinoteatr, konsert salonları, kitabxanalar, mədəniyyət və istirahət parkları, mərasimlər və başqaları aiddir. Konsert salonunda papaqla, kino-teatrda, məclislərdə plaş, palto ilə oturmaq məsləhət görülmür. Konsert və ya tamaşa zamanı tum çırtlamaq, dondurma yemək, film, tamaşa, konsert başa çatmamış salonu tərk etmək yaxşı hal deyil, mədəni davranışa ziddir. Kitabxanalarda, qiraət salonlarında, muzeylərdə olarkən sakitliyi gözləmək, digər insanların rahatlığını pozmamaq mədəni davranış hesab olunur. İctimai yerlərdə davranış mədəniyyəti nümayiş etdirmək böyük məharət, qabiliyyət tələb edir.

Səliqəli, təmiz görünüş ən yüksək insani keyfiyyətlərdəndir. Səliqəli insan geyiminə, hər işin yerli-yerində olmasına xüsusi fikir verir. Bunun üçün səhərlər vaxtında yataqdan qalxmaq, evi təmizləmək, otağın havasını dəyişdirmək, səhər idmanı etmək, yuyunmaq, səhər yeməyi qəbul edərək işə başlamaq və ya dərsə getmək lazımdır. Kitabları, dəftərləri və digər məktəbli ləvazimatlarını səliqəli saxlamaq, evdə, məktəbdə, ictimai yerlərdə səliqəliliyi gözləmək, mədəni davranış nümayiş etdirmək hər bir məktəblinin əsas vəzifəsidir.

Ev, məktəb, məclis paltarları təmiz, səliqəli saxlanmalıdır. Məktəbdən, gəzintidən, şənlikdən evə qayıtdıqda paltarlar təmizlənib yerindən asılmalıdır. Paltarı asılqana qoyarkən diqqət edilməlidir. Ola bilsin ki, paltarın hər hansı bir yeri sökülüb, yaxud ləkə düşüb. Onu qaydaya salıb, sonra yerinə yerləşdirmək vacibdir. Bütün bu işlər məktəblilərə

kiçik yaşlarından öyrədilməlidir.

Evdən çıxarkən güzgüyə baxmaqla paltarının təmiz və səliqəli olmasına diqqət edilir. Ayaqqabıların da təmizliyi vacib şərtlərdəndir. Geyilən paltarlara uyğun ayaqqabıdan istifadə olunması görkəmi zövqlü edir. Təmizlik, səliqəlilik geyim mədəniyyətinin başlıca şərtlərindəndir. Səliqəli geyinmək heç də moda ilə bahalı paltar geyinmək deyil. Sadə, çox bahalı olmayan parçadan tikilmiş paltarları səliqə ilə geyinmək mümkündür.

Danışarkən qarşıdakı insana çox da yaxın durmaq məsləhət deyil. Bərkdən, sürətlə danışmaq, həddindən artıq əl-qol hərəkətlərinə yol vermək, başı, bədəni tərpətmək mədəni davranış deyildir. Nitq-danışıq dilinin aydın olması, sözlərin tam və düzgün tələffüz edilməsi məsləhətdir. Fikirləri mümkün qədər qısa və aydın söyləmək, danışıq zamanı başqa dillərə aid və dinləyicilər üçün aydın olmayan söz və terminlərdən istifadə etmək də məsləhət deyildir. Danışarkən fikrin hamı tərəfindən qəbul edilməsi vacib sayılmır. Başqalarının da fikirlərini axıradək dinləmək, onlara hörmətlə yanaşmaq, diqqət etmək vacib məsələlərdəndir. Yoldaşlarla, kənar adamlarla danışarkən çox aralıda durmaq, ucadan, qışqıra-qışqıra danışmaq yaxşı hal deyildir. Tam bilinməyən və yəqinliyinə əmin olunmayan fikri, əhvalatı, hadisəni danışmaq lazım deyil. Qiybət etmək, böhtan atmaq, yalan danışmaq mədəni davranışdan uzaqdır. Nitqdə söyüşə, təhqiramiz sözlərə yer verilməsi insanı hörmətdən salır, mənfi rəylərə səbəb olur. Dinləməyi bacarmaq vacibdir. Qarşıdakını dinləməyi (sizin əleyhinizə danışıldıqda belə) bacarmaq böyük qabiliyyətdir.

- Düşünülənlərin hamısını söyləməmək, amma söylənilənlərin hamısını əvvəlcədən düşünmək lazımdır;
- Dinləyən adama dəyər verilməlidir;
- Sözü mənasız yerə uzatmamalı. Çatdırılması istənilən fikri mümkün qədər qısa və aydın tərzdə (lakonik) ifadə etmək lazımdır;
- Danışarkən söz seçiminə, onları doğru söyləməyə (tələffüzə) və üsluba fikir verilməlidir. Söz bazasını (lüğəti) genişləndirməyə çalışmalı;
- Ədəbi və mədəni bir dildə danışmağa çalışmalı;
- Səs insanın şəxsiyyətini əks etdirir. Yorğunluq, xəstəlik, qorxaqlıq, çəkingənlik, yekəxanalıq və s. kimi xüsusiyyətləri danışıqda nəzərə çarpdırmamalı;
- Səsin tonunu duyğu və düşüncələrin xüsusiyyətinə görə nizamlamalı;
- Nitqdə başqa dillərdə olan və hamıya aydın olmayan terminlərdən istifadə etməməli;
- Danışarkən şəxsi fikrin hamı tərəfindən qəbul edilməsinə çalışmamalı;
- Başqalarının fikrini dinləmək, ona hörmət etmək, qiymətləndirmək lazımdır.

Telefonla danışarkən son dərəcə diqqətli olub fikirlərin qısa və yığcam deyilməsi məsləhətdir. Vacib məsələ yoxdursa, yoldaşlarını tez-tez telefon zəngi ilə narahat etmək yaxşı deyildir.

Danışığında lüzumsuz ara sözlərdən, o cümlədən “şeydi”, “zaddı”, “məsəl tut”, “deməli ki,” “baxanda-baxıb görürük ki” kimi sözlərdən istifadə edilməsi mədəni səviyyənin aşağı olduğunu göstərir. Nitqində, danışıqda belə uyğunsuz ifadələrin işlədilməsi insanın düzgün

fikirləşə bilməməsini təsdiq edir.

Asudə vaxtın çox hissəsini fəal istirahət üçün ayırmaq məsləhətdir. Açıq havada gəzmək, müxtəlif hərəkətlər və əyləncəli oyunlarla məşğul olmaq, müəyyən qədər televizora, teatr tamaşalarına və kino-filmlərə baxmaq mədəni səviyyəni yüksəldir. Onlar asudə vaxtın daha maraqlı və məzmunlu keçməsinə zəmin yaradır. Asudə vaxtın müəyyən bir hissəsinin mütaliəyə, maraqlı sahələr üzrə yeni məlumatlar əldə etməyə, sevimli yazıçı və şairlərin əsərləri ilə tanış olmağa, ailə kitabxanasını zənginləşdirməyə sərf edilməsi də faydalıdır. Asudə vaxtın müəyyən bir hissəsini bədən tərbiyəsi və idmana, ictimai faydalı işə, həmçinin təbiətə qayğı göstərməyə həsr etmək vacibdir. Həyət və yol kənarındakı, məktəbin həyətindəki ağaclara və yaşıllıq kollarına qulluq etmək fərəhvericidir. Asudə vaxtlarda məktəblilərin məktəbdənkənar tərbiyə və mədəni-maarif ocaqlarında fəaliyyət göstərməsi, bəbii-texniki dərnəklərdə məşğul olması çox yaxşıdır.

İnsan üçün ən gözəl keyfiyyətlərdən biri də düzlükdür. Hər bir insan şahidi olduğu əhvalatı, həqiqəti düz demək, yoldaşlarının nöqsanlarını yerindəcə üzünə söyləmək bacarığı nümayiş etdirməlidir. Sözlə iş arasında tam uyğunluq, əlaqə olmalıdır. Bəzi şagirdlər tapşırılan işdən boyun qaçıran, müvafiq qaydaları pozan yoldaşlarının eybini onların üzünə, valideynlərinə, yaxud müəllimlərinə deməyi yoldaşa xəyanət, satqınlıq hesab edirlər. Əksinə, yoldaşa qarşı bu cür passiv, ögey mövqe tutmaq, onun gələcək həyatının təhlükə altına alınmasına, bir şəxsiyyət kimi sıradan çıxmasına səbəb olur. Buna görə də həmişə hər yerdə doğru-düzgün mövqe tutmaq lazım gəlir.

İnsanlar anadan qorxaq, yaltaq və yalançı doğulmurlar. Müsbət keyfiyyətlərdən olan düzlük-doğruçuluq kimi bu cür qeyri-insani xüsusiyyətlər adamlarda mühitin təsiri ilə yaranır. Hər bir uşaq, yeniyetmə lap kiçik yaşlarından hiss etməlidir ki, doğru danışmaq, deyilənlərə əməl etmək həmişə hörmət və etibara, yalan danışmaq isə qərəzçiliyə, ədavətə, qorxaqlığa səbəb olur. Dostunun, yoldaşının yaxşı və pis əməllərini onun üzünə yerindəcə demək, düzgün qiymətləndirmək həm də yaltaqlığın, lovğalığın qarşısını vaxtında alır. Özünənəzarət, ədalətlilik hissini inkişaf etdirir, insanı əsl şəxsiyyət kimi formalaşdırır.

**İctimai yerlərin davranış qaydaları.** İctimai yerlərə məktəb, sinif, həyət, küçə, park, muzey, teatr, nəqliyyat, qonaqlıq, məclis, bayram şənlikləri və başqaları aiddir.

İcitmai yerlər müxtəlif məkanlardan təşkil olunduğu üçün onların hər birində müəyyən davranış qaydaları mövcuddur. Hamı yaşından, cinsindən, milliyyətindən asılı olmayaraq bu qaydalara əməl etməlidir. Həmin qaydalar məkanlar üzrə qruplaşdırılmışdır:

İctimai yerlərdə ümumi davranış qaydalarına aiddir: İctimai yerlərdə vulqar sözlərdən, yüksək səs tonundan istifadə edilmir; Küçə və parklarda zibil, siqaret kötüyü yerə deyil, zibil qutusuna atılır; Ədəb-ərkan qaydalarına riayət edilir, geyim mədəniyyətinə əməl olunur; Nəqliyyatda yaşlılara, ümumilikdə bütün insanlara hörmətlə yanaşılır; Parklarda, bağlarda bitkilərə xətər yetirilmir; İnsanlar içərisində yerə tüpürmək mədəniyyətsiz hərəkətdir; Böyüklər qarşısında əlini çənənin altına, başını qolun üstünə qoyub danışmaq ədəbsiz hərəkət hesab olunur.

- Lazım gələndə susmağı bacarmaq, başqasının sözünü kəsməmək nəzakətlilikdir.
- Bərkdən yersiz gülmək yaxşı qarşılanmır.

- Kollektivlə yemək yeyərkən yoldaşa gözünüzü dikmək, yaxşı hal deyildir.

Teatrda davranış qaydaları aşağıdakı kimi ümumiləşdirilir:

- Kassada növbə gözlənilir;
- Tamaşaya gecikmək pis qarşılanır;
- Üst geyimləri qarderoba verilir;
- Müvafiq yerlərə (biletdə göstərilən) əyləşmək vacibdir;
- Qaydalara riayət edilir;
- Əxlaqi qaydalara əməl edilir;
- Aktyorlara replika atmaq mədəniyyətdən kənar hesab edilir;
- Tamaşa gedən zaman salon tərk edilmir;
- Salonda qida qəbul etmək mədəniyyətsizlikdir.
- Bufetdən antrakt zamanı istifadə edilir;
- Zəng çalınanda zala gəlib, yerində əyləşmək lazımdır;
- Tamaşa gedən zaman yanındakı adamla söhbət etmək yaxşı qəbul edilmir;
- Zalın təmizliyinə diqqət edilir.

Bu və digər qaydalara əməl edilməsi insanlarda xoş əhval-ruhiyyə yaradır, sağlamlığı təmin edir. İnsanların əksəriyyəti ictimai nəqliyyatdan istifadə edir. Bu zaman hansı qaydalar gözlənilməlidir?

İctimai nəqliyyatda qaydalar ikitərəfli olur. Onlardan biri sürücüyə, digəri sərnişinlərə aiddir. Onları aşağıdakı kimi konkretləşdirmək olar.

**İctimai nəqliyyatda qaydalar:**

Sürücü:

- Sərnişinlərlə mədəni rəftar etməli, kobudluğa yol verməməli;
- Maşını tələb olunan sürətlə sürməli;
- Güclü və bayağı musiqidən istifadə etməməli;
- Güclü siqnal verməməli;
- Nəqliyyatı idarə edərkən diqqətli olmalı;
- Maşını yalnız dayanacaqlarda saxlamalı;
- Oturacaqlardan artıq sərnişin götürməməli;
- Sağlamlığına diqqət etməli;
- Siqaret çəkməməli;
- Spirtli içki və antivitaminlərdən istifadə etməməli;
- Səliqəli və təmizkar olmalı;
- Digər sürücülərlə mülayim davranmalı.

Sərnişinlər:

- Diqqətli olmalı, yaşlıya, xəstəyə, uşaqlıya yol və yer verməli;
- Gediş haqqını ödəməli;

- Yalnız dayanacaqlarda nəqliyyat vasitəsinə minməli və düşməli;
- Yüksəkdən danışmamalı;
- Siqaret çəkməməli;
- Nitq etiketlərindən istifadə etməli (buyurun, zəhmət olmasa, bağışlayın);
- Salonu və oturacaqları təmiz saxlamalı, onları korlamamalı;
- Sürücünün diqqətini yayındırmamalı;
- Digər sərnişinlərlə mülayim rəftar etməli, təhqirə yol verməməli;
- Sürücü və digər sərnişinləri narahat etməməli;
- Qapını asta örtməli;
- Əşyalarına cavabdeh olmalı;
- Digərlərin əşyalarına toxunmamalı;
- Sahibsiz əşya taparsa, sürücüyə təqdim etməli.

Parklarda davranış qaydalarına əməl edilməsi vacibdir. Onlara aşağıdakılar aiddir:

- Yüksək səslə danışmamalı;
- Əxlaqsız hərəkətlərə yol verməməli;
- Zibili zibil qabına atmalı;
- Ağaclara, bitkilərə zərər vurmamalı;
- Gəzinti zamanı uşaqları, xüsusilə də körpələri nəzarətsiz qoymamalı;
- Gəzdirilən heyvanı sərbəst buraxmamalı və s.

İnsanların küçədə əməl etməli olduqları bəzi davranış qaydaları mövcuddur. Küçədə davranış qaydalarına aiddir:

- Küçədə yediyimiz və ya içdiyimiz qidanın qalığını yerə tullamaq mədəniyyətdən kənardır;
- Boş su qabını və ya dondurmanın kağızını yerə yox, zibil qabına atmalı;
- Saqqızı çeynədikdən sonra skamyanın altına, avtobusun oturacağına yapışdırmaq, yerə tullamaq yox, zibil qabına atmaq vacibdir.
- İcazə verilməyən yerlərdə siqaretdən istifadə etməməli, ümumiyyətlə, siqaret çəkməmək daha məqsədəuyğundur.
- Nəzakətsiz davranışlara yol verilməməli;
- Avtobusda mobil telefonla yüksək səslə danışmaq mədəniyyətsizlikdir.

Uşaqların təbiətdə davranış qaydalar:

Bitkilərlə:

- Təbiətdə, bağ və parklarda bitkilərə qayğı ilə yanaşmalı;
- Bitkinin yarpağını, çiçəyini, budağını qırmamalı;
- Bitkiləri suvarmalı, yarpaqlarını təmizləməli;
- Yaşıllığı zibilləməməli, zibili zibil qabına atmalı;
- Otları, yaşıllıqları tapdalamamalı;

- Ağacın gövdəsini yazmamalı, cızmamalı;
- Bitki hissələrini, məişət zibillərini yandırmamalı;
- Otaq bitkilərinə çirkli su tökməməli;
- Bitkilər üzərinə kimyəvi-yandırıcı maddələr atmamalı;
- Bitkilərin yarpağını, çiçəyini və ya yetişməmiş meyvəsini dərməməli.

**Heyvanlarla:**

- Heyvanlarla mülayim rəftar etməli, onlara qayğı ilə yanaşmalı;
- Heyvanları incitməməli, onlara qarşı kobudluq etməməli;
- Heyvanları yemləməli;
- Xəstə heyvanlardan uzaq olmalı və lazımi orqanlara məlumat verməli;
- Yırtıcı, zəhərli heyvanlarla ehtiyatlı davranmalı;
- Biri-birinə qarşı aqressiv olan heyvanları görüşdürməməli;
- Xəstə heyvanları müalicə etmək üçün həkimə müraciət etməli;
- Quşlara yuva qurmaqda kömək göstərməli, süni yuvacıqlar düzəltməli, ağaclardan asmalı;
- Çətinlikdə olan heyvanlara yardım göstərməli.

**Qonaqlıq və ad günündə davranış qaydaları**

- Çağırılan məkana vaxtında getmək;
- Ad günü keçirəni hədiyyə ilə təbrik etmək;
- Hədiyyəni alarkən ona baxmaq və təşəkkür etmək;
- Balaca uşaqların davranışına nəzarət etmək;
- Məkanda səliqə-sahmana riayət etmək;
- Gülərüz olmaq, xoş sözlər söyləmək;
- Şamı söndürərkən ad günü keçirənə mane olmamaq;
- Şamdan, fişənglərdən – yanan əşyalarla ehtiyatlı davranmaq;
- Torta kəsilməmişdən əvvəl toxunmamaq, səliqəli istifadə etmək;
- Məkanı vaxtında tərk etmək;
- Qanqaraçılıq, dava-dalaş salmamaq.

### 1.5.2. Məktəblilərdə düzgün davranışın formalaşdırılması

Tərbiyə fəaliyyətin təşkili və ictimai təcrübəsini formalaşdıraraq insanda müsbət adətlər yaratmaq və iradəni möhkəmləndirməklə düzgün davranış təcrübəsini genişləndirir. İnsan qəbul etdiyi mənəvi ideyanı, öz əqidə və inamını gündəlik davranış və rəftarında tətbiq edir, müəyyən fəaliyyətə alışır. Bunun üçün aşağıdakılara diqqət edilir:

1. İnsanın müxtəlif fəaliyyət növlərinə cəlb edilməsi onda davranış təcrübəsinin formalaşmasında böyük rol oynayır.
2. Tərbiyələndirici situasiyaların yaradılmasına müxtəlif fəaliyyət növləri vasitəsilə

uşağı xüsusi təşkil edilmiş tərbiyəedici situasiyaya salınması lazım gəlir.

3. İnsanı müsbət əməllərə sövq etmək və xoşagəlməz hərəkətlərdən çəkindirmək yolu ilə düzgün davranış təcrübəsini formalaşdırmaq üçün ona müxtəlif tələblər verilir.

Tələb iki formada verilir: birbaşa və dolayı yolla. Birbaşa tələb əmr, tapşırıq, sərəncam şəklində, dolayı yolla tələb isə xahiş, məsləhət, eyham, yumor, zarafat, lətifə, atalar sözlərindən istifadə etməklə verilir. Tərbiyəçi yerinə görə hər iki formadan istifadə edir.

4. Tələbin kollektiv forması ictimai rəy olub, müəyyən şəxs və hərəkətlə bağlı kollektivin ümumi rəyini, qiymətini ifadə edir.
5. Təmrin (məşq) hərəkətlərin təkrarı yolu ilə onları möhkəmləndirib müsbət davranış adətləri yaratmaq mümkündür. Təmrin iki mənada başa düşülür. Geniş mənada o, uşaqların həyat və fəaliyyətini davranış normalarına uyğun təşkil etməyi nəzərdə tutur. Dar mənada isə hər hansı bir hərəkəti, fəaliyyəti təkrar etdirib vərdişə çevirmək kimi başa düşülür.
6. Rejim insanın həyat və davranışını tənzim edən qaydaların məcmusudur. Uşağın günü rejimlə tənzim edildikdə o, müəyyən qaydalara tez alışır, onda davranış adətləri daha tez və asanlıqla yaranır.

Yarış insanın fəallığını, təşəbbüskarlığını stimullaşdıran, geridə qalanların qabaqcıllar sırasına çıxmaları üçün səylərini gücləndirməyə kömək edən təsirli vasitədir. Yarış müxtəlif sahələr üzrə təşkil edilə bilər: təlimə məsuliyyətli münasibət, davamiyyət, sinif otaqlarında təmizlik və səliqə, intizam, əmək, idman, bədii yaradıcılıq və digər sahələrdə keçirilir.

Rəğbətləndirmə uşağın davranışı və fəaliyyətinə verilən müsbət qiymət olub, onu daha yüksək hərəkətlərə həvəsləndirir. O, insanın öz qüvvəsinə inamını, kollektivdə hörmət və nüfuzunu artırır. Rəğbətləndirməyə kiçik məktəblilər və yeniyetmələr daha həssasdırlar. Buna görə də bu yaşlarda rəğbətləndirməyə çox yer vermək lazımdır.

Cəza insanın davranış və fəaliyyətinə verilən mənfi qiymət olub, onu pis hərəkətlərdən çəkindirmək məqsədi güdür. O, insanda öz xoşagəlməz münasibət və əməllərinə qarşı iztirab, utancaqlıq hissləri yaradır. Cəza həm də profilaktik xarakter daşıyır: kollektivin digər üzvləri də yoldaşlarına verilmiş cəzadan nəticə çıxarır, pis hərəkətlərə yol verməməyə çalışırlar.

Tərbiyə işində cəzanın müxtəlif növlərindən istifadə olunur: danlaq, şifahi və yazılı töhmət, qəbahəti iclasda müzakirə etmək, insanı müəyyən həzdən (kinoya, gəzməyə getməkdən, oyundan və s.) məhrum etmək, sinfi, yaxud məktəbi dəyişmək, məktəbdən xaric etmək və s.

Cəza və tərifləmədən düzgün istifadə etmədikdə tərbiyə işinə və davranışa ziyan vura bilər. Odur ki, rəğbətləndirdikdə və cəza verdikdə bir sıra şərtlərə əməl olunmalıdır:

Cəza və tərifləmə:

- Ədalətli (uşağın hərəkətinə uyğun) olmalı;
- Müəyyən hədd gözlənməli (çox tətbiq edildikdə təsirini itirə bilər);
- Uşaqların yaş və fərdi xüsusiyyətləri nəzərə alınmalı;
- Kollektivin rəyi ilə hesablaşmalı;

- Mütləq xarakter daşımamalıdır.

Tərbiyədə təriflәmə və cəza müəllimdən böyük pedaqoji məharət, psixoloji və pedaqoji hazırlıq tələb edir. Düzgün verilməyən, insan şəxsiyyətinə və ləyaqətinə toxunan, ədalətsiz cəza müəllim-şagird münasibətlərində gərginlik, münaqişə yarada bildiyi kimi, cəzanın təsir gücünü, tərbiyəçinin nüfuzunu, uşağın öz gücünə inamını zəiflədər, tərbiyə və özünütərbiyə işini çətinləşdirə bilər. Tərbiyə işinin səmərəsi onun gedişinə və nəticəsinə nəzarətlə sıx bağlıdır. Nəzarət qarşıya qoyulmuş məqsəd baxımından işin gedişini tənzim etməyi, nəticələri məqsədlə tutuşdurmağı nəzərdə tutur. Bu yolla tərbiyədə əks əlaqə yaradılır: müəllim aparılan işin vəziyyəti, nəticələri ilə tanış olur, onu tənzim edir.

Tərbiyədə nəzarət müxtəlif formalarla: pedaqoji müşahidələr, söhbətlər, sorğular (anket, şifahi və b.), fəaliyyət və davranışın, uşaqlara verilən ictimai tapşırıqların təhlili, müxtəlif tərbiyə situasiyalarının yaradılması və s. ilə həyata keçirilir. Tərbiyədə nəzarətin köməyi ilə şagirdlərin şüur və davranış vəziyyəti, tərbiyə keyfiyyətləri, ünsiyyətin xarakteri, ayrı-ayrı fəaliyyət növlərində iştirakı, kollektivdə mövqeyi və s. məsələlər barədə lazımi məlumatlar toplanıb təhlil edilir. Nəzarət qiymətləndirmə ilə tamamlanır. Tərbiyə işlərini qiymətləndirərkən müəyyən meyarlara əsaslanmaq lazımdır: şagirdlərin dünyagörüşü, ideya inamı və mövqeyi, davranış tərzi, intizamı, əməyə münasibəti, ünsiyyəti, kollektivdə mövqeyi, estetik və fiziki inkişafı, ictimai fəallığı və s..

## Tələbələr üçün fəaliyyətlər

1. Məkanlar üzrə verilmiş davranış qaydalarına münasibətinizi bildirin, əlavələrinizi edin.
2. İctimai yerlərdə ümumi davranış qaydalarını izah edin.
3. Ekskursiyada davranış qaydalarını çiçək ləçəkləri üzrə işləyin.



4. Nəqliyyatda davranış qaydalarını avtobus üzərində qeyd edin.



5. Məktəbdə davranış qaydalarını “Ədəb qaydaları” dəftərində qeyd edin.

**Ədəb qaydaları**



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“İctimai yerlərdə davranış qaydalarını izah edir”.**

1. Mədəni davranışın mahiyyətini izah edin.
2. Mədəni davranış nümayiş etdirməməyin səbəblərini göstərin.
3. İnsanlarla ünsiyyət qaydalarını sxemlə ümumiləşdirin.




4. Telefonla mədəni danışığa dair dialoq qurun.
5. İctimai yerlərdə mədəni davranış qaydalarını zəncirin halqalarında verin.



6. İctimai nəqliyyatda davranış qaydalarını pozan şagirdə hansı məsləhətlərinizi verərsiniz?
7. Nəzakətli davranış insan sağlamlığına necə təsir göstərir?
8. Mədəni davranışları şagirdlərə hansı yollarla ötürərsiniz?

# TƏLİM NƏTİCƏSİ 3

## QİYMƏTLƏNDİRMƏ PROSESİNİ HƏYATA KEÇİRMƏK

## 3.1. Müasir məktəbdaxili qiymətləndirmənin forma və vasitələrini izah edir

### 3.1.1. Məktəbdaxili qiymətləndirmənin formaları

Qiymətləndirmə - öyrənənlərin təlim və idrak fəaliyyətinin müşahidəsidir. Proses çərçivəsində təhsilin keyfiyyətini yaxşılaşdırmaq üçün şagird haqqında məlumatın təsviri, toplanması, qeydiyyatı və şərh edilməsi həyata keçirilir.

Qiymətləndirmə müxtəlif məqsədlərlə aparılır. Onun məqsədlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

- Şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsi;
- Biliklərin əldə edilməsində yeni məqsədlərin planlaşdırılması;
- Şagirdlərin idrak motivasiyasının qiymətləndirilməsi;
- Şagird fəaliyyətinin fasiləsiz stimullaşdırılması;
- Biliklərin keyfiyyətinin artırılması;
- Şagirdlərin irəliləyişlərinin izlənilməsi;
- Qiymətləndirmə meyarların təkmilləşdirilməsi;
- Tələbatların müəyyənləşdirilməsi;
- Şagirdlərin inkişaf səviyyəsinin müəyyənləşdirilməsi;
- Təlim prosesində müvafiq qərarların qəbul edilməsi;
- Kurikulumun qiymətləndirilməsi;
- Mənimsəmə istiqamətində hədəflərin təyin edilməsi və s.

Qiymət – rəmzdir, şagirdlərin təlim nəticələrinin müəyyən vasitə ilə (rəqəm, hərf və s.) qiymətləndirilməsinin şərti, formal kəmiyyət ifadəsidir.

Qiymətvermə - şagirdin təlim fəaliyyətinin təlimin məqsədlərinə müvafiqliyinin kəmiyyət və keyfiyyət göstəricisinin formalaşdırılması prosesidir. Qiymətvermə müvafiqliyin kəmiyyət və keyfiyyət göstəricisi əsasında təlimdə əks-əlaqənin mümkünlüyünü şərtləndirir.

Qiymətləndirmə forması onun keçirilmə mexanizmidir. Belə ki, fərdi qiymətləndirmə, kiçik summativ qiymətləndirmə sinifdaxili, böyük summativ qiymətləndirmə məktəbdaxili formada təşkil edilir. Məktəbdaxili qiymətləndirmə formasına böyük summativ qiymətləndirmə aiddir. Diaqnostik, formativ, kiçik summativ qiymətləndirmələr sinifdaxili formada aparılır.

Qiymətləndirmənin üsul və vasitələrinin də aydınlaşdırılması lazım gəlir. Qiymətləndirmə üsulu prosesin həyata keçirilməsi üsulunu əks etdirir. Qiymətləndirmə üsuluna yazı, oxu, təcrübə, müsahibə, müşahidə, layihə, test, təqdimat, sorğu, yaradıcı işlər, tapşırıqvermə və başqaları aiddir. Qiymətləndirmə vasitələrinə onun üsulunu həyata keçirməsində istifadə olunan alətlər: test, inşa, imla, hekayə, mətn, misal, məsələ, müxtəlif növlü tapşırıqlar, suallar, anketlər və başqaları aid edilir.

Qiymətləndirmə konsepsiyasının əsas müddəalarında qeyd olunur:

- Ümumi təhsil məktəblərinin yeni təhsil proqramları (fənn kurikulumları) tətbiq olunan siniflərində yeni məktəbdaxili qiymətləndirmə sistemi tətbiq olunur;
- Yeni məktəbdaxili qiymətləndirmə diaqnostik, formativ və summativ qiymətləndirmələrdən ibarətdir.

Qiymətləndirmə zamanı müəllimlər fəaliyyətlərini aşağıdakı prinsiplər əsasında qururlar:

- Əhəmiyyətlilik prinsipinə əsasən qiymətləndirmədə diqqət təlimin ən əhəmiyyətli nəticələri və şagird fəaliyyəti üzərinə yönəldilir;
- Adekvatlıq prinsipi bilik, bacarıq, vərdiş və səriştələrin qiymətləndirilməsinin təlimin məqsəd və nəticələrinə uyğunluğunu əsaslandırır;
- Obyektivlik və ədalətlilik prinsipi qiymətləndirmənin konkret meyarlarının hazırlanması ilə qiymətin şagirdə təzyiq vasitəsi kimi istifadə olunma təhlükəsinin qarşısını almağa xidmət edir;
- Şəffaflıq və aşkarlıq prinsipləri obyektivliyi təmin edir. Bura şagirdlərin müəllimin istifadə etdiyi qiymətləndirmə meyarları ilə tanışlığı aiddir; qiymətləndirmə prosesinin aşkarlığı, yəni müəllimin verdiyi qiyməti əsaslandırması; qarşılıqlı qiymətləndirmə və özünüqiymətləndirmə prosedurlarından istifadə edilməsi;
- Əlverişlilik prinsipi qiymətləndirmə prosesinin aydın və sadə forma, üsullardan istifadə edilərək tətbiq olunmasını tələb edir;
- Sistemlilik prinsipi qiymətləndirmə prosesinin ardıcıl və sistematik şəkildə həyata keçirilməsidir;
- Xeyirxahlıq prinsipi müəllimlə şagird arasında partnyor münasibətlərinə şəraitin yaradılmasını nəzərdə tutur;
- İnteqrasiyalılıq prinsipi qiymətləndirmənin təlim prosesinin qabaqcadan planlaşdırılması və mükəmməl düşünülmüş tərkib hissəsi kimi həyata keçirilməsinə xidmət edir.

Qiymətləndirmənin əsas problemlərindən biri obyektiv qiymətin təmin edilməsinin çətinliyidir: şagird qiymətin obyektivliyinə əmin olmalıdır və qiymətin tədris prosesinin real tənzimləyicisi olması üçün onun nəyə görə verildiyini dəqiq təsəvvür etməlidir.

Qiymətləndirmənin ən mühüm üsullarından biri sözdür. O, müəllimin psixoloji dayağını, təqdirini və tənbehini ifadə edə bilər. Şagirdin ancaq bilik, bacarıq və vərdişlərinin deyil, onun şəxsi keyfiyyətlərinin də sözlə (tərif və iradlarla, məsləhət və təkliflərlə) qiymətləndirilməsi mümkündür. Bu üsuldan əsasən ibtidai siniflərdə istifadə olunur, lakin bu yanaşmanın orta məktəbdə tətbiqi də realdır və məqsədəuyğundur. Verbal (sözlə) qiymətləndirmənin rolunun artması, eyni zamanda kəmiyyət qiymətinin əhəmiyyətdən düşməsi qiymətləndirmə prosesinin ən yaxşı göstəricisi sayıla bilər.

“Keyfiyyətcə qiymətləndirmə”nin uyğun, çevik və fərqləndirici meyarlarının işlənib hazırlanması və meyar cədvəli vasitəsilə istifadəsi, şagirdin nailiyyətlərinin kəmiyyətcə və

keyfiyyətcə qiymətləndirilməsinin adekvat meyarlarının olması çox vacibdir (onların çeviklik, uyğunluq, fərqləndirilmə dərəcəsi və s.).

Qiymətləndirmənin yalnız "kəmiyyətcə qiymətləndirmə" üsullarından istifadə etmək kifayət deyil. Onunla yanaşı aşağıdakı "keyfiyyətcə qiymətləndirmə" üsullarından istifadə etmək məqsədəuyğundur:

- Yazı və yoxlama işlərində konstruktiv qeydlər; "✓"- yaxşıdır, "✓✓" - əladır, "+" müsbətdir və s.;
- «Portfolio» sistemi;
- Verbal (sözlə) qiymətləndirmə: "afərin", "yaxşıdır", "çox gözəl", "müfəssəldir" və s.;
- Qarşılıqlı qiymətləndirmə;
- Özünüqiymətləndirmə;
- Reytinqin çıxarılması: ballar üzrə - 1, 2, 3, 4, 5, işarələr üzrə və s.;
- Rənglərlə qiymətləndirmə: bayraq və s.;
- Şəkillərlə qiymətləndirmə: bitki, heyvan, qızılgül və s.;
- Emosional münasibət yolu ilə qiymətləndirmə: təbəssüm, əli yuxarı qaldırmaq və s.;
- Meyar cədvəli ilə qiymətləndirmə.

Məzmun standartlarının mənimsənilməsi istiqamətində əsasən aşağıdakı qiymətləndirmə növlərindən istifadə olunur və onların hər biri qeyd edilən müvafiq məsələlərə aydınlıq gətirmək məqsədi daşıyır:

- İlkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymətləndirmə);
- İrəliləyişlərin monitorinqi (formativ qiymətləndirmə);
- Yekun (summativ) qiymətləndirmə.

Qiymətləndirmənin bu növləri şagirdləri hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə edilməsinə yönəlmiş fəaliyyət istiqamətləri ilə təmin edir.

İlkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymətləndirmə) şagirdin biliyini müəyyən edir və təlimin düzgün qurulmasında müəllimə köməklik göstərir. Təlim prosesində düzgün istiqamətləndirilmiş şagird öyrənilmiş materialın təkrarına vaxt itirmir, həmçinin onun üçün başa düşülməyən və ya tanış olmayan material qalmır. İlkin səviyyə qiymətləndirməsinin sualları bir-biri ilə elə əlaqələndirilib tənzimlənməlidir ki, onların bəziləri şagirdin hansı biliklərə malik olduğunu, digərləri isə yeni materialı mənimsəmiş şagirdləri müəyyən etsin.

Qiymətləndirmənin növləri dedikdə, eyni bir qiymətləndirmə istiqamətinin tərkib hissələri başa düşülür. Məktəbdaxili qiymətləndirmə rəsmi qiymətləndirmədir və təhsilalanların attestasiyasına xidmət edir.

Məktəbdaxili qiymətləndirmə növlərinin (diaqnostik, formativ, summativ) xarakterik xüsusiyyətləri aşağıdakı cədvəl 3.1-də ümumiləşdirilir:

| Qiymət-ləndirmə növləri | Tədris ilində nə zaman aparılır (vaxtı və tezliyi) | Üsullar | Fəaliyyət növləri |
|---|---|---|---|
| 1. Diaqnostik | İlin əvvəlində, ortasında, axırında | Söhbət, davranışın müşahidəsi, müsahibə, sorğu, rəsm və yazı işlərinin təhlili, özünü-qiymətləndirmənin təhlili, müəllim və valideynlərdən əldə olunan məlumatların təhlili. | İmlalar, inşalar, şifahi cavablar və yazılı tapşırıqlar, oyunlar, rəsm çəkmə, müəllim və valideynlərlə əmək-daşlıq və s. |
| 2. Formativ | Hər ay və ya hər bölmədən sonra | Yoxlama köçürmələri, imlalar, qrammatik və məntiqi tapşırıqlar, inşalar, şifahi cavablar, rollu oyunlar və s. | Müşahidə, sorğu, şifahi təqdimat, yazı işlərinin təhlili, test tapşırıqlarının nəticələri. |
| 3. Summativ | Tədris vahidinin, yarımilin və ilin sonunda | Rəsm çəkmək, informasiyanın təhlili, təqdimat, hekayə yazmaq, qəzet hazırlamaq və s. | Şifahi təqdimat, testlər, nailiyyətlərin nümayişi. |

**Cədvəl 3.1. Qiymətləndirmə növlərinin əsas xüsusiyyətləri**

Cədvələ istinad edərək məktəbdaxili qiymətləndirmənin əsas xüsusiyyətlərini öyrənməklə onların müvəffəqiyyətlə həyata keçirilməsi mümkündür. Diaqnostik, formativ və summativ qiymətləndirmə növlərinin bir-birindən fərqləndirilməsi, onların daha dərindən mənimsənilməsinə və səmərəli tətbiqinə kömək göstərir.

### 3.1.2. Qiymətləndirmə vasitələrinə verilən tələblər

Qiymətləndirmə vasitəsi ilə bilik, bacarıq və dəyərlər qiymətləndirilir. Qiymətləndirmə vasitələri şagirdlərin bilik, bacarıq və dəyərlərini müşahidə və təhlil etməyə imkan verir.

Qiymətləndirmə vasitəsini hazırlayarkən müəllim onun şagirdlərin nəyisə nümayiş

etdirmələrinə diqqət etməlidir. Qiymətləndirmə vasitəsinin effektivliyi və səmərəliyinə maksimal diqqət verilməlidir. Çünki o, şagirdlərin həqiqətən nəyə ehtiyacı olduğunu nümayiş etdirməsinə şərait yaratmalıdır. Qiymətləndirmə vasitəsi bir sıra elementləri ölçür. Eyni zamanda müəllim nəyi ölçməyə çalışdıqlarını dəqiq müəyyən etməlidir. Təlim nailiyyətlərinin (bilik, biliyin tətbiqi) və təlimə təsir edən digər faktorların (davranış, münasibət, çalışqanlıq motivasiya) ölçülməsi bir-birindən ayrı aparılmalı və ayrılıqda təhlil edilməlidir.

Qiymətləndirmə vasitəsi müşahidə olunandır. Qiymətləndirmənin məqsədi elə bir vəziyyət yaratmaqdır ki, burada şagirdin davranışını müşahidə etmək mümkün olsun. Müşahidə bir sıra formalarda aparılır. Bura görülənlər və ya eşidilənlər aiddir.

Qiymətləndirmə vasitələrinin verdiyi məlumatlar qeydə alınır. Şagirdin fəaliyyət nəticələri ifadə edilən olmalıdır. Qiymətləndirmə vasitəsini hazırlayarkən müəllimlər qiymətləndirmənin nəticələrinin asan qeydə alına bilməsini diqqətdə saxlamalıdır. Vasitənin hazırlanması zamanı nəticələrin necə izah edilməsi üçün aydın meyarlar müəyyən edilməlidir.

Qiymətləndirmə vasitəsi hazırlanarkən aşağıdakı prinsiplər nəzərə alınır:

1. Qiymətləndirmə əvvəlcədən planlaşdırılır. Dərs zamanı qiymətləndiriləcək fəaliyyəti planlaşdırmaq üçün məqsədlər müəyyən edilir. Hansı qiymətləndirmələrdən və neçə vaxt ərzində istifadə ediləcəyi planlaşdırılır. Qiymətləndirmə təlim nəticələrini əhatə etməlidir;

2. Təlim fəaliyyətində şagirdin səviyyəsini düzgün müəyyənləşdirmək üçün prosesdə tez-tez qiymətləndirmə aparılır. Qiymətləndirmələrin tez-tez aparılması sinifdə olan inkişafı müəyyənləşdirməyə və bunun vasitəsilə təlim metodologiyasına dair zəruri qərarları qəbul etməyə imkan verir.

3. Fərqli qiymətləndirmə vasitələrindən istifadə olunur. Şagirdlərin hamısı öz qabiliyyətini konkret bir şəkildə göstərə bilmir. Bəzi şagirdlər yazı işlərini lazımi səviyyədə yerinə yetirir, digər şagirdlər konkret layihə üzərində işləyərkən özünü göstərə bilir. Ona görə də qiymətləndirmə vasitələrini hazırlayarkən yaradıcılığa diqqət edilməlidir.

4. Qiymətləndirmə nəticələri qeydə alınmalıdır. Qiymətləndirmə nəticəsində şagirdlərin təlim fəaliyyəti haqqında qeydlər vaxtında və düzgün aparılmalıdır. Qiymətləndirmənin tarixi, vaxtı, təsviri, şagirdlər barədə məlumat və ayrı-ayrı şagirdlərin göstəriciləri ilə bağlı əlavə qeydlər dəqiq olmalıdır. Düşüncələr, qənaətlər qiymətləndirmə zamanı yazıldıqda subyektivlik azalır, obyektivlik yüksəlir.

5. Nailiyyətlərin qiymətləndirilməsi zamanı nailiyyət faktorları (davranış, münasibət, çalışqanlıq, motivasiya) arasında fərqi müəyyən etmək zəruridir.

6. Hər bir qiymətləndirmənin nisbi çəkisi aydın şəkildə müəyyən edilməlidir.

7. Fəaliyyət meyarlarını əhatə edən rubriklər hazırlanmalıdır. Onlara yoxlama işləri, testlər, şifahi sorğu, ranq üzrə dərəcələmə, rubriklər, praktik işlər, laboratoriya

işləri, portfoliolar, yaradıcı tapşırıqlar (inşa və layihələr) aiddir.

Qiymətləndirmədə meyarlar və normativlər qabaqcadan müəyyən edilir. Belə ki, şagird fəaliyyətinə, gözlənilən təlim nəticələrinə, qiymətləndirmə standartlarına uyğun meyarlardan istifadə olunur. Meyarların tələblərinə müvafiq, fənnin tələblərinə, nitqin xüsusiyyətlərinə uyğun normativlər, qrup işinin meyarları (fəallıq, uyğunluq, əməkdaşlıq, işin görülmə müddəti, yaradıcılıq və s.) hazırlanır.

Kəmiyyət qiymətləri ilə yanaşı formativ qiymətləndirmədə aşağıdakı “keyfiyyətcə qiymətləndirmə” üsullarından da istifadə olunur:

1. Yazılı testlərdə və yoxlamalarda konstruktiv qeydlər;
2. İbtidai siniflərdə ən səmərəli qiymətləndirmə mexanizmi "portfolio" sistemidir. "Portfolio" sistemi hər şagirdin xüsusi dosyesidir ki, burada şagirdə aid bütün məlumat və sənədlər qeydə alınır.

Diaqnostik, formativ və summativ qiymətləndirmə ilə yanaşı, şagird nailiyyətlərinin qiymətləndirilməsinin başqa formaları da vardır. Bu formalardan ən mühümü sözdür. Söz müəllimin psixoloji dayağını, təqdirini və tənbehini ifadə edir. Bu üsuldan əsasən ibtidai siniflərdə istifadə olunur və o, tədris prosesində müsbət nəticə verir.

Qiymətləndirmə sisteminin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Şagird nailiyyətlərinin qiymətləndirilməsinin əsas göstəricisini onların bilik, bacarıq və dəyərlərin mənimsənilməsi səviyyəsini göstərən 5 fəaliyyət növünə ayırırlar. Məlumdur ki, fəaliyyət növlərinin hər birinin qiymətləndirilməsinin öz xüsusiyyəti var. Bu da onlara məxsus meyarların müxtəlifliyindən asılıdır:

- Yazılı testlərin qiymətləndirilməsi ümumi test tapşırıqlarının, həmçinin mürəkkəblik dərəcəli test suallarının sayından asılıdır;
- Şifahi cavabların qiymətləndirilməsi zamanı cavabların dolğunluğu, əhatəliliyi, konkretliyi, düzgünlüyü, dəqiqliyi, nəticələrin, xüsusən nitqin ardıcıllığı və məntiqindən asılıdır;
- Sinif və müstəqil ev tapşırıqlarının qiymətləndirmə meyarları hər bir tapşırığın əsasını təşkil edən konkret təlim məqsədindən asılıdır. Onların qiymətləndirilməsi daha çox keyfiyyət xarakteri daşıyır;
- Yaradıcı tapşırıqların qiymətləndirilməsi ideyaların məhsuldarlığından, çevikliyindən, orijinallığından, adekvatlığından və başqa yaradıcı tapşırıqların yerinə yetirilməsi göstəricilərindən asılıdır.

Səviyyə üzrə qiymətləndirmə standartlarının da müəyyən edilməsi başlıca məsələlərdəndir.

Şagirdlərin nailiyyətlərini stimullaşdırmaq məqsədilə qabiliyyət dərəcəsinə görə differensiallaşdırmaq üçün 4 səviyyəli qiymətləndirmə standartları müəyyənləşdirilir. Şagirdlərin bilik, bacarıq və dəyərlərinin müəyyənləşdirilmiş səviyyələri aşağıdakı cədvəl 3.2-də ifadə edilmşidir:

| Səviyyə | Meyar | Mənimsəmə |
|---|---|---|
| Səviyyə 1 | Ən aşağı (qeyri-kafi) | 14%-dən aşağı |
| Səviyyə 2 | Orta (kafi) | 15-44% |
| Səviyyə 3 | Yaxşı | 45-79% |
| Səviyyə 4 | Yuxarı (əla) | 80-100% |

**Cədvəl 3.2. Meyar üzrə səviyyələr**

## Tələbələr üçün fəaliyyətlər

1. Qiymətləndirmə vasitələrinin əsas xüsusiyyətlərini izah edin.
2. Qiymətləndirmə vasitəsinin hazırlanmasına verilən tələbləri sxemləşdirin.
3. Qiymətləndirmə vasitələrindən istifadə qaydalarını işləyin.
4. Müəllimin məqsədi şagirdin riyazi məsələ həll etmək bacarığını yoxlamaqdırsa, onun istifadə edəcəyi üsul tapşırıq verməkdirsə, qiymətləndirmə vasitəsini müəyyən edin.
5. Müəllimin məqsədi şagirdin şifahi nitq bacarıqlarını qiymətləndirməkdirsə, onun istifadə edəcəyi üsul nəqletmədirsə, qiymətləndirmə vasitəsini göstərin.
6. Əsas qiymətləndirmə növlərini (diaqnostik, formativ, summativ) şərh edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Müasir məktəbdaxili qiymətləndirmənin forma və vasitələrini izah edir”.**

1. Qiymət, qiymətvermə, qiymətləndirmə anlayışlarının mahiyyətini izah edin.
2. Qiymətləndirmənin məqsədlərini ümumiləşdirin.
3. Qiymətləndirmənin prinsiplərinə dair təqdimat hazırlayın.
4. Keyfiyyətcə və kəmiyyətcə qiymətləndirmə üsullarını fərqləndirin.
5. Qarşılıqlı qiymətləndirmə və özünüqiymətləndirməyə dair misallar gətirin.
6. Qiymətləndirmə növlərinin əsas xüsusiyyətlərini cədvəldə ümumiləşdirin.
7. Qiymətləndirmə vasitələrinin xüsusiyyətlərini ləçək modelində işləyin:




8. Qiymətləndirmə vasitələrini modelləşdirin.
9. Qiymətləndirmə vasitəsinin hazırlanma prinsiplərini sxemləşdirin.
10. Riyaziyyatdan qiymətləndirmə vasitəsi hazırlayın.

## 3.2. Şagirdlərin bilik və bacarıq səviyyəsinin diaqnostik qiymətləndirilməsini aparır

### 3.2.1. Diaqnostik qiymətləndirmə

**Diaqnostik qiymətləndirmənin üsul və vasitələri**

Diaqnostik qiymətləndirmə əsasən dərs ilinin əvvəlində şagird məktəbini, sinfini dəyişdirdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, fərdi yanaşmanı təmin etmək və təlim strategiyasını müəyyənləşdirmək məqsədilə aparılır. Qiymətləndirmənin nəticələri sinif jurnalında deyil, müəllimin qeyd dəftərində öz əksini tapır.

Diaqnostik qiymətləndirmə şagirdlərin artıq nələri bildiyini müəyyən edir və təlim prosesinin düzgün qurulmasında müəllimə köməklik göstərir. Təlim prosesində düzgün istiqamətləndirilmiş şagird öyrənilmiş materialın təkrarına vaxt itirmir, həmçinin onun üçün başa düşülməyən və ya tanış olmayan material qalmır.

Əgər ilkin səviyyə qiymətləndirilməsindən şagirdlərin sinifdəki fəaliyyətini müqayisə etmək və ya sonrakı inkişafının qiymətləndirilməsi üçün məlumat bazasını yaratmaq məqsədilə istifadə olunursa, onda psixometrik tələblərə cavab verən qiymətləndirmə vasitələri hazırlanır.

Qiymətləndirmə Konsepsiyasında Diaqnostik qiymətləndirməyə xüsusi yer verilir. Göstərilir ki:

2.1. Diaqnostik qiymətləndirmə dərs ilinin, tədris vahidinin və dərsin əvvəlində təhsilalanların bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirmək məqsədilə aparılır.

2.2. Diaqnostik qiymətləndirmənin üsul və vasitələri fənn müəllimi tərəfindən müəyyənləşdirilir.

2.3. Diaqnostik qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, təhsilalan haqqında müvafiq yazılı qeydlər təhsilalanın portfoliosunda saxlanılır.

Diaqnostik qiymətləndirmə, bir qayda olaraq aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

1. Dərs ilinin əvvəlində məktəb psixoloqunun iştirakı ilə sinif rəhbəri və fənn müəllimləri tərəfindən aparılır. Onlar şagirdin həmin fənn üzrə bilik və bacarıqlarının səviyyəsini, maraq dairəsini, xüsusi istedadı ilə fərqlənməsini müəyyənləşdirir. Bunun üçün şagirdə həyatdan, onu əhatə edən mühit, yoldaşları, valideynləri, onların məşğuliyyəti, fənlər üzrə ümumiləşdirilmiş arzu və təkliflərini aşkara çıxaran suallar verilir.
2. Tədris olunan mövzuların əvvəlində, yəni konkret mövzunun tədrisinə başlarkən müəyyən edilmiş məqsədə uyğun surətdə şagirdin həmin mövzu üzrə malik olduğu bilik, bacarıq və təsəvvürlərinin diaqnostikası aparılır. Bu zaman diaqnostik qiymətləndirmə dərsin motivasiya mərhələsində müxtəlif üsullarla həyata keçirilir.

Diaqnostik qiymətləndirmənin aşağıdakı üsullarla aparılırması məqsədəuyğundur:

müşahidə, müsahibə, sorğu, test, müstəqil iş və s. Diaqnostik qiymətləndirmənin nəticələri şagirdin portfoliosunda saxlanılır.

Diaqnostik qiymətləndirmə üsulları arasında ən əlverlşli və müəllimlər tərəfindən çox istifadə olunanları müşahidə, qiymətləndirmə vasitəsi isə müşahidə sxemləridir.

Müəllim şagirdlərin hər hansı bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirmək üçün müəyyən etdiyi meyarlar əsasında onları müşahidə edir və qeydlərini müşahidə vərəqində yazır. Bu qeydlər müəllimə hər bir şagirdlə onun səviyyəsinə uyğun işləməyə, zəruri tapşırıqlar verməyə kömək edir. Bu prosesdə müəllim şagirdin ehtiyaclarını müəyyənləşdirir və buna uyğun olaraq şagirdlə fərdi yanaşma prinsipi əsasında işləyir.

Diaqnostik qiymətləndirmənin müşahidə sxemi şagirdin əsas inkişaf sahələri üzrə ilkin səviyyəni müəyyən etmək üçün istifadə olunur. Diaqnostik qiymətləndirmənin müşahidə sxeminin aşağıdakı kimi tərtib olunması məsləhətdir.

Əsas inkişaf sahələri üzrə:

1. İdraki (koqnitiv) inkişaf (bilmə, anlama, tətbiq, təhlil, sintez və dəyərləndirmə bacarıqları);
2. Şəxsi inkişaf (özü və başqaları barədə danışmaq, özünə inamı nümayiş etdirmək, müxtəlif situasiyalarda öz davranışını idarə etmək bacarıqları);
3. Sosial-emosional inkişaf (qrupda pozitiv münasibət qurmaq, ünsiyyətə girmək, yaxşı və pis hərəkətləri seçmək, davranışının səbəblərini izah etmək, məsuliyyətini anlamaq);
4. Hərəki (psixomotor) inkişaf (təqlid etmək, tapşırıqları başa düşmək, yerinə yetirmək, tətbiq etmək və uyğunlaşmaq).

**Bilik** məlumatın nağıl edilməsi və ya müəyyənləşdirilməsi, müşahidə və məlumatların xatırlanmasına əsaslanır. O, informasiyanın hekayə edilməsi və ya tanınmasıdır.

Şagird terminologiya, əsas faktlar və elementlər, təsnifatlar və meyarlar, prinsiplər və ümumiləşdirmələr, nəzəriyyələr, modellər, strukturlar haqqında biliklərə, müxtəlif sahələrdən (kvadrat kökün tapılması, rənglərin qarışdırılması, topun voleybolda oyuna daxil edilməsi); texnologiya və metodlardan (ədəbi tənqid, tarixi sənədlərin analizi, məsələlərin həll edilməsi, müxtəlif məktub janrları üçün standartlar) qazanılmış biliklərə malik olur.

Deklarativ bilik hər hansı bir analyışın dərk edilməsi kimi qəbul edilə bilər. Bu bilik növü hər hansı bir fəndə onunla bağlı mühüm informasiyalar kimi dəyrələndirilir. Deklarativ bilik bilmə və anlama ilə əlaqələndirilir. Deklarativ bilik yaddaşa əsaslanır. Bunlar fənnə aid mühüm terminlər, ifadələr, təriflərdir ki, şagirdlərin onları bilməsi təlimin sonrakı mərhələsinin təşkili üçün çox vacibdir.

Prosedural bilik prosesi ehtiva edir. Bu bilik növü hər hansı bir fənn üzrə mühüm vərdiş və prosesləri əhatə edir. İxtiyari probelmin həlli zamanı istifadə edilən biliklər prosedural biliklər hesab edilir. Prosedural biliyin deklarativ bilikdən fərqi ondan ibarətdir ki, bu biliklər tapşırıqların yerinə yetirilməsi prosesində tətbiq edilir.

Kontekstual bilik hər hansı prosesdə əldə edilən yeni informasiya, yaxud müəyyən

informasiyalara tətbiq edilidkdə yeni məna alan proseslər kimi dəyrələndirilir. Kontekstual nəzəriyəyə əsasən təlim o zaman baş verir ki, şagird öz bilik dairəsi çərçivəsində yeni informasiyalar və biliklər emal etsin. İnformasiyaların emalı məzmunda yeni məna axtarmaqla və həmin mənaları inandırıcı şəkildə əlaqələndirməklə həyata keçirilir.

**Qavrama** materialı başa düşmək, mənasını dərk etmək, dəyişmək, izah etmək, sözlərini dəyişmək, təsvir və ya şərh etməklə bağlıdır. Buraya aşağıdakılar aiddir:

- Biliyin yeni kontekstə köçürülməsi;
- İzah, təsvir, şərh (bir dildən və ya səs sistemindən digərinə dəyişmə);
- Nümunələrin gətirilməsi;
- Öyrənilmiş və ya tanış olan xassələrə görə təsnifat;
- Yekunlaşdırma;
- Qarşılıqlı əlaqənin yaradılması.

**Tətbiqə** məlumatdan istifadə etmək, yeni şəraitə metod və konsepsiyaları tətbiq etmək, məlum olan, müəllim tərəfindən verilən və müstəqil hazırlanmış təlimata əsasən tapşırığın icra olunması daxildir.

**Təhlil** ayrı-ayrı hissələrə bölünmə və bu hissələrin tama necə aid olunmasını təyin etmək, diferensiallaşma (tamın əsas hissələrə bölünməsi), sıralanma, xarakterik xüsusiyyətlərin təyini və s. ibarətdir. Təhlildə əlaqələrin sezilməsi, hissələrin təşkili, qapalı mənaların anlaşılması, komponentlərin ayırd edilməsi fəaliyyətləri aparılır. Burada əsas fəaliyyətlərə təşkil, təhlil və müqayisə etmək, fərqləndirmək, ayırmaq, seçmək, sıralamaq, birləşdirmək, əqli nəticə çıxarmaq, sxematik təsvir etmək, izah etmək daxildir.

**Sintez** yeni ideyaların yaranması üçün köhnə ideyalardan istifadə, verilmiş faktların ümumiləşdirilməsi və bir neçə sahə üzrə biliklərin əlaqələndirilməsidir. Buraya ayrı-ayrı hissələrdən yeni "məhsulun" yaradılması, müəyyən meyarlar üzrə fikirlərin, hipotezlərin, alternativ hallərin generasiya edilməsi, planlaşdırılma (fəaliyyət ssenarilərinin, tədqiqatların, eksperimentlərin yaradılması) aiddir.

Diaqnostik qiymətləndirmənin aparılması üçün təlimin məqsədlərinə uyğun üsul, vasitələr və fəaliyyət növlərindən istifadə olunur. Onlar cədvəl 3.3-də ümumiləşdirilir:

| Üsullar | Vasitələr | Fəaliyyət növləri |
|---|---|---|
| Müşahidə (müəllim şagirdlərin fəaliyyətini müşahidə edərək qiymətləndirir) | Müşahidə vərəqi (şagirdin təlim fəaliyyətindən gözlənilən nəticəni əks etdirən meyarların yazıldığı cədvəl) | Dərsdə və tənəffüsdə şagirdin müşahidə edilməsi və meyar cədvəlinin doldurulması |
| Müsahibə (şagirdlərin fəaliyyətini izləmək məqsədilə aparılan şifahi yoxlama) | Qeydiyyat vərəqi (şagirdlə aparılan danışıq zamanı müəllimin diqqət yetirmək istədiyi məsələlərin yazıldığı vərəq) | Mövzu üzrə müxtəlif insanlardan müsahibə götürmək |

| | | |
|---|---|---|
| Tapşırıqvermə | Çalışmalar | Praktik tapşırıqların, çalışmaların yerinə yetirilməsi |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) | Valideyn iclaslarında sorğu vərəqlərinin doldurulması, monitorinq fəaliyyətinin birgə həyata keçirilməsi |

**Cədvəl 3.3. Diaqnostik qiymətləndirmədə istifadə olunan üsul və vasitələr**

Diaqnostik qiymətləndirmənin üsullarında onun təşkilində istifadə olunan tapşırıqların, meyarların da qeyd olunması böyük əhəmiyyət kəsb edir. Bu baxımdan aşağıdakı cədvəl 3.4-dən istifadə edilməsi məsləhətdir. Cədvəldə diaqnostik qiymətləndirmənin üsulları, fəaliyyət növləri, əsas meyarlar qarşılaşdırılır və ümumiləşdirilir:

| Qiymətləndirmə üsulları | Tapşırıqlar (fəaliyyət növləri) | Qiymətləndirmə meyarları |
|---|---|---|
| Söhbət | «Sən yay tətilini necə keçirdin, harada oldun?» mövzusu ətrafında şagirdlərlə söhbət aparmaq. Bu zaman şagirdlərin cavabları əsasında müəllim qeydiyyatlar aparır. | Nitqinin mükəmməl olması;<br>Söz ehtiyatının zəngin olması;<br>Danışarkən düzgün cümlə qurması;<br>Cümlələrin xüsusi intonasiya ilə deyilməsi. |
| Müşahidə | 1.Tənəffüslərdə müşahidələrin aparılması (təmkinli, şıltaq, nadinc, ünsiyyətli və s.);<br>2.Dərs zamanı: hərfləri hecalara birləşdirməsi; yeni sözlərdən cümlədə istifadə edilməsi; 10 çərçivəsində əks istiqamətdə sayması. | Şagirdlərin davranış qaydalarına, nizam-intizama riayət etməsi;<br>Hərflərin hecalarda düzgün birləşdirilməsi;<br>Yeni sözlərdən cümlədə düzgün istifadə edilməsi;<br>Əks istiqamətdə ardıcıl və sürətlə sayması. |
| Müsahibə | Sözü anlama və ifadə etmə bacarığının yoxlanılması (xoşbəxt, nikbin, ekologiya, sülh, mərdlik və s. nədir?). | Şərhin dəqiqliyi;<br>İfadənin genişliyi . |
| | Şagirdlərə verilmiş hər hansı bir sualın yazılı cavabının tələb olunması. | Cümlənin düzgün qurulması;<br>Orfoqrafik səhvlərin sayı. |
| | Şagirdlərin olduğu hər hansı bir yerin şəklini çəkməsi. | Rəsmin məzmunu;<br>Rəsmin keyfiyyəti. |

| | | |
|---|---|---|
| | Müəllim tərəfindən verilmiş düşündürücü açıq suala cavab verməsi (əgər belə olsa, sən….). | İdeyaların sayı;<br>Cavabın orijinallığı. |
| | Məntiqi tapşırıqların həll edilməsi. | Məntiqli cavablar. |
| | Üzündən köçürmə. | Səhvlərin sayı;<br>Səhvlərin keyfiyyəti (kobud, səliqəsiz). |
| | Mətn və lüğət üzrə imla. | |
| | İfadənin və ya kiçik həcmli inşanın yazılması. | Məlumatın dəqiq çatdırılması;<br>Məlumatlılığın səviyyəsi |
| Özünüqiymətləndirmə | I sinifdə keçilən mövzular əsasında tərtib olunmuş testin təşkili. Müəllimin tərtibatı ilə 10-20 sual ətrafında cavablar faizlərlə müəyyənləşdirilir. Dərsdə öz fəaliyyətini "smay-lik"lərlə qiymətləndirmə. | Yaddaşın və keçilən materialın keyfiyyətli mənimsənilməsini yoxlamaq məqsədilə şagird verilmiş faiz bölgüsü ilə özünü qiymətləndirir.<br>Məsələn:<br>☹ - dərsi başa düşmədim<br>☺ - dərsdə fəal idim, hamısını anladım. |
| Şagirdlərlə müəllim və valideyn arasında əməkdaşlıq | Şagirdlərlə müəllim və valideyn arasında əməkdaşlığı müəyyənləşdirən anket sorğusunun aparılması. | Şagirdlərin ev şəraiti;<br>Şagirdlərin fərdi xüsusiy-yətləri. |

**Cədvəl 3.4. Diaqnostik qiymətləndirmənin üsulları, tapşırıqları və qiymətləndirmə meyarları**

Diaqnostik qiymətləndirmə ilin əvvəlində aparılırsa, onda müəllim əvvəlki siniflərdə keçilən fənlərin materiallarına dair sual və tapşırıqlar hazırlayır və şagirdlərə verir. Hər bir şagirdin səviyyəsinə dair konkret məlumat əldə etmək üçün müəllim suallar yazılmış kartlardan istifadə edir. Sonda cavabları təhlil edərək hər bir şagirdin səviyyəsi ilə tanış olur, sinif üzrə ümumi nəticə çıxarır.

Məlumdur ki, birinci sinfə qəbul olunan şagirdlər bilik və bacarıqlarına görə fərqlənirlər. Onların bir qrupu hərfləri, rəqəmləri heç bilmir, bir qrupu zəif bilir, digər bir qrupu hərfləri, rəqəmləri yaxşı bilirlər. Uşaqların bəziləri özünü təqdim etməyi bacarır, müşahidə etdikləri obyekt və hadisələrin əlamətlərini sərbəst olaraq ifadə edirlər. Digərləri bunu bacarmırlar. Bir qrup şagirdlər bildiklərini ifadə etmir, kompleksli olurlar. Ona görə də birinci sinfi qəbul edən müəllim müxtəlif fənlər üzrə diaqnostik qiymətləndirmə aparmağa hazır olmalıdır. O, hər bir fənn üzrə müvafiq suallar hazırlayır, şagirdlərlə şifahi sorğu, söhbət aparır. Şagirdlərin öyrənmə tərzlərini (eşitmə, əyani, kinestetik, qarışıq) müəyyən edir. Cavablar əsasında şagirdləri bilik və bacarıq səviyyələrinə, nitqin səlistliyinə, dünya baxışına görə təxmini qruplaşdırır. Aldığı nəticələr əsasında illik və cari planını qurur.

Tətbiq edəcəyi resursları, üsul və metodları müəyyənləşdirir. Bu da onun tədrisdə istədiyi, gözlədiyi nəticələri almasına kömək edir.

Diaqnostik qiymətləndirmədə BİBÖ metodunun tətbiqi daha faydalıdır. Belə ki, xüsusi cədvəl qurulur, üç sütuna bölünür. Cədvəlin birinci və ikinci xanasında şagirdlərin fənn və ya mövzu haqqında nələri bildiyi və bilmək istədikləri qeyd olunur. Burada yazılanlar şagirdlərin ümumi bilik və bacarıqları haqqında müəllimə məlumat verir. Onların öyrənmək istədiklərinin yazıldığı ikinci xanadakı məlumatlar müəllimə tədrisin istiqamətini müəyyənləşdirmək imkanı verir. Müəllim şagirdlərə verəcəyi materialı, onun tədrisinin üsul, metod və formalarını müəyyənləşdirir. Müəllim dərsini elə planlaşdırır ki, orada vaxtdan qənaətlə istifadə olunsun, az vaxtda daha çox fəaliyyət göstərilsin, lazımsız təkrarlara yol verilməsin.

Hər bir dərsə başlarkən motivasiya yaradılır. Fəal dərsin birinci mərhələsi- motivasiya sanki şagirdlərin mövzuya dair bilik və bacarıqlarına bir baxışdır, onların mövzuya dair biliklərinin diaqnostik qiymətləndirilməsidir. Ona görə də müəllimlər motivasiya mərhələsində şagirdlərin bilik və bacarıqlarını diaqnostik qiymətləndirmiş olurlar.

Birinci sinifdə savad təliminə başlamazdan əvvəl diaqnostik qiymətləndirmə aparmaq üçün aşağıdakı tapşırıqlardan istifadə edilməsi məsləhətdir. Lövhədə hərflər (30 sayda) verilir, tapşırılır ki, hərfləri səsləndirsinlər. Şagirdlər 15-dən az hərf tanıyırsa, onda ikinci tapşırığı verməyə ehtiyac qalmır. İkinci tapşırıqda hecaların oxunması tələb olunur və 6 sütununun hər birində 5 heca verilir. Dinləyib-anlama bacarığının ilkin səviyyəsini müəyyən etmək üçün diaqnostik qiymətləndirmədə aşağıda verilən tapşırıq nümunələrindən istifadə olunur. Belə ki, cümlələr verilir, onların oxunması tələb olunur.

Diaqnostik qiymətləndirməni aparan müəllim bir sıra bacarıqlara sahib olmalıdır:

- Diaqnostik qiymətləndirməni tətbiq etmək;
- Qiymətləndirmənin üsul və vasitələrinin istifadə imkanlarını müəyyən etmək;
- Təlim nəticələrinə uyğun olaraq qiymətləndirmə üsullarını seçmək;
- Şagirdlərin səviyyəsi əsasında vasitələr hazırlamaq və s.

## Tələbələr üçün fəaliyyətlər

1. Diaqnostik qiymətləndirmənin mahiyyətini izah edin.
2. Diaqnostik qiymətləndirmənin mərhələlərini və məqsədlərini cədvəldə ümumiləşdirin.
3. Diaqnostik qiymətləndirmənin müşahidə sxemini işləyin.
4. Diaqnostik qiymətləndirmənin üsullarını kəpənəyin qanadlarında verin:



5. Diaqnostik qiymətləndirmənin əsas vasitələrini aşağıdakı kubiklərdə yerləşdirin:



6. 2-ci sinif riyaziyyat fənni üzrə ilin əvvəlində diaqnostik qiymətləndirmə aparmaq üçün qiymətləndirmə vasitələri hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Şagirdlərin bilik və bacarıq səviyyəsinin diaqnostik qiymətləndirilməsini aparır”.**

1. Diaqnostik qiymətləndirmənin mahiyyətini izah edin.

2. Diaqnostik qiymətləndirmənin müəllim və şagird üçün əhəmiyyətini ümumiləşdirin:

| **Diaqnostik qiymətləndirmənin əhəmiyyəti** | |
|---|---|
| Müəllim üçün | Şagird üçün |
| | |

3. Diaqnostik qiymətləndirmənin məqsədlərini kvadratların içərisində yazın:

| | |
|---|---|
| | |
| | |

4. Diaqnostik qiymətləndirmənin şagirdin əsas inkişaf sahələri üzrə bacarıqlarını müəyyən edin:

| **Diaqnostik qiymətləndirmənin əhəmiyyəti** | |
|---|---|
| İnkişaf sahələri | Bacarıqlar |
| 1. İdraki | |
| 2. Şəxsi | |
| 3. Sosial-emosional | |
| 4. Hərəki | |

5. Diaqnostik qiymətləndirmədə şagirdin hansı bilikləri müəyyən edilir? Aşağıdakı sxemdə göstərin:

**Bilik növləri**



6. Diaqnostik qiymətləndirmədə şagirdin üzə çıxarılan bacarıqları hansılardır?

7. Müəllim riyaziyyatdan 15-ci dərsdə, Azərbaycan dilindən rübün sonunda, həyat bilgisindən ilk dərsdə, informatikadan hər dərsdə qiymətləndirmə aparmışdır. Aparılan qiymətləndirmələrin növlərini müəyyən edin.

8. Diaqnostik qiymətləndirmənin aparıldığı müddətə uyğun sualların seçilməsi qaydalarını qeyd edin, misallar gətirin:
   - İlin əvvəlində - ?
   - Dərsin əvvəlində - ?
   - Birinci sinfə daxil olanlarla - ?
   - İlin ortasında sinfə yeni gələn şagirdlərlə - ?

9. Diaqnsotik qiymətləndirmədə BİBÖ metodunu necə tətbiq edərsiniz?

10. Diaqnostik qiymətləndirməni aparmaq üçün müəllimin nümayiş etdirəcək bacarıqlarını modelləşdirin.

11. 4-cü sinifdə Ana dilindən diaqnostik qiymətləndirmə aparın.

## 3.3. Formativ qiymətləndirməni qaydalara müvafiq tətbiq edir

### 3.3.1. Formativ qiymətləndirmənin tədrisdə tətbiqi

Formativ qiymətləndirmənin əsas mahiyyəti şagirdin təlim fəaliyyətinin daim izlənilməsidir. Formativ qiymətləndirmə şagirdin bilik və bacarığını formalaşdırmaqla onun yüksək təlim nəticələrinə nail olması məqsədilə aparılır. Formativ qiymətləndirmə sayəsində şagird gündəlik təlim fəaliyyəti ərzində rəqəmli qiymət almaq üçün deyil, yaxşı nəticə göstərmək üçün çalışır. Bu forma şagirdin məzmun standartlarından irəli gələn bilik və bacarıqlara yiyələnməsi vəziyyətinin qiymətləndirilməsidir.

Formativ qiymətləndirmə dərsi müşayiət edən prosesdir. Fənn üzrə aparılan formativ qiymətləndirmə şagirdin ehtiyaclarını öyrənmək, uğur qazana bilməməsinin səbəblərini araşdırmaq və onun inkişafını təmin etmək məqsədilə müntəzəm olaraq həyata keçirilir.

Formativ qiymətləndirmədə istifadə olunan metod və vasitələrə müşahidə, şagirdlərin şifahi cavabları, şagirdlərin yazı işlərinin təhlili, test tapşırıqlarının nəticələri və başqaları aiddir.

Formativ qiymətləndirmə zamanı, gündəlik şagird fəaliyyətinin izlənməsi üzrə test tapşırıqlarını yerinə yetirərkən müxtəlif seçimli test nümunələrindən yox, açıq suallı tapşırıqlardan, uzlaşmalardan, cümlə tamamlamalarından, səhv və düz cavabların seçilməsindən, cümlə, hekayə, mətn qurmadan, boşluqlara söz və ya söz birləşmələri əlavə etmədən, düzgün qrammatik çalışmaların yerinə yetirilməsindən, yazı işlərindən (imla, esse və s.) istifadə etmək lazımdır. Müxtəlif seçimli və ya alternativ cavablı testlər gündəlik fəaliyyətdə şagirdlərin tənqidi və yaradıcı təfəkkürünu inkişaf etdirmir.

Formativ qiymətləndirmədə aşağıdakılara müəllim tərəfindən diqqət edilməsi vacibdir:

- Məzmun standartları əsasında dəqiq meyarlar işlənib hazırlanmalıdır;
- Meyarlar bilik və bacarıq, o cümlədəninformasiyanı aydın təqdim etmək bacarığı və məntiqi təfəkkür qabiliyyəti kimi göstəricilərini inkişafını əks etdirməlidir;
- Müəllim yadda saxlamalıdır ki, qiymətləndirmə ilk növbədə şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi rolunu oynamalıdır;
- Fənn müəllimləri qiymətləndirmə apararkən obyektiv olmalıdır;
- Heç bir təmənna gözləmədən qiymətləndirmə aparmalıdır;
- Şagirdlərə stimullaşdırıcı, həvəsləndirici qiymətlər verməklə onların müvəffəqiyyətində maraqlı olduqlarını və buna əmək sərf etdiklərini dərk edəndə, şagirdlərin təlim fəaliyyətinə həvəsi daha da artır;
- Qiymətləndirmə müvafiq tapşırıqların yerinə yetirilməsinə əsaslanmalıdır;
- Dərslərdə qiymətləndirilmənin aparılmasında əsas diqqət təkcə informasiyanın mənimsənilməsinə deyil, həm də cəmiyyətin həyatında bir vətəndaş kimi iştirak etmək üçün zəruri olan bacarıqların nümayişinə yönəldilməlidir.

Formativ qiymətləndirmə həm şagird, həm də müəllim üçün böyük əhəmiyyətə malikdir. Bu zaman şagirddə təsadüfi, gözlənilməz şəraitdən müdafiə olunma hissi yaranır.

O daha yaxşı nailiyyətlər əldə etmək imkanı əldə edir. Müəllim üçün imkan yaranır ki, tədris materialının qavranılmasında fraqmentarlığın qarşısını alsın. Eyni zamanda şagirdlərin nəticələrini təkmilləşdirmək həvəsi təlimin keyfiyyətini artırır.

Müəllimin formativ qiymətləndirmə aparma məqsədi təhsilalanların təlim prosesində məzmun standartlarından irəli gələn bilik və bacarıqların mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləməkdən, bu zaman qarşıya çıxan problemləri müəyyən etməkdən və onları aradan qaldırmaqdan ibarətdir. Müəllim yalnız belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək onlara əlavə kömək göstərir. Müəllim formativ qiymətləndirmə meyarlara uyğun dörd səviyyəli rubriklər (I-IV səviyyə) hazırlayır, onlar əsasında şagirdlərin bilik və bacarıqlarını qiymətləndirir.

Rubriklərdən istifadə edilməsi müəllim üçün aşağıdakı üstünlükləri yaradır:

- Qiymətləndirmənin daha ədalətli, obyektiv, etibarlı və ardıcıl olmasına imkan yaradılır;
- Rubrikləri hazırlamaq üçün müəllim müvafiq şərtlər üzrə öz meyarlarını müəyyənləşdirir və bununla təlim məqsədlərini daha yaxşı təsvir edir;
- Rubriklər müəllimlərin şagirdin işini qiymətləndirməyə sərf etdiyi vaxtı azaldır;
- Rubriklər tədrisin səmərəliliyi ilə bağlı müəllimləri faydalı məlumatlarla təmin edir;
- Rubriklər keyfiyyət səviyyələri intervalı vasitəsilə müxtəlif qabiliyyətə malik şagirdlərin olduğu siniflərdə qiymətləndirmə aparmağa kömək edir;
- Şagird irəliləyişlərinin montorinqi (formativ qiymətləndirmə) vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsi həyata keçirilir, alternativ üsul və mənbələrdən istifadə və ya şagirdin daha irəliyə addım atması üçün ona əlavə impulsun verilməsi barədə ehtiyaclar müəyyənləşdirilir.

Qiymətləndirmədə test tapşırqlarından da istifadə edilir. Test tapşırıqları qiymətləndirmə vasitəsi kimi hal-hazırda populyarlıq qazansa da, fənni tədris edən müəllim diaqnostik, formativ, hətta summativ qiymətləndirmədə test tapşırıqlarına aludəçilik göstərməməlidir. Test tapşırıqlarından davamlı olmamaqla, yeri gəldikcə yalnız summativ qiymətləndirmədə istifadə etmək tövsiyə edilir.

Şagirdlərin şifahi və yazılı nitq bacarıqlarını, məntiqi təfəkkürünü, müstəqil düşünmə qabiliyyətini inkişaf etdirən üsullardan - layihə (qiymətləndirmə vasitəsi - şagirdlərin təqdimatı və müəllimin tərtib etdiyi meyar cədvəli), şifahi sorğu (qiymətləndirmə vasitəsi – şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), yoxlama yazı işlərindən (imla, inşa, esse, məsələ və misal həlli) geniş istifadə edilməlidir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsinin bir çox üsulları mövcuddur. Ekspres sorğu formativ qiymətləndirməni aparmaq üçün ən əlverişli üsullardan biridir. Ekspres sorğunun funksiyaları aşağıdakılardan ibarətdir. Ekspres sorğu vasitəsilə:

- Müəllim keçirilən mövzunun şagirdlər tərəfindən necə mənimsənilməsini tez bir zamanda müəyyənləşdirir;
- Yeni mövzuya başlamaq üçün hazırlıq mərhələsini aparır;

- Mütəmadi olaraq keçirilən mövzuları təkrarlayır;
- Qazanılmış biliklərin tətbiqini müəyyənləşdirir.

Məsələn, müəllim hər hansı bir mövzunu uşaqlara başa salmış, tapşırıqların hansı alqoritmlə yerinə yetirilməsi haqqında məlumatlar vermiş, şagirdlər dərsi mənimsəmişlər, tapşırıqları yerinə yetirimişlər. Lakin müəllim kiçik zaman fasiləsində fərdi olaraq hər bir şagirdin məhz bu mövzunu necə başa düşdüyünü müəyyənləşdirmək üçün dərsə başlayarkən kiçik vərəqlərdə (bu üsuldan istifadə edən müəllimin şagirdlərinin dəftərlərinin arasında hazır şəkildə ad yazılmış vərəqlər olur) bir alt-standartı əks etdirən tapşırıq verir. Tapşırıq konkret vaxt çərçivəsində yerinə yetirilməlidir. Vərəqlər yığılır və yerindəcə yoxlanılır. Yalnız bir alt-standartın səviyyəsi yoxlandığından bu prosesə az vaxt sərf olunur. Səhv işləyən,yenidən izaha ehtiyacı olan uşaqlar mövzu ilə əlaqədar tapşırıqlar üzərində müəllimin köməyi ilə işləməli olurlar.

Formativ qiymətləndirmənin nəticələri formativ qiymətləndirmə jurnalında rəqəmlə və şagirdin məktəbli kitabçasında sözlə qeyd olunur. Formativ qiymətləndirmə jurnalı sinif və fənn müəllimləri tərəfindən şagirdlərin gündəlik fəaliyyətini meyarlar üzrə izləyərək qeydiyyatını aparmaq üçün nəzərdə tutulur.

Formativ qiymətləndirmənin özünəməxsus üsul və vasitələri mövcuddur. Onlar cədvəl 3.5-də ümumiləşdirilir:

| Üsullar | Vasitələr | Fəaliyyət növləri |
|---|---|---|
| Müşahidə | Müşahidə vərəqləri | Qrupda və ya cütlərdə iş |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi | Təqdimatlar |
| Tapşırıqvermə | Çalışmalar | Qrammatik tapşırıqlar |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) | Sorğuların yazılı doldurulması və ya şifahi müzakirəsi |
| Oxu | Dinləmə üzrə qeydiyyat vərəqi;<br>Oxu üzrə qeydiyyat vərəqi | Ev tapşırığı |
| Yazı | Yazı vərdişlərinin inkişafı üzrə qeydiyyat vərəqi | Yoxlama köçürmələr imlalar, ifadə |
| Tədqiqat layihəsi | Meyar cədvəli | Müstəqil (yaradıcı) iş |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası | Yoxlanılan bacarıq üzrə hər hansı fəaliyyət növü |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli | Qrup işi və ya fərdi tədqiqatın təqdimatı |
| Test | Test tapşırıqları | Test tapşırıqlarının həlli |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri | Özünüqiymətləndirmə vərəqlərinin doldurulması |

**Cədvəl 3.5. Formativ qiymətləndirmədə istifadə olunan üsul və vasitələr**

Fəal (interaktiv) təlimdə müəllimləri daha çox maraqlandıran məsələlərdən biri qrup işinin qiymətləndirilməsidir. Bu zaman çoxlu suallar yaranır: Qrup işini hansı yollarla qiymətləndirmək olar? Qrupun qiymətləndirməsində fərdi yanaşmanı necə tətbiq etməli?

Qrup işinin qiymətləndirilməsi meyarlar əsasında və müxtəlif vasitə (qrafik, cədvəl, simvol, söz) və üsullarla (müəllim tərəfindən, şagirdlərin qarşılıqlı qiymətləndirməsi, qruplararası qiymətləndirmə) aparılır.

Meyar cədvəlinin əsasında qiymətləndirmədə cədvəl çəkilir, onun sətirlərində qrupların nömrələri və sütunlarında qiymətləndirmə meyarları qeyd edilir. Qiymətləndirmə zamanı müəllim hər qrupun qarşısında meyara müvafiq olaraq «+»,«-» işarələri ilə və ya balla qrupun nailiyyətlərini qeyd edir, yekunda ümumi bal hesablanır.

Qrup işinin qiymətləndirilməsi üçün meyar cədvəli aşağıdakı kimi qurulur (Cədvəl 3.6):

| QRUP | MEYARLAR | | | | | |
|---|---|---|---|---|---|---|
| | Tapşırıq tam və uyğun yerinə yetirilib | Bir-birini dinləmə | Əməkdaşlıq | Əlavələr (suallar, cavablar) | Tərtibat | Təqdimat |
| I | | | | | | |
| II | | | | | | |
| III | | | | | | |
| IV | | | | | | |

**Cədvəl 3.6. Meyar cədvəli**

Cədvəldə meyarlar, qrupların nömrəsi və adı ardıcıllıqla göstərilir.

Qrupdaxili qiymətləndirmədə qrupun hər bir nümayəndəsinə qrup şagirdlərinin adları və qiymətləndirmə meyarları qeyd edilmiş cədvəl paylanılır. Hər nümayəndə həm özünü, həm də yoldaşlarını meyarlar əsasında «+» və ya «-» işarələri ilə (və ya rəqəmlərlə) qiymətləndirir.

Qruplarda işin qiymətləndirilməsinin əhəmiyyəti böyükdür. Qrupun işində şagirdlərin fəallığının qiymətləndirilməsi meyarlarının aşağıdakı kimi müəyyən edilməsi məsləhətdir:

- Şagird tapşırığın məqsədləri üzərində diqqətini cəmləşdirməlidir;
- O, qrupun digər üzvləri ilə qarşılıqlı əlaqədə çalışmalıdır;
- Başqalarına mane olmadan işləməlidir;
- O, qrupun bütün üzvləri ilə nəzakətlə rəftar etməlidir;
- Şagird tapşırığın yerinə yetirilməsinə lazımi töhfə verməlidir;
- Qrup halında işin yaxşılaşdırılması yollarını tapmağa kömək etməlidir.

Dərsdə qrup işinin təşkili geniş yayılmışdır və tədrisdə onun səmərəliliyi təsdiqini tapmışdır. Qrup işinin, onların fəaliyyətinin obyektiv qiymətləndirilməsi əsas məsələlərdəndir. Qrupların işi müxtəlif variantlar üzrə qiymətləndirilir.

Qrup təqdimatının qiymətləndirilməsi. Təqdimatın hər bir növünün öz qayda və ənənələri vardır. Şifahi təqdimatın qiymətləndirilməsi zamanı səsin imkanlarından, jestlərdən bacarıqla istifadə olunması, foto və video materialların nümayiş etdirilməsi və s. bu kimi amillər nəzərə alınır. Təqdimatın qiymətləndirilməsi üçün meyarların hazırlanması zamanı aşağıdakı göstəricilər nəzərə alınmalıdır:

- Biliklər: faktlar, problemlər, anlayışlar, ideyalar;
- Əqli vərdişlər: təhlil, qiymət, göstəricilərin sintezi, yeni məntiqlə düşünmək qabiliyyəti;
- Kommunikativ vərdişlər: informasiyanı aydın şəkildə təqdim etmək bacarığı.

Qrupların təqdimatının qiymətləndirilməsi dörd səviyyə üzrə aparılır. Aşağıdakı cədvəl 3.7-də şifahi təqdimatın qiymətləndirilməsinin dörd səviyyədən ibarət meyarları təklif olunur. Müəllimin istəyindən asılı olaraq bunlar dəyişdirilir və ya əlavələr edilir.

| Meyarlar | 4-cü səviyyə | 3-cü səviyyə | 2-ci səviyyə | 1-ci səviyyə |
|---|---|---|---|---|
| Əsas anlayışlar, problemlər, mövzular, ideyalar | Mükəmməl surətdə seçilir, dəqiq tərifi və təsviri verilir | Yaxşı seçilir, tərifi və təsviri verilir | Seçilir, tərifi verilir və təsvir edilir | Seçilməsində, tərifi verilməsində çətinlik çəkir |
| Faktlar, informasiya | Yanlışlıqlar yoxdur | Kiçik yanlışlıqlar var | Səhvlərə yol verilir | Yoxdur və ya qeyri-dəqiqdir |
| Problemə aid göstəricilərin toplanması | Məntiqlə seçir və hər şeyi təşkil edir | Məntiqlə seçir və bir hissəsini təşkil edir | Problem üzrə az göstərici tapır | Mühüm göstəriciləri tapa bilmir |
| Nəticə çıxarmaq bacarığı | Göstəricilərə əsaslanır | Göstəricilərə əsaslanan informasion nəticələr | Yarımçıq nəticələr | Nəticələr dəqiq deyil |
| Təqdimat zamanı ideyaların irəli sürülməsi: fənn haqqında bilgilər və məntiqlə düşünmək bacarığı | Əla bilik və məntiq | Yaxşı bilik və məntiq | Müəyyən bilik və məntiq | Qeyri-dəqiq bilgilər |
| Təqdimatın təşkili | Əla | Yaxşı | Kafi | Qeyri-kafi |

**Cədvəl 3.7. Meyarlar və onun səviyyələri**

Cədvəldə meyarlar, onların səviyyələri ümumiləşdirilmişdir. Səviyyələr arasında fərqlər şagirdlərin öz biliklərini nümayiş etdirə bilməsindən, yəni onların nə dərəcədə səylə öyrənmələri, faktlardan və detallardan nə dərəcədə dürüst və yerində istifadə etməsi ilə izah olunur.

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işinin formativ qiymətləndirmə meyarları cədvəlini işləyin.

2. Qrup işinin qiymətləndirilməsinin üstünlüklərini pillələrdə göstərin:



3. Formativ qiymətləndirmənin şagirdin inkişafında əhəmiyyətini göstərin.

4. Formativ qiymətləndirmənin mahiyyətini izah edin.

5. Formativ qiymətləndirmədə meyarın müəyyən edilməsi mexanizmini şərh edin.

6. Formativ qiymətləndirmənin üsul və vasitələrini cədvəllə ümumiləşdirin:

| **Formativ qiymətləndirmə** | |
|---|---|
| Üsullar | Vasitələr |
| | |

7. 4-cü sinifdə formativ qiymətləndirməni test tapşırıqları üzrə aparın.

8. Aşağıdakı anlayışlardan qiymətləndirməyə aid olanları seçin: standart, metod, qiymətvermə, qrafik, nəticə, test, obyektivlik, keyfiyyət, kəmiyyət, təhlil, səviyyə, əla, kafi, simvol, prinsip, təqdimat, layihə, nəticə, məntiq, təfəkkür, problem, tədqiqat, planlaşdırma.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Formativ qiymətləndirməni qaydalara müvafiq tətbiq edir”.**

1. Formativ qiymətləndirmədə sagirdin məntiqi və yaradıcı təfəkkürünün inkişafı baxımından vasitələri sıralayın: test, boşluqlara söz yazmaq, açıq sual, cümlə və ya şəkil, sxem tamamlamaları, düz cavabların seçilməsi, cümlə qurulması, hekayə, dialoq, esse yazılması, təqdimat aparılması, təcrübə nümayişi, misal, məsələ həlli.
2. Formativ qiymətləndirmədə meyarın çıxarılması mexanizmini izah edin.
3. Formativ qiymətləndirmədə müəllimin həll etdiyi problemləri modelləşdirin.
4. Formativ qiymətləndirmənin müəllim və şagird üçün əhəmiyyətini göstərin.
5. Formativ qiymətləndirmədə müəllim qarşısına hansı çətinliklər çıxa bilər?
6. 2-ci sinif Ana dilindən “2.1.3. Öyrəndiyi yeni sözlərin mənasını izah edir” alt-standartından meyar çıxarın, 4 səviyyəli rubriklər hazırlayın.
7. Qrup işinin qiymətləndirilməsi üçün meyarları müəyyən edin və meyar cədvəlini işləyin:

| Meyarlar / Qruplar | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |

8. Formativ qiymətləndirmədə testlərin hazırlanması və tətbiqi qaydalarını sxemlə ümumiləşdirin:



9. Qrup işinin formativ qiymətləndirmə qrafikini qurun.
10. 4-cü sinif “Həyat bilgisi” fənnindən “Dövlət büdcəsi” mövzusu üzrə formativ qiymətləndirməni aparın (Alt-standart 2.2.1. “Vergi və “Dövlət büdcəsi” anlayışlarını sadə şəkildə izah edir).

## 3.4. Summativ qiymətləndirməni forma, üsul və vasitələrinə uyğun tətbiq edir

### 3.4.1. Summativ qiymətləndirmə formaları

Summativ qiymətləndirmə təhsilin hər hansı mərhələsində (bəhs və ya bölmənin, yarımilin və ilin sonunda) şagirdlərin standartlar üzrə əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsidir. Summativ qiymətləndirmənin ən mühüm cəhəti şagirdlərin əldə etdiyi biliklərin tətbiqinə hansı səviyyədə nail olduğunu aşkar etməkdən ibarətdir. Summativ qiymətləndirmə məzmun standartlarının mənimsənilmə səviyyəsinin etibarlı göstəricisidir.

Summativ qiymətləndirmə standart və ya standartlar qrupunda müəyyən olunmuş məqsədlərə şagirdlərin hansı səviyyədə nail olduqlarını müəyyən edir. Summativ qiymətləndirmə standartların mənimsənilməsi istiqamətində şagirdlərin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə növü mövzunun, bəhs və bölmənin, yaxud tədris ilinin sonunda eyni qaydada keçirilir. Summativ qiymətləndirmənin mühüm cəhəti şagirdlərin mənimsədiklərini tətbiqetmə qabiliyyətinə nə dərəcədə malik olduqlarını aşkara çıxarmaqdır.

Kiçik summativ qiymətləndirmə fənn kurikulumları tətbiq olunan siniflərdə bəhs və ya bölmələrin sonunda, altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir. Onun nəticələri yarımillik qiymətlərin hesablanmasında nəzərə alınır.

Böyük summativ qiymətləndirmə yarımilliklərin sonunda ümumi təhsil müəssisəsinin rəhbərliyinin və ya orada yaradılan müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır. Yekun summativ qiymətləndirmə buraxılış siniflərində təhsil səviyyələrinin sonunda yekun attestasiya (buraxılış imtahanları) şəklində aparılır.

Summativ qiymətləndirmənin nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Ola bilsin ki, bəzi dərslərdə müəllim tərəfindən biliyin yekun qiymətləndirilməsi nəzərdə tutulmur və qiymət qoymaq tövsiyə edilmir. Lakin onlar məktəblilərin refleksiya, yəni suallara cavablar, müzakirələr vasitəsilə özünüqiymətləndirməsinə yol açır. Şagirdlərin öz fəaliyyətinin qiymətləndirilməsinə cəlb edilməsi çox vacibdir. Çünki bu iş məktəbliləri öz davranışına daha məsuliyyətlə yanaşmağa sövq edir, onlarda obyektivliyin tərbiyə edilməsinə yardımçı olur, öz münasibətlərini düzlük və qarşılıqlı anlaşma prinsipləri əsasında qurmağı öyrədir. Bu qiymətlər qeyri-səmimilik və ya özünüaldatma ucbatından təhrif edilməməlidir. İnsanın öz-özünü necə gördüyünü müəyyən etməyə imkan verməlidir. Özünüqiymətləndirmə ilə kənardan verilən qiymətlərdəki fərq öz-özlüyündə qrup və fərd üçün zəngin informasiya mənbəyi olmalıdır.

Summativ qiymətləndirmə təlim prosesində müəyyən mərhələlərə (bəhs və ya bölmənin, yarımilin sonunda) yekun vurmaqla, şagirdin nailiyyət səviyyəsini ölçmək məqsədilə aparılır.

Fəal (interaktiv) təlimdə şagirdlərin nailiyyətlərinin qiymətləndirmə obyektləri sırasına daha biri də şagirdin şəxsi keyfiyyətləri (biliyə yiyələnmək həvəsi, sosial, yaradıcı, mənəvi keyfiyyətlər və s.) əlavə olunur.

Şagirdlərin məzmun standartlarına nə dərəcədə nail olduqlarını ölçmək və qazanılmış

bacarıqlar üzrə yekun (summativ) qiymətləndirmələr aparmaq üçün qiymətləndirmə vasitələri (testləri) hazırlanır.

Summativ qiymətləndirmənin əsas xüsusiyyətləri onun kiçik, böyük və yekun summativ qiymətləndirmələrdən ibarət olmasıdır.

1. Kiçik summativ qiymətləndirmə fəsil və bölmələrin, təhsil vahidlərinin sonunda müvafiq standartların mənimsənilməsi səviyyəsini müəyyənləşdirmək üçün aparılır. Bu qiymətləndirmə 6 həftədən gec olmayaraq müəllim tərəfindən həyata keçirilir. Kiçik summativ qiymətləndirmə prosesində şagirdlərin müvafiq standartlara nail olma səviyyəsi aşkara çıxarılmaqla müşahidə olunan problemlərin növbəti mərhələdə aradan qaldırmaq üçün fəaliyyət istiqamətləri müəyyənləşdirilir. Əgər sinifdə şagirdlərin çox hissəsi standartlara nail olmamışlarsa, müəllim öz fəaliyyətində (üsul və vasitələrin, resursların seçimində, şagirdlərə münasibətində, valideynlərlə əməkdaşlığında və s.) ciddi dəyişikliklər etməli və növbəti mərhələdə həmin standartlar üzrə işin təşkilinə xüsusi diqqət yetirməlidir;
2. Böyük summativ qiymətləndirmə dərs ilinin birinci yarısının və ilin sonunda məzmun standartlarının tələbi baxımından şagirdin nailiyyət səviyyəsini müəyyənləşdirmək məqsədi daşıyır və məktəb rəhbərliyi tərəfindən aparılır. Bu qiymətləndirmə ayrı-ayrı siniflərdə təlimin keyfiyyətinə nəzarəti və müvafiq dəstəyin rəhbərlik səviyyəsində təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir.

Summativ qiymətləndirmənin nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Yekun summativ qiymətləndirmə buraxılış siniflərində yekun attestasiya şəklində aparılır.

Summativ qiymətləndirmənin aparılması Qiymətləndirmə Konsepsiyasında aşağıdakı kimi əsaslandırılır:

4.1. Summativ qiymətləndirmə kiçik və böyük olmaqla iki formada aparılır;

4.2. Summativ qiymətləndirmə rəsmi qiymətləndirmədir və nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur;

4.3. Kiçik summativ qiymətləndirmə vasitələri fənni tədris edən müəllim, böyük summativ qiymətləndirmə vasitələri isə ümumi təhsil müəssisəsi rəhbərliyinin təşkil etdiyi komissiya tərəfindən hazırlanır;

4.4. Kiçik summativ qiymətləndirmə hər tədris vahidinin sonunda, altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir;

4.5. Böyük summativ qiymətləndirmə yarımillərin sonunda təhsil müəssisəsinin rəhbərliyi tərəfindən yaradılan müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır;

4.6. Şagirdlərin kiçik və böyük summativ qiymətləndirmələrinin nəticələri illik qiymətlərin hesablanmasında nəzərə alınır;

4.7. Kiçik və böyük summativ qiymətləndirmələrin keçirilmə vaxtı illik

planlaşdırmada nəzərdə tutulur;

4.8. Kiçik və böyük summativ qiymətləndirmə vasitələri qiymətləndirmə standartlarının dörd mürəkkəblik səviyyəsinə uyğun olaraq 1-4-cü səviyyələrdə (20%-i 1-ci, 30%-i 2-ci, 30%-i 3-cü və 20%-i 4-cü səviyyəyə aid olmaqla) hazırlanır;

4.9. Kiçik summativ qiymətləndirmənin keçirildiyi gün kiçik summativ qiymətləndirmədə iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısındakı xana diaqonalla 2 yerə ayrılır və onun surətində "q" (qaib) yazılır, məxrəci isə boş saxlanılır. Müəllim həmin şagirdlə növbəti kiçik summativ qiymətləndirmənin keçiriləcəyi tarixədək kiçik summativ qiymətləndirmə aparır və onun nəticəsi məxrəcdə qeyd edilir;

4.10. 1-ci yarımildə böyük summativ qiymətləndirmədə üzürlü səbəbdən iştirak etməyən şagird dərsə qayıtdıqdan sonrakı bir ay ərzində onun böyük summativ qiymətləndirmədə iştirakı təmin edilir. 1-ci yarımildə böyük summativ qiymətləndirmədə üzürsüz səbəbdən iştirak etməyən və 2-ci yarımilin ilk bir ayı ərzində iştirakı təmin olunmayan şagirdin böyük summativ qiymətləndirmə üzrə qiyməti "0" qəbul olunur;

4.11. Şagird 2-ci yarımildə üzürlü səbəbdən böyük summativ qiymətləndirmədə iştirak etmədikdə ümumtəhsil müəssisəsinin pedaqoji şurasının qərarı ilə həmin şagirdin 2-ci yarımil üzrə qiyməti onun bu yarımildə iştirak etdiyi kiçik summativ qiymətləndirmələrin nəticələrinin ədədi ortası kimi müəyyənləşdirilir. Üzürsüz səbəbdən 2-ci böyük summativ qiymətləndirmədə iştirak etməyən şagirdin böyük summativ qiymətləndirmə üzrə qiyməti "0" qəbul edilir;

4.12. Summativ qiymətləndirmədə iştirak etməyən şagirdlər üçün yeni, lakin sinif üçün istifadə olunan tapşırıqlarla eyni səviyyəli qiymətləndirmə vasitələri hazırlanır;

4.13. Şagirdin yarımillik qiyməti yarımil ərzində keçirilən kiçik summativ qiymətləndirmələrin yekun nəticələrinin 40%-i ilə, yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmənin nəticəsinin 60%-nin cəmi əsasında aşağıdakı düsturla çıxarılır:

$$\mathbf{Y = \frac{ksq_1 + ksq_2 + \cdots + ksq_n}{n} \cdot BSQ \cdot \frac{60}{100}}$$

Burada,

Y- şagirdin 1-ci və ya 2-ci yarımil üzrə qiymətini;

$ksq_1$, $ksq_2$, ... $ksq_n$ - kiçik summativ qiymətləndirmələrin nəticələrini;

BSQ - yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmənin nəticəsini bildirir.

4.14. Şagirdin yarımillik qiyməti çıxarılarkən yuvarlaqlaşdırma qaydası tətbiq edilir;

4.15. Şagirdin illik qiyməti aşağıdakı cədvəl 3.8-ə uyğun hesablanılır:

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 3 | 2 | 2 |
| 3 | 3 | 3 |
| 3 | 4 | 4 |
| 3 | 5 | 4 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 2 | 2 | 2 |
| 2 | 3 | 3 |
| 2 | 4 | 3 |
| 2 | 5 | 4 |

**Cədvəl 3.8. İllik qiymətin hesablanması**
**(burada: Y1 - 1-ci yarımil üzrə qiyməti, Y2 - 2-ci yarımil üzrə qiyməti göstərir)**

4.16. Şagirdin qiyməti düzgün cavabların maksimum bala nisbəti ilə faiz göstəricisinə uyğun müəyyənləşdirilir (Cədvəl 3.9):

| № | Şagirdin yerinə yetirdiyi tapşırıqların faizlə miqdarı | Şagirdin qiyməti |
|---|---|---|
| 1. | [0% - 40%] | 2 (qeyri-kafi) |
| 2. | (40% - 60%] | 3 (kafi) |
| 3. | (60% - 80%] | 4 (yaxşı) |
| 4. | (80% - 100%] | 5 (əla) |

**Cədvəl 3.9. Şagirdin tapşırıqlara uyğun qiymətləndirmənin hesablanması**

### 3.4.2. Summativ qiymətləndirmənin üsul və vasitələri

Summativ qiymətləndirmə üsulları daha çevik və diferensiallaşdırılmış olmalıdır. Onlar imkan daxilində qiymətləndirmə praktikasında mövcud olan yoxlamalar və ya testlərlə məhdudlaşmamalıdır. Fənnin xüsusiyyətindən asılı olaraq yaradıcı nəzəri və ya praktiki kompleks tapşırıqlar, məsələn, layihələr, referatlar, inşalar, tədqiqatlar və s. istifadə olunmalıdır.

Summativ qiymətləndirmənin üsul və vasitələrinə rəğbətləndirmə, rubriklər, təcrübə, portfolio, müşahidə, yaradıcı tapşırıqlar, yoxlama yazı işləri, inşa, test, müsahibə, layihə, şifahi sorğu, yarış və s. aiddir.

Summativ qiymətləndirmənin üsul, vasitə və fəaliyyət növləri cədvəl 3.10-da ümumiləşdirilir:

| Üsullar | Vasitələr | Fəaliyyət növləri |
|---|---|---|
| Yoxlama yazı işləri | Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi | Tapşırıqların yerinə yetirilməsi |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli | Layihənin meyarlar əsasında qiymətləndirilməsi |

| | | |
|---|---|---|
| Şifahi sorğu | Şifahi sorğu üzrə qeydiyyət vərəqi | Mövzunun şərhi |
| Test | Test tapşırıqları | Test suallarının cavablandırılması |
| Tapşırıqvermə | Tapşırıq, çalışma və laboratoriya işləri | Praktik tapşırıqların yerinə yetirilməsi |
| Yaradıcılıq və əl işləri | Fənlərə müvafiq olaraq rəsmlər hazırlanan məmulatlar və digər əl işləri | Təsviretmə, yapma, şeirin qoşulması, essenin yazılması, məsələ qurmaq |

**Cədvəl 3.10. Summativ qiymətləndirmənin üsul və vasitələri**

Cədvəl 3.10-da summativ qiymətləndirmədə istifadə olunan üsul, vasitə və fəaliyyət növləri qarşılaşdırılır. Müəllimlərə summativ qiymətləndirmə aparmaq üçün cədvəldə verilənləri əsas götürmələri tövsiyə edilir.

Yekun (summativ) qiymətləndirmə aşağıdakı suallara cavab verir:

- Şagird materialı bilir və başa düşürmü?
- Bildiklərini tətbiq edə bilirmi?
- Daha irəliyə getmək üçün lazımi səviyyəyə çatmışdırmı?

Yekun (summativ) qiymətləndirmə materialların mənimsənilməsi istiqamətində şagirdin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə növü mövzunun, bəhs və bölmənin, yaxud tədris ilinin sonunda eyni qaydada həyata keçirilir. Yekun (summativ) qiymətləndirmənin ən mühüm cəhəti şagirdlərin mənimsədiklərini tətbiqetmə qabiliyyətinə nə dərəcədə malik olduqlarını aşkara çıxarmaqdır.

BSQ-nin nəticələrinə görə ən çoxu 3 fəndən qeyri-kafi qiymət alan II-VIII sinif şagirdləri mövcud qaydalara əsasən yay tapşırığı alır. Bu zaman ən azı bir fəndən qeyri-kafi qiymət alan təkrar sinifdə qalır.

KSQ üçün materialların hazırlanmasına ciddi yanaşılmalıdır. KSQ vasitələri (test və yaxud digər nəzəri suallar) fənni tədris edən müəllim tərəfindən hazırlanır.

BSQ vasitələri isə (test və yaxud digər nəzəri suallar) məktəb rəhbərliyinin təşkil etdiyi xüsusi komissiya tərəfindən hazırlanır. Bu materillardan dərs ili ərzində bir dəfə istifadə olunur. Növbəti dərs ilində istifadə etmək məqsədi ilə məktəb test bankına daxil edilir.

Yarımillik qiymət KSQ-nin 40%-i ilə BSQ-nin 60% -nin cəminə bərabərdir. KSQ-nin dəqiq hesablanması lazım gəlir. Yarımil ərzində aparılmış KSQ-in ədədi ortası KSQ = $KSQ_1+KSQ_2+.....KSQ_n=n$ olarsa, onda yarımillik qiymət necə tapılır?

$YQ = KSQ_1 + KSQ_2 +.....KSQ_n \times 40/100 + BSQ \times 60/100$ formulu əsasında illik qiymət aşağıdakı qaydada tapılır: İllik qiymət = $(Y_1+Y_2):2$

Məsələn, şagird 1-ci yarımil ərzində aparılmış üç KSQ-də I KSQ - 3; II KSQ – 3; III KSQ – 4 qiymət almışdır.

Fərz edək ki, həmin şagird BSQ-də “3” almışdır. Yəni BSQ – “3”, onda $Y_1 = 3+3+4 \times$

40/100 + 3 x 60/100 = 3,1 olar. Nəticə yuvarlaqlaşdırma vasitəsi ilə həyata keçirilir, "3" götürülür.

2-ci yarımildə fərz edilir ki, şagirdin qiymətləri: I KSQ – "2", II KSQ – "3", III KSQ – "3", BSQ – "3" olmuşdur.

Analoji olaraq düsturu tətbiq etsək, $Y_2$ = 2,8 alarıq. $Y_2$ = 2,8 – "3" qəbul edilir. İllik qiymət: $Y_1$= 3,1 – "3" qəbul edilir; $Y_2$ = 2,8 – "3" qəbul edilir. İllik qiymət onluq kəsr şəklində olduqda yuvarlaqlaşdırıb tam ədəd almaq lazımdır.

Nəticələr haqqında KSQ və BSQ-nin nəticələri, həmçinin yarımil və illik qiymətlər haqqında valideynə məlumat verilir. BSQ-nin və YQ-nin nəticələri və şagird haqqında məktəb psixoloqunun qeydləri şagirdin şəxsi işində öz əksini tapır.

Summativ qiymətləndirmə nəticələri aşağıdakı kimi hesablanır:

- Summativ qiymətləndirmə tapşırıqları asan, orta və çətin səviyyəli olmaqla hazırlanır və qiymətlər düzgün cavabların sayına uyğun müəyyənləşdirilir;
- Summativ qiymətləndirmənin nəticələri 5 ballıq qiymət şkalası üzrə ("1", "2", "3", "4", "5") rəqəmlə ifadə olunur və qiymətlər jurnala yazılır;
- Summativ qiymətləndirmədə sualların ümumi sayının 10%-nə qədər düzgün cavab verən "1", 10% daxil olmaqla 20%-nə qədər düzgün cavab verən "2", 20% daxil olmaqla 50%-nə qədər düzgün cavab verən "3", 50% daxil olmaqla 80%-nə qədər düzgün cavab verən "4", 80% daxil olmaqla 100%-nə qədər düzgün cavab verən şagird "5" qiymətlə qiymətləndirilir.

Özlərindən asılı olmayan səbəblərdən xarici dil, təsviri incəsənət, musiqi və nəğmə, informatika fənlərindən, sağlamlığının vəziyyətinə görə əmək hazırlığı, fiziki tərbiyə fənlərindən şagirdlərin biliyinin qiymətləndirilməməsi onların yuxarı sinfə keçirilməsinə və ya müvafiq təhsil pilləsini bitirməsinə təsir etmir.

Şagirdlərin yuxarı sinfə keçirilib-keçirilməməsi, imtahanlara buraxılıb-buraxılmaması, yay tapşırığı alması, payız imtahanlarına və təkrar sinifdə saxlanması məsələsi pedaqoji şurada müzakirə olunaraq müvafiq qərar çıxarılır.

## Tələbələr üçün fəaliyyətlər

1. Summativ qiymətləndirmənin mahiyyətini izah edin.
2. Summativ qiymətləndirmə qaydalarını ümumiləşdirin.
3. Yekun summativ qiymətləndirmə qaydalarını modelləşdirin.
4. Kiçik summativ qiymətləndirmənin tətbiqi qaydalarını böyük summativ qiymətləndirmənin tətbiqi qaydaları ilə müqayisə edin.
5. Yarımillik qiymətin çıxarılması qaydalarını praktik olaraq həyata keçirin.
6. Summativ qiymətləndirməyə verilən tələbləri göstərin.
7. Summativ qiymətləndirmənin vasitələrini zəncirin halqalarında yazın:



8. Summativ qiymətləndirmə vasitələrindən istifadə qaydalarını izah edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Summativ qiymətləndirməni forma, üsul və vasitələrinə uyğun tətbiq edir".**

1. Summativ qiymətləndirmədə məqsəd nədir?

2. Summativ qiymətləndirmənin üsul, forma və vasitələrini cədvlədə ümumiləşdirin:

| Summativ qiymətləndirmə | | |
|---|---|---|
| Üsullar | Vasitələr | Formalar |
| | | |

3. Summativ qiymətləndirmənin növlərini və nəticələrini kəpənəyin qanadlarında göstərin:



4. Kiçik, böyük və yekun summativ qiymətləndirməni fərqləndirin:

| Summativ qiymətləndirmə | | |
|---|---|---|
| Kiçik | Böyük | Yekun |
| | | |

5. Şagirdin birinci və ikinci yarımil üzrə qiyməti aşağıdakı kimi olmuşdur. Onun illik qiymətini hesablayın:

| $Y_1$ | $Y_2$ | İllik |
|---|---|---|
| 3 | 4 | |
| 3 | 3 | |
| 4 | 3 | |
| 4 | 5 | |

| $Y_1$ | $Y_2$ | İllik |
|---|---|---|
| 3 | 2 | |
| 4 | 4 | |
| 3 | 5 | |
| 2 | 4 | |

6. Böyük summativ qiymətləndirmənin aparılması qaydalarını qeyd edin.
7. Summativ qiymətləndirmənin nəticələrinin hesablama qaydalarını modelləşdirin.
8. İbtidai sinif şagirdlərinin sinifdən-sinfə keçilməsi qaydaları necədir?
9. Məktəbdaxili qiymətləndirmənin növlərinin əsas xüsusiyyətlərini cədvəldə müqayisə edin:

| Məktəbdaxili qiymətləndirmə | | | | | |
|---|---|---|---|---|---|
| Növləri / Xüsusiyyətləri | Diaqnostik | Formativ | Summativ | | |
| | | | KSQ | BSQ | Yekun |
| Nə zaman aparılır | | | | | |
| Məqsədi | | | | | |
| Vasitələri | | | | | |
| Üsulları | | | | | |
| Fəaliyyət növləri | | | | | |

## 3.5. Qiymətləndirmə nəticələrini müxtəlif metodlarla təhlil edir

### 3.5.1. Tədrisdə qiymətləndirmə nəticələrinin səviyyələr üzrə təhlili

Tədris prosesində qiymətləndirmə nəticələrinin təhlili böyük əhəmyiyətə malikdir. Hər bir müəllim müxtəlif səviyyələr və məqsədlər üzrə qiymətləndirmə nəticələrini təhlil etməyi və işdə olan nöqsanları araşdırmaq bacarıqlarına malik olmalıdır. Qiymətləndirmə nəticələri ölkə, rayon, şəhər, bölgə, məktəb, sinif səviyyəsində təhlil edilir. Bu işdə bir sıra səmərəli metodlar tətbiq olunur. Belə ki, qiymətləndirmə nəticələri müqayisəetmə, ümumiləşdirmə, nəticə çıxarma, eksperimentlərin təşkili ilə təhlil edilir. Təhlildə sinfin, paralel siniflərin, ümumilikdə ibtidai siniflərin, məktəbin nəticələri əsas götürülür. Şagirdlərin mövzunu, materialı mənimsəməsi və biliklərin tətbiqi baxımından maksimum 100 faiz üzrə təhlili aparılır.

Tədrisdə müxtəlif forma və növlər üzrə şagirdlərin bilik və bacarıqları, onların fəaliyyətləri qiymətləndirilir. Təkcə onları qiymətləndirməklə müəllimlərin fəaliyyətinin səviyyəsi, əldə etdikləri uğurlar haqqında ümumi nəticəyə gəlmək mümkün olmur. Bunun üçün qiymətləndirmə nəticələrinin ümumiləşdirilməsi, təhlil edilməsi ilə tədrisdə irəliləyişin və ya gerilənmənin olduğu təsdiq edilir.

Diaqnostik qiymətləndirmə fərdi, qrup və ya kollektivlə aparılır. Sinfin ümumi səviyyəsi, yaxud ayrı-ayrı fərdlərin bilik səviyyəsi araşdırılır. Qiymətləndirmənin nəticəsi müəllimin dərsi plandaşdırmasına əsas verir. O, dərsin cari planını hazırlayır, şagirdlərin bilik və bacarıqlarını nəzərə alır, cari plan əsasında dərsi təşkil edir, müxtəlif vasitələr əsasında qiymətləndirmə aparır. Alt-standartdan çıxarılan meyarlar üzrə səviyyələr müəyyən edilir, şagirdlərin bilik, bacarıqları qiymətləndirilir. Sonra onlar təhlil edilir, müvəffəqiyyət və keyfiyyət faizi hesablanır. Şagirdlərin hamısı tapşırığı yerinə yetirmişsə, deməli, müvəffəqiyyət faizi yüz olmuşdur. Tapşırıqları həll edə bilməyənlərin sayı hesablanır. Onların sinfin neçə faizini təşkil etdiyi müəyyən edilir. Müəllim qiymətləndirmədə bilik nümayiş etdirə bilməyən şagirdlərlə fərdi işlərin qrafikini hazırlayır, onların səviyyəsinin yüksəldilməsinə dair fəaliyyətə başlayır. Tədris vahidlərinin tədrisinin sonunda müəllim kiçik summativ qiymətləndirmələr aparır. Hər qiymətləndirmədən sonra onun təhlilini aparır. Summativ qiymətləndirmədə şagirdlərin fəaliyyəti "1", "2", "3", "4", "5" bal sistemi ilə qiymətləndirildiyindən və jurnala yazıldığından onun nəticələrinin təhlili bir qədər asandır. Belə ki, sinif üzrə müvəffəqiyyət faizi "3", "4", "5" bal alanların sayı, keyfiyyət faizi isə "4" və "5" bal alanların sayı götürülür. Şagirdlərdən "1" və "2" qiymət alanlar olmadıqda sinfin müvəffəqiyyət faizi 100 götürülür. Keyfiyyət faizini hesablamaq üçün şagirdlərdən "3" qiymət alanların faizi hesablanır və 100 faizdən çıxılır. Keyfiyyət faizi müəyyən edildikdən sonra müəllim "3" qiymət alanlarla əlavə məşğələ, məsləhətlər aparır, onların da "4" və "5" qiymət almaq kimi nəticələrə nail olmasına cəhd göstərir. Məsələn, 3-cü sinifdə 23 şagird təhsil alır. Kiçik summativ qiymətləndirmədə şagirdlərdən "1" və "2" alan olmamışdır. Deməli, müvəffəqiyyət faizi 100 götürülür. Şagirdlərdən 6 nəfəri "3" qiymət almışdır. Keyfiyyət faizi aşağıdakı kimi hesablanır:

100 : 23 = 4,3

4,3 · 6 = 25,8

100 - 25,8 = 74,2

Deməli, sinfin müvəffəqiyyət faizi 100, keyfiyyət faizi 74,2-dir. Əgər sinfin şagirdlərindən 3 nəfərin biliyi "1" və ya "2" qiymətləndirilmişsə, yəni sualları, tapşırıqları həll etməmişsə, onda sinfin müvəffəqiyyət faizi 87,1 olacaqdır.

Siniflər üzrə kiçik summativ qiymətləndirmənin nəticələri əvvəldə parallel siniflər, sonra bütün siniflər üzrə hesablanır, təhlil edilir. Siniflər üzrə summativlərin nəticələri təhlil edilir. Geriləmələrin səbəbləri aydınlaşdırılır və onun qarşısının alınması tədbirləri görülür. Bütün siniflərin qiymətləndirmə nəticələrinin təhlili məktəb səviyyəsini müəyyən edir. Siniflərin qiymətləndirmə nəticələrinin təhlili ilə sinif səviyyəsi müəyyən olunur. Təhlillər təkcə kiçik summativlər üzrə deyil, böyük summativlər, buraxılış imtahanları, sinifdən-sinfə keçmə imtahanları üzrə də aparılır. Məktəb üzrə səviyyələr müəyyən edildikdən sonra rayonlar, bölgələr üzrə təhlillər aparılır, sonda ölkə səviyyəsində təhlil həyata keçirilir və ölkədə təhsilin səviyyəsi müəyyən olunur. Buraxılan nöqsanlar, çatışmazlıqlar aşkar edilir, onların aradan qaldırılması tədbirləri həyata keçirilir.

Qiymətləndirmə nəticələrinin sinif səviyyəsi üzrə təhlili aşağıdakı sxemdə (Sxem 3.1) ümumiləşdirilir:




**Sxem 3.1. Qiymətləndirmə nəticələrinin təhlili sxemi**

Dərslərdə şagird fəaliyyətinin qiymətləndirilməsində təkcə informasiyanı, nəzəri biliklərin mənimsənilməsini deyil, həm də cəmiyyətin həyatında fəal vətəndaş mövqeyi

nümayiş etdirməsi, lazımi bilik və bacarıqlara yiyələnməsi xüsusilə nəzərə alınır. Bu baxımdan dərslərdə aşağıdakı keyfiyyətlər qiymətləndirilir:

- Bilik – fənnin məzmununun, əsas fakt və terminlərin, səbəb-nəticə əlaqələrinin, nəticə və ümumiləşdirmələrin mənimsənilməsi;
- Bacarıqlar - materialları araşdırması, kommunikasiya (informasiyanın dərki və ötürülməsi), qərarların qəbul olunmasında iştirak etməsi, fərdi və kollektiv fəaliyyət göstərməsi və s.;
- Dəyərlər - ədalət, bərabərlik, azadlıq, ləyaqət, əxlaq anlayışlarının qəbul edilməsi, tədris fəaliyyətlərində həmin məsələlərin həll olunması.

Qiymətləndirmədə meyarlar işlənib hazırlanır. Şagirdlərin fərdi fəaliyyətini, həm də bütövlükdə kiçik qrupların işini obyektiv qiymətləndirməyə imkan verən meyarlar tərtib olunmalıdır. Qiymətləndirmədə "qarşılıqlı əlaqə", şagirdlərlə müəllimin bir-birlərini daha yaxşı başa düşməsi imkanı yaradılmalıdır. Ona görə də müəllim tərtib etdiyi meyarlarla şagirdləri tanış edir. Eyni zamanda müəllim qiymətləndirmə meyarlarının tərtibinə şagirdləri də cəlb edir. Dürüst tərtib edilmiş meyarlar şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsinə kömək göstərir.

Məktəblilərin özünüqiymətləndirmə metodundan istifadə edilməsi faydalıdır. Bu, sorğu anketləri və vərəqlərinin doldurulması formasında tətbiq olunur. Şagirdlərin öz fəaliyyətlərini qiymətləndirməsi vacib məsələlərdəndir. Bu, məktəbliləri davranışlarına məsuliyyətlə yanaşmalarına sövq edir, onlarda obyektivlik hissi tərbiyə olunur, fikirlərini düzgün və qarşılıqlı anlaşma prinsipləri üzərində qurmağı öyrədir. Faydalıdır, ona görə ki, məktəblinin özünü necə gördüyü aşkar edilir. Lakin özünüqiymətləndirmədə qeyri-səmimiliyə, özünüaldatmaya yol verilməməlidir. Özünə verdiyi qiymətlə kənardan verilən qiymətlər arasında ciddi fərq olmaması onların obyektivliyini sübut edir. Yekun qiymət şagirdin özünə verdiyi qiymətlə, müəllimin verdiyi qiymətin ortalaması ilə çıxarılması müsbət nəticə verir. Bəzi dərslər müəllimin yekun qiymətləndirməsini nəzərdə tutmur və orada qiymət vermək məsləhət görülmür. Belə hallarda müəllimin refleksiya vasitəsilə şagirdlərin öz-özünə qiymətvermə metodundan istifadə etməsi faydalıdır. Bu zaman yekunlaşdırma müzakirə və söhbətlər formasında aparılır. Yekunlaşdırmanın ən sadə üsulu - hər bir şagirdin mövcud dərs üzrə öz rəyini söylədiyi "dairəvi" söhbətdir. Belə ki, şagirdlər və müəllimlər dairəvi əyləşir və suallara cavab verirlər. Suallar aşağıdakı kimi hazırlanır:

- Yoldaşlarınızın çıxışlarında sizin ən çox xoşunuza gələn nə oldu?
- Bunlardan gələcəkdə necə istifadə etmək istərdiniz?
- Onları siz necə edərdiniz?

Bu tip sualların cavablandırılması təhsilalanın nələrdən xoşu gəlmədiyini müəyyən etməyə imkan verir.

Dərslərdə qiymətləndirmə üçün müəllimin hazırladığı işçi test vərəqlərindən istifadə edilir. Testlər iki növdə olur:

- Müəyyən, konkret cavabı olan testlər;
- Problemlərə münasibətin aşkar edilməsinə, onların məntiqə uyğun

qiymətləndirilməsinə hesablanmış testlər. Bu testlərə müəyyən mənada, şagirdlərin bəzi şəxsi xüsusiyyətlərinin öyrənilməsi vasitəsi kimi baxılır və onlar bundan özünü dərketmədə istifadə edirlər.

**Təqdim edilmiş informasiyanın qiymətləndirilməsi**

İnformasiyanın toplanması və təhlili kimi qabiliyyətlərin qiymətləndirilməsi üçün 5 ballıq sistemindən istifadə etmək məsləhət görülür:

A. İnformasiyanın təqdim edilməsi:

1. Həmişə dəqiqdir – "5";
2. Əsasən dəqiqdir – "4";
3. Kifayət qədər dəqiq deyil – "3";
4. Qeyri-dəqiqdir – "2";
5. İnformasiya yoxdur – "1".

B. İnformasiyanın təhlili aşağıdakı meyarlar üzrə qiymətləndirilir:

1. Empirik səviyyə: şagird hadisələri təsvir edir, lakin onların mahiyyətini başa düşmür;
2. Nəzəri səviyyə: daha yüksək səviyyədir, belə ki, bu halda şagird nəinki hadisəni təsvir edir, həm də hadisələrin mahiyyətini izah edir və nəticə çıxarmağı bacarır.

**Dəyərlərin qiymətləndirilməsi**

Müəllim üçün ən çətini dəyərlərin qiymətləndirilməsidir, çünki insan hüquqları dəyərlərinin heç də hamısı bir dərs daxilində bütün şagirdlər tərəfindən mənimsənilə bilməz. Ola bilər, dəyərlər bu və ya digər şagirdin şəxsi baxışları sisteminə uyğun gəlməsin. Bunların dərk edilməsi və şagirdlərin şəxsi dəyərlərinə çevrilməsi üçün müəyyən vaxt lazımdır. Buna görə müəllim qiymətləndirmə zamanı şagirdlərin mövcud problemə yanaşmasına və ya "mənəvi baxışların genişliyi"nə üstünlük verməli və qiymətləndirməlidir.

1. "Mənəvi baxışların genişliyi"nin qiymətləndirilməsi meyarlarında şagird:
   - Yeni ideyaları və yeni fəaliyyət növlərini mənimsəyir;
   - İşdə yeni metodlardan istifadə etməyə hazırdır;
   - Müzakirə və mübahisə zamanı faktları duyğulardan yüksək tutmağı bacarır;
   - Yeni faktlarla əlaqədar öz fikrini müəyyən edir;
   - Hər kəs barəsində ədalətli fikir yürüdür;
   - Məsələnin bütün cəhətlərini nəzərdən keçirir;
   - Stereotip və qərəzli rəylərə meyil göstərmir.
2. Dəyərlərin inkişafında özünüqiymətləndirmə dərsin sonunda müəllim tərəfindən xüsusi cədvəllərlə aparılır.

Qiymətləndirmə standartları təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir, şagird nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi üçün istifadə olunan qiymətləndirmə üsulları və vasitələrinin keyfiyyətini

təsvir edir, qiymətləndirmə prosesinin qanuniliyinə zəmanət verir.

Qiymətləndirmə standartları məzmun standartlarının hansı səviyyədə reallaşdığını yoxlamaqla, baş vermiş dəyişikliklərin dərəcəsini müəyyən edir. Qiymətləndirmə standartlarının təyin edilməsində imtahana əsaslanan metod vasitəsilə bütün maraqlı tərəflərin razılığı əsasında müvafiq siniflər üzrə milli səviyyədə yekun qiymətləndirmə (imtahan) keçirilir, nəticələr təhlil olunmaqla, standartların reallaşması təhlil edilir.

Qiymətləndirmə nəticələrinin təhlili zamanı bir sıra problem və nöqsanlar aşkar edilir. Həmin nöqsanların səbəbi müəllimlərin tədris fəaliyyəti, metodik hazırlığı və səriştəlilik səviyyəsinin yüksək olmamasıdır. Digər səbəblərə isə aşağıdakıları göstərmək olar:

- Mövcud qiymətləndirmə mexanizmi təlim prosesinin ehtiyaclarına kifayətedici səviyyədə yönəlmir, onun tərkib hissəsinə çevrilmir və keyfiyyətinin yüksəldilməsinə xidmət etmir;
- Bu mexanizm subyektiv xarakter daşıyır, şagirdi, bir qayda olaraq, əzbərləməyə və əksər şagirdləri qiymət almaq xatirinə oxumağa təhrik edir;
- Təlim prosesində yalnız formal biliklər qiymətləndirilir, çox hallarda məqsəd qiymət yazmaqla məhdudlaşır, şagirdlərə özünüqiymətləndirmə imkanı verilmir;
- Tədris zamanı müəllim qiymətləndirmə vasitəsilə şagirdlərlə səmərəli əks-əlaqə yarada bilmir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsinin nəticələri müxtəlif səviyyələrdə aşağıdakı beş mühüm məsələ üzrə təhlil edilir:

1. Standart baxımından əldə edilən nəticələrin səviyyəsi;
2. Bir qrupun nəticəsinin oxşar şəraitli digər qrupun nəticəsi ilə müqayisəsi;
3. Zaman baxımından bir qrupun nailiyyət keyfiyyətində baş vermiş dəyişikliklər;
4. Zaman baxımından bir qrupun nailiyyət keyfiyyətində baş vermiş dəyişikliklərin digər qrupun nailiyyət keyfiyyətindəki dəyişikliklərlə müqayisəsi;
5. Yeni qərarların qəbul edilməsində şagird nailiyyətlərinin nəzərə alınması.

## Tələbələr üçün fəaliyyətlər

1. Müasir qiymətləndirmənin üstünlüklərini təhlil edin.
2. Qiymətləndirmə nəticələrinin təhlilinin əhəmyiyətini ləçək modelində ümumiləşdirin.
3. Qiymətləndirmə nəticələrinin milli səviyyədə təhlilini cədvəl formasında verin.
4. Qiymətləndirmə nəticələrinin təhlilinin səviyyələri arasındakı əlaqələri müəyyən edin.
5. Dərslərdə şagirdlərin qiymətləndirilən keyfiyyətlərini ümumiləşdirin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Qiymətləndirmə nəticələrini müxtəlif metodlarla təhlil edir".**

1. Qiymətləndirmə nəticələrinin təhlil edilməsinin əhəmiyyətini izah edin.
2. Verilmiş işarələri təhlil edin:




3. Üçüncü sinfin "Riyaziyyat" fənni üzrə diaqnsotik qiymətləndirmə nəticələrini təhlil edin.
4. İkinci sinfin "Ana dili" fənni üzrə formativ qiymətləndirmə nəticələrinin təhlilini verin.
5. Birinci sinfin "Həyat bilgisi" fənni üzrə summativ qiymətləndirmə nəticələrinin təhlilini aparın.
6. Qiymətləndirmənin nəticələrinin milli səviyyədə təhlilinə nələr daxildir?
7. Qiymətləndirmənin nəticələrinin təhlili səviyyələri üzrə məqsədləri cədvəldə ümumiləşdirin:

| **Qiymətləndirmənin nəticələrinin təhlili** | |
|---|---|
| Səviyyələri | Məqsədləri |
| | |
| | |
| | |
| | |
| | |

8. Dördüncü sinfin qiymətləndirmə nəticələrini sinif səviyyəsində təhlilini aparın.

# CAVABLAR

| Təlim nəticəsi 1 üzrə düzgün cavablar | |
|---|---|
| Qiymətləndirmə meyarı 1 | |
| Sual 11 | E |
| Qiymətləndirmə meyarı 6 | |
| Sual 1 | A |
| Sual 2 | B |
| Sual 3 | A |
| Sual 4 | C |
| Sual 5 | A |
| Tələbələr üçün fəaliyyətlər<br>Müəllimlər üçün anket | |

| | | | |
|---|---|---|---|
| Sual 1 | + | Sual 16 | + |
| Sual 2 | - | Sual 17 | - |
| Sual 3 | - | Sual 18 | + |
| Sual 4 | + | Sual 19 | - |
| Sual 5 | + | Sual 20 | - |
| Sual 6 | + | Sual 21 | - |
| Sual 7 | - | Sual 22 | - |
| Sual 8 | + | Sual 23 | - |
| Sual 9 | + | Sual 24 | - |
| Sual 10 | - | Sual 25 | - |
| Sual 11 | - | Sual 26 | - |
| Sual 12 | + | Sual 27 | - |
| Sual 13 | + | Sual 28 | - |
| Sual 14 | + | Sual 29 | - |
| Sual 15 | + | Sual 30 | - |

# ƏDƏBİYYAT SİYAHISI


1. Abdullayeva Ş., Utmelidze İ., Əliyeva A., Cahangirov V., Bəkirov Y. İnsan hüquqlarının tədrisi. Metodik vəsait. Bakı, Çaşıoğlu, 2003, 336 s.
2. Allahyarova S. Differensial yanaşma təlimdə geridə qalmanın aradan qaldırılması yolu kimi. “Təhsil, mədəniyyət, incəsənət” jurnalı. Bakı 2000, № 2, səh. 48-51.
3. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, 2002
4. Bəylərov E.B. “İstedadın psixoloji diaqnostikası”. Bakı, “Aspoliqraf”, 2008.
5. Bəylərov E.B. Uşaqlarda istedadın müəyyənləşdirilməsi və inkişaf etdirilməsi. Bakı: Təhsil, 2008
6. Əhmədov H. Pedaqogika. 2013, s. 239-243.
7. Əhmədov H., Zeynalova N. Pedaqogika, Bakı, 2016.
8. Hacıyeva H.M. və b. Həyat bilgisinin tədirsi metodikası. Bakı, 2014.
9. Hacıyeva H.M. və b. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı, 2014.
10. Hacıyeva H.M., Məhərrəmov Ə.M. Ətraf aləmlə tanışlıq. Ali məktəblər üçün dərslik. Bakı, ADPU-nun nəşri, 2003.
11. Hacıyeva H.M., Musayeva Z., Əhmədova Z., Hüseynova G., Verdiyeva G. Həyati Bacarıqlara Əsaslanan Təhsil. Orta ümumtəhsil məktəblərinin ibtidai sinif müəllimləri üçün tədris vəsaiti. Bakı. «Mütərcim» nəşriyyatı. 2006.
12. Həmzəyev M.Ə. Kiçik məktəbyaşlı uşaqların psixoloji xüsusiyyətləri. Bakı, 1969.
13. Həsənov A., Ağayeva Ə. Pedaqogika, Bakı, 2007.
14. Xəlilov V. Məktəbli mədəniyyəti. Bakı, 2002.
15. Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı _(2006-2010-cu illər).
16. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. Bakı, 2013., s. 143, 144.
17. İbtidai sinif müəllimlərinin stolüstü kitabı (metodik vəsait). Bakı, Pedaqogika, 2001 s.
18. İsmixanov M. Pedaqogikanın əsasları. Bakı, 2011.
19. Kazımov N. Ali məktəb pedaqogikası. Bakı, 1999.
20. Kazımov N.M., Həşimov Ə.Ş. Pedaqogika, Bakı, 1996
21. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası, Bakı, 2005.
22. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı, 2002, s.
23. Quliyev E.M. Kiçik məktəblilərdə idrak fəaliyyətinin inkişaf xüsusiyyətləri. – Bakı, 1995.

24. Mehdizadə M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı, 1982.
25. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı, Mütərcim, 2006.
26. Mehrabov A., Cavadov İ. Ümumtəhsil məktəblərində istedad problemi, onların aşkara çıxarılmasının imkan və yolları. ADPU-nun elmi əsərləri. Bakı, 2007, № 4, s.78-85.
27. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Bakı, Çaşıoğlu. 2002.
28. Psixologiya. Ali pedaqoji məktəblərin tələbələri üçün dərslik. Bakı, 2007.
29. Sadıqov F. Pedaqogika, Bakı, 2006.
30. Sadıqova M. İbtidai siniflərin oxu dərslərində müasir təlim texnologiyalarından istifadənin forma və üsulları. ARTPİ-nun elmi əsərləri. Bakı, № 4, s. 140-144.
31. Talıbov Y.R. və b. Pedaqogika. Bakı, 1993.
32. Təlim prosesində fənlərarası əlaqə. (Məqalələr məcmuəsi). Ryazan, 1967.
33. Ümumtəhsil məktəblərinin ibtidai sinifləri üçün dərsliklər, Bakı, 2019
34. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, 2008.
35. Zeynalova N., Bayramova A. Ümumi təhsilin kurikulumunun əsasları. Bakı, 2017.
36. Возрастная и педагогическая психология. Хрестоматия. – М., 2001.
37. Грейс Крайг. Психология развития – Питер, 2002
38. Кошмина И.Б. Межпредметные связи в начальной школе. 2003.
39. Люблинская А.А. Учителю о психологии младшего школьника. – М., 1977.
40. Матюкина М.В., и др. Психология младшего школьника. – М., 1976.
41. Немов Р.С. Психология. В 3-9 кн., кн.2. – М., 1998, с. 209-218.
42. Самарин И.А. Межпредметные связи. М., Просвещение, 1971.
43. http://открытыйурок.рф/статьи/591136/
44. http://bookitut.ru/Rolevye-igry-dlya-detej-2.html